# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# DOXSAN DOQQUZUNCU KİTAB

## DEKABR 2019 - YANVAR 2020

AZƏRNƏŞR
BAKI - 2020

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI – 2020

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2020, 388 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına səfərinə, Özbəkistan Respublikası Ali Məclisi Senatının, Türkiyə Böyük Millət Məclisinin, Qazaxıstan Respublikası Parlament Məclisinin sədrləri ilə görüşünə dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda oxucular dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki, 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı, həmçinin Rusiyanın «Rossiya-24» kanalına müsahibəsi ilə də tanış ola bilərlər. Bütün cildlərdə olduğu kimi, bu cild də geniş auditoriya tərəfindən rəğbətlə qarşılanacaqdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\dfrac{0801000000}{\text{М} - 651(07) - 2020}$ **ББК - 32**

© Azərnəşr, 2020

## ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ TANZİLA NARBAYEVA İLƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Özbəkistan Ali Məclisi Senatının Sədri xanım Tanzila Narbayevanı qəbul etmişdir.*

*Ali Məclis Senatının Sədri Tanzila Narbayeva Özbəkistan Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, Şavkat Mirziyoyev Azərbaycana səfəri zamanı burada gördüyü inkişaf proseslərindən Özbəkistana dərin təəssüratlarla qayıdıbdır.*

*Özbəkistan Ali Məclisi Senatının Sədri Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Özbəkistana səfərini səbirsizliklə gözlədiklərini bildirdi. Tanzila Narbayeva Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti ilə yaxından tanış olduqlarını söyləyərək, onun Azərbaycanda gedən inkişaf proseslərinə böyük töhfə verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə bu il Azərbaycanda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün əhəmiyyəti vurğulandı, bu tədbirdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin də iştirak etdiyi və Özbəkistanın Türk Şurasına tamhüquqlu üzv olması məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı TÜRKPA-nın Bakıda IX plenar iclasının uğurla keçəcəyinə, burada mühüm məsələlərin müzakirə ediləcəyinə və yaxşı nəticələrin əldə olunacağına əminlik bildirildi. Vurğulandı ki, bu tədbir ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrini bir daha təsdiq edəcəkdir.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MUSTAFA ŞƏNTOPUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Mustafa Şəntop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə bu yaxınlarda TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasiminin tarixi hadisə olduğu vurğulandı və bu, Türkiyə–Azərbaycan birliyinin növbəti nümayişi kimi dəyərləndirildi. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticari, enerji sahələrində uğurlu nəticələr verdiyi bildirildi, dövlət başçıları arasında mütəmadi görüşlərin bu əlaqələrin genişləndirilməsi işinə xüsusi töhfə verdiyi qeyd olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın rolu vurğulandı.*

*Görüşdə, həmçinin TÜRKPA-nın IX plenar iclasının əhəmiyyətinə toxunuldu, Azərbaycanın Türk Şurasına uğurla rəhbərlik etməsinin və təşkilata dünyada marağın getdikcə artmasının önəmi qeyd olundu, bu qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.*

## QAZAXISTAN RESPUBLİKASI PARLAMENT MƏCLİSİNİN SƏDRİ NURLAN NİQMATULİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nurlan Niqmatulin Qazaxıstanın birinci Prezidenti – elbası Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevə Türk Şurasının üzv ölkələri prezidentlərinin birgə qərarı ilə Türk Şurasının fəxri sədri adının verilməsinə görə qazax xalqı adından səmimi minnətdarlığını bildirdi. Qonaq Bakıda gedən böyük inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını söylədi.*

*Prezident İlham Əliyev Qazaxıstanın birinci Prezidenti–elbası Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıs-*

*tanın birinci Prezidenti–elbası Nursultan Nazarbayevə və Qazaxıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə Qazaxıstanın birinci Prezidenti–elbası Nursultan Nazarbayevlə Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasında şəxsi dostluğun xalqlarımız arasında münasibətlərin inkişafında böyük rol oynadığı vurğulandı, Prezident İlham Əliyevin ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi işinə verdiyi töhfələr xüsusi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycanla Qazaxıstan arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika və iqtisadi sahələrdə uğurla inkişaf etdiyi bildirildi, dövlət başçıları arasında görüşlərin bu münasibətlərin möhkəmləndirilməsi baxımından önəmi vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycanda yaxşı investisiya mühitinin olduğu, ölkəmizin investisiyalar üçün cəlbediciliyinin beynəlxalq qurumlar tərəfindən də təsdiq edildiyi bildirildi.*

*Söhbət zamanı parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunuldu, TÜRKPA-nın Azərbaycanda keçirilən IX plenar iclasında Qazaxıstanın da yüksək səviyyədə təmsil olunduğu və bu tədbirin münasibətlərimizin inkişafına töhfə verdiyi qeyd edildi.*

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNƏ

Sizi – ölkəmizin ədəbi ictimaiyyətinin nümayəndələrini Azərbaycan Yazıçılar Birliyinin 85 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Ötən əsrlərin söz sənətkarlarını ətrafında toplamış ədəbi məclislərin yeni tarixi şəraitdə varisi olan Yazıçılar Birliyi mədəni həyatımızda özünəməxsus yer tutur. Birlik totalitar sovet rejiminin ədəbi fəaliyyətə sərt direktivlərlə istiqamət verdiyi ideoloji yasaqlar dövründə yaransa da, ədəbi nəsillər arasında varisliyi təmin etmiş, ictimai fikrin milli özünüdərk zəminində formalaşdırılması, ana dilimizin saflığının qorunması və bədii sərvətlər xəzinəmizin zənginləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Birliyin xalqımızın azadlıq ruhunun canlandırılması, mübarizə əzminin gücləndirilməsi və istiqlal duyğusunun dirçəldilməsində, dövlət müstəqilliyimizin mənəvi əsaslarının möhkəmləndirilməsində xüsusi xidmətləri vardır.

Mütərəqqi və humanist ideyalardan qidalanmış klassik irsimizi nəcib ideya-fəlsəfi axtarışlar ədəbiyyatı və xalq həyatının bədii salnaməsi hesab edən ulu öndər Heydər Əliyev yazıçını «mədəniyyətin milli sərvətlərinin əsas mühafizəçisi» adlandırırdı. Azərbaycan ictimai-mədəni fikrinin inkişafına töhfələr vermiş və ədəbiyyatımızı

dünya ədəbi irsinin ayrılmaz tərkib hissələrindən biri olaraq tanıdıb sevdirmiş görkəmli söz ustalarımızın adları bizə son dərəcə əzizdir. Xalqımız şeiri, sənəti hər zaman yüksək qiymətləndirib və bu gün də əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək, müstəqillik ideallarımıza sadiq istedadlı qələm sahiblərinə ehtiram göstərir. Ümidvaram ki, yaradıcılıq aləminə qədəm qoyan gənc ədəbi qüvvələr də ədəbi-mədəni ənənələrimizin layiqli davamçıları olacaq, azərbaycançılıq məfkurəsi işığında milli təəssübkeşlik hissi ilə yazıb yaradacaqlar.

Qloballaşma dalğasının getdikcə daha geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir vaxtda təşkilatınızın üzərinə mühüm vəzifələr düşür. İnanıram ki, siz həmin vəzifələrin öhdəsindən lazımınca gələcək, günümüz üçün aktual mövzuları və cəmiyyəti düşündürən məsələləri diqqətdə saxlayacaq, dərin mənəviyyat və bədii-estetik zövq aşılayan əsərlərlə oxucuları bundan sonra da sevindirəcəksiniz.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2019-cu il*

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA PAMBIQÇILIQ MÖVSÜMÜNÜN YEKUNLARI VƏ 2020-ci İLDƏ GÖRÜLƏCƏK TƏDBİRLƏRLƏ BAĞLI MÜŞAVİRƏ

*19 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti yanında dekabrin 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirə keçirilmişdir.*

*Dövlət başçısı müşavirədə giriş nitqi söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Biz bu gün pambıqçılıq sahəsində görülmüş işlərə yekun vuracağıq. Pambıq yığımı, demək olar ki, başa çatıbdır. Bu il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edibdir. Bu doğrudan da çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu bir daha göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz. Biz demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik,

onu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq və bu vəzifələri icra etmişik.

Eyni zamanda, bu gün növbəti illərdə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparacağıq və bundan sonra da pambıqçılığın uğurla inkişaf etməsi üçün təklifləri dinləyəcəyik. Pambıqçılıq bizim üçün ənənəvi kənd təsərrüfatı sahəsidir, çünki qədim dövrlərdən Azərbaycan ərazisində kəndlilər pambıqçılıqla  məşğul olublar. Statistika isə 1913-cü ildən pambıqçılıqda baş verən inkişafı nəzərə alır. 1913-cü ildə Azərbaycanda 100 min hektarda pambıq əkilmişdi və hektardan məhsuldarlıq cəmi 6 sentner təşkil edirdi. Ondan sonrakı dövrlərdə pambığın istehsalı artmışdır. Ən sürətli artım isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun fəaliyyəti nəticəsində nəinki pambıqçılıq, kənd təsərrüfatının bütün başqa sahələri də uğurla inkişaf etmişdir. Əgər statistikaya nəzər salsaq görərik ki, onun dövründə baramaçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, tərəvəzçilik pik həddə çatmışdır. Beləliklə, kəndlərdə yaşayan insanlar öz maddi durumunu yaxşılaşdırmış, evlər tikmiş, maşınlar, məişət texnikası almışlar. Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969–82-ci illərdəki fəaliyyəti Azərbaycanı müttəfiq respublikalar arasında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə ucaltmışdır. Bundan daha önəmli məsələ isə ondan ibarətdir ki, Azərbaycanda yaşayan insanların rifah halı  xeyli dərəcədə yaxşılaşdırılmışdır.

Məlumat üçün deyə bilərəm ki, 1969-cu ildə Heydər Əliyev Birinci katib seçiləndə, Azərbaycanda 200 min hektarda pambıq əkilmişdir və 300 min tona yaxın məhsul götürülmüşdür, yəni məhsuldarlıq orta hesabla 15 sentner səviyyəsində idi. Ancaq keçən əsrin 80-ci illərinin əvvəllərində məhsuldarlıq artmışdır – 30 sentnerə yaxınlaşmışdır, hətta bir neçə ildə 30 sentnerdən də üstün idi və pambıq tədarükü sabit surətdə təqribən 800 min ton səviyyəsində olmuşdur. 1981-ci ildə isə bu rəqəm 1 milyon tona qalxmışdır.

Heydər Əliyev Moskvaya gedəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də, o cümlədən pambıqçılıqda vəziyyət tənəzzülə doğru getdi, üzümçülük, demək olar ki, tamamilə sıradan çıxarıldı. Deyə bilərəm ki, bu da həm sovet rəhbərliyinin, həm də ovaxtkı Azərbaycan rəhbərliyinin cinayəti nəticəsində baş verdi. Çünki üzümçülüyün Azərbaycanda böyük ənənələri var idi. Heydər Əliyevin dövründə istehsal 2 milyon tona qalxmışdı. Yəni Azərbaycan sovet məkanında ən çox üzüm istehsal edən respublika idi. Bizdən sonra gələn respublikalar heç 1 milyon ton üzüm istehsal edə bilmirdi. Bizdə isə istehsal 2 milyon ton idi. Təsəvvür etmək çətin deyil ki, bu həm respublikaya, həm də kəndlilərə nə qədər böyük xeyir gətirirdi. Üzümçülüyə çox böyük ziyan vurulmuşdu və o vaxt bizim üzüm bağlarımız dağıdılırdı. Yəni çox böyük xəyanətkar və cinayətkar siyasət aparılaraq, demək olar ki, Azərbaycanın kənd təsərrüfatı məhv edilirdi. Əfsuslar olsun ki, bunu edənlər o vaxt Azərbaycan rəhbərliyində olan şəxslər idi.

Dediyim kimi, Heydər Əliyev 1982-ci ildə Moskvaya gedəndən sonra pambıqçılıqda tənəzzül dövrü başlandı, istehsal yavaş-yavaş azalırdı. Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda pambıq istehsalı 500 min tona, 1993-cü ildə isə 280 min tona düşdü. Müstəqillik dövrünün ilk illəri çox ağır keçirdi, ölkə çox ağır vəziyyətdə idi. Ermənistan işğalı, vətəndaş müharibəsi, AXC–Müsavat cütlüyünün yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarında idi. Ölkədə total böhran – siyasi, hərbi, iqtisadi böhran hökm sürürdü, inflyasiyanın səviyyəsi 1000 faizdən çox idi, sənaye müəssisələri iflic vəziyyətdə, kənd təsərrüfatı dağılmış vəziyyətdə idi, ölkədə talançılıq, rüşvətxorluq, özbaşınalıq hökm sürürdü. AXC–Müsavat cütlüyünün başında olan xəyanətkar ünsürlər sanki düşmən kimi, Azərbaycanı dağıdır, parçalayır, məhv edirdilər. Sanki onlar hansısa cinayətkarın əmrini icra edirdilər. Bunun nəticəsində, əlbəttə ki, sənaye iflic oldu, kənd təsərrüfatı tamamilə dağıdıldı və ölkə idarəolunmaz vəziyyətə düşdü. Yalnız xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna gətirildi və bu gün biz bu inkişafın təzahürlərini həyatımızın bütün sahələrində görürük.

O vaxt ağır vəziyyətdən çıxmaq üçün iki əsas amil həyata keçirilməli idi. Onlardan biri xarici sərmayəni cəlb etmək idi və biz buna nail olduq. Bu il «Əsrin kontraktı»nın 25 illiyini qeyd edərkən bir daha bu kontraktın əhəmiyyəti və ulu öndərin bu sahədə gördüyü tarixi işlər haqqında mən öz fikirlərimi bölüşdüm və bildirdim ki, biz ölkəyə milyardlarla dollar həcmində

investisiyanın qoyulmasına nail olmuşuq. Digər çıxış yolu özəlləşdirmə ilə bağlı idi. O vaxt çox ciddi iqtisadi islahatlar aparılmağa başlandı, torpaq kəndlilərə, fermerlərə verildi. Bu, əlbəttə, düzgün addım idi. Ancaq o da həqiqətdir ki, sovet vaxtından qalan texnika, demək olar, sıradan çıxmışdı, aqrotexniki tədbirlərin görülməsi üçün müasir standartlara cavab verən təcrübə yox idi, gübrə, pestisidlər ilə bağlı problemlər özünü kifayət qədər kəskin büruzə verirdi. Yanacaq çatışmazlığı da böyük problem idi. Ona görə özəl qurumlar, kəndlilər və fermerlər pambığın istehsalını müasir səviyyədə təşkil etmək üçün böyük çətinliklər çəkirdilər. Kəndliləri bunda günahlandırmaq olmaz. Ancaq pambıqtəmizləmə zavodlarını özəlləşdirmiş, pambıqçılığı inkişaf etdirməyə söz vermiş özəl şirkətlərin fəaliyyəti, əlbəttə, qənaətbəxş hesab oluna bilməz. Daha dəqiq desəm, onların fəaliyyəti ən pis qiymətə layiqdir. Demək olar ki, onların yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanda pambıqçılıq məhvə doğru gedirdi, pambıq yetişdirən rayonlarda işsizlik geniş vüsət alırdı. Özəl qurumlar bu vəzifənin öhdəsindən gələ bilmədi, lazımi səviyyədə sərmayə qoymadı, pambıqtəmizləmə zavodlarını səmərəli işlədə bilmədi və deyə bilərəm ki, bu məsələyə bütövlükdə, çox biganə yanaşdılar. Beləliklə, pambıqçılıqda çox böyük tənəzzül yaşandı. Əslində biz bu gəlirli, bizim üçün ənənəvi olan əməktutumlu sahəni, demək olar ki, itirirdik. Bir rəqəmi deyə bilərəm, 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkildi və 35 min ton məhsul tədarük edildi. Baxın, pambığın tədarükü 1981-ci ildəki 1 milyon tondan 35 min tona düşdü.

Bilirsiniz, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının bütün təzahürləri Azərbaycanda vardır. Bir rəqəmi demək kifayətdir ki, bizim iqtisadiyyatımızın hazırda 85 faizi özəl sektorda formalaşır. Strateji dövlət müəssisələrindən başqa, bütün qalan müəssisələr özəl sektorda fəaliyyət göstərir. Bazar iqtisadiyyatının qanunları diktə edir ki, bazar liberallaşsın, iqtisadiyyata dövlət müdaxiləsi minimum səviyyəyə endirilsin və bu iqtisadi məsələləri bazar münasibətləri tənzimləməlidir.

Ancaq biz həyatda görürük ki, bu mənzərə ilə heç də hər zaman üzləşmirik. Xüsusilə müstəqilliyi yeni qazanmış ölkələrdə dövlət müdaxiləsi zəruridir. Əgər dövlət siyasəti olmasaydı, bu gün biz bu uğurlara nail ola bilməzdik. Əgər dövlət energetikaya, nəqliyyata, infrastruktura, kənd təsərrüfatına dəstək olmasaydı, sənayenin inkişafı sahələrində öz ciddi addımlarını atmasaydı, öz siyasətini ortaya qoymasaydı, bu gün hansı uğurlardan söhbət gedə bilərdi?! İnfrastruktura özəl sektor pul qoya bilərmi? Əlbəttə, yox.

Üzümçülüyə, hansı ki, fermer gəliri ən azı 7 il gözləməlidir, dövlət dəstəyi olmadan kimsə vəsait qoya bilərmi? Pambıqtəmizləmə zavodlarının yenidən qurulmasına dövlət dəstəyi olmadan kim vəsait qoyar. Biz indi pambıq tədarükü üçün ən müasir texnika alırıq – Amerika istehsalı olan «John Deere» kombaynları. 400-dən çox kombayn almışıq. Texnikanın alınmasına bütövlükdə 500 milyon manatdan çox vəsait xərcləmişik. Hansı özəl şirkət bunu öz üzərinə götürə bilər? Ona görə görəndə ki, biz pambıqçılıq sahəsini də itiririk və bu,

böyük problemlərə gətirib çıxara bilər, mən dərhal göstəriş verdim, bu məsələ ilə özüm məşğul olmağa başladım. Gördüm ki, bu sahədə bazar iqtisadiyyatı prinsipləri işləmir. Çox ciddi tədbirlər planı tutuldu və 2017–2020-ci illəri əhatə edən Dövlət Proqramı qəbul olundu. Biz Dövlət Proqramı əsasında pambıqçılığı 4 il ərzində, demək olar ki, dirçəltdik və ən yüksək nəticələrə çatdıq.

Beləliklə, dövlət dəstəyi nəticəsində son 3 il ərzində 15 700 texnika alınıb. Qeyd etdiyim kimi, 400-dən çox pambıqyığan kombayn almışıq, onların da böyük əksəriyyəti Amerikanın ən qabaqcıl şirkəti olan «John Deere»in daha məhsuldar və keyfiyyətə görə ən yüksək standartlara cavab verən kombaynlarıdır. Bu bizə imkan verdi ki, pambığın 87 faizini texnika ilə yığa bilək və əl əməyi aşağı düşdü. Ancaq bununla paralel olaraq, biz, əlbəttə, pambıqçılığı əməktutumlu sahə kimi inkişaf etdirərkən, ilk növbədə, məşğulluqla bağlı olan problemləri diqqət mərkəzində saxladıq və buna nail olduq.

100 min hektarda suvarma tədbirləri görülübdür. Hamımız yaxşı bilirik ki, bu il çox quraqlıq il oldu və tarixdə bu dərəcədə quraqlıq heç birimizin yadında deyil. Ancaq buna baxmayaraq, pambıq tarlalarında su təminatı təşkil edilmişdi. Əlbəttə, əgər dövlət investisiyalar qoymasaydı, kanallar çəkməsəydi, meliorasiya və su idarəsinə vəsait ayırmasaydı, indi pambıq ya əkilməzdi, ya da əkilib tarlalarda qalacaqdı və yanacaqdı.

Pambıqla məşğul olan fermerlərə güzəştli kreditlər verildi. Pambıqtəmizləmə zavodlarında təmir-bərpa,

sazlama işləri aparıldı. Eyni zamanda, Ucar rayonunda müasir texnologiya əsasında yeni Pambıqtəmizləmə zavodu inşa edildi. 2016-cı ildən pambığın hər kiloqramına görə istehsalçılara dövlət tərəfindən 10 qəpik subsidiya verilməyə başlandı. 2015-ci ildə pambığın satınalma qiyməti 41 qəpik, 2016–2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildən bu rəqəm 65 qəpiyə qaldırıldı və bu da çox həvəsləndirici amildir. Pestisidlər güzəştlə verilməyə başlandı. Hər hektara güzəştlər 10 manatdan 50 manata qaldırıldı. Gübrələr üçün güzəştlər isə 100 manatdan 150 manata qaldırıldı. Bütün bu addımlar dövlətin bu sahəyə göstərdiyi diqqətin və önəmin təzahürüdür. Təsadüfi deyil ki, nəticə də özünü qısa müddət ərzində büruzə verdi.

Əlbəttə, pambıqçılığı inkişaf etdirərkən biz sosial amili də həmişə diqqət mərkəzində saxlamışıq. Çünki qeyd etdiyim kimi, pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Hazırda Azərbaycanda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan işə cəlb edilibdir. Yəni pambıqçılığın bir neçə istiqaməti var və hər istiqamət üzrə minlərlə, on minlərlə yeni iş yerləri yaradılıbdır. Təsəvvür edin ki, 20 rayonda 200 minə yaxın iş yerinin yaradılması nə deməkdir. İndi bizim rayonların əhalisi orta hesabla təqribən 100–150 min, maksimum 200 min nəfər təşkil edir. Demək olar ki, hər rayonda orta hesabla 10 min insan ancaq pambıqçılıqla məşğul olur. Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur. Eyni zamanda, bizim çox gözəl indikatorumuz vardır. Bildiyiniz kimi, sosial müdafiəni gücləndirmək üçün biz indi 40 minə yaxın ödənişli

ictimai iş yeri yaratmışıq ki, o da dövlət tərəfindən maliyyələşir. İş tapa bilməyən vətəndaşlar bu ictimai iş yerlərində işlə təmin olunurlar. İndi pambıq yetişdirən rayonlarda bu işlərə də tələbat azalır. Çünki insanlar pambıqçılıqda daha böyük pul qazanır və öz maddi vəziyyətlərini yaxşılaşdırırlar.

Beləliklə, 4 il ərzində görülmüş kompleks tədbirlər nəticəsində biz pambıqçılığı dirçəltdik. Bəzi rəqəmləri gətirməklə, mən bu sözləri təsdiqləyəcəyəm. 2015-ci ildə – o ildə ki, mən artıq bu sahəni itirdiyimizi gördüm – 18 min hektardan 35 min ton pambıq tədarük edildi. Hər hektardan məhsuldarlıq 18,8 sentner idi. 2016-cı ildə artıq 51 min hektarda pambıq əkildi və 89 min ton pambıq tədarük edildi. Yəni 2016-cı il bizim pambıqçılıqla ciddi məşğul olduğumuz birinci ildir, hektardan məhsuldarlıq 17 sentnerdən bir qədər çox idi. 2017-ci ildə biz pambıq əkini sahələrini kəskin şəkildə artırdıq. Onu da bildirməliyəm ki, sonra biz bəzi torpaqların düzgün seçilmədiyini gördük və o torpaq sahələrini azaltdıq. Biz hər şeyi bəri başdan görə bilməzdik. Ona görə biz 2017-ci ildə 136 min hektarda pambıq əkdik və 207 min ton məhsul götürdük. Hektardan məhsuldarlıq isə 15,2 sentnerə düşdü, çünki bəzi torpaqlar pambıqçılıq üçün yararsız idi. 2018-ci ildə artıq əkin sahələri azalmağa başladı – 132 min hektarda pambıq əkildi. Ancaq daha çox məhsul götürdük – 233 min ton. Hektardan məhsuldarlıq artdı və 17,6 sentnerə qalxdı. Bu il isə, hesab edirəm ki, ən optimal variant təsdiqlənərək, 100 min hektarda pambıq əkildi və 294

min ton məhsul götürüldü. Hektardan məhsuldarlıq 29,4 sentner oldu. Yəni bu doğrudan da tarixi nailiyyətdir.

Məndə ötən əsrin 80-ci illərinin statistik məlumatları da vardır. Deyə bilərəm ki, tarixdə cəmi 3 il Azərbaycanda hektardan məhsuldarlıq 30 sentnerdən çox olubdur. Bu, 1979-cu ildə 30,8 sentner, 1980-ci ildə 35,4 sentner və 1981-ci ildə 35,9 sentner təşkil edibdir. Bütün tarixboyu cəmi 3 il ərzində hektardan məhsuldarlıq 30 sentnerə yaxın olub və bu il biz bunu artıq görürük. Əminəm ki, bundan sonra görüləcək tədbirlər nəticəsində məhsuldarlıq daha da artacaqdır. İndi bu barədə burada məlumat veriləcək. Çünki indi pilot layihələr vardır. Pilot layihələrdə pambıq müasir texnologiya əsasında əkilir və orada məhsuldarlıq daha çoxdur. Əgər biz indi pilot layihələri ölkə üzrə geniş yaysaq, o zaman hər 100 min hektardan daha çox məhsul götürəcəyik.

Pambıqçılıq çox gəlirli kənd təsərrüfatı sahəsidir. Onu da xatırlayıram ki, 2015-ci ildə bu məsələ ilə şəxsən özüm məşğul olmağa başlayanda bəzi hökumət üzvləri hesab edirdilər ki, pambıqçılıq, ümumiyyətlə, Azərbaycandan çıxarılmalıdır. Bu, gəlirsiz sahədir və bunun heç bir perspektivi, gələcəyi yoxdur. Mən, sözün düzü, təəccüb etdim. Çünki əsrlərboyu pambıq yetişdirilib, əsrlərboyu bizim kəndlər bu sahədə fəal olub. Bu, ənənəvi sahədir, böyük təcrübəmiz var, insanlar buna öyrəşiblər. Məgər sovet dövründə bilmirdilər ki, harada pambıq əkilə bilər, harada əkilə bilməz?! Sovet dövründə hər şeyi bilirdilər. Dövlət Plan Komitəsi var idi, hər şeyi dəqiqliyi ilə bilirdilər – harada nə əkilməlidir, harada nə tikilməlidir. Ona görə yenə də deyirəm, bizim baxış-

larımız və çox məqsədyönlü siyasət pambıqçılığı gəlirli sahəyə çevirdi və artıq gəlirlər zənciri də yaradıldı. Bir də ki, pambıq ixrac yönümlü məhsuldur. Mahlıcı satmaq üçün bazar axtarmaq lazım deyil, dünya birjalarında satılır. İndi hər bir ölkənin istehsalçıları qarşısında duran əsas məsələlərdən biri də bazara çıxışdır. Çünki bazarlar da məhdudlaşır. Bir çox ölkələr öz tələbatını daxili imkanları hesabına ödəməyə başlayıb. İdxaldan asılılığı azaltmaq təkcə bizim siyasətimiz deyil, bir çox ölkələr bu yolla gedir. Bizim ənənəvi bazarlarımızın yerləşdiyi ölkələr əgər gələcəkdə öz tələbatını daxili resurslar hesabına təmin edəcəksə, biz haraya mal satacağıq və nəyi satacağıq? Pambıq o məhsullardandır ki, bunun üçün bazar axtarmaq lazım deyil. Birja var və birjada satılır. Özü də əgər biz yığımdan son məhsula qədər bu zənciri yaratsaq – biz bunu yaratmalıyıq – onda hər bir zəncirin sonunda əlavə dəyər formalaşacaq. Beləliklə, bu işlərə cəlb edilən əmək qüvvəsi daha da böyüyəcək və gəlir daha da artacaqdır.

Biz hazırda bu işin ilkin mərhələsindəyik. Buna baxmayaraq, deyə bilərəm ki, bu ilin 9 ayında pambıqçılıq fermerlərə və şirkətlərə, ümumiyyətlə, Azərbaycana 111 milyon dollar gəlir gətiribdir. Yəni 111 milyon dollar dəyərində məhsul, o cümlədən 87 milyon dollarlıq mahlıc, 22,5 milyon dollarlıq pambıq ipliyi və 2 milyon dollarlıq pambıq yağı ixrac edilibdir. Eyni zamanda, pambıqçılıq sənayesi tullantılarından heyvan yemi kimi də istifadə olunur. Bu rəqəmlər göstərir ki, biz hazırda mahlıc ixrac edirik. Əsas vəzifə nəinki pambıq ipliyi – bu, birinci hədəfdir –son məhsul ixrac etməkdir. Bunun

üçün də bizim aidiyyəti qurumlar, hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi pambıqçılığın sənaye sahəsinə təkan verə biləcək müəssisələri yaratmaq üçün gərək fəal işləsin, investorları cəlb etsin və güzəştli kreditlər versin.

Qeyd etdiyim kimi, bu il məhsuldarlıq çox yüksək olub – rekord həddə. Ancaq bunu bütün rayonlara aid etmək olmaz. Ona görə indi gətirəcəyim rəqəmlər hər bir rayon rəhbərliyi üçün siqnal olmalıdır. Çünki bu gün bu müşavirədə Prezident Administrasiyasının, mərkəzi icra orqanlarının nümayəndələri, 20 rayonun icra başçıları və şirkətlərin nümayəndələri iştirak edirlər. Beləliklə, bu il 7 rayonda məhsuldarlıq 30 sentnerdən yuxarı olubdur. Bunlar ardıcıllıqla aşağıdakı rayonlardır: Tərtər – 34,8, Bərdə – 33,7, Salyan – 33,2, Neftçala – 31,6, Ağcabədi – 30,7, Saatlı – 30,4 və Beyləqan – 30,3 sentner. Bu onu göstərir ki, həm fermerlər, həm şirkətlər, həm də rayon rəhbərliyi bu işlərə çox məsuliyyətlə yanaşıblar və belə gözəl nəticələr əldə edilibdir. 3 rayonda məhsuldarlıq 30 sentnerə yaxındır: Biləsuvar – 29,5, Sabirabad – 29,2 və Ağdam – 28,2 sentner. 7 rayonda məhsuldarlıq 20 sentnerdən çoxdur və bu rayonlar nəticə çıxarmalıdır. 3 rayonda isə məhsuldarlıq 20 sentnerdən də azdır. Bax, bu rayonlarda çox ciddi təhlil aparılmalıdır ki, nə üçün, bunun səbəbi nədir? Bunun səbəbi olmalıdır. Ucar – 19,3, Hacıqabul – 14,4, Ağsu – 9,9 sentner. Hacıqabul və Ağsu rayonlarının icra başçıları dəyişdirildi, yeni icra başçıları təyin edildi. Onlar bu işləri geniş təhlil etməli və sonra məlumat verməlidirlər ki, məhsuldarlıq nə üçün çox aşağı səviyyədədir.

Ucar Rayon İcra Hakimiyyətinin başçısı məlumat versin, hazırda məhsuldarlıq nə üçün aşağı səviyyədədir?

**M ə n s u r M ə m m ə d o v** *(Ucar Rayon İcra Hakimiyyətinin başçısı):* Cənab Prezident, pambıqçılıq ənənəsi Siz qeyd etdiyiniz kimi, yaddan çıxmışdı. İndi yeni pambıq növləri yetişdirilir, əkin sahələrinin seçimi aparılıb. Pilot layihələr rayonda tətbiq olunub və növbəti illərdə daha yüksək məhsul götürüləcəkdir.

**İ l h a m Ə l i y e v:** Növbəti illərdə, əlbəttə, daha yüksək məhsuldarlıq olacaq. Mən bunu soruşmuram, mən soruşuram ki, bu il nəyə görə məhsuldarlıq aşağı səviyyədə olub. Bu barədə məlumat verin.

**M ə n s u r M ə m m ə d o v:** Cənab Prezident, bütün aqrotexniki tədbirlər görüldü. Ucar torpağının xüsusiyyəti bir qədər çətinlik ydığı üçün məhsuldarlıq yüksək olmadı. Pilot sahələrdə yeni texnologiya ilə daha yüksək məhsul götürüldü və bu göstərir ki, gələcəkdə məhsuldarlıq yaxşı olacaqdır.

**İ l h a m Ə l i y e v:** Buna fikir verin, bu, dözülməz bir rəqəmdir. Özü də qonşu rayonlarda məhsuldarlıq yüksəkdir. Misal üçün, Yevlax rayonunda 26,4 sentnerdir, digər qonşu rayonlarda isə məhsuldarlıq daha da yüksəkdir.

Mən artıq qeyd etdim ki, pambıqçılıq çox əməktutumlu sahədir. Bizim əsas vəzifələrimizdən biri vətəndaşları işlə təmin etməkdir və buna nail oluruq. Eyni zamanda, bildirməliyəm ki, bu il sosial sahədə görülmüş tədbirlər, aparılan islahatlar doğrudan da vətəndaşların maddi vəziyyətini xeyli yaxşılaşdırıb. Bu bir daha göstərir ki, bizim siyasətimizin təməlində Azərbaycan

vətəndaşı dayanır. Bu il təşkil edilmiş və həyata keçirilmiş çox geniş sosial paket 4,2 milyon əhalini əhatə edib. Problemli kreditlər öz həllini tapıb, özü də problemli kreditlərlə bağlı olan məsələlər təkcə bizdə mövcud deyil. Demək olar ki, postsovet məkanında bir çox ölkələrdə eyni problemlər mövcuddur. Ancaq biz bunu vətəndaşlar üçün ən səmərəli şəkildə və ən məqbul formada ədalətli həll etdik. Devalvasiyadan sonra ağır vəziyyətə düşən vətəndaşların problemlərini biz həll etdik.

Müavinətlər artırıldı – bəzi müavinətlər 50 faiz, bəziləri 2 dəfə artırıldı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında 1-ci yerdədir. Bu statistikadır. Əlbəttə, mən bunu demişəm, bir daha deyirəm – çox istəyirəm ki, maaşlar və pensiyalar daha sürətlə artsın. Buna nail olmaq üçün isə gərək iqtisadi imkanlarımız daha da genişlənsin. İqtisadi imkanlar, o cümlədən hər bir sahədə işin səmərəli şəkildə qurulmasından asılıdır. Misal üçün, kənd təsərrüfatının bir çox sahələri var və vaxtilə o qədər də çox fikir verilməyən sahələr indi dirçəlir. Sənaye istehsalı sahəsinə gəldikdə, bu il qeyri-neft sənayemiz 14 faiz artıb. Şəffaflıq sayəsində bu il büdcəyə vergi və gömrük orqanları tərəfindən plandan əlavə, 1 milyard manat vəsait daxil olub. Ona görə bütün bu tədbirlər, islahatlar imkan verdi ki, biz bu böyük paketi həll edək. Bu, bir neçə milyard manata başa gəldi. Ancaq biz bunu etməliyik və edirik.

Pambıqçılıq, həmçinin yüngül sənayeyə də təkan verir. Mənim sərəncamlarımla Azərbaycanın bir neçə şəhərində sənaye zonaları, sənaye parkları yaradılır, o cümlədən Mingəçevir Yüngül Sənaye Parkı. Buna böyük ehtiyac vardır. Çünki Mingəçevir şəhərində işsizlik problemi başqa şəhərlərdən daha ciddidir, bu da təbiidir, çünki şəhərdir və şəhərdə işsizlik, adətən, daha çox olur. Ona görə Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün biz onu bir sənaye şəhəri kimi inkişaf etdirməliyik. Artıq orada iki böyük İplik fabriki fəaliyyət göstərir, mən onların açılışında olmuşam. Bu, birinci mərhələdir. Fabriklərin sayı çox olmalıdır və biz çalışmalıyıq ki, pambığı maksimum dərəcədə emal edək. Çünki bugünkü emal səviyyəsi bizi qane edə bilməz.

Onu da bildirməliyəm ki, Azərbaycanda Pestisid zavodu yaradılıb, bu da çox önəmli məsələdir. Mənim təşəbbüsümlə Gübrə və Polimer zavodları da fəaliyyət göstərir. Yəni biz indi polimerdən hazır məhsul istehsal edə bilərik. Gübrələri xaricdən yox, daxili istehsalçılardan ala bilərik. Yəni bütün bu addımlar bir məqsədi güdür ki, ölkəmiz daha da güclənsin, sürətlə inkişaf etsin və vətəndaşlar işlə təmin olunsunlar.

Pambıqçılıqla yanaşı, bizim üçün ənənəvi olan, ancaq müəyyən müddətdə bir qədər unudulmuş digər kənd təsərrüfatı sahələri də inkişaf edir. Onlardan biri baramaçılıqdır. Bu məsələ ilə məşğul olmağa başlayanda gördüm ki, cəmi 240 kiloqram barama tədarük edilir. Ancaq sovet vaxtında nə qədər tədarük edilirdi?! Görülən tədbirlər nəticəsində tinglər alındı və Qax şəhərində damazlıq stansiya yaradıldı, dövlət dəstəyi

göstərildi. Bu il artıq 630 ton barama tədarük edilib. Bu eyni zamanda, imkan verdi ki, Şəki İpək Kombinatı tam gücü ilə işləsin. Orada yüzlərlə insan işlə təmin olundu. Baramaçılığın böyük gələcəyi var, çox gəlirli və çox da əmək tələb etməyən sahədir. Vətəndaşlar qısa müddət ərzində – bir ay, yaxud da ay yarım ərzində yaxşı pul qazana bilirlər.

Biz fındıqçılığı sürətlə inkişaf etdiririk. Bağların sahəsini kəskin artırmışıq, 30 min hektardan təqribən 80 min hektara çatdırmışıq. Artıq fındıq istehsalı və ixracı sahəsində dünyada üçüncü yerə çıxmışıq. Bu da çox gəlirli sahədir və əlbəttə, təzə salınmış bağlar hələ bar vermir. Hesab edirəm ki, bir neçə ildən sonra fındıqçılıq valyuta idxalı baxımından kənd təsərrüfatının əsas sahələrindən birinə çevriləcəkdir.

Əvvəlki dövrlərdə mənim sədrliyimlə çəltikçilik, sitrusçuluq, tütünçülük, çayçılıq üzrə müşavirələr keçirilib. Bu ənənəvi sahələr inkişaf edir. Biz siqareti ixrac yönümlü məhsul kimi görürük. Bu il Sumqayıtda yeni Siqaret fabriki açıldı, Bakıdakı fabrik yenidən quruldu. Biz həm idxaldan asılılığı azaldırıq, həm də böyük ixrac imkanı yaradırıq. Yəni bütün bu sahələr bizim üçün ənənəvi sahələrdir. Sadəcə olaraq, dövlət diqqəti azalanda bu sahələr məhvə doğru gedirdi, o cümlədən də üzümçülük. İndi mən bunu qeyd etdim, ulu öndərin vaxtında 2 milyon ton üzüm istehsal olunurdu, onlarla Şərab zavodu fəaliyyət göstərirdi. Hamısı sıradan çıxdı, məhv edildi. O zavodların materialları satıldı, yəni böyük bir cinayət törədildi və demək olar ki, bu sahə itib-batmışdı. Mən rəqəmlərə baxanda gördüm ki, bir neçə il bundan əvvəl

cəmi 100 min ton üzüm istehsal olunurdu, yeni bağlar salınmırdı. Çünki əl vermirdi, gərək xərcləyəsən, 5-6 il gözləyəsən, məhsul götürəsən, sonra hara satasan? Şərab zavodları yox, emal yox, ona görə də üzümçülük batıb gedirdi. Bir də ki, ulu öndər Azərbaycandan gedəndən sonra burada rəhbərlik etmiş şəxslər də bu cinayətin törədilməsində fəallıq göstərir, üzüm bağlarını qırırdılar. Bu, böyük bir cinayətdir. Nə Ukraynada, nə Gürcüstanda, nə Moldovada, nə Ermənistanda bunlar olmadı. Ancaq burada oldu. Nəyə görə? Çünki buraya Qorbaçov tərəfindən cəza kimi, bir yarıtmaz adam göndərildi, onun da əsas məqsədi Azərbaycanı məhv etmək idi və buna nail olmağa çalışırdı. Ancaq Azərbaycan xalqı imkan vermədi və o, cinayət törədəndən sonra 1990-cı ildə buradan qaçdı. Ondan sonrakı dövrdə – xüsusilə AXC–Müsavat antimilli qruplaşma hakimiyyətə gələndə, onlar, ümumiyyətlə, başa düşmürdülər, anlamırdılar ki, kənd təsərrüfatı nədir.

Onların məqsədi talançılıq idi, Ləl-cəvahirat Fondunu taladılar, orada bir dənə də əşya qalmamışdır, hamısını satdılar, neft bonuslarını oğurladılar. Səhv etmirəmsə, onların dövründə təqribən 20 və ya 30 milyon dollar dəyərində neft bonusu verilmişdi, oğurladılar. Sonra onu axtarmağa başlayanda izi-tozu da qalmamışdı. Bir il ərzində milyardlarla dollar ziyan vurdular, taladılar, oğurladılar, öz ciblərini doldurdular, sonra da qorxaqcasına fərarilik edərək, hakimiyyəti tərk etdilər, vəzifələrini dondurdular və bu gün də öz rəzil hərəkətləri ilə cəmiyyətdə ikrah hissi doğururlar. Onların bu

qorxaqlığı, panika, isterika, paronoya və satqınlığı artıq heç kimə sirr deyil. Bax, bu idi real vəziyyət.

Ancaq bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir. Bu yaxınlarda Azərbaycan dünyanın güclü ölkələri sırasına daxil edilib. Bu siyahıda cəmi 80 ölkə var və bizim bədnam qonşumuzun adı orada yoxdur. Bilmirəm, onların adı hansı dəftərdə var, amma hər halda, bunu artıq biz demirik, bunu mötəbər qurumlar deyir. Biz güclü dövlətlər sırasında 45-ci yerdəyik. Bir neçə inkişaf etmiş ölkəni qabaqlamışıq. Hələ mən Davos reytinqlərini demirəm, onu dəfələrlə demişəm. Bax, budur bugünkü Azərbaycan!

Əlbəttə, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənə bilmərik. Hazırda kənd təsərrüfatı sahəsində çox ciddi islahatlar aparılır, şəffaflıqla, subsidiyalarla bağlı yeni mexanizmlər tətbiq edilir. Əvvəlki dövrlərdə həm mərkəzi, həm də yerli icra orqanları tərəfindən subsidiyalarla bağlı böyük pozuntular var idi. Buna son qoyulur və son qoyulmalıdır. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır, o cümlədən ödənişli ictimai iş yerlərinin yaradılmasında. Bir neçə icra başçısı vəzifədən azad edildi və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulmuş vəsaiti ora-bura xərcləyirdilər. O siyahılara ya öz qohumlarını yazdırırdılar, ya da ki, ümumiyyətlə, o vəsait ünvana çatmırdı. Belə siqnallar olub, onlar araşdırılır və daha da ciddi araşdırılacaqdır. İş təkcə inzibati cəza ilə məhdudlaşmayacaq və bunu hər kəs eşitsin, bilsin, burada oturanlar və burada olmayanlar. Ona görə hər yerdə

şəffaflıq, dövlətə və xalqa, vətəndaşlara xidmət etmək əsas prinsip olmalıdır ki, vətəndaşlar dövlətin diqqətini daim hiss etsinlər, necə ki, biz hər bir çətin anda vətəndaşın yanındayıq.

Bu il zəlzələ olmuşdur. Üstündən cəmi 10 ay keçib, bütün əsas tikinti işləri artıq başa çatdırılıbdır. Minlərlə ev tikilib, təmir və bərpa edilibdir. Bəziləri deyir ki, indi vətəndaşlar gərək bu evləri özləri bərpa etsinlər, gərək sığortalasınlar. Əlbəttə, gərək sığortalasınlar. Mən də söz düşmüşkən bunu deməliyəm, o cümlədən ticarət obyektləri, onların hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Yoxsa ki, yanğın baş verir, günahkar da özüdür, sonra da gəlib deyirlər ki, dövlət bunun pulunu versin. Hansı ölkədə belə şey vardır? Hansı ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəyir? Heç bir yerdə belə şey yoxdur. Hərə gedir öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə də sığorta şirkəti gəlib onun pulunu verir, vəssalam. Bizdə də belə olmalıdır. Mən bunu özəl şirkətlərə, ticarət obyektlərinə aid edirəm və xəbərdarlıq edirəm ki, əgər haradasa daşqın, yanğın nəticəsində nəsə yanır, batırsa, dövlətdən dəstək almağa ümid etmək lazım deyil. Düzdür, biz bəzi hallarda ən kasıb, ən yoxsul təbəqəyə kömək göstəririk. Amma altında böyük maşınlar, mülklər, villalar olan sahibkara dövlət nə üçün kömək etməlidir? Axı bu ədalətsizlikdir. Dövlət kimə kömək etməlidir? Ehtiyacı olana. Pulu olan adam özü kasıba kömək etməlidir. Mən bunu sahibkarlara dəfələrlə demişəm, onların sosial məsuliyyəti olmalıdır. Pul qaza-

nırlar, dövlət şərait yaradıb, harada belə şərait vardır? Ölkələr var ki, od içindədir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, Avropada, Asiyada, Latın Amerikasında müharibələr, münaqişələr, qanlı toqquşmalar, kütləvi etirazlar, polis zorakılığı, dağıntılar baş verir. Bizdə sabitlikdir, kim yaradıb bunu? Biz. Kim faydalanır? Bütün vətəndaşlar, o cümlədən sahibkarlar. Rahat yaşayırlar, heç kim onlara dəymir, əksinə, Prezident həmişə onları dəstəkləyir. Getsinlər camaata, kasıba əl tutsunlar. Biz o insana kömək edirik ki, onun ehtiyacı vardır. Şamaxıda, Ağsuda, İsmayıllıda zəlzələ baş verdi. Biz necə biganə qala bilərdik, vətəndaşlar qışda donsunlar? Ona görə dərhal vəsait ayırdıq, bütün qurumları səfərbər etdik və 10 ay ərzində qış gələnə qədər onların evləri tikildi və təmir edildi.

Bax, bu bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maariflәndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə, böyük mülklərə sahib olan varlı adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs özü üçün nəticə çıxarsın.

Beləliklə, bu gün pambıqçılıqla bağlı məsələlər müzakirə olunarkən bir daha demək istəyirəm ki, mən görülmüş işlərə yüksək qiymət verirəm, bütün qurumlar fəal işləyiblər. Prezident Administrasiyası bu işləri koordinasiya edib. Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanlarının bir çoxu yaxşı nəticələr əldə edib, pis göstəriciləri olan rayonlar isə nəticə çıxarmalıdır.

* * *

**İnam Kərimov** *(Kənd Təsərrüfatı naziri):* Möhtərəm cənab Prezident!

Bu gün aqrar sektorun bütün sahələri kimi, pambıqçılıq da yeni inkişaf mərhələsinə qədəm qoyub. Son illər verdiyiniz tapşırıqlar və qərarlar, təsdiq etdiyiniz müvafiq Dövlət Proqramı öz nəticəsini verməkdədir.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu pambıqçılıq ənənələri son illər yüksək templə inkişaf etdirilərək, əvvəlki şöhrətini bərpa etməkdədir. 2015-ci ildən sonrakı dövr ərzində pambıq istehsalı 8,2 dəfə artıb. Bu günədək 100 min hektar sahədən 294 min tondan çox pambıq istehsal olunub və hektardan orta məhsuldarlıq 29,4 sentner təşkil edibdir. Əkin sahəsinin ötən ilə nisbətən 32 min hektar azalmasına baxmayaraq, pambıq istehsalı 61 min ton, hektardan orta məhsuldarlıq isə 11,8 sentner artıbdır.

Builki yüksək nəticələr ilk növbədə, Sizin bu sahəyə diqqətiniz və dövlət tərəfindən göstərilən dəstəklə bağlıdır. Belə ki, 2018-ci ildə xam pambığın fermerlərdən alış qiyməti hər ton üçün 150 manat artırılaraq, 650 manata çatdırılıbdır. Fermer satdığı hər ton xam pambığa görə dövlətdən 100 manat subsidiya alır. İstehsalçıların texnikaya və avadanlığa olan ehtiyaclarını ödəmək məqsədilə son 3 ildə 529 milyon manat

dəyərində 15700 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 403 pambıqyığan kombayn alınıbdır.

Fermerlərə satılan pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 5 dəfə artırılaraq, hər hektara görə 50 manata, mineral gübrələrin dəyərinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi isə 50 faiz artırılaraq, hər hektara görə 150 manata çatdırılıb. «Aqrolizinq» ASC-nin balansında olan 768 texnika vasitəsilə fermerlərə güzəştli şərtlərlə dəstək göstərilib, gübrələrin səyyar formada yerlərdə və sahələrdə satışı həyata keçirilibdir. Bütünlükdə kənd təsərrüfatı texnikasının alınmasına 40 faiz güzəşt tətbiq olunubdur. Ümumiyyətlə, ölkəmiz pambıqçılığın inkişafına göstərdiyi dəstəyə görə dünya üzrə aparıcı dövlətlərdən biridir.

Eyni zamanda, Sizin pambıqçılığın inkişafı məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin qarşısında qoyduğunuz vəzifələrin icrası baxımından əməli tədbirlər həyata keçirilib, yerli və mərkəzi icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq qurulubdur. O cümlədən pambıqçılıqla məşğul olan şirkət və fermerlərlə yerlərdə və sahələrdə 10-a yaxın iclas keçirilib, mövcud problemlər və onların aradan qaldırılması yolları müzakirə edilərək, qərarlar qəbul olunub, tədbirlər planı hazırlanaraq, icra edilibdir. Cari ildə artımın yalnız yüksək məhsuldarlıq hesabına əldə olunması hədəf seçilib, pambığın yalnız əkinəyararlı torpaq sahələrində əkilməsi qərara alınıbdır. Səpin vaxtında aparılıb, aqrotexniki tədbirlər vaxtında və düzgün icra edilib, fermerlərin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün bütün rayonlarda preventiv

tədbirlər görülübdür. Texnikanın ərazilər üzrə səmərəli dislokasiyası təmin edilib, əsasən toxum, gübrə, su və dərman təminatında çatışmazlıqlar aradan qaldırılıbdır.

Şirkətlər tərəfindən pambığın qəbulu prosesində şəffaflığın və obyektivliyin qorunması üçün Aqrar İnkişaf mərkəzlərində xüsusi komissiyalar təşkil edilib, tədarük olunmuş pambığa görə fermerlərə vəsaitin vaxtında ödənilməsi təmin olunubdur. Pambığın kombaynla yığılmasına üstünlük verilib. Belə ki, yığılan pambığın 87 faizi texnika ilə həyata keçirilibdir.

2018-ci ildə Ağdam, Beyləqan və Zərdab rayonlarında əlavə 3, cari ildə isə Bərdə rayonunda bir pambıq qəbulu məntəqəsi tikilib, müvafiq avadanlıqlarla təchiz edilibdir. Mövsüm ərzində bu məntəqələr tərəfindən 8000 ton xam pambıq qəbul olunub. Ucar rayonunda illik istehsal gücü 40 min ton olan Pambıq Emalı zavodu, saatda 1,5 ton lifsiz pambıq toxum istehsalı gücünə malik zavod istifadəyə verilib, gündəlik 200 ton pambıq çiyidini emal etmək gücünə malik zavodda isə tamamlanma işləri getməkdədir.

Tərəfinizdən verilən tapşırıqların icrasını təmin etmək üçün Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi və əməkdaşları daim fermerlərin yanında olublar.

Möhtərəm cənab Prezident, Sizin qarşımızda qoyduğunuz əsas hədəf məhz məhsuldarlığın yüksəldilməsi hesabına istehsalın artırılması olub. Aparılmış təhlillər göstərir ki, 2018-ci ildə 30 sentnerdən çox məhsul götürən 3096 fermer vardısa, 2019-cu ildə bu rəqəm 2 dəfədən çox artaraq, 7110 fermer təşkil edibdir. 7110 fermer tərəfindən yığılmış pambıq ümumi istehsalın 39

faizini təşkil edir. Bu məhsulun 29,5 min hektar sahədən yığıldığını nəzərə alsaq, hektardan orta məhsuldarlıq 39 sentnerdir. 2019-cu ildə 50 sentnerdən artıq məhsul götürmüş fermerlərin sayı 953 olub. 2018-ci illə müqayisədə hesabat ilində fermerlərin əldə etdikləri gəlirlərin ümumi həcmi 45 milyon manatdan çox artıbdır.

Bu rəqəmlər bir daha sübut edir ki, torpaq sahələri düzgün seçildiyi, aqrotexniki tədbirlərə vaxtında və düzgün əməl olunduğu təqdirdə ölkədə orta hesabla hər hektardan 30 sentnerdən çox pambığın istehsalı üçün potensial imkan mövcuddur. Eyni zamanda, innovativ texnologiyalardan istifadənin genişləndirilməsi məqsədilə nümunəvi təsərrüfatların yaradılmasına başlanılıb. Ucar rayonunda Çin texnologiyası və Beyləqan rayonunda türk texnologiyası əsasında pambıq istehsalı üzrə pilot layihələr həyata keçirilib. Çin texnologiyası ilə hər hektardan 60 sentner, türk texnologiyası ilə isə 58 sentner xam pambıq istehsal olunubdur.

Gələn il pambıqçılıqla məşğul olan bütün şirkətlər yeni texnologiyaların tətbiqini Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə genişləndirəcəkdir. Məruzə edirəm ki, 2019-cu ildə istehsal olunmuş 294 min ton xam pambıqdan respublikanın pambıq emalı zavodları tərəfindən 114 min ton mahlıc istehsalı gözlənilir.

Qlobal çağırışlara uyğun olaraq, dəyər zənciri üzrə daha çox əlavə dəyərin yaradılmasına nail olmaq və daxili tələbatı yerli istehsal hesabına təmin etmək məqsədilə yeni iplik fabrikləri və toxuculuq kombinatlarının tikilməsinin dəstəklənməsinə, pambıqçılıq

sahəsində son məhsulun ixracının stimullaşdırılmasına ehtiyac vardır.

Pambıqçılığın inkişafı istiqamətində kadr potensialının gücləndirilməsi də diqqət mərkəzindədir və növbəti illərdə də bu tədbirlər davam etdiriləcəkdir. Yeni subsidiya mexanizminə əsasən, 2020-ci ildə hər hektara 220 manat, hər ton məhsula 100 manat subsidiya verilməsi nəzərdə tutulur. Belə olduqda, 30 sentner məhsul götürmüş fermerin dövlətdən əldə etdiyi vəsait 520 manat olmaqla, çəkdiyi xərcin 55 faizini təşkil edəcəkdir. Subsidiyaların Elektron Kənd Təsərrüfatı Sistemi vasitəsilə fermerlərə verilməsi xidmət prosesini daha çevik və asan edəcək, xidmətin keyfiyyətini yüksəldəcəkdir. 2020-ci ildə ən azı 105 min hektar sahədə pambığın əkilməsi və daha yüksək məhsuldarlığın əldə edilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, pambıqçılığın davamlı inkişafına göstərdiyiniz diqqət və qayğıya görə bütün kənd zəhmətkeşləri adından Sizə dərin təşəkkürümü və yüksək ehtiramımı bildirirəm. Sizi əmin edirəm ki, nazirliyin kollektivi etimadınızı doğrultmaq üçün qəbul etdiyiniz bütün qərarları və verdiyiniz tapşırıqları vaxtında və keyfiyyətlə icra edəcəkdir.

**İ l h a m Ə l i y e v:** Bu pilot layihələrlə bağlı bir qədər geniş məlumat verin. Siz deyirsiniz ki, Çin texnologiyası əsasında 60 sentner, türk texnologiyası əsasında isə 58 sentner. Biz təxminən eyni nəticə əldə etmişik. İndi bu

hansı sahələrdə əkilib və gələn il bu texnologiyaların tətbiqi hansı sahələrdə nəzərdə tutulur?

**İ n a m  K ə r i m o v:** Möhtərəm cənab Prezident, biz 60 sentner əldə etmişik, amma bu texnologiyaların potensialı daha böyükdür. Çünki Azərbaycanda ilk dəfə tətbiq edildiyi üçün hətta müəyyən çatışmazlıqlar da olmuşdur. Burada əsasən əkin metodunun daha fərqli həyata keçirilməsi, bitki sıxlığının daha yüksək təşkil edilməsi, o cümlədən suvarmanın və alaq otlarına qarşı mübarizənin daha mütərəqqi metodlarla həyata keçirilməsi nəzərdə tutulur.

**İ l h a m  Ə l i y e v:** Bu texnologiyaların geniş tətbiqi üçün nə etmək lazımdır?

**İ n a m  K ə r i m o v:** Biz artıq şirkətlərlə danışmışıq. Bu il bunu təkcə Kənd Təsərrüfatı Nazirliyi həyata keçirmişdi. Amma gələn ildən həm «MKT İstehsalat Kommersiya», həm «Azərpambıq», həm də digər pambıq şirkətləri ilə artıq bu barədə razılığa gəlmişik. Hər biri öz sahəsində, yəni 100 hektardan az olmayaraq, mütərəqqi Çin və ya türk texnologiyası vasitəsilə bu pilot layihələri həyata keçirəcəkdir.

Cənab Prezident, bu yeni texnologiyalar daha bahalıdır, yəni burada xərclər nisbətən çoxdur. Bizim məqsədimiz çəkilən xərcin və fermerin əldə etdiyi gəlirin onun üçün əlverişli olmasıdır. Yəni biz bu pilot layihələri həyata keçirəndən sonra, əgər fermerə xeyir etsə, əlbəttə ki, artıq bu, geniş tətbiq olunmağa başlanacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bəlkə fermerləri də hansısa yolla həvəsləndirmək olar ki, onlar bu texnologiyaya daha tez keçsinlər.

**İ n a m  K ə r i m o v:** Şirkətlərlə yanaşı, planda var ki, bir neçə qabaqcıl fermerlə müqavilə bağlansın. Kənd Təsərrüfatı Nazirliyinin sifarişi əsasında onlar bu mütərəqqi texnologiyaları tətbiq etsinlər. Hesab edirik ki, əldə etdikləri yüksək nəticə və yüksək gəlirlər digər fermerlər üçün daha yaxşı nümunə ola bilər və bunun genişləndirilməsi bu yolla daha səmərəli olar.

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, işi daha mütəşəkkil şəkildə həll etmək üçün gərək bu işə təkcə şirkətlər, fermerlər yox, eyni zamanda, mərkəzi icra orqanları, o cümlədən «Meliorasiya və Su Təsərrüfatı» ASC və yerli icra orqanları da fəal qoşulsunlar. Lazım olarsa, müxtəlif maarifləndirmə tədbirləri də keçirilməlidir. Pambıq əkilən rayonlarda bəlkə hansısa təqdimatlar keçirilsin, yəni geniş təbliğ olunsun. Daha yüksək məhsuldarlığa nail olmaq üçün hansı konkret addımlar atılmalı olduğunu kəndlilər özləri də bilməlidirlər. Yerli icra orqanları da yerlərdə nəzarət etsinlər və yeni texnologiyalara keçidi təmin etsinlər. Bu haqda fikirləşin. Prezident Administrasiyasına da göstəriş verirəm, yeni səpin mövsümünə qədər mənə məlumat verin ki, neçə min hektarda artıq yeni texnologiyalar tətbiq olunacaqdır.

**M ü s t ə q i m  M ə m m ə d o v** *(Tərtər Rayon İcra Hakimiyyətinin başçısı):* Möhtərəm cənab Prezident!

Son illərdə aqrar sahənin, xüsusilə pambıqçılığın inkişafı ilə bağlı həyata keçirdiyiniz tədbirlər insanların maddi rifahının yüksəldilməsinə, kəndlərimizdə böyük canlanmaya səbəb olub. Hazırda kənd təsərrüfatı, o cümlədən pambıqçılıq elmi əsaslarla sürətlə inkişaf edir və insanlarımızın güzəranına bolluq, əhval-ruhiyyəsinə nikbinlik gətirir. Torpaq mülkiyyətçiləri və fermerlər həvəslə sahələrdə əkin-biçinlə məşğul olur, istehsal etdikləri kənd təsərrüfatı məhsulları sayəsində həm öz ailələrinin həyatını, xoş güzəranını təmin edir, həm də ölkə iqtisadiyyatına sanballı töhfələr verirlər. Bu gün Tərtər pambıqçılarının əldə etdiyi uğurlar öz başlanğıcını yaxın keçmişimizdən – ulu öndər Heydər Əliyevin birinci dəfə respublikamıza rəhbərlik etdiyi dövrdən götürür. Pambıqçılığın insanların sosial həyatında nə qədər böyük rol oynadığını dönə-dönə bildirən ulu öndər respublikaya rəhbərlik etdiyi keçən əsrin 70-ci illərində bu sahənin inkişafına böyük önəm verirdi. O zaman Heydər Əliyev Tərtər rayonunun təbii iqlim şəraitini, torpağının keyfiyyətini yüksək qiymətləndirərək, burada pambıqçılığın inkişafını daim diqqət mərkəzində saxlayırdı. Bunun nəticəsi idi ki, 1981-ci ildə rayonumuzda pambıqçılıq öz inkişafının pik nöqtəsinə çatmış, 11 min hektardan çox sahədə pambıq əkilərək, 43 min tona yaxın məhsul toplanmışdı.

Orta məhsuldarlıq hər hektardan 39 sentner təşkil etmişdi. Yaşlı sakinlər ümummilli liderlə pambıq tarlalarındakı görüşləri, bu qiymətli bitkinin becərilməsinə

dair verdiyi tövsiyələri indi də minnətdarlıq hissi ilə xatırlayırlar.

Cənab Prezident, 2016-cı ildən başlayaraq, Sizin tapşırığınız əsasında bu sahənin dirçəldilməsi üçün atdığımız addımlar məhz həmin illərdə qazanılmış zəngin təcrübəyə əsaslanır. Rayonumuzun pambıqçıları cari mövsümdə 3427 hektar sahədən 11924 ton məhsul tədarük ediblər. Hər hektar üzrə orta məhsuldarlıq 34,8 sentner olub. Bu nailiyyət iqtisadi göstərici olmaqla yanaşı, həm də insanlarımızın öz Prezidentinin siyasətini ürəkdən dəstəkləməsinin bariz nümunəsidir. Onların vətənpərvərliyinin, vətənə bağlılığının təcəssümüdür. Mənfur qonşularımız becərmə dövründə işğal altındakı ərazilərdə yerləşən Sərsəng su anbarından Tərtər çayına gələn suyun qarşısını kəsdikləri üçün sahələrin suvarılmasında hər il çox böyük çətinliklərlə üzləşirik. Sizin tərtərlilərə göstərdiyiniz xüsusi qayğı nəticəsində sərəncamlarınızla hər il rayonumuzda yeni subartezian quyularının qazılması bu çətinlikləri qismən aradan qaldırır, kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır. Məlumat üçün bildirirəm ki, rayonda istismar olunan 531 subartezian quyusunun 150-si Sizin müvafiq sərəncamlarınızla son illərdə qazılan quyulardır.

Fermerlərimizin gərgin əməyi sayəsində 2019-cu ilin 9 ayında rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi 62 milyon 983 min manat təşkil edib və bu da əvvəlki ilin müvafiq dövrünə nisbətdə 8 milyon 517,6 min manat çoxdur. Bunun 8 milyon manata yaxını yalnız pambıqçılıq sahəsindən əldə edilib. Bu sahənin inkişaf etdirilməsi ilə bağlı kənd camaatının məşğulluğunun

təmin olunması insanlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Təkcə Tərtər rayonunda cari mövsümdə 3995 nəfər pambıq sahələrində çalışaraq, evinə halal qazanc aparıb ki, bunlardan da 1800 nəfəri əllə pambıq toplayanlardır.

Cari ildə Tərtər rayonunda 2018-ci ilin məhsuluna görə 930 istehsalçıya emal müəssisəsinə təhvil verdikləri xam pambıq üçün dövlət büdcəsi hesabına 800 min manat subsidiya ödənilib. Bu il isə dövlət büdcəsi hesabına 1 milyon 200 min manata yaxın subsidiya ödəniləcəkdir.

Möhtərəm cənab Prezident, Siz insanlara ləyaqətlə yaşayıb, zəhmətlə pul qazanmaq imkanı yaratdınız. Bunun nəticəsidir ki, fermerlərimizin pambıqçılığa olan marağı və gəlirləri ilbəil artır. Fermerlərimizdən Buruc kəndindən İlkin Qurbanov ötən il 12 min manat, cari ildə isə 12 dəfə çox – 144 min manat, Bəyimsarov kəndindən 1-ci dərəcəli «Əmək» ordenli Fazil Vəliyev ötən il 157 min manat, cari ildə 168 min manat, Azad Qaraqoyunlu kəndindən İsmayıl Mehdiyev ötən il 13,5 min manat, cari ildə 2,4 dəfə çox – 32,2 min manat gəlir götürübdür. Onların sahələrində hektarın məhsuldarlığı rayon səviyyəsindən də yüksək– 40–50 sentner olubdur.

Məhsuldarlığın yüksək olmasında texnikanın da müstəsna rolu vardır. Belə ki, əvvəlki illərdə texnika sarıdan çətinliklərimiz olurdu. Sizin son müşavirədəki tapşırığınızdan sonra bu sahədə ciddi dönüş yarandı. Cari mövsümdə rayonumuzda pambıqçılıq sahəsində 101 texnikadan 11-i şum aparılmasında, 44-ü səpin və

becərmədə, 15-i dərmanlamada istifadə olunub. 17-si isə müasir pambıqyığan kombayndır.

Bununla yanaşı, əkin sahələrinin düzgün seçilməsi, qış aratına qoyulması, vaxtında şumlanması, gübrələrin aqrotexniki qaydalara uyğun verilməsi və digər becərmə işlərinin düzgün təşkili son nəticədə yüksək məhsuldarlığı təmin edən amillərdir.

Rayonun sosial-iqtisadi inkişafını təmin etməklə yanaşı, vətəndaşlarla daim ünsiyyətdə olmağa, onların problemlərini yerində öyrənib həll etməyə çalışırıq. Sizin yeni təyin olunmuş icra başçılarını qəbul edərkən onlara və eləcə də bütün rayon icra başçılarına verdiyiniz – «Siz vətəndaşların qayğıları ilə yaşamalı, onların problemlərini öyrənməli, düzgün təhlil aparmalısınız» – tapşırığınız hazırda bizim fəaliyyətimizin əsas istiqamətini təşkil edir.

Möhtərəm cənab Prezident, Siz Tərtərdə olarkən pambıqçılarımızın təcrübəsinin yayılmasını tövsiyə etmişdiniz. Bu bizim zəhmətimizə verdiyiniz çox yüksək qiymətdir. Sizi bir daha əmin edirəm ki, bu, son hədd deyil. Tərtərlilər bundan sonra da öz əmək nailiyyətləri ilə ölkəmizin iqtisadi qüdrətinin artmasına töhfə verəcəklər.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, Tərtər düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, Vətənə bağlılıqlarını göstərmişlər.

2016-cı ilin aprel döyüşləri zamanı tərtərlilərin hamısı bir nəfər kimi, öz torpağını müdafiə etməyə qalxmışdılar. Bir nəfər də yaşadığı  yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır və Vətənə olan bağlılıqdır. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək doğrudan da yüksək qiymətə layiqdir. Biz onu da yaxşı bilirik ki, bədnam qonşular Tərtərin suyunu  kəsiblər. Ona görə bu ağır vəziyyətdə, demək olar ki, susuz bir vəziyyətdə belə yüksək məhsuldarlığı əldə etmək qəhrəmanlıqdır. Mən ona görə rayonların adlarını çəkdim ki, hər kəs bilsin harada nə qədər məhsuldarlıq var. Bəzi təsərrüfatlarda siz deyirsiniz ki, 40–50 sentner məhsul götürülübdür, deməli, biz bu hədəfə də yaxınlaşmalıyıq. Ona görə növbəti səpin mövsümünə qədər bütün bu işlər geniş təhlil olunmalıdır. Harada ki, məhsuldarlıq yüksəkdir, təsərrüfatlarda orta məhsuldarlıqdan daha yüksəkdir, o təcrübə öyrənilməlidir. Ola bilər ki, zona müşavirələri də keçirilsin. Bu sahədə həm kadr hazırlığı, maarifləndirmə, həm də yeni texnologiyalar ən yüksək standartlara cavab verməlidir. Çünki bizim əlavə torpağımız yoxdur. Biz 100 min hektarı ancaq pambıqçılığa ayırmışıq və hesab edirik ki, bu kifayətdir. Ancaq biz tədarükü məhsuldarlıq hesabına artırmalıyıq.

**Rövşən Həsənov** *(«MKT İstehsalat Kommersiya» MMC-nin baş direktoru):* Möhtərəm cənab Prezident!

Azərbaycan iqtisadiyyatının inkişafının sürətləndirilməsi strategiyasının özünü tam şəkildə doğrultduğunu görmək üçün bu gün ölkənin iqtisadi fəaliyyətinin nəticə və təhlilinə nəzər salmaq kifayət edir. Qazandığımız

uğurlar Sizin tərəfinizdən irəli sürülən, ümummilli liderimiz Heydər Əliyev ideyalarına söykənən yeni sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl surətdə həyata keçirildiyini nümayiş etdirir, ölkəmizin iqtisadi qüdrətinin sürətlə artmasını, xalqımızın rifah halının yüksəlməsini, dövlətimizin müdafiə qabiliyyətinin və beynəlxalq aləmdə nüfuzunun getdikcə möhkəmlənməsini təmin edir. Sizin təşəbbüs və tapşırıqlarınızın icrası olaraq, son illər ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar, sahibkarların fəaliyyəti üçün münbit şəraitin yaradılması istiqamətində atılan addımlar, imzalanan fərman və sərəncamlar artıq öz bəhrəsini verməkdədir. Ölkəmizin ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan pambıqçılığın xüsusi nəzarətinizdə olması bu sahənin inkişafı üçün möhkəm zəmin yaradıbdır.

Hörmətli cənab Prezident, «MKT İstehsalat Kommersiya» MMC pambıqçılığın inkişafında qarşıya qoyulmuş hədəfləri uğurla yerinə yetirməkdədir. Belə ki, cari ildə 10 min fermerlə bağlanmış müqavilə əsasında 45763 hektar sahədə pambıq əkilib, tədarük mövsümü ərzində kondisiya çəkidə ümumilikdə 145800 ton xam pambıq tədarük edilibdir. Sizin tapşırığınızı əsas götürərək, şirkətimiz yüksək məhsuldarlıq göstəricilərinə nail olmağı hədəfləyib, aqrotexniki tədbirlərin yüksək səviyyədə təşkili və vaxtında yerinə yetirilməsi hesabına hər hektardan 31,9 sentner orta məhsuldarlıq əldə edilib ki, bu da keçənilki nəticədən 4,6 sentner artıqdır. Tədarük mövsümü ərzində qəbul edilmiş xam pambığın dəyəri olaraq, bütün xərclər çıxılmaqla, fermerlərə ümumilikdə 44 milyon manatdan artıq vəsait ödənilib ki, bu da

şirkətimizin əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması və məşğulluq səviyyəsinin artırılması istiqamətində ölkə iqtisadiyyatına verdiyi töhfənin bariz göstəricisidir.

Məlumat üçün bildirmək istəyirəm ki, hər hektara düşən mahlıc çəkisinə görə dünya ölkələrinin məhsuldarlıq göstəricilərinin sıralamasında şirkətimiz əldə etdiyi nəticə ilə Amerika, Hindistan, Özbəkistan kimi, pambıqçılıqda söz sahibi olan ölkələrin nəticələrini geridə qoyaraq, ilk onluqda qərarlaşıb. Bu, müəyyənləşdirilmiş strategiyanın, verilmiş tapşırıqların və onların icrasının düzgünlüyünün məntiqi nəticəsidir.

2019-cu ildə pambığın məhsuldarlığının yüksəldilməsi məqsədilə dövlətimizin dəstəyi sayəsində gübrələrin hər hektar üçün norması artırılıb. Fermerlərin və ərazi nümayəndələrinin təlimatlandırılması, onların işlərinin əlaqələndirilməsi üçün aqronomiya idarəetmə strukturu təkmilləşdirilib. Fermerlərlə müqavilə bağlanarkən GPS vasitəsilə sahələrin ölçülməsi və onların elektron xəritəsinin hazırlanması həyata keçirilib. Hazır məhsulun keyfiyyətinin yüksəldilməsi, emal gücünün və mahlıc çıxımının artırılması məqsədilə Bərdə, Beyləqan, Ağcabədi və İmişli Pambıq Emalı zavodları dövlətimizin verdiyi subsidiyadan yararlanaraq, yenidən qurulub, xam pambıq və hazır məhsulun saxlanılması üçün infrastruktur yaxşılaşdırılıbdır.

Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən mövsüm boyu pambıqçılıq daim diqqət mərkəzində olub, 10-a yaxın müşavirə keçirilərək, şirkətin və fermerlərin problemləri yerində dinlənilib və həlli istiqamətində

qətiyyətli addımlar atılıb ki, bu da əldə edilmiş nəticədə müsbət rol oynayıbdır.

Pambıq və pambıq məhsulları istehsalında innovativ yanaşmanın tətbiqi, yüksəkkeyfiyyətli gübrə və pestisidlərdən, ən müasir texnika və texnologiyadan istifadə edilməsinin, kadrların ixtisas səviyyəsinin artırılmasının nəticəsi olaraq, şirkətimizin istehsalı olan pambıq məhsulları yüksək keyfiyyəti ilə xarici bazarlarda öz yerini tutub və bu, ölkənin xarici ticarət dövriyyəsində əksini tapıbdır. Belə ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac icmalı»nın 2019-cu ilin ilk 10 ayının nəticələrinə görə qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqi siyahısında «MKT İstehsalat Kommersiya» MMC 3-cü yeri tutubdur. Şirkətimizin 10 ayda ixrac gəlirləri 50,5 milyon ABŞ dolları olub və ilin sonunadək bu rəqəmin 70 milyon ABŞ dollarını keçəcəyi gözlənilir.

Möhtərəm cənab Prezident, pambıqçılığa göstərdiyiniz xüsusi diqqət və qayğı ölkəmiz üçün ənənəvi olan bu kənd təsərrüfatı sahəsinin sürətli inkişafına təkan verib. 2020-ci ildə də «MKT İstehsalat Kommersiya» MMC öz ənənəsinə sadiq qalaraq, ölkə üzrə nümunəvi göstəricilər əldə etməyi qarşısına hədəf qoyubdur. Biz artıq yeni mövsümə hazırlıq işlərinə başlamışıq. 2020-ci ilin pambıq əkini üçün 5807 fermerlə 27231 hektar sahə üzrə müqavilə bağlanılıb, 20 min hektardan artıq sahədə şum işləri aparılıbdır. Pambıqçılığın inkişafında qarşımıza qoyulan məqsədə nail olmaq üçün innovativ yanaşma, kadrların peşəkarlıq səviyyəsinin artırılması, pambıqçılığın daha yüksək inkişaf etdiyi ölkələrin

təcrübəsinin öyrənilərək, tətbiqi istiqamətində davamlı addımlar atmağı planlaşdırırıq. Bu il olduğu kimi, 2020-ci ildə də yeni növ pambıq toxumlarının təcrübə sahələrində əkilməsi, toxum sortlarının rayonlaşdırılmasının araşdırılması, damcı suvarma və tirəyə əkin kimi yeni metodların sınanması istiqamətində Kənd Təsərrüfatı Nazirliyi ilə əməkdaşlıq çərçivəsində birgə işlərin həyata keçirilməsi nəzərdə tutulubdur. Əminəm ki, bu və digər addımlar tərəfinizdən daim göstərilən dəstək sayəsində pambıqçılığın inkişafı üçün qarşımıza qoyduğunuz məqsədlərə çatmaqda öz töhfəsini verəcəkdir.

Hörmətli cənab Prezident, ölkəmizin bütün pambıqçıları, o cümlədən çoxsaylı zəhmətkeş kollektivimiz adından bizə göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə təşəkkür edir və əmin edirəm ki, verdiyiniz bütün tapşırıqların tez bir zamanda və keyfiyyətlə həyata keçirilməsi üçün bütün səylərimizi bundan sonra da səfərbər edəcəyik.

**İ l h a m Ə l i y e v:** Siz deyirsiniz ki, məhsuldarlığa görə MKT dünyada ilk onluqdadır. Ən çox məhsuldarlığı olan ölkələr hansılardır? Sizdə bu məlumat varmı?

**R ö v ş ə n H ə s ə n o v:** Bəli, var, cənab Prezident. İlk onluqda olan ölkələr Çin, İsrail, Yunanıstan, Avstraliya, Braziliya, Meksikadır.

**İ l h a m Ə l i y e v:** Orada nə qədərdir məhsuldarlıq?

**R ö v ş ə n  H ə s ə n o v:** Onlarda hər hektara mahlıc çəkisi ildən-ilə dəyişməklə, 1300–1700 kiloqram arasında olur. Bu, ilk yeddi yerə aiddir. Cənab Prezident, məhsuldarlığı 1100 kiloqram və daha artıq olan ilk onluğa düşür.

**İ l h a m  Ə l i y e v:** İndi yeni texnologiyalar – artıq nazir də bu barədə danışdı – sizdə də tətbiq olunur. Gələn il hansı sahədə onun tətbiqi nəzərdə tutulur?

**R ö v ş ə n  H ə s ə n o v:** Bu, dediyimiz Çin və türk texnologiyalarıdır. Bərdə rayonunun Ləmbəran kəndində artıq bir sahə ayrılıb, orada damcı suvarma sistemləri qurulacaqdır. Həmin o iki sistemdən də orada təcrübə sahəsi olaraq, bu il istifadə ediləcəkdir.

**İ l h a m  Ə l i y e v:** Yəni gələn il də bu elə pilot layihə kimi nəzərdə tutulur, yoxsa, artıq bunun əkin sahəsi genişləndiriləcəkdir?

**R ö v ş ə n  H ə s ə n o v:** Bu bizim şirkət üçün pilot layihəsi olacaq, cənab Prezident. Biz ondan əlavə, pivot suvarma sistemlərindən artıq 3 ildən çoxdur istifadə edirik. İndi 4000 hektardan çox sahədə hər il pivot suvarma sistemlərindən istifadə olunur.

**İ l h a m  Ə l i y e v:** 4000, amma sizin əkin sahəniz 45 mindir. Yəni 10 faiz ancaq pivotun altındadır. Onu da genişləndirmək lazımdır.

Gələn il hansı məhsuldarlığı hədəfləyirsiniz? İndidən demək olar?

**R ö v ş ə n  H ə s ə n o v:** Cənab Prezident, istənilən halda, məhsuldarlığımızın bu ildəkindən daha çox olmasını hədəfləyirik. Ən azı, bu il göstərilən hədəfin üzərinə çıxacağıq.

**Əhmədzadə Əhmədzadə** *(«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sədri):* Möhtərəm cənab Prezident!

Sizin rəhbərliyiniz, böyük diqqət və qayğınız sayəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı sahəsi də son 16 ildə böyük inkişaf yolu keçib. Sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artıb, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, yeni 4 su anbarı tikilərək istismara verilib, 10 min kilometrə qədər yeni suvarma və kollektor-drenaj şəbəkələri tikilib və bərpa edilib, 2200-dən artıq subartezian quyusu qazılıbdır.

Ümumilikdə 462 min hektar sahədə torpaqların su təminatı və 292 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 194 min hektar yeni suvarılan torpaq əkin dövriyyəsinə cəlb edilibdir. 2019-cu ilin kəskin quraq və isti keçməsinə baxmayaraq, bütün imkanlar səfərbər edilərək, irriqasiya və meliorasiya sistemlərinin normal istismarı təmin edilib, mövcud su ehtiyatlarından səmərəli və qənaətlə istifadə edilməsi, suvarmada növbəliliyin tətbiq olunması və görülmüş digər tədbirlər nəticəsində respublika üzrə bütün kənd təsərrüfatı bitkiləri 1 milyon 400 min hektar sahədə orta hesabla 3 dəfə suvarılıbdır.

Əvvəlki illərdə daha böyük sahələrdə pambıq əkini aparılsa da, sahələr düzgün seçilmədiyindən, qış otlaq sahələrində, suvarma şəbəkələri olmayan ərazilərdə pambıq əkinləri aparıldığından yekunda kifayət qədər məhsul istehsalına nail olunmurdu. Sizin tapşırığınıza əsasən, ötən illərdən fərqli olaraq, Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə

ötən ilin payız aylarından başlayaraq, 2019-cu ilin pambıq əkinləri üçün əsasən suvarma şəbəkələri olan sahələr seçilib və əkinlər həmin sahələrdə aparılıbdır.

Pambıqçılıq sahəsinin daha da inkişaf etdirilməsi, yüksək məhsul istehsalına nail olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Səhmdar Cəmiyyətin mütəxəssislərinin, pambıqçılıqla məşğul olan aidiyyəti qurumların, fermerlərin və torpaq mülkiyyətçilərinin iştirakı ilə geniş müşavirələr keçirilib. Həmin müşavirələrdə sahədə olan vəziyyət araşdırılıb, çatışmazlıqlar və problemlər ətraflı müzakirə edilib, onların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirilib və qarşılıqlı əməkdaşlıq şəraitində onların həllinə nail olunubdur.

Cari ildə 100 min hektar pambıq sahəsini suvarma suyu ilə təmin etmək üçün suvarma və kollektor-drenaj şəbəkələri, hidrotexniki qurğu, nasos aqreqatları, subartezian quyuları təmir edilib və yeniləri tikilibdir.

Mingəçevir su anbarında suyun səviyyəsinin azalması ilə əlaqədar Sizin tapşırığınıza əsasən, ötən ildən etibarən Yuxarı Şirvan kanalının baş qurğusunun sugətirici kanalının dərinləşdirilməsi işlərinə başlanılıb və görülmüş işlərin nəticəsi olaraq anbarda suyun səviyyəsinin azalmasına baxmayaraq, cari ildə kanala tələb olunan miqdarda suyun götürülməsi təmin edilibdir. Əgər bu işlər vaxtında yerinə yetirilməsəydi, Şirvan bölgəsi rayonlarının 130 min hektar torpaq sahəsinin su təminatında və əhalinin kommunal-məişət su təchizatında ciddi çətinliklər olardı. Suyun gətirilməsi üçün hazırda 50 ədəd maşın və torpaqqazan texnika cəlb olunmaqla, işlər

davam etdirilir. Görülmüş tədbirlər nəticəsində pambıq sahələri ümumilikdə 3,1 dəfə suvarma suyu ilə təmin edilibdir.

Möhtərəm cənab Prezident, Sizin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyiniz tapşırıqların icrası olaraq, Səhmdar Cəmiyyət meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, eləcə də sahələrin genişləndirilməsi istiqamətlərində əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də fəaliyyətini davam etdirib. Cari ildə respublikada 20 min hektara yaxın ərazidə yaradılmış 10 aqroparkdan 4-ü pambıqçılıq rayonlarının payına düşür.

Eyni zamanda, Sabirabad, İmişli, Biləsuvar və Saatlı rayonlarında yaradılmış iri təsərrüfatlara məxsus yeni suvarılan torpaqların suvarma suyu ilə təmin edilməsi və meliorativ tədbirlərin aparılması işləri davam etdirilib, Salyan rayonunda yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması üçün işçi layihə hazırlanıbdır.

Şəmkirçay su anbarı zonasında Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının 2-ci növbəsində son hissənin tikinti işlərinin başa çatdırılması ilə Goranboy rayonunun daha 12 min hektara yaxın torpaq sahəsi suvarma suyu ilə təmin edilib. Keçən əsrin 80-ci illərində tikintisi yarımçıq qalmış Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının Kür çayı üzərində yerləşən nasos stansiyalarının suvermə qabiliyyətinin artırılması işləri davam etdirilibdir.

Suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması üçün 2018-ci ildə Araz çayının beton üzlük çəkilmiş yeni qol kanalından suvarma sahələrinə suyun paylanması məqsədilə 115 kilometr paylayıcı kanalların tikintisi cari ildə başa çatdırılıbdır.

Sizin tapşırığınıza əsasən, Ələt–Astara magistral avtomobil yolunun Salyan, Neftçala, Biləsuvar və Cəlilabad rayonlarından keçən hissəsində yerləşən 20 min hektar qış otlaq sahələrində meliorativ tədbirlərin layihə sənədlərinin hazırlanmasına başlanılıbdır.

Respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 345 ədəd subartezian quyusu – onlardan 160 ədədi pambıqçılıq rayonlarının ərazilərində qazılıb ki, bu da 8362 hektar torpaq sahəsinin su ilə təmin edilməsinə imkan yaradıbdır.

2019-cu ildə respublikada 80 min hektara yaxın sahədə mühüm meliorativ tədbirlər həyata keçirilib ki, onun 28 min hektarı yeni suvarılacaq, 30 min hektarı su təminatı və 22 min hektarı meliorativ vəziyyəti yaxşılaşdırılan torpaqlardır və bunun da 49 min hektarı pambıqçılıq rayonlarının payına düşür.

Tapşırığınıza əsasən, 2020-ci ildə 400 ədəd subartezian quyusundan 158-in pambıqçılıq rayonlarında qazılması nəzərdə tutulub. Hazırda mütəxəssislərimiz tərəfindən yerli icra hakimiyyəti orqanları ilə birlikdə həmin quyuların yerlərinin seçilməsinə və layihələrinin hazırlanmasına başlanılıbdır.

Möhtərəm cənab Prezident, tapşırığınıza əsasən mövcud potensiallardan, torpaq və su ehtiyatlarından daha səmərəli istifadə etməklə, sahənin intensiv və

ekstensiv inkişafının təmin edilməsi məqsədilə mövcud suvarma şəbəkələrinin müasir tələblər səviyyəsində yenidən qurulması, torpaq məcralı kanalların beton üzlüyə alınması, istismar müddətini başa vurmuş nov kanallarının yenisi ilə əvəz edilməsi, suvarmada müasir texnologiyaların tətbiq olunması və suvarılan torpaqların genişləndirilməsi barədə Səhmdar Cəmiyyət tərəfindən İqtisadiyyat Nazirliyinə müvafiq təkliflər təqdim edilib və hazırda onlara baxılır.

Möhtərəm cənab Prezident, biz 16 ildir şahidiyik ki, Sizin rəhbərliyiniz altında həyata keçirilən hər bir tədbir bu və ya digər sahənin intensiv inkişafını, bu sahədə böyük dönüşün baş verməsini təmin edən səfərbəredici qüvvəyə malikdir. Son illərdə pambıqçılıqla bağlı keçirdiyiniz müşavirələr bunu bir daha sübut edir. Çünki Siz təkcə qarşıya tələblər qoymaqla kifayətlənmir, sahənin inkişafı üçün lazım olan dövlət dəstəyini ən yüksək səviyyədə təmin edirsiniz. Nəticələr göz qabağındadır – 294 min ton Azərbaycan pambığı.

Respublika melioratorları Sizi əmin edirlər ki, pambıq və digər kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bundan sonra da daha böyük səylə çalışacaqlar.

**İlham Əliyev**: Gələn il pambıqçılıqla bağlı hansı planlarınız var? Su ilə təmin edəcəksinizmi?

**Əhməd Əhmədzadə:** Şirvan və Mil-Muğan düzlərində suvarma dövriyyəsinə daxil olmayan torpaqlarımız var ki, əsas o işləri davam etdirəcəyik. İndi Sabirabadda çox böyük sahələr var, 14 min hektara yaxını yeni sahədir.

**İlham Əliyev**: Onu biz həll etdik.

**Əhməd Əhmədzadə:** Bəli, onu nasos stansiyalarında Sizə göstərmişdim, tikilib qalırdı. Çox böyük işdir, Sabirabad üçün çox böyük tədbirdir. «H» kanalını Siz çəkdirdiniz, onların 12 min hektar sahəsini su ilə təmin edir.

**İlham Əliyev:** Bəli, mən Sabirabadda olarkən fermerlər müraciət etdilər, vəsait ayırdıq və həll etdik. O problem artıq həll olunubdur.

**Əhməd Əhmədzadə:** Sizin tapşırığınıza əsasən, Salyan yolundakı sahəni araşdırdıq. Salyanla o biri rayonların əhatəsində, Cəlilabada qədər olan hissədə 32 min hektar torpaq vardır.

**İlham Əliyev:** Əlbəttə, yeni tras ki çəkildi, o trasın sağı-solu istifadə olunmamış, yəni heç vaxt əkilməmiş torpaqlardır. Əgər orada meliorativ tədbirlər görülərsə, biz onları da dövriyyəyə cəlb edə bilərik.

**Əhməd Əhmədzadə:** Sizin tapşırığınızla biz iki layihəni – 12 minlik Salyan layihəsini 20 minlik layihə ilə birləşdirdik. İndi kanalların sugətirmə qabiliyyətini, nasos stansiyalarının gücünü artırmaqla, bir bölgədə 32 min hektar yeni suvarılan sahələr yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

**İlham Əliyev:** Salyanın icra başçısı da məlumat versin. O sahələr pambıq üçün yararlıdırmı?

**Sevindik Hətəmov** *(Salyan Rayon İcra Hakimiyyətinin başçısı):* Su ilə təmin edilsə, gələcəkdə istifadə oluna bilər.

**İlham Əliyev**: Bəs indi oraya əmək resursları cəlb etmək olarmı? O yerlərdə yaşayış məntəqələri yoxdur.

**Sevindik Hətəmov:** Yaşayış məntəqələri yoxdur, amma torpaqlar vardır.

**Əhməd Əhmədzadə:** Yaxındadır, cənab Prezident. Keçən il Salyan həmin ərazidən istifadə etmişdi, bir az pambıq əkmişdi, heç 3–5 sentner götürə bilmədilər. Amma meliorasiya olunan torpaqda 30 sentner götürürlər.

**İlham Əliyev:** Bəli, 33,2 sentner və üçüncü yerdədir. Quraqlıq bu il bizə həddindən çox problem yaratdı.

**Əhməd Əhmədzadə:** Quraqlıqla mübarizə aparmaq üçün yalnız mövcud su potensialımızdan səmərəli istifadə etmək lazımdır. Sağ olun, bu yaxınlarda Siz əlavə vəsait ayırmağı tapşırdınız, onun hesabına nasosların, subartezian quyularının işləməsini artıq təmin edirik, yerlərdə problem aradan qalxır. Bu sahəyə kömək göstərmək üçün alternativ variantlar kimi, kollektor-drenaj sistemlərinin suyundan da istifadəni nəzərdə tuturuq. İl ərzində təqribən 100 kubmetrə yaxın o sulardan istifadə olunacaq. Əvvəllər az istifadə olunub, amma bu il belə nəzərdə tuturuq. Ancaq əsas məsələ qənaət rejimində işləmək, suvarmanı düzgün təşkil etməkdir. Məhsuldarlığa baxsaq, cənab Prezident, bu il o rayonların məhsuldarlığı yuxarıdır ki, orada doğrudan da su çətinliyi vardır. Mənfur qonşular Tərtər rayonunun

suyunu kəsiblər, ancaq artezianların hesabına məhsul 35 sentnerə yaxın olubdur.

**İlham Əliyev:** Elədir, artezianların çox böyük faydası oldu. Biz son illər təqribən 1500-ə yaxın artezian quyusu qazmışıq.

**Əhməd Əhmədzadə:** İndi tapşırıq verdiniz, gələn il daha 400 artezian quyusu qazılacaqdır.

**İlham Əliyev**: Bəli. Bu il 300 idi.

**Əhməd Əhmədzadə:** Bu il 345 idi, Sizin verdiyiniz tapşırıqla ümumi götürəndə 345 olur.

**İlham Əliyev:** Bəli, gələn il 400 quyu da böyük xeyir gətirəcəkdir.

**Kamran Nəbizadə** *(«Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin baş direktoru):* Möhtərəm cənab Prezident!

Ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlar üçün münbit şəraitin yaradılması, imzalanmış fərman və sərəncamlar artıq öz bəhrəsini verməkdədir. Kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı qəbul etdiyiniz qərarlar və verdiyiniz tövsiyələr sayəsində ölkəmizdə bu sahənin sürətli inkişafı üçün əlverişli şərait yaradılıbdır.

Hörmətli cənab Prezident, «Azərbaycan Sənaye Korporasiyası» ASC-nin törəmə müəssisəsi olan «Azərpambıq Aqrar Sənaye Kompleksi» MMC 2018-ci ilin mayında təşkil olunub, 6 Pambıq Emalı zavodu, 6 pambıq tədarükü məntəqəsi, 1 Yağ Emalı zavodu və Biləsuvar rayonunda 2000 hektarda yerləşən pivot suvarma qurğuları ilə təchiz edilmiş təcrübə-sınaq mərkəzindən ibarətdir. Cəmiyyət tərəfindən 2019-cu ildə 4481 fermerlə müqavilə imzalanıb, 29 min hektar sahədə pambıq əkilibdir. Pambığın əkilib-becərilməsində elmi yanaşma, növbəli əkin sistemi, müasir texnologiyaların tətbiqi ilə intensiv inkişaf, məhsuldarlığın yüksəldilməsi və keyfiyyətli pambıq istehsalı əsas məqsədlərdəndir.

Cari ildə tərəfimizdən bir sıra tədbirlər həyata keçirilib. Belə ki, istehsalat fəaliyyəti, satış, təchizat və korporativ idarəetmə sahələri üzrə tədbirlər planı, o cümlədən rayonlar üzrə əməliyyat planı və aqrotexniki xəritələr hazırlanıb. Fermerlərin elektron reyestri yaradılıb, pambıq əkilmiş sahələr ölçülərək xəritələnib və vahid coğrafi məlumat bazası yaradılıbdır. «Azərbaycan Sənaye Korporasiyası» ASC-nin sifarişi ilə «Azərkosmos» ASC-yə məxsus «Azərsky» peykinin təsvirləri əsasında pambıq əkini sahələrinin monitorinqi aparılıb. Layihə çərçivəsində suvarmanın, bitkinin cücərməsinin və inkişafının müqayisəli təhlilləri həyata keçirilib, əldə edilmiş nəticələrə uyğun olaraq tədbirlər görülübdür. Tələbata uyğun olaraq, yüksəkkeyfiyyətli pambıq toxumu, gübrə və bitki mühafizə vasitələrinin seçimi və tədarükü istiqamətində işlər aparılıbdır.

Pambıq əkini və becərmə dövründə fermerlərin maariflənmə tələbatını nəzərə alaraq, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə tərəfimizdən müxtəlif bölgələrdə xaricdən dəvət edilmiş mütəxəssislər, həmçinin yerli aidiyyəti qurumların nümayəndələri, aqronom və fermerlərin iştirakı ilə seminarlar və müşavirələr təşkil edilibdir. Çox vacib amil odur ki, bizim maddi-texniki bazamız güclənib. Biz bu 2 il ərzində «Azərpambıq» MMC-nin istifadəsinə 753 texnika, o cümlədən 45 kombayn, 201 traktor və 507 müxtəlif təyinatlı qoşqular vermişik ki, bunlar da birmənalı olaraq, məhsuldarlığın artmasına təsir edir. Müəssisənin qarşısında duran ən önəmli vəzifələrdən biri də şəffaf və dolğun uçot sisteminin qurulması idi. Bu elektron sistem üzərindən maliyyə menecmenti, insan resurslarının idarə edilməsi, satınalma, satış, istehsal və digər biznes proseslərin müvafiq modullar vasitəsilə avtomatlaşdırılmış rejimdə həyata keçirilməsi təmin edilir. Əlavə olaraq, maliyyə axınları üzərində mərkəzləşdirilmiş nəzarətin və şəffaflığın təmin edilməsi üçün elektron bankçılıq platforması tətbiq olunubdur.

Hazırda pambıq tədarükü mövsümü yekunlaşıb və pambığın emalı prosesi başlanıbdır. 2018-ci ildə 29 min hektarda əkin apardıq və 56600 ton xam pambıq əldə etdik. Bu il Sizin ekstensiv qaydalardan intensiv və innovativ qaydalara keçmək tapşırığınızı rəhbər tutaraq, 2019-cu ildə əkin sahələrinin miqdarını eyni – 29 min hektarda saxlamaqla, 80 min ton xam pambıq yığmışıq. Biz ilin əvvəlində hektardan 25 sentnerə yaxın xam pam-

bıq yığmağı proqnozlaşdırmışdıq, artıq bizim nəticəmiz 27,6 sentner təşkil edir.

Emal zavodlarının istismara buraxılışı əsasən 2004–2008-ci illəri əhatə etdiyindən, onların modernləşdirilməsi və yenidən qurulmasına ciddi tələbat vardır. Bu məqsədlə ilkin olaraq «Azərpambıq» MMC-nin vəsaiti hesabına Ağcabədi rayonunda günlük emal gücü 200 ton xam pambıq olan yeni Pambıqtəmizləmə zavodu, demək olar ki, sıfırdan quruldu və bu ayın sonunadək istismara veriləcək. Bu da imkan verəcək ki, yığdığımız 80 min xam pambığı tam emal edək.

Mahlıcın keyfiyyətini yüksəltmək məqsədilə Ağcabədi, Beyləqan, Biləsuvar, Saatlı zavodları qaz və qurutma qurğuları ilə təmin edilib. Gələcək illərdə tələbata görə mövcud zavodların modernizasiyası və ya yenilənməsi planlaşdırılır. Görüləcək işlər yüksəkkeyfiyyətli və rəqabətli mahlıc və yağ istehsalına imkan verəcəkdir.

İnkişaf strategiyasının digər istiqaməti müasir avadanlıqlarla təchiz olunmuş Tekstil fabrikinin qurulmasıdır ki, bu da mahlıcın son məhsula çevrilməsini, əlavə dəyərin yaradılmasını, gəlirlərimizin artmasını təmin edəcək. Pambıq mahlıcından yüksəkkeyfiyyətli iplik və parça istehsalının təşkili həm dəyər zəncirinin artmasına, həm də yeni iş yerlərinin yaranmasına xidmət edəcək. Hazırda bu istiqamət üzrə işlər gedir, araşdırmalar və hesablamalar aparılır.

Kənd təsərrüfatının müvafiq sahələri üzrə peşəkar gənc kadrların hazırlanması korporasiyanin ən vacib vəzifələrindən biridir. Bu məqsədlə «Azərbaycan Sənaye

Korporasiyası» ASC ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında Memorandum imzalanıb. Məqsədimiz aqrar sahədə, o cümlədən pambıqçılıq sahəsində birgə elmi tədqiqatlar aparmaq, tələbələrin biznes ideyalarını, innovativ təşəbbüslərini dəstəkləmək və nəticədə pambıqçılığı və digər sahələri ixtisaslaşmış kadrlarla tam təmin etməkdir.

Artıq yeni mövsümə hazırlıq işlərinə başlanılıb. Hazırda 2661 fermerlə müqavilə imzalanıb. Bu, 16 min hektar sahəni əhatə edir. Biz 9700 hektarda çöp doğrama işləri aparmışıq və 7300 hektarda şum işləri aparılıbdır.

Dövlət proqramlarından irəli gələn, respublikada pambıqçılığın inkişafı üzrə qarşıya qoyulmuş vəzifələrin icrasında üzərimizə düşən məsuliyyəti dərk edərək, bütün tapşırıqların tez bir zamanda və keyfiyyətlə həyata keçirilməsi üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

Hörmətli cənab Prezident, icazə verin, pambıqçılığa göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə çoxsaylı kollektivimizin minnətdarlığını çatdırım.

**İlham Əliyev:** Tekstil fabrikinin tikilməsi ilə bağlı siz hansısa ciddi təhlil aparmısınızmı?

**Kamran Nəbizadə:** Bəli, cənab Prezident, təhlillər aparılıb və bütün hesablamalar hazırdır ki, yeni fabrikin tikilməsi neçəyə başa gələcək, orada 30 və 40 seriyalı ipliklərin istehsalı təmin olunmalıdır, çünki onlar daha əlverişli və yüksək qiymətə satılır, ixrac olunur.

**İlham Əliyev:** Məhsuldarlıqla bağlı siz deyirsiniz ki, 25 sentner nəzərdə tutulurdu, 27,6 sentner əldə edilib. Ancaq bu, MKT-dən aşağı göstəricidir. Ona görə siz də çalışmalısınız ki, 30 sentnerə yaxınlaşasınız. Çünki bizim əsas tədarükçülər MKT və «Azərbaycan Sənaye Korporasiyası»nın törəmə şirkəti olan «Azərpambıq»dır. Bu iki şirkət birlikdə 225 min ton pambıq tədarük edib – 294 minin 225 minini. Əkin sahələri də 75 min hektardır. Yəni bizim pambıqçılıqla məşğul olan bu iki şirkətdir, biri dövlət şirkəti, biri özəl şirkət. Rəqəmlər göstərir ki, özəl şirkət məhsuldarlıqla bağlı daha səmərəli işləyir. Bunun bir izahı ola bilər ki, «Azərpambıq» indi yeni əsaslarla qurulur, əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Yeni şirkət olaraq, əlbəttə, müəyyən qədər vaxt lazımdır. Ancaq bu ilin təcrübəsi geniş təhlil edilməlidir, həm müsbət, həm mənfi təcrübə. Müsbət təcrübə ona görə ki, o səviyyəyə çatmayan təsərrüfatlar və rayonlar ümumi məhsuldarlığın səviyyəsinə çatmağa çalışsınlar. Mənfi təcrübə də ciddi təhlil olunmalıdır ki, gələcəkdə bu pozuntulara və məsuliyyətsizliyə yol verilməsin.

**Vidadi İsayev** *(Bərdə Rayon İcra Hakimiyyətinin başçısı):* Möhtərəm cənab Prezident!

Bugünkü müşavirə Sizin rəhbərliyinizlə regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının uğurla icra edildiyi, yeniləşmə, müasirləşmə və geniş islahatların həyata keçirildiyi əlamətdar bir dövrə təsadüf edir.

Yeni Dövlət Proqramı, həyata keçirilən tədbirlər regionlarda əvvəlki illərdə aparılmış islahatlara, görülmüş işlərə yeni təkan verib, digər sahələrlə yanaşı, qeyri-neft sektorunun, o cümlədən strateji sahə olan kənd təsərrüfatının inkişafında da əsaslı dönüş yaradıbdır.

Sizin böyük uzaqgörənliklə irəli sürdüyünüz «Strateji Yol Xəritəsi»nə uyğun olaraq, istifadəsiz torpaqların əkin dövriyyəsinə qaytarılması, görülən meliorativ tədbirlər, su təchizatının yaxşılaşdırılması, yeni aqroparkların yaradılması, ən müasir texnika ilə təchizat, yeni aqrotexniki üsulların tətbiqi, ən əsası isə əmək adamlarına olan yüksək dövlət qayğısı bu yüksəlişi şərtləndirən əsas cəhətlərdir. Məhz bunun nəticəsidir ki, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz istehsalında və digər sahələrdə 2019-cu ildə əvvəlki illərlə müqayisədəki fərq faizlə deyil, dəfələrlə ölçülür.

Cənab Prezident, respublikanın ən böyük kənd təsərrüfatı rayonlarından olan Bərdədə də digər sahələrlə yanaşı, pambıqçılıqda sürətli inkişaf dinamikası vardır. 2015-ci ilə nisbətən 2019-cu ildə pambıq əkini sahəsi 9 dəfə, pambıq istehsalı 12 dəfə artıbdır.

Sizin ulu öndərin dövründəki ənənəni davam etdirərək, son pambıqçılıq müşavirəsini Bərdədə keçirməyiniz, pambıqçılarla səmimi görüşünüz, verdiyiniz tapşırıq və tövsiyələr Bərdə pambıqçılarında əmək coşqunluğunu daha da artırıb və Sizə söz verdiyimiz kimi, bərdəlilər öz ənənələrinə sadiq qalaraq, 2018-ci və 2019-cu illərdə pambıq yığımını ən yüksək məhsuldarlıqla başa çatdırıblar.

Müqayisə üçün bildirirəm ki, bu il Bərdədə 2018-ci ildəkindən 510 hektar çox – 10140 hektar sahədə pambıq əkilib, indiyədək ötən ildəkindən 8,6 min ton çox – 34150 ton pambıq tədarük edilibdir. Məhsuldarlıq ötən il 26,4 sentner olduğu halda, bu il 33,7 sentnerdən çox olubdur.

Möhtərəm cənab Prezident, Sizin daim qeyd etdiyiniz kimi, pambıq ölkəyə valyuta gətirən, respublikada sənaye istehsalına təkan verən sahə olmaqla yanaşı, həm də insanların məşğulluğunun təmin edilməsinə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərən sahədir. Məhz buna görədir ki, əhalinin torpağa bağlılığı daha da artıb. 2019-cu ildə kənd təsərrüfatı sahəsində 38 min nəfərdən çox, təkcə pambıqçılıq sahəsində isə 20 min nəfərə yaxın sakinimiz işə cəlb edilibdir.

Sevindirici haldır ki, son dövrlər keyfiyyətli dərmanların, subsidiyalarda yeni qaydaların tətbiqi, yeni müasir texnikalarla təminat, bütövlükdə dövlətin pambıqçılığa göstərdiyi dəstək, əmək adamlarına olan diqqət və qayğı pambıqçılığa marağı daha da artırıb. Bu səbəbdən qabaqcıl fermerlərin də sayı ilbəil artır.

Cari ildə pambıqçılıqdan rayona 22,9 milyon manatdan çox vəsait daxil olub, həmçinin subsidiya hesabına əlavə 3,4 milyon manat vəsait də daxil olacaq ki, bu da ümumilikdə 26,3 milyon manat təşkil edir. Bu vəsaitin 21 milyon manatı əmək adamlarına çatan xalis qazancdır.

Cari ildə rayonda digər təsərrüfat sahələrində də yüksək göstəricilər əldə edilib. Bu il taxıl tədarükündə

respublikada ən yüksək məhsuldarlıq məhz Bərdə rayonunda olubdur.

Cənab Prezident, yeri gəlmişkən bir faktı da qeyd edim. Biz həmişə elə hesab edirik ki, təkcə pambıqçılıqda, baramaçılıqda, konkret bu sahələrdə inkişaf var və bu sahələrdə daha çox məhsul götürülür. Mən haşiyə çıxıb demək istəyirəm ki, təkcə bu il Bərdədə soğan əkinindən bərdəlilər 13 milyon manat xalis qazanc götürüblər. Bu nəyin hesabınadır? Məhsuldar torpaqları istifadəyə verməyin hesabına və eyni zamanda, mən açığını deyirəm ki, bu gün Kənd Təsərrüfatı Nazirliyinin, «Azərsu» və digər təşkilatların bütün strukturlarının əlçatan olmasının nəticəsində. Soğana tətbiq olunan gömrük ixrac rüsumunun Sizin göstərişinizlə bir günün içərisində ləğv olunması soğanın bir kisəsinin qiymətini 4 manatdan 44 manata qaldırmışdır. Bərdəlilər bu il 4 xarici ölkəyə soğan ixrac ediblər. Artıq digər sahələrdə də yüksək göstəricilər əldə olunmaqdadır.

**İ l h a m   Ə l i y e v:** Taxılçılıqda məhsuldarlıq nə qədərdir?

**V i d a d i   İ s a y e v:** Taxılçılıqda 44,3 sentner. Respublikada ən yüksək göstəricidir. Bərdənin tarixində heç vaxt belə göstərici olmayıb. Cənab Prezident, müqayisə üçün deyim ki, 2015-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı rayon iqtisadiyyatının 40 faizini təşkil edirdisə, hazırda bu göstərici 55 faizə yüksəlibdir.

Pambıqçılığa hərtərəfli dövlət qayğısını və əməyinin nəticəsini görən rayon fermerləri son bir ayda artıq yeni

mövsümdə 9000 hektardan çox sahədə pambıq əkilməsi üçün istehsal müəssisələri ilə müqavilə bağlamışlar və yaxın vaxtlarda bu tamamlanacaqdır. Sizin tapşırığınızla gələn il də əkin üçün yüksək məhsul verəcək ən münbit torpaqlar seçilib. Hədəfimiz rayon üzrə 10 min hektardan çox pambıq əkərək, məhsuldarlığı hər hektardan 35 sentnerə çatdırmaqdır. Sizin «Harada ki, işlərə ciddi yanaşırlar, orada məhsuldarlıq yüksəkdir» fikriniz bundan sonra da məni və həmkarlarımı bu sahəyə daha ciddi yanaşmağa səfərbər edəcəkdir.

Cənab Prezident, zəhmətkeşlərin əməyini yüksək qiymətləndirməyiniz onlara böyük stimul verir. Sizin ötən il hər hektardan 42,5 sentner pambıq tədarük etmiş fermer Elman Nərimanovu 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif etməyiniz bütün bərdəlilərin əməyinə verilən yüksək qiymətdir.

Yeri gəlmişkən, icazə verin, bərdəlilərin səmimi bir etirafını da Sizin ali diqqətinizə çatdırım. Yerlərdə əhali ilə keçirilən qəbul-görüşlər zamanı müxtəlif təbəqələrdən olan insanlar minnətdarlıq edərək bildirirlər ki, möhtərəm Prezidentimizin sayəsində pambıqçılıq və baramaçılıqdan əldə olunan gəlir təkcə həmin sahənin adamlarının deyil, bizim hər birimizin həyat səviyyəsinin yüksəldilməsinə, alıcılıq qabiliyyətinin artmasına təkan veribdir.

Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınızla bütün ölkəmizdə olduğu kimi, Bərdə rayonunda da kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənir. Cari ildə rayonda regional yun qəbulu müəssisəsi, tutumu 15 min ton olan yeni pambıq qəbulu məntəqəsi tikilib

istifadəyə verilib, ilkin barama emalı müəssisəsinin tikintisi başa çatmaq üzrədir. Qarğıdalı Emalı zavodunun, daha bir pambıq qəbulu məntəqəsinin tikintisi üçün hazırlıq işləri aparılır.

Həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində ixtisaslı peşə kadrlarının çatışmazlığının aradan qaldırılması ilə əlaqədar verdiyiniz tapşırığa əsasən, minnətdarlıq hissi ilə bildirirəm ki, rayonda smeta dəyəri təxminən 26 milyon manat olan 12 peşə ixtisası üzrə 1000 yerlik Regional Peşə Təlim Mərkəzinin tikintisinə başlanılıb və tikinti sürətlə gedir.

Cənab Prezident, ulu öndərin siyasi kursuna və müdrik ölkə başçısı kimi, Sizə sonsuz məhəbbət və sədaqətini daim nümayiş etdirən bərdəlilər adından zati-alinizi əmin edirəm ki, respublikamızda aqrar sahənin, o cümlədən pambıqçılığın inkişafı ilə bağlı qarşıya qoyduğunuz mühüm vəzifələrin uğurla yerinə yetirilməsi üçün var gücümüzlə çalışacaq, bu şərəfli işə öz layiqli töhfələrimizi verəcəyik.

**İ l h am  Ə l i y e v:** Bərdədə həmişə pambıqçılıq çox geniş vüsət alıb, xüsusilə ulu öndərin dövründə. Siz yaxşı bilirsiniz və bərdəlilər də yaxşı bilir ki, ulu öndər ötən əsrin 70-ci illərində, 80-ci illərin əvvəllərində hər il Bərdəyə gəlirdi, həm Bərdədə, həm Sabirabadda zona müşavirələri keçirirdi. Ən çox pambıq tədarük edən iki rayonumuz – Sabirabad və Bərdə o illərdə pambıqçılıq sahəsində çox inkişaf etmişdi və sakinlər də öz maddi vəziyyətini xeyli yaxşılaşdırmışdılar. Şadam ki, Bərdədə pambıqçılıq ənənələri bərpa edilir – bu il məhsuldarlığa

görə Bərdə ikinci yerdədir və bu məni çox sevindirir. Eyni zamanda, yadımdadır, Bərdədə sovet vaxtında baramaçılıq da çox inkişaf etmişdi və pambıq tarlalarının ortalarında elə bil sərhəd kimi, tut ağacları əkilirdi. Ondan sonra, yəni xaos dövründə o ağaclar da qurudu, kəsildi. İndi biz bunu bərpa edirik və baramaçılığın da çox böyük perspektivləri vardır. O ki qaldı taxılçılığa, indi hektardan 40 sentner götürürsünüzsə, demək olar ki, Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsinə yaxınlaşırsınız. Bu, rekord göstəricidir. Bilmirəm, əvvəlki illərdə bu qədər olubmu?

**V i d a d i İ s a y e v:** Heç vaxt bu qədər olmayıbdır.

**İ l h a m Ə l i y e v**: Olmayıb, yəni bütün bunlar da səmərəli işin təşkili nəticəsində mümkündür: aqrotexniki tədbirlər, texnika, gübrələr, suvarma, səfərbərlik, yerli icra orqanlarının fəal işi, mərkəzi icra orqanlarının islahatlarla bağlı addımları nəticəsində. Bütün bu işləri biz ancaq birlikdə edə bilərik. Ona görə mən bir daha deyirəm, sadəcə olaraq, kənd təsərrüfatını özəl sektorun öhdəsinə buraxmaq qətiyyən mümkün deyil və bu heç bir nəticə verməyəcəkdir. Çünki infrastruktur, suvarma, texnika, subsidiyalar, gübrə-yanacaq dövlət hesabınadır. Harada, hansı ölkədə fermerlər üçün belə şərtlər vardır? Bax, siz hamınız yaxşı bilirsiniz ki, fermerlər bütün vergilərdən azaddırlar, ancaq torpaq vergisi ödəyirlər, bu da cüzidir, rəmzi xarakter daşıyır. Gübrəyə 70 faiz subsidiya, yanacağa 50 faiz subsidiya, texnika böyük güzəştlərlə verilir, kanallar dövlət hesabına çəkilir. Pivot Sis-

temləri İstehsalı zavodu artıq fəaliyyət göstərir və pivotaltı sahələrin genişləndirilməsi də gündəlikdədir. Digər önəmli tədbirlərdən olan yol çəkilişi indi nə qədər böyük xeyir gətirir – həm vətəndaşlara, həm də fermerlərə rahatlıq. Əlbəttə ki, bazarlara məhsulu tez çatdıra bilərlər. Siz indi deyirsiniz ki, soğandan 13 milyon gəlir əldə olunubdur.

**Vidadi İsayev:** Xalis gəlir.

**İlham Əliyev**: Çox yaxşı, ona görə yerlərdə ixtisaslaşma getməlidir və hansı sahə daha çox gəlir gətirirsə, o sahəyə, əlbəttə ki, fermerlər özləri üstünlük verirlər. İndi ixracla bağlı bizdə problem yoxdur. Heç bir bazar bizim üçün bağlı deyil. Bunu biz uğurlu xarici siyasət nəticəsində əldə etmişik. Bütün bazarlara çıxışımız vardır. İndi gömrük sektorunda aparılan islahatlar artıq əvvəlki dövrlərdə ixracla bağlı olan problemləri də aradan götürür. Çünki vaxtilə fermer, yaxud da hansısa şirkət malı ixrac etmək üçün gərək min əziyyətdən keçəydi. Müxtəlif əsassız tələblər irəli sürülürdü. İndi bütün bunlar yığışdırılıb. Ona görə sağlam iqtisadi mühit, investisiya mühiti, dövlət dəstəyi, şirkətlərin dövlət qurumları ilə sıx təmasda olması, yerli icra orqanlarının, mərkəzi icra orqanlarının vahid yanaşması, bax, bu uğurumuzu şərtləndirir. «Əmək» ordeni ilə bağlı siz məlumat verdiniz. Bu orden də mənim təşəbbüsümlə təsis edilib və bu məhz əməkdə yüksək məhsuldarlıq göstərmiş, yüksək nailiyyət qazanmış vətəndaşlara verilən yüksək dövlət mükafatıdır. Bunun 3 dərəcəsi var və

əlbəttə ki, bu dərəcələr görülmüş işlərə görə verilir. Pambıqçılar da «Əmək» ordeni ilə təltif olunublar. Səhv etmirəmsə, biz bu ordenin kənd təsərrüfatı üzrə birincisini pambıqçılara vermişik.

**Nazim İsmayılov** *(Saatlı Rayon İcra Hakimiyyətinin başçısı):* Möhtərəm cənab Prezident, çox vaxt almaq niyyətində deyiləm, amma pambıqçılıqla bağlı bir problemi diqqətinizə çatdırmaq istəyirəm. Çünki bu gün buraya toplaşmaqda məqsəd pambıqçılıqda olan problemləri Sizin rəhbərliyinizlə öyrənmək, gələcəkdə məhsuldarlığın artırılması hesabına pambıq tədarükünü yüksəltməkdir. Bilirsiniz ki, Saatlı pambıqçılıq sahəsində respublikada əvvəllər də yüksək nəticələr qazanıb. Bu il də respublikada ən çox pambıq tədarük edən rayon Saatlıdır, 42 min tona yaxın pambıq tədarük etmişik. Bu, keçən ilkindən təqribən 12 min tona yaxın artıqdır, hər hektardan 11 sentner artıqdır. Əhali bu pambıqdan 20 milyona yaxın xalis gəlir götürübdür.

Bunları deyib əsas problemə keçmək istəyirəm. Çünki Saatlı rayonunun 108 min əhalisinin 90 mini kənddə yaşayır. Bu kəndlərdə də camaatın işi ancaq təsərrüfatdır, bu gün də burada pambıqçılıq əsas yer tutur. Saatlıda suvarma ilə əlaqədar bizim ciddi problemlərimiz vardır. Məndən əvvəl də bu problemlər qaldırılıb. Bu il quraqlıq keçdi, buna baxmayaraq, biz vəziyyətdən birtəhər çıxdıq. Amma nəzərə almaq lazımdır ki, biz pambığın 3000 hektarını bir dəfədən artıq suvara bilmədik. 4000 hektarda birinci suvarma ilə ikinci suvarma arasında aqrotexniki tədbirlər, tələblər pozuldu. Qısası, burada

məsələni həll etmək üçün Kür çayından Saatlıya 20 kubmetr həcmində 17-18 kilometrlik məsafədən su xətti çəkilməsi layihəsi var və bu Sizin göstərişinizlə İqtisadiyyat nazirinə tapşırılıb. İqtisadiyyat naziri də bu tapşırığı «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinə göndərib. Mən bütün aidiyyəti qurumlarda olmuşam və layihə də işlənilir. Amma bu gün burada onunla əlaqədar söhbət getmədi. Elə bugünkü tədbir, cənab Prezident, qoy saatlılıların uzun illər mövcud olan bu probleminin həllini təmin edən gün olsun. Çünki Sizin tapşırığınızla Arazdan 54 kilometrlik əlavə yeni bir qol da çəkildi. Orada qış otlaqları əkin sahəsi altına keçirildi. İstər-istəməz bu da o sudan götürülür. Ona görə də bizim su problemimizi, çətinliyimizi aradan qaldırmaq üçün bu layihə çox vacibdir. Eyni zamanda, köhnə daşıyıcı su kanalları vardır. Əhməd müəllim bunları yaxşı bilir, Arazdan gələn daşıyıcı su kanalları uzun illərdir təmir edilmədiyindən nasos vasitəsi ilə deyil, öz axını ilə gələn o suların bir hissəsi itkiyə gedir. Təsəvvürünüzə gətirin ki, Arazdan gələn suyun 30 faizi itkiyə gedir, axmaz göllərdə qalır, ona görə də çətinliyimiz vardır. Mən fürsətdən, yaratdığınız şəraitdən, imkandan istifadə edərək, bu problemi Sizin ali diqqətinizə çatdırmaq istədim. Ümid edirəm ki, Sizin bilavasitə nəzarətinizlə bu problem tezliklə öz həllini tapacaqdır. İnanın ki, bu il suda problem olmasaydı, biz 50 min ton pambıq verəcəkdik. Saatlının 1981-ci ildə ulu öndərin rəhbərliyi dövründə ən yüksək pambıq istehsalı göstəricisi 60 min ton olub. Bu il isə 42 min ton oldu. Amma biz 50 min tonu tədarük edə bilərdik. Ona görə çox xahiş edirəm ki, saatlılıların

bu müraciətini öz nəzarətinizdə, diqqətinizdə saxlayasınız, bizə kömək olunsun. Mən vaxtınızı aldığıma görə dönə-dönə üzr istəyirəm. Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v**: Yaxşı ki, bu məsələni qaldırdınız. Saatlı hazırda ən böyük pambıqçılıq rayonudur və 42 min ton pambıq tədarük edibdir. Sovet vaxtında Bərdə, Sabirabad 1-2-ci yerləri bölüşürdü. Hazırda pambıqçılıq Saatlının əsas iqtisadi sahəsidir. Məşğulluğu təmin edən də məhz pambıqçılıqdır. Siz Saatlıda bu yaxınlarda işləməyə başlamısınız, əvvəl qonşu rayonda – Sabirabadda idiniz. Yaxşı bilirsiniz ki, Saatlıda və eləcə də Sabirabadda biz pambıqçılığa dövlət dəstəyi verənə qədər işsizliklə bağlı çox böyük problemlər var idi. Pambıqçılıq bu problemi, demək olar ki, aradan qaldırdı. Baxmayaraq ki, su ilə bağlı problemlər olub, amma yenə də hektardan 30 sentnerdən çox məhsul əldə edilibdir. Çox gözəl göstəricidir. O ki qaldı Kür çayından yeni kanalın çəkilməsinə, indi Əhmədzadə məlumat versin, bu məsələ nə yerdədir?

**Ə h m ə d Ə h m ə d z a d ə:** Cənab Prezident, mən Nazim müəllimin dediklərini təsdiq edirəm ki, Saatlıda doğrudan da müvafiq problemlər vardır. Ümumiyyətlə, Muğan zonasında su problemi vardır. Orada suyun təminatı iki sahədən gedir – Araz və Kür çayı ilə. Kür çayı ilə bağlı problem yoxdur. Amma Araz çayında su ilə bağlı bir az məhdudiyyət olur. Ona görə hamı istəyir ki, Kür çayından da böyük mənbə əldə etsin. Biz o məsələni öyrənmişik, Sizin yanınızda olanda mən bir balaca izah

etmişdim. Siz dediniz ki, layihə hazırlayın, baxaq. Biz bu dəqiqə layihə hazırlayırıq. Suqovuşanda – Kür çayı ilə Araz çayının qovuşduğu yerdə nasos stansiyası tikməklə, 16 kilometr məsafəyə suyu nəql edərək, Saatlıya 20 kubmetr suyun verilməsi mümkündür. Hazırda layihə işlənilir və biz İqtisadiyyat Nazirliyinə verdiyimiz təkliflərdə o vardır.

İkinci problem Orta Muğan kanalı ilə bağlıdır, 50–60 ilin torpaq kanalıdır. O kanal özü də qumsal sahədən keçdiyi üçün süzülmə çox böyükdür. Mən Sizə keçən dəfə görüşdə dedim ki, o kanalları beton üzlüyə almasaq, itkilər çox olacaq. Həmin kanalla biz 27 kubmetr su verə bilirik. Amma hər yerin suyunu bağlasaq, aşağıdakı təsərrüfatlara 5 kubmetrə yaxın su gedib çıxacaqdır. Deməli, 44 kilometr uzunluğunda knalda itkilər çox böyükdür. Həmin o kanalda da bərpa işləri görmək lazımdır ki, beton üzlüyə alınsın. O da bizim verdiyimiz təkliflərin içərisində vardır.

**İlham Əliyev:** Bu 17 kilometr uzunluğunda kanalı çəkmək üçün nə qədər vaxt lazımdır? Layihə hazırdır, yoxsa hələ hazır deyil?

**Əhməd Əhmədzadə:** Biz layihəni bu kvartal hazırlayıb verəcəyik. Vəsait ayrılsa, biz onu 1 ildə də edə bilərik, təxminən 50–55 milyon manat pul tutur.

**İlham Əliyev:** Onda layihə hazır olan kimi, bir də məruzə edin. İndi İqtisadiyyat Nazirliyinə də tapşırıq veriləcək ki, onlar bu layihəni təhlil etsinlər və investisiya

proqramına salsınlar. O ki qaldı digər kanallara, əfsuslar olsun ki, bizim kanalların böyük hissəsi torpaq kanallardır.

**Ə h m ə d Ə h m ə d z a d ə:** 75 faizi.

**İ l h a m Ə l i y e v**: Əlbəttə, biz son vaxtlar onları beton üzlüyə almağa başladıq və görürük ki, bunun nə qədər böyük səmərəsi vardır. Birincisi, su ünvan başına çatır. İkincisi, bu torpaq kanallar o torpaqları da şoranlaşdırır və torpaq sıradan çıxır. Ona görə mən «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinə göstəriş vermişdim ki, bizim bütün su kanallarımız geniş təhlil edilsin və biz ardıcıllıqla beton kanallara keçməliyik. Baxmaq lazımdır, dünyada artıq bu sahədə də böyük inkişaf var, yeni texnologiyalar, yeni suvarma qaydaları mövcuddur. İndi hətta pivot da yeni texnologiya sayılmır. Kanalların çəkilişində ondan da qabaqcıl, mütərəqqi texnologiyalar, müasir yanaşmalar vardır. Ona görə buna mütləq fikir vermək lazımdır. Bizdə həddindən çox su itkiləri vardır. Onsuz da biz su sarıdan korluq çəkirik. Ancaq hələ bu bir yana qalsın, itkilər də çoxdur. Əgər biz bu itkiləri əhəmiyyətli dərəcədə azalda bilsək – bunun da yolları var – onda daha böyük sahələri dayanıqlı su ilə təmin edəcəyik. İndi göllərdə də suyun səviyyəsi aşağı düşüb. Əgər biz vaxtilə Taxtakörpü su anbarını tikməsəydik – bunu açıq deməliyik – bu gün Bakı susuz qalacaqdı. Elədirmi?

**Ə h m ə d Ə h m ə d z a d ə:** Bəli.

**İ l h a m Ə l i y e v:** Çünki Taxtakörpü su anbarı və su kanalı həyati əhəmiyyət daşıyan layihədir. Şəmkirçay su anbarı da həmçinin. İndi görün biz nə qədər böyük sahələri su ilə təmin edirik.

Meliorativ tədbirlər son illərdə prioritet infrastruktur məsələlərinin sırasındadır və bir çox işlər görülübdür. Biz gərək suyun səmərəli istifadəsi ilə bağlı tədbirlər planı tutaq. Torpaq kanalları beton üzlüyə almaq üçün təkliflər planı olmalıdır. Kiçik su anbarlarının yaradılması barədə təkliflər vermisiniz. Kənd Təsərrüfatı naziri ilə birlikdə o yerləri seçin, bütövlükdə ortamüddətli və uzunmüddətli meliorativ tədbirlər planını yenidən tərtib edin. Biz bu işlərə mütləq vəsait ayıracağıq. Eyni zamanda, bu müşavirədə icra başçıları da iştirak edirlər. Yəqin ki, hər bir rayonda buna oxşar problemlər vardır. Müşavirədən sonra siz də təkliflərinizi verin, həm Zeynal Nağdəliyev, həm Kənd Təsərrüfatı naziri, həm də «Meliorasiya və Su Təsərrüfatı» cəmiyyəti bu təkliflərə baxacaq. Biz bu təklifləri gələn ilin investisiya proqramına sala bilərik. Çünki gələn ilin investisiya proqramı tərtib olunur və ilin sonunda təsdiq ediləcəkdir. Biz yanvar ayından artıq onun icrasına başlamalıyıq. Ona görə vaxt azdır, təklifləri verin, amma o təklifləri ki, onlar real nəticə verə biləcək.

## YEKUN NİTQİ

Beləliklə, bir daha demək istəyirəm ki, bu ilin nəticələri məni çox sevindirir. Əsas məsələ ondadır ki, biz pambıqçılıqda da düzgün müəyyən edilmiş hədəflərin həyatda reallığa çevrildiyini görürük. Pambıqçılıq yenə də gəlirli, əməktutumlu sahəyə çevrilib və ölkə iqtisadiyyatına, o cümlədən makroiqtisadi vəziyyətin və manatın məzənnəsinin sabit qalmasına və möhkəmlənməsinə müsbət təsir göstərir.

Sirr deyil ki, bizim əsas valyuta gətirən sahəmiz neft, qaz sektorudur. Əlbəttə, bu sektorun inkişafı daim diqqət mərkəzindədir və böyük uğurlar əldə edilibdir. Ancaq əsas vəzifəmiz qeyri-neft sənayesi və kənd təsərrüfatı hesabına iqtisadiyyatı şaxələndirməkdir. Bu il həm qeyri-neft sənayesi, həm də kənd təsərrüfatı əhəmiyyətli dərəcədə artıb. Qeyri-neft sənayesi 14, kənd təsərrüfatı isə 7 faizdən çox artıbdır. Əminəm ki, bu meyillər bundan sonra da davam etdiriləcək və beləliklə, biz kənd təsərrüfatını ən müasir standartlara uyğun şəkildə inkişaf etdirəcəyik.

Bir daha demək istəyirəm ki, biz gərək pambıqçılıqla bağlı məsələlər arasında mütərəqqi texnologiyalara daha böyük meydan verək. Çünki pilot layihələr icra edildi və məhsuldarlıq da çox yüksəkdir – təqribən 60 sentner. Hesab edirəm ki, gələn il biz bu pilot layihələrin sahəsini artırmalıyıq və Kənd Təsərrüfatı Nazirliyi bu məsələ ilə bağlı öz təkliflərini verməlidir.

Eyni zamanda, bu gün bir məsələ o qədər də diqqətdə olmadı, amma bu da çox vacib məsələdir, bu, toxum

istehsalı məsələsidir. Biz Lifsiz Pambıq Toxumu İstehsalı zavodunu işə salmalıyıq. İndi belə layihə var və hesab edirəm ki, işlərə gələn il start verilməlidir. Hər halda, zavodun tikintisi bir il, bəlkə də il yarım çəkər ki, biz özümüzü bu keyfiyyətli toxumlarla təmin edək.

Tədarükçü şirkətlər bu il fermerlərə ödənilən vəsaiti çox operativ qaydada çatdırıbdır. Əminəm ki, gələn il də belə olacaq. Yəni indi əməkçilər bir neçə gündən bir öz əmək haqlarını alırlar. Hesablaşmalar dəqiq və ləngitmədən aparılmalıdır.

Pambıq istehsalı sahəsinə daha çox güzəştli kreditlər ayrılmalıdır. İqtisadiyyat Nazirliyinə göstəriş verilir ki, bu məsələlər təhlil edilsin. Gələn il təqribən 200 milyon manata yaxın güzəştli kreditlər nəzərdə tutulur və pambıqçılıq sahəsinə kifayət qədər vəsait ayrılmalıdır.

Bizim pambıq emalı zavodlarının fəaliyyəti bir daha nəzərdən keçirilməlidir. Çünki bu zavodların böyük hissəsi sovet vaxtında tikilib. Orada həm səmərəlilik aşağıdır, həm də keyfiyyət o qədər də lazımi səviyyədə deyil. Ona görə zavodların istehsal gücü dəqiqliklə hesablanmalıdır. Çünki indi bəyan edilən istehsal gücləri reallığı əks etdirmir. Pambıqtəmizləmə zavodlarının istehsal gücü pambığın artan həcmi ilə uzlaşmalıdır. Əminəm ki, biz məhsuldarlığı artıracağıq, hər halda, gələn il 30 sentnerdən çox pambıq tədarükü gözlənilir. Belə olan halda, 300 min tondan çox pambıq yığılacaq və bizim pambıqtəmizləmə zavodları bu həcmi götürə biləcək, yoxsa yox? Bu, birincisi. İkincisi, zavodlarda modernləşdirmə aparılmalıdır. Əgər lazım olarsa,

dövlət maliyyə dəstəyi də göstərə bilər. Bu il Ucarda yeni Pambıqtəmizləmə zavodu istifadəyə verilib. Mənə verilən məlumata görə, yüksək standartlara cavab verir. Özü də bu, özəl sektor tərəfindən inşa edilibdir. Bu çox müsbət haldır. Hesab edirəm ki, özəl qurumlar bu sahəyə diqqət yetirməlidir. Araşdırılmalıdır ki, prinsipcə, bizə yeni pambıqtəmizləmə zavodlarının tikintisi lazımdır, yoxsa yox? Əgər lazımdırsa, hansı həcmdə ki, dövlət tərəfindən veriləcək dəstək də bəri başdan hesablansın. Yeni iplik fabrikləri yaradılmalıdır. Çünki hələ ki, yığılan pambığın 40 faizi emal olunur. Bu, pis göstərici deyil. Ancaq çalışmalıyıq ki, mahlıc 100 faiz emal olunsun. Çünki bu, əlavə dəyər zənciri, iş yerləri yaradır. Sənaye istehsalı da artacaqdır. Ona görə yenə də özəl sektora müraciət edirəm ki, bu məsələyə diqqət yetirsin. Kifayət qədər pambığımız vardır. Ona görə iplik fabriklərinin tikintisi çox gəlirli sahəyə çevriləcəkdir. Lazım olarsa, dövlət öz tərəfindən güzəştli kreditlərlə bu layihələri dəstəkləyə bilər. Ancaq iplik fabriklərinin tikintisi də bizim son hədəfimiz deyil. Son hədəf hazır məhsul istehsal etməkdir. Bu məqsədlə yeni toxuculuq, trikotaj fabrikləri tikilməlidir, yem, yağ fabrikləri yaradılmalıdır. Bütün bunlar bizim iqtisadiyyatımızı gücləndirəcək və əlavə minlərlə iş yeri yaradacaqdır.

Biz daxili tələbatı daxili resurslar hesabına təmin etməliyik. Biz indi pambığı tədarük edirik, onun böyük hissəsi – 60 faizi mahlıc, 40 faizi iplik kimi ixrac olunur. Sonra bu iplikdən istehsal edilmiş hazır məhsul bizə idxal olunur və buna milyonlarla, on milyonlarla pul gedir. Ona görə bu sahədə daxili istehsal inkişaf etməli və

zəncir tipli tədarük-istehsal kompleksi yaradılmalıdır. Dövlət–özəl sektor tərəfdaşlığı burada əsas rol oynayacaqdır.

Bütövlükdə bu işlərin mütəşəkkil şəkildə həyata keçirilməsi üçün Prezident Administrasiyası, Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları, tədarükçü və digər şirkətlər – hansılar ki, bu gün burada iştirak etmir – birlikdə fəaliyyət planı tərtib etməlidir. 2020-ci il üçün çox geniş və müfəssəl «Yol Xəritəsi» tərtib edilib icra olunmalıdır. Belə olan halda, pambıqçılıq Azərbaycanda daha sürətlə inkişaf edəcək, həm bu sahədə məşğul olan insanlara, həm də dövlətə xeyir gətirəcəkdir. Sağ olun.

## RUSİYA FEDERASİYASINA SƏFƏR

*Sankt-Peterburq*

*20 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 20-də Sankt-Peterburq şəhərinə səfərə gəlmişdir.*

*Sankt-Peterburq şəhərinin Pulkovo-1 aeroportunda dövlət başçısı İlham Əliyevi vilayətin qubernatoru Aleksandr Drozdenko, Sankt-Peterburq şəhəri hökumətinin üzvü, Xarici Əlaqələr Komitəsinin sədri Yevgeni Qriqoryev, Leninqrad vilayətinin Xarici Əlaqələr Komitəsinin sədr müavini İnna Biqotskaya və digər rəsmi şəxslər qarşıladılar.*

## SANKT-PETERBURQDA FƏALİYYƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARIMIZIN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Sankt-Peterburq*

*20 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Mən bu gün Sankt-Peterburqa cənab Prezident Vladimir Putinin dəvəti ilə gəlmişəm. Prezident Putinin dəvəti ilə MDB dövlət başçılarının ötən ilin sonunda da qeyri-rəsmi Zirvə görüşü keçirilib, bu ilin sonunda da keçirilir. Bu, artıq ənənəyə çevrilib və çox gözəl ənənədir. Çünki yaxşı fürsətdir ki, bir daha dövlət başçıları görüşsünlər və gələn il görüləcək işlər haqqında fikir mübadiləsi aparsınlar.

Mən də bu dəfə Azərbaycan diasporunun rəhbərləri və nümayəndələri ilə görüşürəm. Əvvəllər də bizim görüşlərimiz olub, həm Bakıda, həm Sankt-Peterburqda. Bu gün bir daha görüşürük və bu çox əlamətdar hadisədir. Mən bilirəm ki, Sankt-Peterburqda və Leninqrad

vilayətində çox böyük Azərbaycan diasporu yaşayır və fəaliyyət göstərir. Uzun illərdir ki, bu təşkilata Vaqif Məmişov sədrlik edir. Bilirəm ki, burada yaşayan azərbaycanlılar Rusiyanın çox dəyərli vətəndaşları kimi, həm Rusiyanın ümumi inkişafına töhfə verirlər, həm də tarixi Vətənlə əlaqələri saxlayırlar, gedib-gəlirlər. Mənim bundan xəbərim var, bu çox müsbət haldır.

Deyə bilərəm ki, bütövlükdə 2019-cu il Rusiya–Azərbaycan əlaqələrinin tarixində xüsusi yer tutur. Prezident Vladimir Putinlə mənim çoxsaylı görüşlərim olub. Hər bir görüş çox məhsuldar olub. Bu görüşlərdə müzakirə olunmuş məsələlər və qəbul edilmiş qərarlar sonra həyatda öz əksini tapır. Nazirlər səviyyəsində bir çox qarşılıqlı səfərlər olub, Rusiya Federasiya Şurasının Sədri xanım Valentina İvanovna Matviyenko aprel ayında Azərbaycana rəsmi səfərə gəlmişdi. Digər vəzifəli şəxslərin də səfərləri olub. İlin sonunda növbəti görüş gözlənilir. Rusiyanın İqtisadi İnkişaf naziri Bakıya gələcək və sonra öz həmkarları ilə sərhədə gedib Samur çayı üzərində tikilmiş yeni körpünün açılışını edəcəklər.

Bu il Mehriban xanımın Rusiyaya çox uğurlu rəsmi səfəri baş tutdu. Səfər çox yüksək səviyyədə təşkil edildi. Prezident Vladimir Vladimiroviç Putin ilə görüşü, Prezident tərəfindən Mehriban Əliyevaya «Dostluq» ordeninin təqdim edilməsi, əlbəttə ki, böyük hadisədir. Biz bilirik ki, Rusiya Prezidenti Prezident olmayan şəxsləri çox nadir hallarda qəbul edir. Bu istisna hal Rusiya Prezidentinin Azərbaycana münasibətinin təzahürüdür. Azərbaycanda da Rusiya Prezidentinə böyük hörmət vardır. İkitərəfli əlaqələrin inkişafında

prezidentlərin xüsusi rolu vardır. Mehriban xanımın səfər çərçivəsində həm Baş Nazirlə, həm də Federasiya Şurasının Sədri ilə görüşləri olubdur. Əlbəttə ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun yenidən açılması tarixi hadisədir.

Yəni bu və digər hadisələr 2019-cu ildə Rusiya–Azərbaycan əlaqələrinin inkişafını şərtləndirdi. Bu işlərin iştirakçısı və bir çox məsələlərin təşəbbüskarı kimi, mən tam qətiyyətlə deyə bilərəm ki, bu gün Rusiya–Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyədədir.

Rusiyada yaşayan azərbaycanlılar əminəm ki, bunu gündəlik həyatda da hiss edirlər. Çünki Rusiyada azərbaycanlılara münasibət çox müsbətdir, onlar rahat yaşayırlar. Onların bir çoxu, demək olar ki, mütləq əksəriyyəti çox fəaldır, elmdə, təhsildə, biznesdə böyük imkanları vardır. Rusiyanın vilayət və böyük şəhərlərinin qanunvericilik orqanlarında artıq azərbaycanlılar da təmsil olunurlar. Rusiyada Azərbaycan əsilli vətəndaşların sayı təqribən 700 minə yaxındır. Burada işləməyə, yaxud da ki, ezamiyyətə gələn Azərbaycan vətəndaşlarının sayı da çoxdur. Ona görə Rusiya–Azərbaycan əlaqələrinin bu səviyyədə olması Rusiyada yaşayan azərbaycanlılar üçün də, bizim üçün də çox böyük dəyərdir.

Bildiyiniz kimi, Azərbaycanda da böyük rus icması var və fəaliyyət göstərir. Cənubi Qafqazda ən böyük rus icması məhz Azərbaycandadır. Onlar bizim qardaşlarımız kimi, Azərbaycanın ümumi inkişafına öz töhfələrini verirlər.

Hesab edirəm ki, ilin sonunda keçirdiyimiz görüşün xüsusi mənası vardır. Fürsətdən istifadə edərək, sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Xahiş edirəm, mənim salamlarımı Sankt-Peterburqda və Leninqrad vilayətində yaşayan bütün soydaşlarımıza çatdırasınız.

* * *

*Azərbaycanlıların Sankt-Peterburqdakı diaspor təşkilatının rəhbəri Vaqif Məmişov diasporun nümayəndələri adından Prezident İlham Əliyevə onlara göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Qeyd olundu ki, Azərbaycan diasporu Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan dərin islahatlar prosesini, əldə olunan inkişafı, qazanılan uğurları böyük maraqla izləyir və dəstəkləyir.*

*Bildirildi ki, diasporumuz dövlət başçımızın qayğısını daim öz üzərində hiss edir. Vurğulandı ki, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır, diasporumuz da bu münasibətlərdən bəhrələnir, onun dərinləşdirilməsinə töhfəsini verir və bundan sonra da verəcəkdir.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Sankt-Peterburq*

*20 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.*

*Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezident Vladimir Putin görüşdə çıxış etdi.*

*Rusiya Prezidenti Vladimir Putin MDB dövlət başçılarını salamlayaraq, İkinci dünya müharibəsində qazanılan Qələbə münasibətilə tədbirlərin keçirilməsinin qərara alındığını xatırlatdı.*

*Rusiya dövlətinin başçısı İkinci dünya müharibəsi tarixinin saxtalaşdırılmasının yolverilməz olduğunu bildirdi və qeyd etdi ki, bəzi dairələr tarixi saxtalaşdırmağa çalışsalar da, onların cəhdləri boşa çıxacaq. Çünki tarixi faktlar var və onları saxtalaşdırmaq mümkün deyil. Prezident Vladimir Putin ictimaiyyətin belə tarixi faktlarla daha yaxından tanış olmasının önəmini vurğuladı. Tarixi həqiqətləri və ədaləti qorumaq, həmçinin həmin dövrün həqiqətlərinin saxtalaşdırılmasına qarşı çıxmaq üçün arxiv sənədlərinə*

*nəzər salmağın vacibliyini qeyd edən Rusiya Prezidenti bu sənədlərdən faktlar və sitatlar gətirdi.*

*Prezident Vladimir Putin İkinci dünya müharibəsində böyük Qələbənin əldə olunmasında sovet xalqının misilsiz şücaətindən danışaraq bildirdi ki, ata-babalarımız bu Qələbə uğrunda canlarından keçiblər. Həmin dövrdə Sovet İttifaqının hər bir ailəsi bu və ya digər dərəcədə müharibənin ağrılarını hiss edib. Vladimir Putin gələcəkdə İkinci dünya müharibəsi ilə bağlı həqiqətlərin saxtalaşdırılmaması üçün özündə faktları əks etdirən arxiv materiallarının daha dərindən təhlil olunmasının vacibliyini qeyd etdi. O, İkinci dünya müharibəsində baş verənlərin siyasi məqsədlərlə qeyri-obyektiv təqdim edilməsinin təhlükəli tendensiya olduğunu bildirdi.*

* * *

*Sonra Prezident İlham Əliyev görüş iştirakçıları ilə birgə «1939-cu il İkinci dünya müharibəsinin başlanması» mövzusunda tarixi-sənədli sərgi ilə tanış oldu.*

*Sərgidə toplanmış arxiv sənədlərinin əsilləri, kinoxronika, fotolar, muzey əşyaları və digər çoxsaylı eksponatlar irimiqyaslı dünya müharibəsinə gətirib çıxarmış hadisələr haqqında məlumat verir. Həm tarixçilər, həm də ən geniş auditoriya üçün nəzərdə tutulmuş sərgi Rusiyanın Federal Arxiv Agentliyi, Dövlət Hərbi Tarix Arxivi, Xarici İşlər Nazirliyinin tarixi sənədlər departamenti və Prezident Qrantları Fondunun dəstəyi ilə təşkil edilmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də MDB dövlət başçılarının qeyri-rəsmi görüş iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.*

** * **

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri dekabrın 20-də başa çatdı.*

## BƏLƏDİYYƏ SEÇKİLƏRİNDƏ İŞTİRAK

*23 dekabr 2019-cu il*

*Müasir müstəqil Azərbaycanın tarixində dekabrın 23-ü növbəti bələdiyyə seçkiləri günü idi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva səs vermək üçün Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı orta məktəbində yerləşən 6 saylı seçki məntəqəsinə gəlmişlər.*

*Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq, kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

*Sonra Mehriban xanım Əliyeva və Leyla Əliyeva səs verdilər.*

## İLİN YEKUNLARI İLƏ BAĞLI JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*23 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, hər vaxtınız xeyir olsun. Fürsətdən istifadə edərək, Sizə hər birimizin adından təşəkkür edirəm ki, belə bir şərait yaratmısınız və müsahibə ilə bağlı müraciətimizə müsbət cavab vermisiniz. Əlbəttə, bu bizim üçün imkandır və biz müxtəlif sahələrlə bağlı suallar hazırlamışıq. Amma istərdim ki, 2019-cu il ərzində beynəlxalq münasibətlər sistemində regional və qlobal miqyasda Azərbaycanın atdığı addımlar və əldə etdiyimiz diplomatik nəticələrlə bağlı Sizin fikirlərinizi eşidək. Ümumiyyətlə, 2019-cu il bu baxımdan bizim üçün nə ilə yadda qaldı?**

**C a v a b:** 2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olubdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu

ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun.

O ki qaldı xarici siyasətlə bağlı olan məsələlərə, hesab edirəm ki, bu sahədə də böyük uğurlar əldə edilib. Bizim ənənəvi tərəfdaşlarla əlaqələrimiz daha da yüksək pilləyə qalxıb, qonşu ölkələrlə bir çox birgə təşəbbüslər irəli sürülüb, bir çox önəmli razılaşmalar əldə edilibdir. Deyə bilərəm – mən dəfələrlə bu mövzu ilə bağlı fikirlərimi bildirmişəm – qonşu ölkələrlə münasibətlər hesab edirəm ki, bütövlükdə hər bir ölkə üçün xüsusi məna daşıyır, o cümlədən Azərbaycan üçün. Mən çox məmnunam ki, son illər ərzində qonşu ölkələrlə bizim əlaqələrimiz inkişaf edir. Bu əlaqələr qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmama prinsipləri əsasında qurulubdur. Mənim qonşu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olub və hər bir görüş məhsuldar olubdur. Hesab edirəm ki, bu istiqamətdə atılmış addımlar və tərəfdaşlarımızın addımları bu əlaqələri gücləndirib, eyni zamanda, regional əməkdaşlığa da müsbət təsir göstəribdir. Artıq Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə bizim üçtərəfli əməkdaşlıq formatımız vardır. Bu format həm məna, həm də ki, əldə edilmiş nailiyyətlər baxımından çox müsbət formatdır. Eyni zamanda, bizim başqa ölkələrlə ikitərəfli əlaqələrimiz inkişaf edibdir. Deyə bilərəm ki, bu il Azərbaycana 40-dan çox dövlət və hökumət başçısı səfər edib, həm beynəlxalq tədbirlərdə iştirak etmək üçün, həm də ikitərəfli formatda. Bu baxımdan bu il rekord il olubdur. Bu il ölkəmizdə önəmli beynəlxalq tədbirlər

keçirilib. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşünü qeyd etmək olar. Bildiyiniz kimi, Azərbaycan bu təşkilatda çox fəal rol oynayır və təşkilata sədrlik Azərbaycana keçibdir. Biz bu təşkilata bir il ərzində sədrlik edəcəyik. Eyni zamanda, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü Azərbaycanda keçirilibdir. Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcəkdir.

Qeyd etdiyim kimi, bizim sədrliyimiz yekdil qərarla qəbul olunub. Bunun çox böyük mənası vardır. Çünki «Qoşulmama Hərəkatı»nda birləşən ölkələrin arasında bəzi ixtilaflar, qarşıdurma, anlaşılmazlıqlar vardır. Bəzi ölkələr bir-biri ilə, sadə dildə desək, yola getmirlər. Belə olan halda, bütün dövlətlər tərəfindən bizə göstərilmiş dəstək, əlbəttə ki, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, Azərbaycana çox böyük hörmət və böyük rəğbət vardır. Biz 3 il ərzində bu təsisata sədrlik edəcəyik və bu sədrlik formal xarakter daşımayacaq. Biz istəyirik ki, bu təsisatın dünyadakı rolunu artıraq. Azərbaycan sədrliyi dövründə bir neçə önəmli təşəbbüslə çıxış edəcəkdir.

Bu təşəbbüslərin əsas mahiyyəti ondan ibarətdir ki, dünyada beynəlxalq əməkdaşlıq yeni pilləyə qalxsın və ölkələr arasında, o cümlədən sivilizasiyalararası məsələlər sağlam təməl üzərində öz həllini tapsın. Bizim bu sahədə çox böyük təcrübəmiz vardır. Eyni zamanda, hesab edirəm ki, bu il Avropa İttifaqı ilə bizim əlaqələrimiz uğurla inkişaf edib. İl ərzində bir neçə önəmli tədbir keçirilib, o cümlədən Avropa İttifaqı

Şurasının Prezidenti cənab Tuskun iyul ayında Azərbaycana səfəri xüsusi məna daşıyır. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bu il müsbət istiqamətdə inkişaf edibdir. Onu da bildirməliyəm ki, keçən il Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» adlı sənəd paraflanıbdır. Bu sənəddə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına Avropa İttifaqı tərəfindən dəstək ifadə edilibdir.

Eyni zamanda, «Qoşulmama Hərəkatı»nın yekun Bəyannaməsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həll olunması ilə bağlı açıq ifadələr öz əksini tapıbdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının da yekun Bəyannaməsində buna oxşar bənd öz əksini tapıbdır. Beləliklə, «Qoşulmama Hərəkatı»nda birləşən 120 ölkə, Avropa İttifaqına üzv olan 28 ölkə, eyni zamanda, türkdilli ölkələr, hansılar ki, «Qoşulmama Hərəkatı»na üzv deyil, beynəlxalq aləmin mütləq əksəriyyəti bizi dəstəkləyir, bizə inanır və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini bizim mövqemizi dəstəkləyərək, ərazi bütövlüyü çərçivəsində görür. Hesab edirəm ki, bu, xarici siyasət istiqamətində yaddaqalan əsas məsələlərdir. Əlbəttə ki, bizim xarici siyasətimiz çox çevik və düşünülmüşdür. Hesab edirəm ki, xarici siyasətlə bağlı bütün başqa məsələlər və nəticələr də yüksək qiymətə layiqdir.

**S u a l: Cənab Prezident, Siz Avropa İttifaqı ilə əlaqələrə toxundunuz. Yeri gəlmişkən, bilmək**

**istərdik, Avropa İttifaqı ilə yeni sazişlə əlaqədar aparılan danışıqlar hansı mərhələdədir? Ümumilikdə bu məsələ ilə bağlı Sizin fikrinizi bilmək maraqlıdır.**

**C a v a b:** Deyə bilərəm ki, bir neçə ildir yeni saziş üzərində iş aparılır. Bizim əvvəlki saziş uzun illər bundan öncə imzalanmışdır və yeni sazişə, əlbəttə ki, ehtiyac vardır. Biz hesab edirik və təklif etmişik ki, bu saziş hər iki tərəfin maraqlarını təmin etməlidir, əks halda, sazişə ehtiyac qalmayacaq. Biz eyni zamanda, Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli formatda uğurla əməkdaşlıq aparırıq və 28 ölkədən 9-u ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlər ya imzalanıb, ya da qəbul edilibdir. Yəni Avropa İttifaqı ilə imzalanacaq sazişin təməli, bax, bu 9 sənəddə təsbit edilibdir.

Hesab edirəm ki, gələcək sazişdə həm strateji əhəmiyyət daşıyan, həm də Azərbaycanı maraqlandıran, bizim maraqlarımıza xidmət edən məsələlər öz əksini tapmalıdır. Saziş bərabərhüquqlu tərəflər arasında imzalanmalıdır və bütün bərabərhüquqlu əməkdaşlığa zidd olan məqamlardan azad olmalıdır. Bu təqdirdə, əlbəttə ki, sazişin imzalanması mümkün olacaqdır. Deyə bilərəm ki, sazişin bəndlərinin mütləq əksəriyyəti razılaşdırılıb, məsələlərin təqribən 90 faizi razılaşma əsasında öz həllini tapıbdır. Hesab edirəm ki, qalan məsələlər xoşniyyətli abhava çərçivəsində öz həllini tapmalıdır. Bilirsiniz, sazişlə bağlı bəzi hallarda mətbuatda həqiqətə uyğun olmayan fikirlər səsləndirilir. O cümlədən, bir fikir ondan ibarətdir ki, Avropa İttifaqı bu sazişi bizimlə ona görə

imzalamır ki, biz Avropa İttifaqına uyğun olan hansısa meyarlara cavab vermirik. Bu tamamilə əsassız bir fərziyyədir, belə məsələ gündəlikdə yoxdur. Onu da açıq bildirməliyəm ki, sazişin bu günə qədər imzalanmamasının səbəbkarı da bizik. Nəyə görə? Bunu da izah edəcəyəm. Çünki hesab edirəm ki, cəmiyyətdə bu məsələ ilə bağlı tam dəqiq məlumat olmalıdır.

Sazişin bir neçə məsələsi hələ ki, müzakirə mövzusudur. Biz təklif olunan məsələlərə öz razılığımızı verməmişik və bunun səbəbi vardır. Onlardan biri ticarətlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan Dünya Ticarət Təşkilatının üzvü deyil. Baxmayaraq ki, biz bir neçə ölkə ilə müzakirələri ikitərəfli formatda artıq başa vurmuşuq, ancaq mən hesab edirəm ki, hələ vaxtı deyil. Bunun da səbəbi ondan ibarətdir ki, bizim ixracımızın əsas hissəsi hələ ki, neft-qaz məhsullarıdır və bu məhsulları ixrac etmək üçün Dünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Digər tərəfdən, bizim əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır, yerli istehsalın artımıdır və belə olan halda, biz daxili bazarımızı qorumalıyıq. Əgər biz indi Dünya Ticarət Təşkilatına üzv olsaq, bizim istehsalçılar, o cümlədən sənaye və kənd təsərrüfatı sektorlarında böyük problemlərlə üzləşə bilərlər. Ola bilsin ki, Azərbaycana keyfiyyətsiz və bizim bazarımızı zəbt etmək məqsədi daşıyan böyük həcmdə idxal məhsulları gələcək və beləliklə, yerli istehsala böyük ziyan vurulacaqdır. Onu da bildirməliyəm ki, hazırda Dünya Ticarət Təşkilatı çərçivəsində də böhran yaşanır. Bildiyiniz kimi, Amerika Birləşmiş Ştatları bu təşkilatda öz üzvlüyünə yenidən baxır. Təşkilata üzv olan bəzi ölkələr və müttəfiq ölkələr

arasında ticarət müharibələri baş alıb gedir və genişlənir. Belə olan halda, bu məsələyə bizim ehtiyatlı yanaşmağımız çox məntiqli və əsaslıdır. İmzalanacaq sazişdə ticarətlə bağlı məsələlər bizi qane etmir və biz qarşı tərəfə öz fikirlərimizi bildirmişik. Ümid edirik ki, onlar buna anlayışla münasibət göstərəcəklər.

Digər vacib məsələ energetika sektoru ilə bağlıdır. Burada da baxmayaraq ki, Avropa İttifaqı ilə enerji sahəsində bizim əməkdaşlığımız uğurludur və birgə layihələr icra edilir, ancaq sazişdə təklif olunan məsələlərin biri də – mən istəyirəm ictimaiyyət bunu da bilsin – enerji daşıyıcılarının qiymətləri ilə bağlıdır.

Belə bir bənd təklif olunur ki, Azərbaycanda təbii qazın daxili qiyməti ixrac qiyməti ilə bərabərlik təşkil etsin. Reallıqda bu nə deməkdir, bunu anlamaq o qədər də çətin deyil. Hazırda Azərbaycan istehlakçılarının təxminən 85 faizi təbii qazı çox ucuz qiymətə, yəni dövlət tərəfindən verilmiş subsidiya əsasında alır –1000 kubmetr 100 manatdır. İxrac qiyməti isə bundan bir neçə dəfə böyükdür. Əgər biz öz təbii qazımızı daxili qiymətlərlə satsaq, iqtisadiyyatımıza çox böyük ziyan dəyəcək. Çünki belə olan halda, ixrac qiyməti 58 dollar olmalıdır. Bu gün isə dünya bazarlarında, o cümlədən Avropa bazarlarında daxili qiymət, yəni istehlakçıların ödədiyi qiymət təqribən 300, 400, 500 dollara bərabərdir. Bu, təqribən 1000 manata bərabərdir.

Belə olan halda, biz daxili qiymətləri ən azı 10 dəfə qaldırmalıyıq və Azərbaycan vətəndaşları təbii qaz üçün 100 manat yox, 500 manat, ya da 700 manat ödəməli olacaq ki, bu da qətiyyən mümkün deyil. Ya da ki, biz

böyük çətinliklə və böyük səylər göstərərək, böyük investisiyalar qoyaraq, «Cənub Qaz Dəhlizi»ni, demək olar ki, başa çatdıraraq, xarici bazarlara öz qazımızı 58 dollara çatdırmalıyıq. Bu, qətiyyən qəbuledilməzdir və təəccüb edirəm ki, nə üçün bizim tərəfdaşlarımız bu sadə məntiqlə, bu hesablamalarla razılaşa bilmirlər. Ona görə bu iki əsas məsələ razılaşdırılmamış qalır və bizim mövqemiz birmənalıdır. Bu saziş bizim maraqlarımıza uyğun olmalıdır. Mən avropalı tərəfdaşlarıma sual vermişəm ki, siz mənə cavab verin, nə üçün biz bu sazişi imzalamalıyıq?. Biz indi bu sazişsiz də yaşayırıq, yaxşı da inkişaf edirik, heç kimdən heç nə gözləmirik, heç bir imtiyaz üçün müraciət etməmişik. Biz sazişi ona görə imzalamaq istəyirik ki, bu saziş əlaqələrimizi yeni mərhələyə çıxarsın və maraqlarımız təmin edilsin. Əks təqdirdə, əlbəttə ki, bu saziş imzalanmayacaqdır.

**S u a l: Cənab Prezident, mən «Şərq Tərəfdaşlığı» məsələsi ilə bağlı sual vermək istərdim. Postsovet ölkələrindən bir neçəsi «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edir. Onlardan bəziləri Avropa İttifaqı ilə müvafiq sazişlər imzalayıb. Bundan öncə Siz qeyd etdiniz ki, Azərbaycanla bu təşkilat arasında «Tərəfdaşlıq prioritetləri» barəsində sənəd paraflanıb. Siz «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bilirsiniz, biz «Şərq Tərəfdaşlığı» Proqramına başqa ölkələrlə birlikdə qoşulduq. O vaxt bu

proqramın nədən ibarət olacağı haqqında bizim təsəvvürümüz yox idi. Deyə bilərəm ki, son 10 il ərzində Avropa İttifaqı daxilində bir çox proseslər cərəyan edib. Hazırda təbii ki, Avropa İttifaqının gələcək fəaliyyəti, genişlənmə proqramı ilə bağlı fərqli fikirlər üstünlük təşkil edir. Yəni 10 il bundan əvvəlki vəziyyət indiki vəziyyətlə ziddiyyət təşkil edir. Bu, birincisi.

İkincisi, «Şərq Tərəfdaşlığı»na üzv olan ölkələri bir amil birləşdirir – bu ölkələr postsovet respublikalarıdır. Mən başqa birləşdirici amil görmürəm. Çünki ölkələrin həm xarici siyasəti fərqlidir, həm daxili vəziyyətdə böyük fərqlər var, təbii ki, iqtisadi inkişaf da fərqlidir. Ona görə bu ölkələri bir proqramda birləşdirmək hesab edirəm ki, o vaxt üçün bəlkə də məqbul variant idi. Ancaq bu gün bu belə deyil və bu ölkələrin bir neçəsi – daha dəqiq desək, 3 ölkə Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb. Bir ölkə genişlənmiş əməkdaşlıq müqaviləsi bağlayıb. Azərbaycan isə Assosiasiya Sazişini bağlamayıb və hazırda ikitərəfli saziş üzərində iş aparılır.

Mən artıq bu barədə öz fikirlərimi bildirmişəm. Bu proqramın gələcəyi haqqında bir şey demək çətindir. Bu proqram bizə təqdim olunanda biz bəri başdan öz fikrimizi bildirdik ki, ikitərəfli formata üstünlük veririk. Azərbaycan Avropa İttifaqından hər hansı bir imtiyaz gözləmir və proqramda iştirak edən bəzi ölkələrdən fərqli olaraq, biz özümüzü təmin edən ölkəyik və artıq Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında sırf donor ölkəyə çevrilmişik. Yəni biz artıq borc verən ölkəyik. O ki qaldı Qərb texnologiyalarına, biz Qərb texnologiyalarını alırıq, heç kim bizə bunu müftə vermir.

Ona görə proqramda bizim mövcudluğumuz qalır, ancaq sözün düzü, biz buna o qədər də böyük əhəmiyyət vermirik. Çünki bu proqramın dəqiq məramı və məqsədi bizim üçün aydın deyil. Əgər bu, Avropa inteqrasiyasıdırsa, artıq hər kəsə bəllidir ki, postsovet respublikaları üçün bu məqsəd əlçatmazdır. Əgər hansısa başqa bir ölkələr arasındakı əməkdaşlıqdan söhbət gedirsə, bu ölkələrin bəziləri ilə bizim sıx əlaqələrimiz var, bəzi ölkələrlə, ümumiyyətlə, əlaqələrimiz çox aşağı səviyyədədir, Ermənistanla isə müharibə şəraitindəyik. Ona görə proqramda bu ölkələri birləşdirmək və hansısa bir istiqamətə yönləndirmək cəhdləri hesab edirəm ki, bu proqramı təsis edənlər tərəfindən icra olunmadı. Biz proqramdan çıxmırıq, ancaq proqramda da fəal iştirak etmək fikrində deyilik.

**S u a l: Cənab Prezident, istərdik bir məqama da toxunaq. Düşünürük ki, ilin ən yaddaqalan hadisələrindən biri Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilmiş mərasimdə Sizin çıxışınız idi. Həmin çıxış ölkə ictimaiyyəti tərəfindən çox böyük rəğbətlə qarşılandı. Siz faktiki olaraq, professor, müəllim və tələbə heyəti qarşısında Azərbaycanın bugünkü uğurlarını şərtləndirən əsas amillərə, strateji vəzifələrə toxundunuz və bir fikriniz xüsusilə ictimaiyyət tərəfindən geniş müzakirə olundu. Bu, Azərbaycanın Avropaya inteqrasiyası ilə bağlı məsələ idi. Siz birmənalı şəkildə bildirdiniz ki, Azərbaycan heç yerə inteqrasiya etmək fikrində deyil, bizim öz milli-mənəvi dəyərlərimiz, milli prinsiplərimiz vardır.**

**Ümumiyyətlə, Azərbaycanın Avropaya inteqrasiyası ilə bağlı ortaya qoyduğunuz bu konkret mövqeni şərtləndirən əsas səbəblər, əsas qaynaqlar nədən ibarətdir?**

**C a v a b:** Bilirsiniz, avrointeqrasiya haqqında artıq bəzi dairələrdə çox danışılır. Ancaq əsas məsələ ondadır ki, avrointeqrasiya deyəndə nəyi nəzərdə tuturlar. Mən hesab edirəm ki, biz artıq avrointeqrasiya istiqamətində öz addımlarımızı atmışıq və gələcək addımlara həm ehtiyac yoxdur, həm də o addımlar nəticəsiz olacaqdır. Misal üçün, biz ATƏT-in üzvüyük. ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır. Biz 2001-ci ildən Avropa Şurasına üzv olmuşuq və artıq 20 ilə yaxındır ki, bu təşkilatda fəaliyyət göstəririk. Bu, avro-inteqrasiyanin bir növüdür. Eyni zamanda, Azərbaycan Avronest Parlament Assambleyasında da təmsil olunur.

Belə olan halda, hesab edirəm ki, bu istiqamətdə mümkün olan addımlar atılıb və həm gələcək addımların atılmasına ehtiyac yoxdur, həm də bunun nəticəsi olmayacaqdır. Çünki əgər biz avrointeqrasiya deyəndə Avropa İttifaqına üzvlük haqqında danışırıqsa, bu tamamilə qeyri-mümkündür. Bunu həm tarix göstərir, həm Avropa məkanında gedən proseslər göstərir, həm də «Breksit» göstərir. İndi, əksinə, necə deyərlər, Avropada mərkəzdənqaçma tendensiyaları göz önündədir. Eyni zamanda, Avropa İttifaqının genişləndirilməsi ilə bağlı Avropanın aparıcı ölkə rəhbərlərinin çıxışlarına fikir vermək kifayətdir ki, artıq genişlənmə ilə bağlı hər hansı bir perspektivin yoxluğunu görək. Hətta namizəd olan ölkələr – Balkan ölkələri indi bir qədər çətin vəziyyət-

dədir. Çünki vaxtilə onlara vəd verilmişdi ki, siz bu məsələləri həll etməklə, Avropa İttifaqına üzv ola bilərsiniz və onlar da bu addımları atdılar. Bəziləri çox ağrılı addımlar atmalı oldular. Mən indi o ölkələrin adlarını çəkmək istəmirəm, amma biz hamımız bilirik söhbət nədən gedir. Bəziləri üçün bu addımlar çox baha başa gəldi, bu, ölkələrdə daxili qarşıdurmaya, böyük etirazlara gətirib çıxardı. O ölkələrin cəmiyyətləri parçalandı. Nəyə görə onlar bu addımı atdılar? Onlara söz verildi ki, sizin gələcəyiniz var, siz bunu, bunu, bunu etsəniz, biz sizi qəbul edəcəyik. Amma indi Avropanın aparıcı ölkə liderləri deyirlər ki, artıq heç kimi qəbul etməyəcəyik. Hesab edirəm ki, hətta uzunmüddətli perspektivdə belə, Avropa ölkələri üçün belə bir imkan yoxdur.

Digər misal bizim qardaş Türkiyə ilə bağlıdır. Görün nə vaxtdan Türkiyə Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb?! Bəlkə də onilliklər bundan əvvəl. Amma ondan sonrakı addımlar nəticə veribmi? Əlbəttə, yox və bu da böyük ədalətsizlikdir. 2000-ci ildən başlayaraq, Avropa İttifaqına keçmiş sosialist blokuna aid bir çox ölkələr daxil oldu. İndi onlar Türkiyədən dahamı inkişaf etmiş ölkələrdir? Yox! Dahamı Avropa İttifaqına üzv olmaq üçün hazırlıqlıdırlar? Yox! Nə üçün onları qəbul etdilər, Türkiyəni qəbul etmədilər? Sual aydındır, ritorikdir. Bir amilə görə – Türkiyə müsəlman ölkəsidir. Artıq bunu açıq deyirlər. Əvvəllər bu əsas tezisi pərdələmək üçün bəzi başqa fikirlər, müxtəlif bəhanələr gətirilirdi ki, bu ölkə hazır deyil və yaxud da hansısa proseslər baş verib. Ancaq indi bunu gizlətmirlər və müsəlman ölkəsi

olduğu üçün Türkiyəni Avropa İttifaqına qəbul etmirlər. Belə olan halda, Azərbaycanı qəbul edəcəklərmi? Əlbəttə ki, yox! Əgər belədirsə, onda biz öz işimizi bəri başdan elə tutmalıyıq ki, reallaşdırıla bilməyən vədləri verməyək və lazım olmayan addımları da atmayaq. Bu, birincisi.

İkincisi, lap tutaq ki, sabah bizə dedilər, bax, Azərbaycan belə ölkədir ki, biz Azərbaycanı filan tarixdə qəbul edəcəyik. Bu bizə lazımdırmı? Avropada gedən proseslərə hər bir vətəndaş nəzər yetirəndə görür ki, hansı hadisələr baş verir, o cümlədən dini zəmində, milli-mənəvi dəyərlər zəminində. Bu proseslər bizə uyğundurmu? Əlbəttə ki, yox və bunu açıq deməliyik.

Ona görə bəzi hallarda Avropa İttifaqının bayraqları ilə küçələrə çıxmaq istəyən «müxalifət» nümayəndələri bilməlidirlər ki, onlar nə istəyirlər? İstəyirlər ki, Azərbaycanın taleyi Brüsseldəmi həll olunsun? İstəyirlər ki, bizim əsrlərboyu qoruduğumuz dəyərlər məhv olsun? Biz bu dəyərləri əsrlərboyu qorumuşuq, hətta müstəqil olmayan dövrdə belə. Başqa ölkələrin, imperiyaların tərkib hissəsi olan dövrdə dilimizi də, dinimizi də, dəyərlərimizi də, ənənələrimizi də, həyat tərzimizi də qorumuşuq. İndi müstəqillik dövründə biz özümüz öz taleyimizi kiməsə əmanət edə bilərikmi? Qətiyyən yox, biz buna gedə bilmərik. Bizim öz tariximiz, öz mədəniyyətimiz, öz dəyərlərimiz vardır. Ona görə onlar bizə təklif versə belə, buna qətiyyən getmək olmaz.

İndi Avropada miqrantlarla bağlı vəziyyət göz önündədir. Bunu bəziləri demək istəmir, amma mən hesab edirəm ki, biz deməliyik. Niyə biz bu həqiqəti deməməliyik, niyə bunun üstündən keçməliyik? «Stop

islam!», «Müsəlman miqrantlara yox!» şüarları ilə artıq siyasi qüvvələr hakimiyyətə gəlir. Populist vədlər indi islamofob prinsiplər əsasında qurulur. Daha çox səs toplamaq istəyən siyasi qüvvə mütləq bu mövzunu istismar edir. Belə olan halda, müsəlman ölkəsi Azərbaycan hansı formada orada təmsil oluna bilər? İkinci dərəcəli ölkə kimi? Yaxud da ki, hansısa bir imtiyaz diləyən ölkə kimi? Qətiyyən yox! Biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik.

Ona görə Bakı Dövlət Universitetində Avropa inteqrasiyası ilə bağlı dediyim fikirləri bu gün mən daha geniş formada ictimaiyyətə çatdırıram, hesab edirəm ki, bu, yeganə düzgün yoldur. Biz indi Avropa qurumlarının bəzilərinin üzvüyük, mən bunu qeyd etdim. Avropa İttifaqı ilə əməkdaşlıq zəminində əlaqələr qururuq və gələcəkdə həm ikitərəfli formatda, həm də Avropa İttifaqı ilə bu əsaslar üzərində işimizi qurmalıyıq.

**S u a l: Cənab Prezident, növbəti sualım xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olacaq. Münaqişənin həlli ilə bağlı danışıqlar prosesi nə yerdədir?**

**C a v a b:** Deyə bilərəm ki, 2019-cu il danışıqlar prosesi üçün itirilmiş il olubdur. Bunun da yeganə səbəbi odur ki, Ermənistan rəhbərliyi bu danışıqlarda qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq vasitəçilər işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərmirlər. Məhz

buna görə 2019-cu ildə, deyə bilərəm ki, danışıqlar trekində hər hansı bir ciddi irəliləyiş əldə olunmayıbdır.

Eyni zamanda, Ermənistan rəhbərliyinin ziddiyyətli və bir-birini təkzib edən bəyanatları da, əlbəttə ki, həm təəccüb, həm də təəssüf doğurur. Biz hamımız yaxşı xatırlayırıq ki, Ermənistanın yeni rəhbərliyi ilkin mərhələdə ortalığa belə bir məsələ atmışdı ki, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır, Dağlıq Qarabağ «müstəqil dövlətdir» və Ermənistan bu « müstəqil dövlətin» işlərinə qarışa bilmir. Bunların hamısı cəfəng fikirlərdir. Çünki bu gün Dağlıq Qarabağda yerləşən hərbi birləşmənin 90 faizi Ermənistan vətəndaşlarından təşkil edilir. Hər il Ermənistan büdcəsindən Dağlıq Qarabağ büdcəsinə böyük vəsait transfert edilir. Ona görə buna müstəqil dövlət demək tam yalandır. Sadəcə olaraq, danışıqları uzatmaq, yaxud da ki, öz məsuliyyətini boynundan atmaq üçün belə ifadələr işlədilir.

Biz qətiyyən bu ifadələrlə razı ola bilmərik. Öz fikrimizi bildirmişik və eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri də oxşar bəyanatlar veriblər. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Bu il önəmli hadisələrdən biri də odur ki, danışıqlar formatı dəyişməz olaraq qaldı. Hesab edirəm ki, bu bizim diplomatik nailiyyətimizdir. Yəni Ermənistan rəhbərliyinin cəhdləri və təklifləri qəbul edilmədi. Bunu təsdiqləyən həm də o amildir ki, mənim Ermənistanın Baş Naziri ilə görüşlərim olubdur. Ermənistan və Azərbaycan Xarici İşlər nazirləri görüşürlər, danışıqlar aparırlar. Sonuncu görüş bu ayın əvvəlində olubdur.

Digər tərəfdən, Azərbaycan «Dağlıq Qarabağ respublikası» ilə danışıqlar aparmalıdır fikri baş tutmayandan sonra növbəti bir cəfəng tezis də ortalığa atıldı, bunu indi hər kəs eşidib – Ermənistanın Baş Naziri dedi ki, Qarabağ Ermənistandır və nöqtə. Yəni bu, əvvəlki tezisi tam təkzib edir və bu, növbəti yalandır. Çünki Qarabağ müstəqil ölkə deyil – bunu heç bir ölkə tanımır. Böyük beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar və yekun bəyannamələr onu göstərir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Qarabağ Ermənistan deyil və bunu sübut etmək üçün heç səy göstərmək də lazım deyil. Ona görə birinci dəfə də, ikinci dəfə də yalan söylənildi. Həqiqət isə ondan ibarətdir ki – mən bunu canlı efirdə dedim – Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqemizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir. Biz bunu dünyaya sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, yaradıb. Biz hamımız yaxşı bilirik və bu gün dünya ictimaiyyəti də bizim apardığımız siyasət nəticəsində bilir ki, ermənilər Cənubi Qafqazda gəlmə millətdir, onlar çar Rusiyası tərəfindən XIX əsrdə Rusiya–İran müharibəsindən sonra bizim bölgəmizə köçürülüblər. Qafqaz Rusiya imperiyasının tərkib hissəsi olandan sonra bizim bölgədə xristian əhalinin sayını çoxaltmaq üçün Şərqi Anadoludan və İrandan kütləvi surətdə ermənilər Dağlıq Qarabağa köçürülmüşlər. Bunu təsdiqləyən çoxsaylı

tarixi sənədlər, faktlar vardır. Bu o qədər də uzaq tarix deyil. Yəni ermənilər bizim tarixi torpaqlarımıza köçürülmüşlər ki, burada xristian əhali çoxalsın. Qarabağ bizim tarixi torpağımızdır və bunu indi bütün dünya bilir. Bu, birincisi.

İkincisi, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və biz müstəqil ölkə kimi, BMT-yə daxil olanda artıq Azərbaycanın ərazi bütövlüyü qəbul edilib, dəstəklənib və təsdiq edilibdir. Ona görə həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişənin həlli məhz bu prinsiplər əsasında ola bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

O ki qaldı xalqların öz müqəddəratını təyinetmə prinsipinə – Ermənistan həmişə buna istinad edir – bu prinsip bu münaqişə ilə bağlı işləmir. Çünki erməni xalqı öz müqəddəratını artıq müəyyən edib. Onların müstəqil Ermənistan dövləti var, hansı ki, qədim Azərbaycan torpaqlarında yerləşir və biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik. Bizim prinsipial mövqemiz ondan ibarətdir ki, ərazi bütövlüyü prinsipi üstünlük təşkil etməlidir, bizim ərazimiz bərpa edilməlidir və münaqişə yalnız bu prinsiplər əsasında öz həllini tapmalıdır. Bundan əlavə, beynəlxalq təşkilatların qərar və qətnamələri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, «Qoşulmama Hərəkatı»nın, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurasının oxşar qərar və qətnamələri vardır. Qeyd etdiyim kimi, keçən il Avropa İttifaqı bizimlə Azərbay-

canın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyən sənəd imzalayıbdır.

**S u a l: Cənab Prezident, elə mövzunun davamı olaraq, bir mühüm məqama da toxunmaq istərdik. Siz müxtəlif beynəlxalq tribunalardan, önəmli tədbirlərdən Ermənistanın işğalçılıq mahiyyətini, terrorçu dövlət olduğunu və eləcə də terrorçu Njdenin əsl simasını konkret faktlarla, özü də əcnəbi mənbələrdən gətirdiyiniz sitatlarla ifşa etmisiniz. Belə halı biz bu il MDB dövlət başçılarının Aşqabadda keçirilmiş Zirvə görüşündə də izlədik. Siz bu faktları həmin tədbirdə iştirak edən liderlərin və dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırdınız. Biz Paşinyanın o faktların qarşısında nə dərəcədə məzlum və aciz göründüyünün şahidi olduq. Ona görə biz Sizə minnətdarıq. Amma əfsuslar olsun ki, bu gün də Ermənistanın işğalçılıq siyasətini və terrorçu mahiyyətini dəstəkləyən Paşinyan kimi bəzi adamlar vardır. Sizcə, nəyə görə?**

**C a v a b:** Bilirsiniz, Azərbaycan ictimaiyyəti bu məsələni bir müddət öncə qaldırmışdı və Azərbaycan vətəndaşları, o cümlədən veteranlar MDB dövlət başçılarının ünvanına Ermənistanda faşist Njdeyə abidənin ucaldılması ilə bağlı məktublar göndərmişdilər. Eyni zamanda, MDB ölkələrinin parlamentlərinə də oxşar məktublar getmişdi ki, bu gün MDB məkanında İkinci dünya müharibəsi ilə bağlı prinsip etibarilə yekdil fikir vardır. Rəsmi bəyanatlarda müharibənin tarixi nəticələri

və Sovet İttifaqının Qələbənin əldə edilməsində əsas rolu haqqında fikir ayrılığı yoxdur. Eyni zamanda, faşistlərin qəhrəmanlaşdırılması ilə bağlı fikirlər də üst-üstə düşür. Belə olan halda, necə ola bilər ki, İrəvanda şəhərin mərkəzində faşist cəlladı Njdeyə 6 metrlik abidə ucaldılır və bu abidənin açılışında Ermənistan Prezidenti və bütün rəhbərlik iştirak edir?! Bu nə deməkdir?!

Bu məsələ bizim gündəliyimizdə yeni deyil. Sadəcə olaraq, MDB Zirvə görüşünün gündəliyindəki məsələlərdən biri də Qələbənin 75 illiyinə hazırlıq idi. Mən bu məsələni açıq və arqumentlərlə dilə gətirdim, tarixi sənədlərə istinad etməklə, Njdenin faşist və cəllad sifətini ifşa etdim. Njdenin cinayətləri təkcə İkinci dünya müharibəsi illərində törətdiyi cinayətlərlə məhdudlaşmır. O, dinc Azərbaycan əhalisinə qarşı qəddarlıq, soyqırımı törətmiş, minlərlə günahsız azərbaycanlını qətlə yetirmişdir. Bütün bunlar tarixi faktlardır.

Əgər yadınızdadırsa, mən o çıxışımda bildirdim ki, bunu Ermənistanın əvvəlki rəhbərliyi edib. Yəni mən Baş Nazir Paşinyana bir növ imkan verdim ki, o bu çirkin əməli öz boynuna almasın. Çünki onun bu abidənin ucaldılmasında iştirakı olmayıb. Əfsuslar olsun ki, düzgün yanaşma göstərməkdənsə, o çox qeyri-adekvat bəyanatlarla Njdeyə bəraət qazandırmağa çalışdı. Mən dedim ki, o, SMERŞ tərəfindən həbs olunub – SMERŞ abreviaturadır, «Smert şpionam» – «Casuslara ölüm» – və 25 il müddətə məhkum edilərək, həyatını Vladimir həbsxanasında bitiribdir. Onun da arqumenti o oldu ki, Soljenitsın da sovet rejimi tərəfindən həbs olunmuşdu. Mən ondan sonra bir daha söz alıb dedim ki, cəlladı,

faşisti Soljenitsın ilə eyniləşdirmək olmaz. Bu, qətiyyən qəbuledilməzdir.

Mən gözləyirdim ki, bundan sonra artıq sakit bir şəraitdə öz müşavirlərinin köməyi ilə Ermənistan bir çıxış yolu axtaracaq, hər hansı bir məqbul formada bunu təkzib edəcəkdir. Amma biz bunun tam əksini gördük. Rusiyadan gəlmiş jurnalistlərlə görüşdə o daha da uzağa getdi və dedi ki, nə olsun ki, Njde Hitlerlə görüşüb. Molotov da Hitlerlə görüşüb. Bilirsiniz, bunu şərh etmək üçün söz tapmıram. Çünki bu  o dərəcədə aşağı səviyyəli fərziyyədir ki, bunu şərh etmək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri idi. Molotov–Ribbentrop Paktı 1939-cu ildə bağlanmışdı, ona görə ki, Sovet İttifaqı müharibəyə hazır deyildi və müharibənin mümkünlüyünü ertələmək üçün imzalanmışdı. Molotov Njde kimi, Hitlerə qulluq etmirdi. Molotov Njde kimi, faşist şüarları səsləndirmirdi. Njdenin məşhur şüarı o idi ki, «Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür». Yəni o faşistdir və bunu İkinci dünya müharibəsi zamanı demişdir. Əlbəttə ki, Ermənistan rəhbərliyinin belə cəfəng sözləri ciddi qəbul oluna bilməz.

Hesab edirəm ki, mənim Aşqabaddakı çıxışım  həlledici rol oynadı – bu cəllada Rusiyanın Armavir şəhərində qoyulmuş lövhə dağıdıldı, söküldü və məhv edildi. Bunu ermənilər özləri etdilər. Onları Armavir şəhər hakimiyyəti məcbur etdi. Əminəm ki, gün gələcək və ermənilər özləri İrəvanda bu faşistə ucaldılmış eybəcər abidəni özləri də sökəcəklər.

**S u a l: Cənab Prezident, istərdim ki, ölkədə iqtisadi sahədə görülən işlərlə də bağlı fikirlərinizi öyrənək. 2019-cu ildə Azərbaycanda iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində çox mühüm, ciddi addımlar atılıb. İlin iqtisadi yekunları barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bəli, bu il iqtisadi sahədə nəticələr yaxşıdır. Bilirsiniz ki, neftin qiymətinin kəskin şəkildə düşməsindən sonra bizim milli valyutamız da devalvasiyaya uğramışdı və iqtisadi fəallıq aşağı düşmüşdü. Əlbəttə, bu bizim üçün gözlənilməz idi. Təsəvvür edin, əgər sizin əsas gəlir mənbəyinizin dəyəri 4 dəfə ucuzlaşırsa, əlbəttə ki, bunun iqtisadiyyata çox mənfi təsiri ola bilər. Ancaq buna baxmayaraq, biz heç bir sosial layihəni ixtisar etmədik. Bütün sosial öhdəlikləri yerinə yetirdik. İqtisadi sahədə, əlbəttə, biz çox ciddi addımlar atmağa məcbur olduq. Ancaq hesab edirəm ki, sabitləşmədən sonra ilkin inkişaf təzahürləri özünü keçən il büruzə verdi. Bu il isə artıq inkişaf daha genişmiqyaslıdır və bütün iqtisadi parametrlər bunu göstərir.

Ümumi iqtisadi artım 2 faizdən çoxdur və bəlkə bu o qədər də böyük rəqəm deyil. Bunun da səbəbi ondadır ki, neftin hasilatı bir qədər aşağı düşüb. Bizim ümumi daxili məhsulumuzda neftin həcmi önəmli rol oynayır. Ancaq qeyri-neft iqtisadiyyatımız təqribən 3,5 faiz artıb. Hesab edirəm ki, bu, pis nəticə deyil, daha da artıq olmalıdır və olacaqdır.

Sevindirici hal odur ki, qeyri-neft sənaye sahəsində artım təxminən 14 faizdir. Bu onu göstərir ki, qeyri-neft

sənayesinin inkişafı ilə bağlı bizim planlarımız artıq real rəqəmlərlə ölçülür. Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulub, böyük islahatlar paketi icra edilir və burada da 7 faizdən çox artım vardır.

Digər iqtisadi göstəricilər də müsbətdir. İnflyasiya 11 ayda təqribən 2,6 faiz olub. Xarici ticarət dövriyyəsi artıb. Qeyri-neft ixracımız təqribən 14-15 faiz artıb, baxmayaraq ki, daxili istehlak da artır. Bizim qeyri-neft ixracımızın daha böyük rəqəmlərlə artmamasının səbəbi odur ki, əhali artır, daxili istehlak artır və beləliklə, ixrac üçün təklif olunan malların həcmi o qədər də artmır. Amma buna baxmayaraq, qeyri-neft ixracı 14 faiz artıbdır.

Xarici borcumuz aşağı düşüb, ümumi daxili məhsulun 17 faizini təşkil edir və bu, dünyada 9-cu göstəricidir. Gələn ilin büdcəsi artıq təsdiq edilib və burada da xarici borca xidmət edən vəsait nəzərdə tutulubdur. Beləliklə, ən azı gələn ilin sonunda xarici dövlət borcu 16 faiz olacaqdır. Mən hökumət qarşısında vəzifə qoydum ki, biz qısa müddət ərzində xarici borcu təqribən daxili məhsulun 10–12 faizinə endirək və bu tamamilə mümkündür. Bir amili də bildirməliyəm, bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfə artıqdır. Bu, deyə bilərəm ki, dünya təcrübəsində nadir nəticədir. Adambaşına düşən valyuta ehtiyatlarımızın həcminə görə biz MDB-də 1-ci yerdəyik. Bu il valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bu onu göstərir ki, biz gəlirləri çox böyük qənaətlə xərcləyirik – ancaq sosial layihələrə və strateji əhəmiyyət daşıyan layihələrə.

Bütövlükdə isə ilin sonuna qədər Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatıbdır. Bu da rekord göstəricidir. Bu, əlbəttə ki, həm iqtisadi sahədə çox böyük nailiyyətdir, eyni zamanda, bu bizim iqtisadi müstəqilliyimizi tam təmin edir. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Biz indi kreditlərdən asılı deyilik. Düzdür, bizə kredit vermək istəyənlərin sayı artır. Aparıcı beynəlxalq maliyyə qurumları bizə bir çox təkliflər təqdim edir. Ancaq mənim fikrim ondan ibarətdir ki, biz ancaq texnoloji tərəfdən önəmli layihələrə kredit götürə bilərik. Hansısa yolun çəkilişinə, yaxud da ki, hansısa inşaat işinə biz nə üçün xaricdən kredit alaq?! Bizim öz vəsaitimiz vardır. Ancaq texnologiya ixracı ilə bağlı olan kreditlər bizim üçün maraq doğura bilər.

Bütövlükdə iqtisadi sahədə 2019-cu il uğurlu olub və onu da bildirməliyəm ki, aparılan islahatlar, o cümlədən şəffaflıq sahəsində aparılan islahatlar bizə əlavə gəlir gətiribdir. Beləliklə, vergi və gömrük orqanları bu il plandan əlavə, xəzinəyə 1 milyard manat vəsait köçürübdür. Yəni sırf şəffaflıq, dürüstlük, düzgün hesabatın aparılması və bu sahədə, inzibatçılıq sahəsində aparılmış islahatlar sayəsində biz 1 milyard əlavə vəsait əldə etdik. Biz bu vəsaiti, əlbəttə ki, sosial layihələrə yönəltdik.

**S u a l: Cənab Prezident, Siz iqtisadi göstəricilərdən danışdınız. İstərdik ki, bir qədər də sosial sahəyə toxunaq. 2019-cu ildə sosial sahədə çox ciddi addımlar atıldı və əhalinin sosial müdafiəsi ilə bağlı**

**ardıcıl tədbirlər həyata keçirildi. Bəs bu istiqamətdə 2019-cu ili necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bunu da yüksək qiymətləndirirəm. Qeyd etdiyim kimi, hətta böhranlı illərdə biz sosial sahəyə nəzərdə tutulan vəsaiti azaltmamışdıq. Çünki mən həmişə demişəm ki, iqtisadi islahatlar sosial müdafiə ilə bərabər aparılmalıdır. Bu, siyasətimizin əsas qollarıdır. Çünki bir çox hallarda – biz bunu tarixdən də bilirik, bəzi ölkələrin təcrübəsindən də – çox ciddi iqtisadi islahatlar sosial problemlər yaradır və biz buna qətiyyən yol verə bilmərik. Çünki bizim bütün işimizin məqsədi Azərbaycan vətəndaşının maraqlarıdır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır. Bunun üçün həm sosial infrastrukturla bağlı olan layihələr icra edilməlidir, eyni zamanda, vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır. Ona görə hesab edirəm ki, bu il biz bu sahədə çox ciddi addımlar atdıq. Birinci növbədə, problemli kreditlər məsələsi öz həllini tapdı. Bu məsələ daim diqqət mərkəzində idi və biz yaxşı anlayırdıq ki, devalvasiyaya görə çətin vəziyyətə düşən vətəndaşlara kömək etməliyik. Ancaq məsələ onda idi ki, nə vaxt? Mən hesab edirdim ki, o vaxt ki, bizim buna imkanımız çatsın və bu imkan təmin olunduqca biz bunu etdik. Onu da bilirsiniz ki, devalvasiyaya uğrayan təkcə Azərbaycan olmayıb. Bir neçə postsovet ölkəsində oxşar hallar baş verib, o cümlədən ixracı daha çox enerji resursları olan ölkələrdə. Ancaq problemli kreditlərin həll edilməsi bizdəki kimi heç yerdə olmayıbdır. Biz vətəndaşlar üçün ən məqbul variantı seçdik və bunu həll etdik.

Ondan sonra maaşların artırılması, pensiyaların, sosial müavinətlərin, tələbə təqaüdlərinin, yəni bütün sosial sahədə olan məsələlər kompleks şəkildə öz həllini tapdı. Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də 1-ci yerdədir. Amma o demək deyil ki, bu bizi qane edir, yox! Biz istəyirik daha da artsın və əminəm ki, artacaq. Sadəcə olaraq, buna nail olmaq üçün gərək iqtisadi sahədə daha da böyük artım olsun. Çünki biz ayağımızı yorğanımıza görə uzadırıq. Biz heç yerdən dəstək almırıq, buna ehtiyac da görmürük. Büdcəmizi elə planlaşdırmalıyıq ki, ölkə qarşısında duran vəzifələr icra edilsin, qeyri-neft iqtisadiyyatının inkişafını şərtləndirən layihələr icra edilsin və əldə edilmiş gəlirlər hesabına biz sosial layihələri həll edək. İldən-ilə bizim valyuta ehtiyatlarımız artır. Hətta ən böhranlı 2015-ci, 2016-cı illərdə bizim gəlirlərimiz kəskin aşağı düşəndə belə, biz yenə də böyük qənaət paketi təqdim etdik və imkan vermədik ki, valyuta ehtiyatlarımız azalsın. Çünki bu həm manatın məzənnəsinə müsbət təsir göstərir, həm də bizim əsas ehtiyatımızdır.

Gələcək sosial layihələrin həyata keçirilməsi sırf iqtisadi inkişafla bağlıdır və iqtisadi inkişafın, əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrə istiqamətləndiriləcəkdir. Əminəm ki, gələn il bu istiqamətdə də önəmli il olacaqdır. Onu da bildirməliyəm ki, biz məcburi köçkünlər üçün, şəhid ailələri, müharibə veteranları, əlillər üçün böyük sosial evlər paketi təqdim etmişik.

Təkcə məcburi köçkünlər üçün bu il 5000-dən çox ev və mənzil inşa edilib. Təsəvvür edin, orta hesabla bir ailədə 4-5 nəfər olur, yəni biz bir şəhər boyda layihə icra etdik. Təqribən 25–30 min nəfər bundan bəhrələnir, 800-ə yaxın şəhid ailəsi, müharibə əlili evlərlə təmin edilir. Heç bir ölkədə bu yoxdur. İndi müharibədən çıxmış bir çox ölkələr vardır. Hansı ölkədə müharibədə həlak olmuş şəhidlərin ailələrinə dövlət tərəfindən evlər, mənzillər verilir? Özü də bir yox, iki yox, artıq 7000-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzil verilib. Minlərlə, təqribən 6000-dən çox müharibə əlilinə maşın verilib. Yəni bu bizim siyasətimizdir, biz heç kimdən bunu götürüb tətbiq etmirik. Biz bu təşəbbüsləri özümüz göstəririk. Çünki mən hesab edirəm ki, bu ədalətlidir və ədalət hər yerdə olmalıdır, o cümlədən sosial ədalət. Ona görə hesab edirəm ki, sosial sahədə bu il yaddaqalan olub və gələn il imkan daxilində bu müsbət meyillər davam etdiriləcəkdir.

**S u a l: Cənab Prezident, bu il enerji sahəsində çox mühüm və əlamətdar hadisələrlə zəngin olub. Strateji TANAP layihəsinin reallaşmasını, başa çatmasını, «Cənub Qaz Dəhlizi»nin reallaşmasının əhəmiyyətini Siz necə səciyyələndirərdiniz?**

**C a v a b:** TANAP layihəsinin istismara verilməsi, əlbəttə, böyük hadisədir, tarixi hadisədir. Demək olar ki, «Cənub Qaz Dəhlizi»nin əsas hissəsini təşkil edən bu layihə uğurla başa çatdırıldı və əvvəlcədən nəzərdə tutulduğundan daha aşağı qiymətlə. Yəni bu layihəyə

bəri başdan daha böyük vəsait nəzərdə tutulurdu. Ancaq inşaat zamanı bu layihə böyük qənaətlə icra edildi və artıq Azərbaycan qazı Avropa İttifaqının sərhədinə gətirilibdır. Ona görə Türkiyə–Yunanıstan sərhədində bu ilin noyabrında keçirilmiş mərasim xüsusi əhəmiyyət daşıyırdı.

TANAP layihəsi bizim strateji aktivimizdir. Bu layihənin icra edilməsi üçün biz böyük səylər göstərmişik. Çünki biz hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan qazını daha böyük həcmdə Avropa qitəsinə nəql etmək üçün bir neçə layihə irəli sürülmüşdü. Onlardan biri Nabukko idi, başqa layihələr də var idi. Bu layihələr ətrafında çoxsaylı müzakirələr aparılırdı, konfranslar təşkil edilirdi. Faktiki olaraq, biz bir neçə il vaxt itirdik. Çünki bu layihənin əsas amili yox idi: bunun pulunu kim verəcək? Ölkələr arasındakı koordinasiyanı kim aparacaq? İlkin mərhələdə Avropa İttifaqı bu missiyanı öz üzərinə götürmüşdü və ölkələr arasında koordinasiyanı aparmağa çalışırdı. Dediyim bu simpoziumlar, konfranslar, təqdimatlar bu məqsədi daşıyırdı.

Biz də iştirak edirdik, şəxsən mən dəfələrlə iştirak etmişəm. Hər dəfə görürdüm ki, burada konkret məsələlərdən söhbət getmir. Yaxşı şüarlar səsləndirilir, yaxşı təqdimatlar edilir. Ancaq bunu necə edək, kim edəcək, kim öz üzərinə götürəcək? – bu məsələ açıq olaraq qalırdı. Bu məsələyə toxunanda bizə çox mücərrəd cavablar verilirdi, başa düşə bilmirdik ki, bu nə məsələdir. «Şahdəniz-2» layihəsinə sanksiya vermək üçün isə mütləq bu məsələ öz həllini tapmalı idi. Çünki əkstəqdirdə kim bu qədər vəsaiti qazma işlərinə istiqa-

mətləndirəcək, əgər bunun bazarı yoxdursa. Qaz bazarında əvvəlcədən gərək kontrakt bağlayasan, ondan sonra qazma işləri aparasan. Bu, neft deyil ki, istənilən yerə satmaq olar. Bu, bazara bağlı olan məhsuldur. Biz görəndə ki, bu məsələ yerində sayır, o vaxt təşəbbüs irəli sürdük və Türkiyə tərəfinə bunu təqdim etdik. Təklif etdik ki, bu layihənin adı TANAP olsun – Trans–Anadolu kəməri. Türkiyə tərəfindən müsbət reaksiya verildi. Beləliklə, 2012-ci ildə mən və hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan İstanbulda bu tarixi anlaşmanı imzaladıq. Ondan təqribən bir il sonra «Şahdəniz» konsorsiumu «Şahdəniz-2» layihəsinin işlənilməsinə sanksiya verdi. Yəni bu, bir-biri ilə sıx bağlı olan məsələlər idi. Əgər TANAP imzalanmasaydı, «Şahdəniz-2» də havada qalacaqdı və bu gün biz bu layihəni icra edə bilməzdik. Məhz buna görə TANAP-ın çox böyük əhəmiyyəti vardır. Çünki bu, imkan verdi ki, «Şahdəniz» qaz-kondensat yatağı tammiqyaslı işlənilsin və beləliklə, orada 1 trilyon kubmetrdən çox olan təbii qaz hasil və nəql edilsin.

İkinci məsələ, bu nə üçün bizə lazımdır? Əgər TANAP imzalanmasaydı, bu gün artıq hasilata hazırlaşan «Abşeron» yatağı da qalacaqdı. Heç kim oraya vəsait qoymayacaqdı. «Abşeron» yatağından da biz ən azı 300 milyard kubmetr qaz hasilatı gözləyirik. Xarici investor da oraya əsas vəsaiti qoyur. Əgər qaz kəməri olmasaydı, kim buna vəsait qoyardı? Bizim digər yataqlardan təbii qaz çıxır, o cümlədən səmt qazı. İndi səmt qazını da biz qəbul edirik. Eyni zamanda, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunda «dərin qaz» adlandırılan böyük qaz

ehtiyatı vardır. Biz onun da istismarına yaxınlaşırıq. Ona görə də TANAP burada xüsusi rol oynayıb. Bu sadəcə olaraq, Türkiyə ərazisindən keçən bir kəmər deyil. Bu kəmər həm Türkiyəni təmin edəcək və artıq edir, həm Gürcüstanı, həm də Avropanı. Eyni zamanda, imkan verəcək ki, biz bütün qaz ehtiyatlarımızı işə salaq, xarici investorları cəlb edək, yenə də milyardlarla dollar vəsait qoyulacaqdır. Beləliklə, Azərbaycan gələcəkdə qazın ixracından vəsait qazanacaqdır. Çünki bizim neft yataqlarımız artıq bəllidir. Düzdür, indi xarici şirkətlərlə yeni layihələr işlənilir. Əminəm ki, onlar da imzalanacaq. Artıq imzalanmış layihələrdən də yaxşı nəticələr gözləyirik. Ancaq uzunmüddətli perspektivdə bizim əsas gəlir mənbəyimiz təbii qaz olacaqdır. Ona görə TANAP-ın çox böyük əhəmiyyəti vardır.

Eyni zamanda, TANAP Avropa qaz kəmərinin – Trans–Adriatik, yəni TAP adlandırılan kəmərin inşasına da imkan yaratdı. Bu layihənin icra səviyyəsi artıq 90 faizi ötübdür.

Onu da bildirməliyəm ki, bütün bu layihələrin təşəbbüskarı Azərbaycandır. «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarı və əsas təşkilatçısı Azərbaycan olubdur. «Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir: «Şahdəniz-2», «Cənubi Qafqaz» kəməri, TANAP və TAP. Onların hər birində Azərbaycan iştirak edir. TANAP-da 58 faiz payla biz layihənin əsas səhmdarıyıq. TAP-da bizim 20 faiz payımız var və eynilə digər layihələrdə də. Ona görə bunun çox böyük tarixi əhəmiyyəti vardır. Əminəm ki, keçən il rəsmi açılışını etdiyimiz «Cənub Qaz Dəhlizi» gələn il tam işə düşəcəkdir.

**S u a l: Cənab Prezident, enerji layihələri ilə bağlı fikirlərinizi eşitdik. Növbəti sualım isə nəqliyyat sektoru ilə bağlı olacaq. Məlum məsələdir ki, Azərbaycan bu sahədə də çox böyük nailiyyətlər, uğurlar əldə edibdir. 2019-cu ildə bu istiqamətdə regional əməkdaşlıqla bağlı görülmüş işləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Müsbət qiymətləndirirəm. Hesab edirəm ki, 2019-cu ildə biz artıq mövcud olan nəqliyyat infrastrukturundan çox səmərəli şəkildə istifadə etdik. Əvvəlki dövrlərdə yaradılmış nəqliyyat infrastrukturu imkan verdi ki, biz əməkdaşlığın miqyasını genişləndirək.

Nəqliyyat məsələlərinə gəldikdə, mən həmişə bu məsələləri iki yerə bölürdüm. Birinci, daxili nəqliyyat layihələri, ikinci isə beynəlxalq əməkdaşlıq tələb edən layihələr. Düzdür, bu layihələr bir-biri ilə sıx bağlıdır. Ancaq biz bütün addımlarımızı planlı şəkildə atmalı idik. Belə olan halda, uğur da qazanılacaqdı, belə də oldu. Ona görə daxili nəqliyyat layihələrinin icrası bizə imkan verdi ki, biz ölkə daxilində çox müasir nəqliyyat infrastrukturu yaradaq və buna nail olduq. Misal üçün, baxmayaraq ki, ölkə ərazisi o qədər də böyük deyil, bizim 7 beynəlxalq aeroportumuz var və bunların hər biri işlək vəziyyətdədir. Onlardan 6-sı beynəlxalq uçuşlar da təşkil edir. Digər tərəfdən, bizim dəniz nəqliyyatımız sürətlə inkişaf edir. Biz Xəzərdə ən böyük donanmaya malikik. Hazırda 2003-cü ildə istifadəyə verilmiş Gəmiqayırma zavodunda

bütün növ gəmiləri istehsal edə bilirik. Bu yaxınlarda tarixdə ilk dəfə olaraq, Azərbaycanda bərə gəmisi istifadəyə verildi. Onun adı «Azərbaycan»dır. «Laçın» adlı neft tankerinin də inşası tamamlandı və istifadəyə verildi. Növbəti illərdə Bakının Gəmiqayırma zavodunda başqa gəmilər də inşa ediləcəkdir.

Hava nəqliyyatına gəldikdə, Davos Dünya İqtisadi Forumunun son hesabatında göstərilir ki, hava nəqliyyatının səmərəliliyinə görə, Azərbaycan dünyada 12-ci yerdədir. Yük daşımaq üçün imkanlar vardır. Azərbaycan indi tranzit hab kimi, öz hava məkanından istifadə edir.

Eyni zamanda, ölkə daxilində dəmir yolu infrastrukturu yenilənib. Əlbəttə ki, Bakı–Tbilisi–Qars dəmir yolunun 2 il əvvəl istismara verilməsi böyük dəyişikliklərə gətirib çıxardı. Dəmir yollarının səmərəliliyinə görə – yenə də Davos Forumuna qayıdıram – Azərbaycan 11-ci yerdədir. Yəni bu çox yüksək göstəricidir. Eyni zamanda, son 16 ildə 16 min kilometr avtomobil yolu inşa edilib – həm magistral, həm şəhərlərarası, həm də kənd yolları. Bu göstəriciyə görə, yolların keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. Bütövlükdə nəqliyyat infrastrukturunun səviyyəsinə görə Azərbaycan dünyada 34-cü yerdədir və bu çox yüksək göstəricidir. Nəqliyyatın bütün seqmentləri Azərbaycanda tam müasir standartlara cavab verir. Keçən il istifadəyə verilmiş Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da çox böyük infrastruktur obyektidir. Bu limanın yükaşırma qabiliyyəti hazırda 15 milyon tondur və bunun həcmi 25 milyon tona qədər rahatlıqla artırıla bilər. Beləliklə, bu strateji infrastruktur layihəsi bizə

imkan verir ki, Azərbaycan üzərindən yükdaşımaların həcmi artsın.

Bütün bu layihələrin arasında Bakı–Tbilisi–Qars dəmir yolunu  xüsusilə vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə doğrudan da strateji obyektdir, strateji infrastrukturdur. Birincisi, bizim Türkiyə ilə dəmir yolu bağlantımız olmayıb. Beləliklə, bizim ixracımız, yaxud da ki, Azərbaycan üzərindən təşkil edilən ixracın son nöqtəsi Qara dəniz limanları idi. Orada da gərək yüklər yenə aşırılardı, daşınardı – yenə də vaxt itkisi, yenə də vəsait itkisi. Limanların da imkanları məhduddur və bir çox hallarda hava şəraitindən asılıdır. İlk növbədə, Novorossiysk limanı. Orada il ərzində günlərin təqribən 20 faizində hava şəraiti imkan vermir ki, yüklər daşınsın. Ona görə bu, birinci məsələ idi. İkinci məsələ ondan ibarət idi ki, biz çox yaxşı başa düşürdük, əgər Bakı–Tbilisi–Qars dəmir yolu tikilərsə, onda biz nəinki şərq istiqamətindən, hətta cənub və şimal istiqamətindən də bu yola yükləri cəlb edə bilərik və buna nail olduq. Ona görə bu bizim üçün strateji obyekt idi. Mən Prezident kimi fəaliyyətimə başlayanda dərhal bu məsələ ilə məşğul olmağa başladım və araşdırma apardım ki, biz bunu necə icra edək. O vaxt bizim pulumuz yox idi. Beynəlxalq maliyyə qurumları bu layihəyə maraq göstərmirdilər. Biz bəzi ölkələrə müraciət etmişdik. O müraciətə də cavab verilmədi. Biz gördük ki, bunu özümüz etməliyik və əlbəttə, qonşu ölkələrlə birlikdə. İlk növbədə, Türkiyə tərəfi ilə danışıqlar apardıq və razılığa gəldik. Ondan sonra Gürcüstanla danışıqlar başlanıldı. Bunun böyük hissəsi Gürcüstan üzərindən keçən dəmir

yoludur. Gürcüstanın da imkanı yox idi. Ona görə biz bu məsələni öz üzərimizə götürdük və Gürcüstanla kredit anlaşması imzalandı. Bu kredit anlaşmasına görə, təqribən 800 milyon dollara yaxın vəsait nəzərdə tutulurdu, o şərtlə ki, inşaatı Azərbaycan şirkətləri aparsın. Yəni bu vəsaitdən biz özümüz istifadə edəcəyik, eyni zamanda, kredit də sonradan qaytarılacaqdır.

Bütün bu məsələləri təşkil edəndən sonra bəzi beynəlxalq təzyiqlərlə üzləşdik. Bu bir qədər gözlənilməz idi. Çünki biz yaxşı bilirdik və xəritəyə baxanda hər kəs görür ki, bu yol çox lazımlıdır. Ancaq bəzi Qərb ölkələri buna etiraz etdilər. Baxmayaraq ki, biz indi onlardan kredit də almaq fikrində deyildik. Gürcüstana təzyiqlər başlandı ki, bu layihəyə razılıq verməsin. Çünki bu layihə həyata keçirilərsə, Ermənistan nəqliyyat dalanında qalacaqdır. Dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi, diaspor bu layihənin əleyhinə açıq şəkildə çıxdılar. Əgər Gürcüstan buna razılıq verməsəydi, əlbəttə, bu layihə həyata keçirilə bilməzdi. Biz Gürcüstan rəhbərliyini inandıra bildik ki, bu layihə onlar üçün də xeyirlidir. Həm minlərlə iş yerləri yaradılacaq, Gürcüstana yaxşı şərtlərlə təqribən 800 milyon dollar dəyərində kredit veriləcək, həm də Gürcüstan üzərindən yükdaşımaların həcmi kəskin şəkildə artacaqdır. Razılığa gələndən sonra, mən bəzi Qərb ölkələrinin rəhbərləri ilə açıq söhbət etdim və dedim ki, siz bizə mane olmayın. Kömək etmirsiniz etməyin, ancaq mane də olmayın. Çünki biz də bəzi məsələlərdə sizə mane ola bilərik. Hesab edirəm, bu sözlərdən sonra artıq orada da yəqin edildi ki, daha yaxşı olar ki, bu işə müdaxilə etməsinlər.

Beləliklə, Tbilisidə Bakı–Tbilisi–Qars layihəsinin sənədləri imzalandı. İnşaat 2 il bundan əvvəl başa çatdı və bu gün biz nəinki gözlədiyimiz yerlərdən, hətta yeni ünvanlardan da bu yol üzərində yükləri qəbul edirik və ötürürük.

Bu, əlbəttə, Çin–Qazaxıstan–Xəzər–Azərbaycan–Gürcüstan–Türkiyə yoludur və eyni zamanda, artıq Türkmənistandan da yüklər gəlir. Türkmənistana səfərim zamanı ancaq nəqliyyat sektoruna aid 8 sənəd imzalandı. Artıq Əfqanıstan–Türkmənistan–Azərbaycan–Avropa dəmir yolu xətləri birləşib. Əfqanıstanda «Lapis-Lazuli» layihəsi ilə biz Bakı–Tbilisi–Qarsı birləşdirə bildik. Beləliklə, yeni yüklər əldə edildi. Artıq Rusiyadan da Azərbaycan üzərindən Türkiyəyə yüklərin daşınması başlanıbdır. Əminəm ki, bu yolla yüklərin həcmi daha da artacaqdır. Eyni zamanda, biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, Şimal–Cənub nəqliyyat dəhlizində də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Bütün bu addımların nəticəsində Azərbaycan – açıq dənizə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilibdir. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımaların həcmi artacaqdır.

Bir məsələni də vurğulamaq istəyirəm. Əlbəttə, bu bizə uzunmüddətli gəlirlər gətirəcək, özü də böyük həcmdə. Eyni zamanda, bu, beynəlxalq əməkdaşlığı da möhkəmləndirir, ölkələr bir-biri ilə daha sıx bağlanır,

qarşılıqlı asılılıq yaranır. Tranzit ölkə olmaq üçün sən mütləq qonşularla yaxşı münasibətlər qurmalısan. Çünki sən qonşularsız tranzit ölkəyə çevrilə bilməzsən. Xarici siyasətimizlə bağlı dediyim sözlər bunu bir daha təsdiqləyir. Əgər qonşu ölkələrlə səmərəli, qarşılıqlı faydalı münasibətlər qurulmasaydı, bu gün nə enerji, nə də nəqliyyat layihələri icra edilə bilməzdi.

**S u a l: Cənab Prezident, icazənizlə, bir qədər də dini-mənəvi dəyərlərin təbliği istiqamətində Azərbaycanın atdığı addımlara toxunaq. Çünki ölkəmiz siyasi, iqtisadi, hətta hərbi olmaqla yanaşı, eyni zamanda, dinlərarası dialoqun təşviqi baxımından da çox mühüm platforma yaradıb. Elə bu il qeyd etdiyiniz kimi, Bakıda Dünya Dini Liderlərinin Zirvə toplantısı keçirildi və Siz həmin toplantıda çıxış etdiniz, mühüm məqamlara toxundunuz. Ümumiyyətlə, Azərbaycandan, konkret Bakıdan ünvanlanan həmin çağırışlar region və dünya ölkələri üçün nə verir? Bunun ən mühüm faydası nədir? İstərdik bu barədə Sizin fikirlərinizi eşidək.**

**C a v a b:** Tamamilə haqlısınız, Azərbaycan bu istiqamətdə ardıcıl siyasət aparır və bu siyasətin çox sadə səbəbləri vardır. İlk növbədə, bu siyasət və bu sahədə aparılan işlər daxili vəziyyətin sabitləşməsinə, sabit saxlanılmasına xidmət göstərir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu unikal təcrübə artıq bir çox ölkələr tərəfindən öyrə-

nilir. Bu həqiqətən, belədir. Bu həm dövlət siyasətidir, həm də cəmiyyətdən gələn sifarişdir. Biz əsrlərboyu bu ab-havada yaşamışıq və Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri heç vaxt heç bir ayrı-seçkilik hiss etməyiblər, heç vaxt tarixdə dini və milli zəmində Azərbaycanda qarşıdurma, yaxud da hansısa bir anlaşılmazlıq olmayıbdır. Ona görə biz bu siyasəti apararkən hesab etdik ki, əgər geniş beynəlxalq əməkdaşlıq bu istiqamətdə qurularsa, bu həm bizim üçün daha yaxşı olacaq, həm də regionda mövcud olan vəziyyətə müsbət təsir göstərəcəyik. Çünki biz adada yaşamırıq və bizim təhlükəsizliyimiz, sabitliyimiz, əlbəttə, daxili amillərə söykənir. Ancaq hüdudlarımızdan kənarda yerləşən ölkələrdəki vəziyyət də bizim üçün çox əhəmiyyətlidir.

İkincisi, biz hesab etdik ki, Azərbaycan bu missiyanı öz üzərinə götürə bilər – təkcə tarixi keçmişinə görə yox, eyni zamanda, bugünkü siyasətinə görə. Çünki bizim siyasətimiz əməkdaşlığa hesablanıbdır. Mən tam əminəm ki, yalnız əməkdaşlıq hesabına biz xarici məqsədlərə nail ola bilərik. Bəzi ölkələr var, görəndə ki, qonşunun vəziyyəti ağırdır, onu daha da ağırlaşdırmaq istəyir, nəsə qoparmaq istəyir. Bu çox yanlış siyasətdir. Bəlkə də qısamüddətli xeyir gətirə bilər, ancaq o ölkə vətəndaşlarının yaddaşında həmişə qalacaqdır ki, fürsət düşdü, məndən bu şeyi aldı, halbuki almamalı idi. Bizim siyasətimiz ondan ibarətdir ki, əgər qonşu ölkə, yaxud da hansısa başqa ölkə dar gündədirsə və sənin kömək etmək imkanın varsa, kömək etməlisən. Bu, gələcəkdə sənə qayıdacaq, daha böyük dividendlər əldə edəcəksən. Bu

amili nəzərə alaraq, biz bu təşəbbüslə çıxış etdik. Eyni zamanda, gördük ki – bunu artıq 10 il bundan əvvəl görmüşdük – dünyada tendensiyalar artıq mənfi istiqamətə gedir. Hazırda bunu görməyən yoxdur. Hər kəs görür ki, dünyada, o cümlədən Avropada ayrı-seçkilik meyilləri güclənir. Ancaq biz bunun təzahürlərini təxminən 10 il bundan əvvəl görməyə başladıq və «Bakı prosesi» adlandırılan layihəni, siyasi təşəbbüsü irəli sürdük. Bu haqda kifayət qədər danışılıb. Çox da geniş şərhə ehtiyac yoxdur. «Bakı prosesi» bu gün BMT tərəfindən çox önəmli, bəlkə də ən vacib platforma kimi tanınır. Bu proses çərçivəsində əməkdaşlıq daha yeni pilləyə qalxdı. Deyə bilmərəm ki, bu proses bu sahədə hansısa bir dönüş yaratdı. Ancaq Bakıda keçirilmiş Dünya Dini Liderlərinin II Zirvə görüşü bir daha göstərdi ki, bunun böyük faydası vardır. Eyni zamanda, Bakıda ənənəvi olaraq Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu və «Bakı prosesi» çərçivəsində aparılan işlər dini və milli zəmində olan ixtilafların azaldılmasına xidmət göstərir. Bu gün Azərbaycanın rolu artıq birmənalı şəkildə tanınır və təqdir edilir.

Deyə bilərəm ki, dünya miqyasında Azərbaycan qədər bu məsələyə diqqət yetirən və nəticə əldə edən ikinci ölkə tapmaq çətindir. Bunu təkcə mən demirəm, bunu Azərbaycanda milli-mənəvi dəyərlər, dinlərarası dialoq sahələrində əldə edilmiş uğurları tanınmış aparıcı siyasi və dini liderlər qeyd edir. Misal üçün, İslam Əməkdaşlıq Təşkilatının rəhbərliyi dəfələrlə Azərbaycanda müsəlman dininə olan hörmətə və müsəlman dininin dünyada sülh,

mərhəmət dini kimi təqdim edilməsində gördüyümüz işlərə çox böyük qiymət veribdir. Aparıcı müsəlman ölkələrinin rəhbərləri bunu açıq şəkildə ifadə ediblər. Biz birinci  və yeganə müsəlman ölkəsi olmuşuq ki, müsəlman tarixinə, mədəniyyətinə aid sərgini Vatikanda keçirdik. Biz müsəlman dəyərlərinin Avropada təbliğ edilməsində çox böyük rol oynayırıq. Təsadüfi deyil ki, müsəlman ölkələrinin rəhbərləri bu sahədəki fəaliyyətimizə yüksək qiymət verirlər.

Eyni zamanda, bu Zirvə görüşündə iştirak etmiş Moskva və bütün Rusiyanın patriarxı Kirill öz çıxışında və rəsmi bəyanatında Azərbaycanda bu sahədə görülən işlərə yüksək qiymət veribdir. Bakıda bir neçə il bundan əvvəl rəsmi səfərdə olmuş Roma Papası Fransisk də bu sahədə Azərbaycanda görülən işlərə yüksək qiymət vermişdir. Bunu deyən dini liderlərdir. Bunu deyən adamların arxasında milyardlarla insan vardır. Bu liderlər bizim bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. İkinci belə bir ölkə tapmaq mümkün deyil ki, bütün ənənəvi dinlərin rəhbərləri orada görülən işlərə eyni fikirlə yüksək qiymət versinlər. Əlbəttə ki, bu, böyük nailiyyətimizdir.

Hesab edirəm ki, bizim yaratdığımız platforma bu gün yüksək səviyyədə qiymətləndirilir və buna ehtiyac vardır. Bu forumlardan sonra mənim ikitərəfli görüşlər əsnasında yəqin etdiyim odur ki, bütün iştirakçılar çox böyük minnətdarlıqla bizə müraciət edərək deyirlər ki, nə yaxşı ki, siz bu işi öz üzərinizə götürmüsünüz. Bu, ilk növbədə, bizim özümüzə lazımdır, regionumuza lazımdır, dünyaya lazımdır.

**S u a l: Cənab Prezident, islahatlar məsələsinə toxunmaq istərdim. Azərbaycanda bütün sahələri əhatə edən islahatlar arasında kadr və struktur islahatları xüsusi, mühüm bir yer tutur. Son zamanlar bu sahə Sizin diqqət mərkəzinizdə olan əsas məsələlərdən biridir. Ölkəmizin ümumi inkişafında kadr və struktur islahatlarının rolu barədə nə düşünürsünüz?**

**C a v a b:** Əlbəttə, bu il bu sahədə görülmüş işlərlə yaddaqalan olub. Kadr və struktur islahatları əslində bir-birini tamamlayan islahatlardır. Bu, ümumi islahatlar siyasətinin təzahürüdür. İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki Prezident seçkilərindən sonra mənim andiçmə mərasimindəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq, o cümlədən kadr islahatları ilə bağlı olan məsələlər öz həllini tapdı. Yeni hökumətdə müasir dünyagörüşünə malik olan gənc, eyni zamanda, təcrübəli kadrlar təmsil olundular və biz onların rəhbərlik etdikləri sahələrdə islahatların artıq yaxşı nəticələrini görməyə başladıq. Builki sosial-iqtisadi göstəricilərin artımı göstərir ki, Prezident tərəfindən verilmiş tapşırıqlar yerinə yetirilir.

Bu il də islahatlar davam etdirildi. Struktur islahatlarına gəldikdə, əlbəttə ki, Prezident Administrasiyasında çox ciddi struktur və kadr islahatları aparıldı, Nazirlər Kabineti yenidən formalaşdı. Həm vəzifələrə

yeni simalar gətirildi, həm də struktur dəyişikliyi edildi. Yerli icra orqanlarında kadr dəyişikliyi aparılır və aparılacaq. Bu proses davam etdiriləcək. Bu labüddür, çünki dayanıqlı inkişafı təmin etmək üçün həm struktur çevik olmalıdır, həm də kadrlar müasir çağırışlara cavab verməlidir. XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil. İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin. Yeni kadrlar yeni yanaşma gətirirlər, yeni düşüncə tərzi gətirirlər və mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Eyni zamanda, vaxtilə xidməti olmuş kadrları da biz böyük hörmətlə təqaüdə göndəririk. Bu da bizim milli ənənələrimizə uyğundur, eyni zamanda, hesab edirəm ki, hər bir insana onun gördüyü işlərə görə qiymət verilməlidir, o cümlədən rəhbərlik tərəfindən. Ona görə ölkəmizdə bu proses çox hamar gedir.

Bütövlükdə deyə bilərəm ki, bizim siyasətimiz konseptual xarakter daşıyır və ardıcıllıqla icra edilir. Əgər son 16 ilin tarixinə geniş nəzər salsanız görərsiniz ki, heç bir addım təsadüfi olmayıb. Hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. Beləliklə, kadr islahatları zamanında aparılır. Bəlkə də 5 il bundan əvvəl belə kadr islahatları aparmaq düzgün olmazdı, amma 2 il bundan sonra da artıq gec olardı. Ona görə hesab edirəm ki, kadr islahatları, struktur islahatları zamanında aparılır. Ümumiyyətlə, işə yanaşma tərzi dəyişir. Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortalığa çıxır, iqtidarın yeni siması ortalığa çıxır – müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və

bizim inkişaf strategiyamıza uyğun. Hər şey buna bağlıdır. İlk növbədə, bizim milli maraqlarımız, dövlətçiliyimiz, vətəndaşların rahat yaşaması, sosial rifah və kadrlar bu məqsədlərə qulluq etməlidir. O kadrlar ki, bu məsuliyyəti dərk etmir, onlar, əlbəttə, ən yaxşı halda vəzifədən uzaqlaşdırılır. Yaxud da, onlara qarşı daha ciddi tədbirlər görülür və görüləcəkdir.

**S u a l: Cənab Prezident, islahatlar məsələsinin davamı olaraq, son günlərin ən çox müzakirə olunan məsələsi ilə bağlı sual ünvanlamaq istəyirəm Sizə. Bir neçə gün əvvəl bir sıra yüksəkvəzifəli məmur həbs edildi. Siz öz çıxışlarınızda daim məmurların təmiz, vicdanlı işləməsinin vacibliyini bildirirsiniz. Məmurlar tərəfindən törədilən hər hansı qanun pozuntularına qarşı ciddi mübarizə aparılacağını qeyd edirsiniz. Sizin bu istiqamətdə atdığınız qətiyyətli addımlar əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Bu addımları ölkədə aparılan genişmiqyaslı islahatların tərkib hissəsi hesab etmək olarmı?**

**C a v a b:** Təbiidir ki, bu, genişmiqyaslı islahatların tərkib hissəsidir. Son müddət ərzində mənim bəzi daxili görüşlərim ictimailəşdirildi və hesab edirəm ki, buna ehtiyac vardır. Onu da bildirməliyəm ki, mənim iş qrafikim çox gərgindir. Demək olar ki, iş qrafikimdə fasilə yoxdur. Hətta bazar günündə ki, işə çıxmıram, mən yenə də daim əlaqədəyəm. Bəlkə də Azərbaycanda yeganə adamam ki, istirahət günlərim yoxdur. Çünki hər gün mənim üçün iş günüdür, hər gün məsələləri həll

etmək lazımdır. Bir çox məsələlər çıxır ki, onlar operativlik tələb edir. Ona görə ictimaiyyətə təqdim olunan bəzi daxili görüşlər mənim iş qrafikimdə bəlkə də 5–10 faiz təşkil edir. Ancaq buna ehtiyac vardır. Bu, ictimaiyyətə verilən, bir növ, hesabatdır, siyasətimizin əsas istiqamətlərinin dəqiqləşdirilməsidir.

Eyni zamanda, kadrlar qarşısında qoyulan vəzifələri ictimaiyyət də bilsin. Misal üçün, hansısa rayona təyin olunan icra başçısına dediyim sözlər, verdiyim tövsiyələr təbii ki, rayon ictimaiyyəti tərəfindən də qəbul edilir. Onlar artıq o adamdan bu meyarlara uyğun olmasını tələb edirlər və tələb etməlidirlər. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha güclü olmalıdır. Bunu sadəcə, söz naminə demirəm. Bəlkə də bir çox hallarda bunu təkrarlayıram. Nəyə görə? Çünki bu bizdə yoxdur, ya da ki, ibtidai vəziyyətdədir. Belə olmaz, ictimai nəzarət olmalıdır. Əgər ictimai nəzarət olmasa, biz məlumatı haradan əldə edəcəyik? Mən demişəm və bir daha demək istəyirəm ki, bəzi hallarda mən bir çox şeyləri mətbuatdan öyrənirəm. Bəzi məsələlər mənə məruzə edilmir, çünki məruzə etmək o adamlara sərf etmir. Ona görə mən ya bölgələrə gedəndə çalışıram vətəndaşlardan vəziyyətli öyrənim, onları narahat edən problemlər haqqında eşidim, ya özüm təftiş edirəm orada işləri, ya da ki, ictimaiyyət verməlidir bu məlumatı. Dövlət məmurları hər bir ölkədə ancaq yaxşı raport verməyi bilirlər. Onlardan soruşsan deyərlər ki, hər şey əladır, hər şey mükəmməldir, heç bir problem yoxdur. Mən bir çox rayonlarda icra başçısı ilə söhbət edəndə soruşuram ki, hansı problem var – deyirlər hər şey əladır. Axı belə ola

bilməz. Ya özü bilmir, ya bunları ört-basdır etmək istəyir, ya da ki, bilmirəm hansı məqsədi güdür.

Mənim kameralar qarşısında yeni təyin edilmiş icra başçılarına dediyim sözlər onlara verilən ən ciddi tapşırıqdır və onlar bu tapşırığı yerinə yetirməlidirlər. O cümlədən vətəndaşlara münasibətdə yekəxanalığa yer olmamalıdır, özlərini təkəbbürlü aparmamalıdırlar, vətəndaşlara yuxarıdan aşağı baxmamalıdırlar, vətəndaşlara xidmət etməlidirlər, vətəndaşları incitməməlidirlər, hansısa abadlıq işlərinə sahibkarlardan qanunsuz pul tələb etməməlidirlər. İndi abadlıq adı ilə bilirəm ki, sahibkarlardan vəsait yığırlar. Bu qətiyyən qəbuledilməzdir. Belə abadlıq bizə lazım deyil. Rüşvət almamalıdırlar, əksinə, çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Yoxsa bəzi hallarda kimsə gəlib nəsə iş görmək istəyir, ona şərait yaratmaq əvəzinə, ondan pul tələb edirlər. Son vaxtların tədbirləri bunu göstərdi. Mən xəbərdarlıq etmişdim. Bəzilərinə dedim ki, hər kəs eşitsin, əyri yolla getsəniz, inzibati cəza ən yüngül cəza olacaq. İnzibati cəza ilə iş məhdudlaşmayacaq. Amma bəziləri hesab edirdilər ki, bu sözlər onlara aid deyil. Ona görə belə yolverilməz addımlar atdılar. Bu əslində dövlətə, dövlət siyasətinə edilən xəyanətdir. Eyni zamanda, elə dəhşətli faktlar aşkarlanır ki, adam heç bilmir nə fikirləşsin. Ölkədə, xüsusilə manatın məzənnəsi aşağı düşəndən sonra işsizlik meyilləri artdı. Bunu mən hiss edirdim, görürdüm. Bəzi adamlar işsiz qaldılar. Nə üçün? Çünki onlar vaxtilə dövlət xətti ilə icra edilən layihələrə cəlb olunmuşdular. İnvestisiyalar kəskin aşağı düşdü. Biz investisiyaları ixtisar etdik. O layihələr

artıq icra edilmədi və insanlar qaldılar küçələrdə. Biz nə etdik? Düzdür, bu, bazar iqtisadiyyatına uyğun deyil. Ancaq bu, düzgün addım idi. Mənim təşəbbüsümlə hər rayonda ictimai ödənişli iş yerləri yaratdıq ki, vətəndaşlara heç olmasa, minimum əməkhaqqı səviyyəsində məvacib verilsin.

Beləliklə, ölkə ərazisində 40 minə yaxın belə ictimai iş yeri vardır. O mənada ictimai ki, ictimai işlərlə məşğul olurlar, haradasa təmizlik, haradasa bərpa işlərilə. Bəziləri bağban kimi işləyir. Ödənişli, çünki buna görə maaş alırlar. Bax, bu maaşı da onlar qıymadılar o kasıb adamlara. O kartları götürüb, oradan pul çəkib öz ciblərini doldurdular. Buna nə ad vermək olar? Bu vicdansızlıqdır! Yaxşı, xalqdan qorxmursansa, Allahdan qorx. Belə şey etmək olarmı? Bu, məmurun bir insan kimi, mənəvi deqradasiyasıdır. Belə məmurlar bizə ləkədir, ölkəmizə ləkədir, iqtidara ləkədir. Hamı bilsin və eşitsin ki, belə hallara qarşı mübarizə daha ciddi aparılacaq. Hamı ibrət götürsün, qoy hər kəs üçün dərs olsun. Dövlət məmuru olmaq istəyirsənsə, vicdanla xidmət et dövlətə. Yox, əgər dövlət vəzifəsinə gəlir mənbəyi kimi baxırsansa, heç getmə o vəzifəyə, çünki bədbəxt olarsan. Bunu hamı anlamalıdır ki, yeni dövrdə, yeni çağırışlar qarşısında olan ölkədə başqa cür ola da bilməz. Biz ölkəmizdəki vəziyyəti daha da sağlamlaşdırmalıyıq və xoşagəlməz hallara qarşı mübarizə bundan sonra da aparılacaqdır. Eyni zamanda, həm mətbuatdan, həm də ictimaiyyətdən mən dəstək görürəm, onlar mənə bu işdə kömək edirlər.

**S u a l: Cənab Prezident, mənim sualım müxalifətlə bağlıdır. Hazırda Azərbaycanda müxalifət çox dərin böhran içindədir. Demək olar ki, onların cəmiyyətdə heç bir dayağı yoxdur. Bunun səbəblərini Siz necə səciyyələndirərdiniz?**

**C a v a b:** Bunun bir neçə səbəbi vardır. Hesab edirəm, birinci səbəb odur ki, bu gün müxalifətçiliyi inhisara götürmüş adamlar vaxtilə hakimiyyətdə olublar. Onların bəd əməlləri xalqımızın yaddaşından silinməyib. Biz hamımız AXC–Müsavat cütlüyünün hakimiyyətini yaxşı xatırlayırıq, o bizim üçün bir biabırçılıq dövrü idi. Hesab edirəm ki, milli rəzalət dövrü idi. Çünki hakimiyyətə gəlmiş savadsız, səriştəsiz adamlar öz məsuliyyətlərini dərk etmədilər. Onlar, dediyim kimi, deqradasiyaya uğramış məmurlar kimi, hakimiyyəti ancaq gəlir mənbəyi olaraq görürdülər. Onların əsas məqsədi varlanmaq, talamaq, oğurlamaq, satmaq idi, bir-biri ilə elə bil ki, yarışa girmişdilər – kim daha çox oğurlayacaq, kim daha çox ziyan vuracaq ölkəyə. Ölkənin problemləri, Qarabağ problemi, sosial problemlər, hansı ki, Azərbaycan vətəndaşları böyük sosial problemlərlə üzləşmişdilər – bunlar hamısı qaldı kənarda. İnflyasiya 1000 faizdən çox idi. Onların heç vecinə də deyildi. Onların işi ancaq dövlət əmlakını mənimsəmək idi, mən bunu dəfələrlə demişəm, bunun sübutları da vardır. Ləl-cəvahirat Fondunu elə taladılar ki, orada bir dənə də qiymətli əşya qalmadı.

Vətəndaşlar axırıncı zinət əşyalarını gətirib verirdilər ki, bu, ümumi işimizə sərf olunsun, onu da taladılar.

Xalqın yaddaşında bu qalıb. Eyni zamanda, vətəndaş müharibəsi – bu ən ağır müharibədir, çünki qardaş qanı tökülür. Orada ermənilər torpağımızı işğal edirdilər, bunlar isə Gəncəni bombalayır, öz xalqına qarşı cinayətlər törədirdilər, sonra da fərari kimi qaçıb gizləndilər.

Həmin o adamlardır ki, bu gün müxalifətçiliyi inhisara götürüblər. Əslində onların nə mənəvi haqqı, nə təcrübəsi, nə də biliyi var. Sadəcə olaraq, bu inhisarı saxlamaq üçün bir amil var, o da xarici dəstək. Çünki onlar xaricdən idarə olunurlar. Bu, hesab edirəm, ikinci səbəbdir ki, nə üçün onların cəmiyyətdə heç bir hörməti yoxdur.

Heç kim üçün sirr deyil ki, onlar xaricdən maliyyələşirlər. 20 il ərzində heç bir yerdə işləməyənin haradandır bu qədər varidatı, bu qədər imkanları ki, yaxın qohumları gedib ən inkişaf etmiş ölkələrdə çox gözəl həyat sürsünlər? Buna bir hesabat verirlər, yoxsa yox? Əlbəttə ki, yox. Amma biz bilirik, biz çox şeyi bilirik. Bəlkə də hamısını hələ ki, deməyə ehtiyac yoxdur.

Ona görə bir tərəfdən, onların törətdikləri cinayətlər və ölkəmizin, demək olar ki, uçurum kənarına gətirilməsi, ondan sonra da qorxaqcasına, fərari kimi, qaçıb gizlənməsi, ikinci tərəfdən, «beşinci kolon» kimi burada ölkəmizin maraqlarına qarşı onların fəaliyyəti. Bu iki amil, hesab edirəm ki, onları bütün daxili dayaqlardan məhrum edib. Bir də ki, onların həm siyasi, həm də həyatdakı davranışını – yəni o biabırçı kadrları Azərbaycan tamaşaçıları görüblər. İsterikaya, panikaya qapılmış adam necə özünü lider hesab edə bilər? Yaşlı qadının qolundan yapışan, qorxusundan gizlənməyə yer axtaran

adam necə liderlik funksiyasını öz üzərinə götürə bilər? Sonra da gəlsin bütün ictimaiyyət qarşısında desin ki, vanna otağında mənə qarşı zor tətbiq etdilər. Birincisi, bu yalandır.

İkincisi, hansı özünə hörmət edən adam bütün xalq qarşısında belə bir ifadə işlədər? Ona görə onların qətiyyən mənəvi haqqı yoxdur ki, hansısa irad irəli sürsünlər. Yeganə dayaqları xarici dairələrdir. O dairələr öz əlaltılarını hakimiyyətə gətirmək istəyirlər. Necə ki, vaxtilə 1992-ci ildə Prezidentin kabinetinin qapısını bəzi səfirlər ayaqla açırdılar, o dövrü yenə də yaşamaq istəyirlər, ancaq alınmayacaq. Çünki heç vaxt Azərbaycan xalqı və Azərbaycan dövləti imkan verməyəcək ki, satqın, xain ünsürlər yenə də baş qaldırsın, yenə də hansısa mövqe əldə etsinlər. Azərbaycan xalqı buna imkan verməyəcək. Ona görə onların «aksiyalarına» heç kim gəlmir, heç kim qoşulmur.

Onların «siyasi mübarizəsi» virtual həyatdadır. Orada da artıq bütün dayaqlarını itiriblər. Bir-birinə saxta «layk» atmaqla hakimiyyətə gəlmək istəyirlər və onların biabırçı hərəkətləri, antimilli, xəyanətkar addımları cəmiyyətdə ikrah hissi doğurur. Əgər müxalifət nəyisə əldə etmək istəyirsə, ilk növbədə, o partiyalar naftalin qoxusu gələn ünsürlərdən təmizlənməlidir, sağlam, müasir müxalifət formalaşmalıdır. O müxalifət ki, bizi tənqid edəcək, amma əsaslı tənqid edəcək. O müxalifət ki, ümumxalq məsələlərini hər şeydən üstün tutacaq. Mən ümid edirəm ki, nə vaxtsa biz bunu görəcəyik.

**S u a l: Cənab Prezident, məlumdur ki, ölkəmiz növbədənkənar parlament seçkilərinə hazırlaşır. Bilmək istərdik ki, bu mühüm ictimai-siyasi tədbirin həyata keçirilməsi qərarı nə ilə bağlıdır və gözləntilər nədən ibarətdir?**

**C a v a b:** Parlament seçkiləri çox önəmli hadisədir və önəmli prosesdir. Artıq qeyd etdiyim kimi, ölkəmiz yeni islahatlar dövrünə qədəm qoydu, Prezident Administrasiyası, Nazirlər Kabineti, bəzi mərkəzi icra orqanları, yerli icra orqanları artıq struktur islahatlarını başa çatdırıb, yaxud da ki, bu islahatlar davam etdirilir. Belə olan halda, parlament də kənarda qala bilməz və növbədənkənar parlament seçkilərinin əsas məqsədi ondadır ki, vaxt itirmədən yeni çağırışlara uyğun qanunvericilik bazası formalaşsın və qanunvericilik sahəsində atılan addımlar ümumi islahatlar kursunu dəstəkləsin.

Digər tərəfdən, onu da bildirməliyəm ki, bizdə parlament 4 ay tətildə olur – iyun, iyul, avqust, sentyabr aylarında işləmir. Belə olan halda, biz sadəcə olaraq, seçkiləri 4-5 ay qabağa çəkdik. Bunun da məqsədi odur ki, vaxt itirmək lazım deyil. Hesab edirəm ki, növbədənkənar parlament seçkiləri cəmiyyət tərəfindən, o cümlədən siyasi partiyalar tərəfindən müsbət qiymətləndirilir. Hazırda bütün şərait yaradılıb. Əminəm ki, Azərbaycanda parlament seçkiləri şəffaf keçiriləcək. Azərbaycan xalqı öz iradəsini göstərəcək və nəticələr xalqın iradəsini əks etdirəcək.

Azərbaycan xalqı layiqli nümayəndələrini seçəcək. O nümayəndələri ki, öz qanunvericilik fəaliyyətlərində ümumi işimizə töhfə verəcək və öz seçki dairələrində fəal iş aparacaqlar.

Mən parlament üzvlərinin fəaliyyətinə qiymət vermək istəmirəm, çünki bu, hakimiyyətin başqa qoludur. Ancaq yeni seçiləcək deputatlara tövsiyəm odur ki, onlar öz dairələrində daha fəal olsunlar ki, vətəndaşlar onları tanısınlar, onlara müraciət etsinlər, onlar da yerli və mərkəzi orqanlar qarşısında məsələ qaldırsınlar. Əgər belə olarsa, bax, dediyim o ictimai nəzarətin bir forması da bu olacaq. Çünki bəzi hallarda, mən bilirəm, deputat seçilir, ondan sonra öz dairəsinə heç baş çəkmir, heç maraqlanmır. Sonra da növbəti seçkilər yaxınlaşanda başlayır ki, mənə dəstək verin.

Yəni xalq ona dəstək verməlidir. Əlbəttə, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi, öz namizədlərini müdafiə edəcək. Bu da təbiidir. Bizdə sistem majoritar sistemdir, hesab edirəm ki, çox ədalətli sistemdir. Bu sistem seçilmiş millət vəkilini öz dairəsinə bağlayır. Mən bunu öz təcrübəmdən deyirəm. Çünki mən birinci dəfə 1995-ci ildə majoritar sistem əsasında parlamentin üzvü seçilmişdim. O vaxt mənim dairəm var idi və dairədə çox fəal idim. 2000-ci ildə isə mən artıq Yeni Azərbaycan Partiyasının bir nömrəli namizədi kimi qeydə alındım və seçiləndən sonra elə bil ki, mənim dairəm yox idi və bu, imkan vermirdi ki, mən hansısa bir dairəyə xüsusi diqqət göstərim. Ona görə öz təcrübəmdən deyirəm ki, majoritar sistem seçicilər üçün ən uyğun sistemdir. O halda ki, seçilən deputat fəal və vətəndaş-

larla sıx təmasda olsun. Azərbaycan xalqı hər şeyi yaxşı bilir, atalar sözüdür: xalqın gözü tərəzidir. Azərbaycan xalqı layiqli nümayəndələri seçərək, təmin edəcək ki, bu nümayəndələr onların problemlərini dilə gətirəcək və təkliflər verəcəklər. Belə olan halda, əlbəttə ki, məsələlər və problemlər daha məqbul formada öz həllini tapa bilər.

**S u a l: Cənab Prezident, müsahibəyə görə minnətdaram. Bugünkü müsahibə və Sizinlə görüş bizim həyatımızda ən önəmli hadisələrdən birinə çevrildi. Buna görə bir daha Sizə təşəkkür edirik. İcazə verin, hər birimizin adından Sizi qarşıdan gələn doğum gününüz münasibətilə təbrik edək. Sizə müstəqil Azərbaycanımızın inkişafı yolunda atdığınız hər bir addımda yeni-yeni uğurlar və cansağlığı arzulayırıq.**

**C a v a b:** Çox sağ olun. Mən də sizə öz səmimi sözlərimi demək istəyirəm. Sizə uğurlar arzulayıram. Mən sizin fəaliyyətinizi izləyirəm, televiziyalarda görürəm. Siz ümumi işimizə çox böyük töhfə verirsiniz. Müasir, gənc insanlar kimi, hesab edirəm ki, bugünkü Azərbaycan mediasını təcəssüm etdirirsiniz və təcəssüm etdirməlisiniz.

Fürsətdən istifadə edərək, sizə və bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir. Həmrəylik Günü və Yeni il münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm. Əminəm ki, ölkəmiz bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək və bizi bu yoldan heç bir qüvvə döndərə bilməz. Sağ olun.

**J u r n a l i s t l ə r:** Təşəkkür edirik.

**İSVEÇRƏ KONFEDERASİYASININ**
**YENİ SEÇİLMİŞ PREZİDENTİ**
**XANIM SİMONETTA SOMMARUQAYA**

Hörmətli xanım Sommaruqa!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, yenidən dövlət başçısı kimi fəaliyyət göstərəcəyiniz qarşıdakı dövrdə Azərbaycan ilə İsveçrə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafı və möhkəmləndirilməsi istiqamətində səylərimizi davam etdirəcəyik.

Fürsətdən istifadə edərək, Yeni, 2020-ci ilin gəlişi münasibətilə Sizə təbriklərimi və ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2019-cu il*

## RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ, RUSİYA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya–Azərbaycan hökumətlərarası birgə Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Maksim Oreşkin Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Diqqətinizə görə çox sağ olun. Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz! Bu gün biz əməkdaşlığımızın bir ilini, bir növ, rəsmən başa vururuq. Bu il çox səmərəli və məhsuldar olub. Mənim fikrimcə, bu il biz həm əvvəlki illərdə, həm də bu il nəzərdə tutduqlarımızın hamısına nail olmuşuq. Əlbəttə, bu il münasibətlərimizin davamlı inkişafı həm regional siyasətdə, həm də bütövlükdə çox mühüm amildir. Buna görə əminik ki, gələn il də uğurlu əməkdaşlıq edəcəyik, nəzərdə tutduğumuz planlar, başladığımız layihələr həyata keçiriləcək. Eyni qayda ilə sizin əvvəlki səfəriniz

çərçivəsində iri Əczaçılıq zavodu açıldı, yeni Maşınqayırma zavodunun təməli qoyuldu. Əlbəttə, rəmzi haldır ki, əməkdaşlığımızın bu ilini ölkələrimizi əlaqələndirən körpünün açılışı ilə başa vururuq. Mən bunu çox əlamətdar hadisə hesab edirəm. Ona görə ki, həm sovet dövründə, həm də postsovet illərində Rusiya ilə Azərbaycanı yalnız bir körpü bağlayırdı, hərçənd onu əsl körpü adlandırmaq da olmaz, o körpü çoxdan köhnəlmişdi. Buna görə yeni körpü biznes, qarşılıqlı faydalı beynəlxalq əməkdaşlıq, nəqliyyat dəhlizi üçün yeni qapılar deməkdir. Beləliklə, ilin məhz belə əlamətdar hadisə ilə başa çatması çox rəmzi məna daşıyır.

Bu il ərzində əlamətdar hadisələr çox olub – Prezident Vladimir Vladimiroviç Putin və Rusiyanın digər rəhbərləri ilə mənim görüşlərim, rəsmi nümayəndə heyətlərinin səfərləri, iqtisadi, humanitar sahədə əməkdaşlıq. Gələn il də çox mühüm tədbirlər nəzərdə tutulur, o cümlədən Sankt-Peterburqda keçiriləcək Mədəniyyət Forumunda Azərbaycan əsas qonaq kimi təmsil olunacaq. Bu çox şərəfli missiyadır. Biz Rusiya tərəfinə minnətdarıq ki, belə bir fəxri qonaq qismində məhz bizim ölkəmiz seçilib. Bu tədbirə hazırlıq ən yaxın vaxtlarda başlanacaqdır.

Sizi bir daha salamlamaq istərdim. Şadam ki, tez-tez görüşürük. Buna səbəb həm praktiki, həm də mərasim xarakterli tədbirlərin çox olmasıdır. Sizi görməyə bir daha şadam və yeni ildə sizə uğurlar, dost Rusiyaya yeni qələbələr arzu edirəm.

**Maksim Oreşkin:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Mən və həmkarlarım doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirik. Bu gün çox gözəl gündür. Biz gələndə hava dumanlı idi. İndi isə göy qübbəsi altında mavi səma görünür. Bu çox yaxşı əlamətdir.

Biz hər dəfə Azərbaycana gəlməyə sevinirik. Həqiqətən, indi bizim həyata keçirdiyimiz, məntiqi sonluğa çatdırdığımız layihələrin sayı get-gedə artır. Bu çox yaxşı haldır. Ona görə ki, hər bir belə layihə ölkələrimizi daha da yaxınlaşdırır, iqtisadiyyatımız daha fəal artır, insanların rifahı yaxşılaşır. Buna görə biz bu məqsədlərə istiqamətlənmişik və bu yöndə işləyirik.

Biz hər addımda yeni layihələr düşünüb tapmağa çalışırıq, onlar həqiqətən, bizim irəliləməyimizə kömək edir. Məsələn, indicə həmkarlarımızla maliyyə məsələsi ilə bağlı bir məqamı müzakirə edirdik. Baxarıq, ola bilsin bu istiqamətdə işləyəcəyik. Rusiyada «Mir» adlanan bir ödəmə sistemi vardır. Bizim türkiyəli həmkarlarımız bu sistemi öz bazarlarında tətbiq edirlər. Bu, Türkiyəyə gedən rusiyalı turistlər üçün çox münasibdir. Siz bizim qarşımızda turist mübadiləsini inkişaf etdirmək vəzifəsini qoymusunuz. Biz bu göstəricini milyona çatdırmağa çalışırıq. Həqiqətən, turistlərin ölkələrimiz arasında gediş-gəlişi nə qədər sadə, rahat olarsa, turist axını da bir o qədər çox olacaqdır.

Biz həmkarlarımızla razılığa gəldik ki, bu məsələni araşdıraq, həmin sistemin Azərbaycanda tətbiq edilməsinin nə dərəcədə mümkün olmasını aydınlaşdıraq. Buna görə daha fəal işləməyə hazırıq.

## BAKININ XƏZƏR RAYONUNDA YERLƏŞƏN 2 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*President İlham Əliyev binada yaradılmış şəraitlə tanış oldu.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, 2 saylı DOST Mərkəzinin binası 2 mərtəbəlidir. Bina müasir üslubda layihələndirilib və mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir. Bu DOST Mərkəzi gün ərzində 250–300 vətəndaşı qəbul edə biləcəkdir. Mərkəz Bakının Xəzər və Pirallahı rayonlarının əhalisinə xidmət edəcək. İl ərzində 70 mindən artıq vətəndaşa «bir pəncərə» prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 xidmət göstəriləcək. Mərkəz-*

*də 80 nəfər, «Gənc DOST» proqramı üzrə isə 40 könüllü fəaliyyət göstərəcək. Burada «Pensiya və sosial sığorta», «Sosial müavinatlər və təqaüdlər», «Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat», «Sosial xidmətlər və övladlığa götürmə məsələləri», «Əmək münasibətləri», «Məşğulluq xidmətləri», «Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri», «Bank və notarius xidmətləri» də vardır.*

*Beləliklə, bu mərkəz də vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən «bir pəncərə»yə müraciət edib faydalanmasına imkan verir.*

*Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanmış modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlət başçısının «Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış DOST Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, «bir pəncərə»dən tam şəffaf, operativ,*

*vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.*

*Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin «bir pəncərə»dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıbdır.*

*Prezident İlham Əliyev DOST Mərkəzinin bir qrup işçisi və «Gənc DOST» könüllüləri ilə görüşdü.*

**İlham Əliyev:** Bu gün DOST Mərkəzinin ikinci binası istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. DOST mərkəzlərinin yaradılması çox gözəl, əlamətdar hadisədir. Bu mərkəzlər sosial təminat sahəsində çox böyük dönüş yaradıb, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox gözəl alət olubdur. Şadam ki, DOST mərkəzlərinin yaradılması artıq geniş vüsət alır və bu, il ərzində açılmış ikinci mərkəzdir. Gələn il də Bakıda və rayonlarda bir neçə mərkəzin açılışı nəzərdə tutulur. Beləliklə, gələn il DOST mərkəzlərinin əhatə dairəsi genişlənəcək və əhalimizin yarıdan çox hissəsini əhatə edəcəkdir.

DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün

prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də «ASAN xidmət» mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi «ASAN xidmət» öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaqdır.

Digər önəmli məsələ ondan ibarətdir ki, bir binada 130-dan çox xidmət göstərilir. Əminəm ki, buraya müraciət edən və edəcək bütün vətəndaşlar bu xidmətdən razı qalacaqlar. Birinci mərkəzin açılışından sonra DOST Mərkəzinə cəmi 6 ay ərzində 60 mindən çox müraciət olunub və vətəndaşların məmnunluq əmsalı çox yüksəkdir. Bu onu göstərir ki, həm bütün proses çox düzgün təşkil edilib, həm də bu mərkəzlər məhz innovativ əsaslarla fəaliyyət göstərir. Digər tərəfdən, birinci DOST Mərkəzində çalışan işçilər və könüllülər vətəndaşlara gözəl xidmət göstərirlər. Bu da məni çox sevindirir. Çünki biz ictimai xidmətlər sahəsində yeni davranış qaydalarını tətbiq edirik, xidmət mədəni və çox dəqiqdir. Əminəm ki, DOST Mərkəzinə müraciət edən hər bir şəxs buradan razı qayıdır.

Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir. Bu, Azərbaycan gənclərinin fədakarlığını və öz işinə bağlı olduğunu, məsuliyyətlə yanaşdığını göstərir. Eyni zamanda, bu, gənclər üçün də çox gözəl hazırlıq mərhələsidir. Çünki siz gəncsiniz, müstəqil həyata yenicə qədəm qoymağa

başlayırsınız və çox gözəl haldır ki, sizin işiniz buradan başlanır. Əminəm ki, burada qazanacağınız təcrübə gələcəkdə sizə kömək edəcəkdir.

Kadr hazırlığı və ölkəmizin gələcək inkişafı baxımından DOST mərkəzlərinin çox böyük faydası vardır. Əgər iqtisadi terminlə desək, biz burada multiplikativ səmərə görürük. Bu gün həm vətəndaşlara xidmət, həm sosial təminat sahələrində şəffaflıq, dürüstlük tətbiq olunur, həm də çox ciddi islahatlar aparılır. Mən bu islahatları yüksək qiymətləndirirəm. Müasir xidmət növləri, davranış qaydaları, mədəni xidmət formaları, hazırlıq və təcrübə toplanması – bütün bu amillər burada işləyən hər bir gənc üçün çox önəmlidir. Əminəm ki, siz artıq peşəkar, müasir düşüncəli kadr kimi, öz gələcəyinizi quracaq və daha yüksək pilləyə qalxacaqsınız.

İlin sonunda Xəzər rayonunda belə gözəl mərkəzin açılması çox əlamətdar hadisədir. Son dövrlərdə sosial təminat sahəsində böyük işlər görülübdür. Bu il dövlət tərəfindən ən böyük sosial paket tətbiq olunub və bu, 4,2 milyon insanı əhatə edibdir. Bu, analoqu olmayan sosial təşəbbüsdür ki, həm maaşlar, həm pensiyalar, həm müavinətlər artırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıbdır. Biz bütün bu işləri vətəndaşların rifah halının yaxşılaşdırılması üçün edirik. İqtisadi imkanlarımız artdıqca, bu işləri görməyə başlamışıq və bu işlər gələcəkdə daha geniş vüsət alacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də çox fəal işləyir, islahatlar aparır, yeni təşəbbüslər irəli sürür. Beləliklə, bu böyük sahə hesab edirəm ki, bundan sonra da çox önəmli aktor kimi özünü göstərəcək. Çünki bizim

sosial siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün şəhid ailələri, müharibə əlilləri üçün yeni binanın açılışı nəzərdə tutulub. Bu il 800-dən çox ailə yeni evlərə, mənzillərə köçür. Gələn il bu rəqəm təqribən iki dəfə artıq olacaqdır. Yəni bizim iqtisadi inkişafımız imkan verir ki, sosial sahəyə daha böyük vəsait yönəldək. Hazırda 7500 şəhid ailəsi dövlət tərəfindən pulsuz ev və mənzillərlə təmin olunub və bu proses davam etdiriləcəkdir.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Yeni ildə sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## DÜNYA ETNOİDMAN KONFEDERASİYASININ SƏDRİ BİLAL ƏRDOĞAN İLƏ GÖRÜŞ

*24 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.*

*Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və öz adından dövlət başçımızı ad günü münasibətilə təbrik etdi, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Təbrikə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefonla danışdığını məmnunluqla qeyd etdi.*

*Söhbət zamanı Çövkən milli atüstü oyunu üzrə Prezident Kubokunun final mərhələsinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, milli idman oyunlarının inkişaf etdirilməsi istiqamətində ölkələrimizin əməkdaşlığının önəmi vurğulandı.*

## BAKININ NİZAMİ RAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN İNŞA OLUNMUŞ YAŞAYIŞ BİNASINDA MƏNZİLLƏRİN VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ, ONLARA BƏRABƏR TUTULAN ŞƏXSLƏRƏ AVTOMOBİLLƏRİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*24 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunmuş yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimində iştirak etmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına yaşayış binasında yaradılmış şərait barədə məlumat verdi.*

*Dövlətimiz hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşır və bu baxımdan çox mühüm layihələr həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar da öz həyatlarında hiss edirlər. Şəhid ailələri,*

*Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması, onların avtomobillə təmin olunması üçün ardıcıl tədbirlər görülür. 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə 475 mənzil və fərdi ev verilibdir. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998–2018-ci illər ərzində 6155 avtomobillə təmin ediliblər. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur. Yeni inşa olunmuş binada ümumilikdə bir, iki və üçotaqlı 96 mənzil var ki, onlardan 62-si Qarabağ müharibəsi əlilinə, 34-ü isə şəhid ailələrinə təqdim olunur. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən 700 mənzil və fərdi ev verilibdir. İlin sonunadək isə 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır. Gələn il də bu istiqamətdə layihələr davam etdiriləcəkdir.*

*Dövlət başçısı mənzil və avtomobillə təmin olunmuş şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin bir qrupu ilə görüşdü.*

**İlham Əliyev:** Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Bu gün şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yeni mənzillər və minik maşınları verilir. Bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bu gözəl binada yaşamaq çox rahat olacaq. Bina ilə tanış oldum. Mənzillərin hər biri yaraşıqlı, işıqlı, gözəl və təmirlidir. Belə də olmalıdır. Siz buna layiqsiniz. Mən dəfələrlə demişəm ki, Vətən uğrunda şəhid olmuş insan-

ların xatirəsi bizim üçün həmişə əzizdir. Azərbaycan xalqı şəhidlərimizin xatirəsini həmişə öz qəlbində yaşadır. Müharibədə vuruşmuş və əlil olmuş vətəndaşlar üçün belə şəraitinin yaradılması bizim mənəvi borcumuzdur.

Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7000-ə yaxın minik avtomobili verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermiş və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək. Gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni bu ildən fərqli olaraq, iki dəfə çox. Baxmayaraq ki, bu ilin əvvəlində 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulurdu, ancaq əlavə vəsaitin ayrılması nəticəsində bu mənzillərin və evlərin sayı 900-ə çatıb, o cümlədən yüzlərlə minik avtomobili də verilibdir. Belə gözəl binada yaşamaq, əlbəttə ki, çox xoş olacaq. Bir daha demək istəyirəm, siz buna layiqsiniz.

Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır. İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Eyni zamanda, işğaldan əziyyət çəkən soydaşlarımız, məcburi köçkünlər üçün bu il 5000 mənzil və fərdi ev təqdim olunub. Beləliklə, bu kateqoriyadan olan vətəndaşlara bu il təqribən 6000-ə yaxın ev və mənzil verilib. Bu o

deməkdir ki, biz bir şəhər boyda evlər tikmişik və layiq olan vətəndaşlara təqdim etmişik. Mən ikinci belə ölkə tanımıram ki, bu sahəyə bu qədər diqqət yetirsin. Bu bir daha göstərir ki, bizim bu sahədəki siyasətimiz həm düzgündür, həm də ədalətlidir. Bu siyasət davam etdiriləcək. Çünki hələ də növbədə dayanan vətəndaşlar vardır. Şəhid ailələri arasında təqribən 2000-dən çox vətəndaş növbədə dayanır. Onların da problemləri yaxın 2-3 ildə həllini tapacaqdır.

İndi bizim iqtisadi imkanlarımız da yaxşılaşır. Düzgün iqtisadi siyasət aparmaqla, biz əlavə gəlirlər əldə etdik. Bu gəlirləri ilk növbədə, sosial problemlərin həllinə yönəltdik. Bu il 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı – əhalinin təxminən 40 faizdən çoxu böyük sosial paketlə əhatə olundu. Maaşlar, təqaüdlər, müavinətlər, tələbə təqaüdləri, problemli kreditlərin həll edilməsi – bütün bunlar böyük vəsait tələb edir. Biz bu işlərə milyardlarla manat vəsait yönəltmişik və çox düzgün addım atmışıq. Çünki bu lazım idi. Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır. İqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaqdır. Bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə işimizi düzgün prinsiplər əsasında qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları – bütün bunlar ölkəmizə böyük canlanma gətirir.

Builki iqtisadi göstəricilərimiz çox müsbətdir. Əldə edilmiş bütün əlavə gəlirləri biz sosial sahəyə yönəltdik. Bugünkü bu gözəl, 96 mənzildən ibarət binanın açılışı bunun bariz nümunəsidir.

Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə Yeni ildə yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

* * *

*Sonra mənzillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.*

**İlham Məhərrəmov** *(yeni mənzilin sakini):* Cənab Prezident, məni xatırlayırsınız?

**İlham Əliyev**: Bəli, Avropa oyunlarından.

**İlham Məhərrəmov:** Siz orada görüş zamanı mənə dediniz ki, çox gözəl işlər görürsünüz. O söz mənə stimul verdi. Leyla xanım Əliyevanın dəstəyi ilə yaradılmış Boccia İdman Federasiyasının baş katibiyəm. Federasiyamızın yarandığı qısa müddətdə 1 qızıl və 6 gümüş medalımız vardır. Olimpiya Komitəsinin rəhbərliyi ilə Beynəlxalq Boccia Federasiyasının görüşündə 2020-ci və 2021-ci illərdə regional çempionatın Azərbaycanda keçirilməsinə nail olduq. Bütün paralimpiyaçılar adından, əlilliyi olan dostlarımız adından ad gününüzü təbrik edir, Sizə uğurlar arzulayıram.

**İlham Əliyev:** Sağ ol. Bu şəkil 4 il bundan əvvəl – 2015-ci ildə çəkilib. Ona görə gərək bir şəkil də çəkilsin.

**Sahil Məmmədov** *(Azərbaycanın Milli Qəhrəmanı)*: Çox şadam ki, bu gün Sizin ad gününüzdə bizə gözəl

ev hədiyyə edirsiniz. Bunu çox şərəflə qəbul edirik. Sizi ad gününüz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Gələcək işlərinizdə uğurlar arzulayıram.

**Zərifə Sultanova:** Çox sağ olun, cənab Prezident.

**Dilarə Mövludova:** Möhtərəm Prezident, mən də Sizi təbrik edirəm. Bu gün mənim də ad günümdür. Mənim 81 yaşım tamam olur. Allah ailənizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun. Sizə cansağlığı arzu edirəm.

**Əvəz Aslanov:** Cənab Prezident, Sizi təbrik edirəm. Çox sağ olun ki, bu günü bizimlə bir yerdə qeyd edirsiniz. Minnətdaram.

*Daha sonra avtomobillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.*

**Yaşar Nəsirov:** Cənab Prezident, ad gününüzü təbrik edirik. Bizə göstərdiyiniz qayğıya görə minnətdarlığımızı bildiririk.

**İsgəndər Zeynalov:** Çox sağ olun, cənab Prezident, yüz yaşayasınız!

**Yeganə Allahverdiyeva:** Mən də Sizi təbrik edirəm, möhtərəm Prezident. Allah Sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun.

**Kamal Məmmədov:** Minnətdarıq Sizə, cənab Prezident.

**Vüqar Orucov:** Cənab Prezident, Sizi təbrik edirəm. Allah Sizə cansağlığı versin!

**İlham Əliyev:** Sizi bir daha ürəkdən təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü

və Yeni il bayramı gəlir. Bu münasibətlə də sizi təbrik edirəm. Bir daha cansağlığı, uzun ömür arzulayıram.

*Mərasim iştirakçıları Prezident İlham Əliyevə bir daha minnətdarlıqlarını bildirdilər.*

## BAKI «AĞ ŞƏHƏR»DƏ MƏRKƏZİ BULVAR KÜÇƏSİNİN AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dekabrın 24-də Bakı «Ağ şəhər»də Mərkəzi Bulvar küçəsinin açılışında iştirak etmiş, əsasən tamamlanmış park kvartalı ilə tanış olmuş və buradakı parkın abadlaşdırılmasına start vermişlər.*

*Son illər ərzində Bakı «Ağ şəhər» layihəsi çərçivəsində yaradılmış infrastruktur insanların rahatlığı və təhlükəsizliyini təmin etməklə yanaşı, paytaxtın görünüşünə əlavə gözəllik verir. Təməli 2011-ci il dekabrın 24-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən qoyulmuş Bakı «Ağ şəhər» layihəsinin baş planında nəzərdə tutulan şəhər tipli 10 universal kvartalın bir neçəsi artıq istifadəyə verilib. Hazırda Bakı «Ağ şəhər» layihəsinin yeni park kvartalında abadlıq və infrastruktur-kommunikasiya işləri yekunlaşıb. Yaşayış binaları, məktəb və uşaq bağçası, biznes mərkəzi, inzibati dövlət binası, yeraltı avtodayanacaqlar və böyük park kompleksindən ibarət müasir kvartalda sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılır, yeni yollar salınır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına və xanımına ərazidə görülmüş işlər barədə məlumat verdilər.*

*Bildirildi ki, «Ağ şəhər»də tikinti-quruculuq işləri çərçivəsində eni 37 metr, uzunluğu 2 kilometrə çatan Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə birləşməsi istiqamətində işlər görülüb.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva buradakı parkın abadlaşdırılması və genişləndirilməsi planı ilə də tanış oldular.*

*Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov görülmüş və görüləcək işlər barədə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.*

*Prezident İlham Əliyev Bakı «Ağ şəhər» Mərkəzi Bulvar küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və Leyla Əliyeva buradakı parkda ağac əkməklə abadlaşdırma işlərinə start verdilər.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva park kvartalı ilə tanış oldular.*

*Məlumat verildi ki, artıq bir neçə ildir Mərkəzi Bulvar küçəsinin Xəqani Rüstəmov küçəsindəki dairəyə birləşən hissəsi istismara verilib. Küçəni əhatə edən «Paris evləri», quraşdırılmış heykəllər və yaşı yüz illərlə ölçülən dekorativ zeytun ağacları ərazinin bəzəyidir. Fəvvarələr meydanı və Mərkəzi Park kvartallarını ayıran Mərkəzi Park küçəsi «Ağ şəhər»in 2 kilometrlik maneəsiz gəzinti*

*zolağı ilə kəsişir və burada piyadalara üstünlük verildiyini bildirən hündür piyada keçidləri salınır. Küçə, eləcə də park kvartalının ərazisində qərbdən London memarlıq üslubunda layihələndirilmiş möhtəşəm «Knightsbridge Residence» kompleksi və şərqdən Böyük Park kompleksi iyirmimərtəbəli müasir binalara keçidləri təmin edir. Müasir şəhər trendlərinə uyğun olaraq, Mərkəzi Bulvar küçəsi ilə Nobel prospektinin kəsişməsində avtomobillərin, piyadaların və velosipedçilərin təhlükəsiz hərəkətini təmin etmək üçün xüsusi yolayrıcı layihəsi işlənilib və həyata keçirilibdir. Bu yolayrıcında piyada və velosipedçilərin üstünlüyünü qeyd edən zolaqlar və yol nişanları, qoruyucu tumbalar nəzərdə tutulubdur.*

*Növbəti mərhələdə Mərkəzi Bulvar küçəsinin Nobel prospekti ilə kəsişməsinin işıqforla tənzimlənməsi, bulvar yoluna birləşməsi və avtomobillərin bu küçə ilə birbaşa Sahilyanı kvartala və «Ağ şəhər» Bulvarına hərəkəti planlaşdırılır. Mərkəzi Bulvar küçəsi «Ağ şəhər»in təkrarolunmaz üslubunu əks etdirən xüsusi detallarla bəzədilib – eni 11 metrə çatan səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, səkilərdə küçənin adı daş nişanlarla qeyd edilib, yolgöstəriciləri və xəritələr, incəsənət nümunələri quraşdırılır, piyada keçidləri və avtomobillər üçün xüsusi dayanacaq yerləri təşkil edilir.*

*Yeni salınmış yaşıllıq zolağında əvvəllər ərazidə yerləşən və 1863-cü ildə ilk dəfə Bakıda tətbiq edilən ağ neftin ikiqat təmizlənməsi qurğuları bərpa edilərək saxlanılıbdır. Burada yaradılmış yaşıl istirahət zonalarında çinar, zeytun, palma, şam ağacları, sərv və çox*

*sayda yeni ağaclar əkilib, eləcə də «Ağ şəhər» ərazisində illər boyu bitən ağaclar buraya köçürülərək, onlara yeni həyat verilibdir. «Qara şəhər»in tarixi irsinə hörmətlə yanaşaraq, burada XIX əsrdə dünyanın ən qabaqcıl ağ neftin təmizlənməsi qurğuları, XIX əsrin sonları – XX əsrin əvvəllərində neft çənlərini əhatə edən istinad divarı və 1890–1940-cı illərdə əhaliyə təmiz suyun paylanılmasını təmin edən pavilyon bərpa edilibdir. XIX əsrə aid olan neft anbarlarını əhatə edən istinad divarı da qorunub saxlanılıb, divar boyunca olimpiya kvartalına piyada keçidi salınıb. Yeni salınmış yaşıllıq zolağında parka keçid pilləkənləri kompleksi yaradılıb, layihənin tarixi və göstəriciləri haqqında qranit xatirə daşı qoyulubdur.*

*Prezident İlham Əliyevə «Ağ şəhər»də mərhələlərlə görülən işlər, Nobel prospekti üzrə xüsusi layihələndirilmiş binalar haqqında ətraflı məlumat verildi. Bildirildi ki, burada yerli və xarici sənətkarların incəsənət nümunələri qoyulub və gələcəkdə bu işlər davam etdiriləcəkdir. Bundan əlavə, olimpiya kvartalında görülmüş infrastruktur işləri, o cümlədən eni 80 metr olan Nobel, Babək, Heydər Əliyev prospektlərini, Ziya Bünyadov küçəsini və gələcəkdə tikiləcək bulvar küçələrini birləşdirən yol və digər infrastruktur layihələri barədə məlumat verildi. Qeyd edildi ki, «Ağ şəhər»də ofis, yaşayış, inzibati, dövlət binalarının, parkların və digər tikililərin inşası nəzərdə tutulubdur.*

*Dövlət başçısı görülmüş işlərdən razılığını bildirdi.*

**İlham Əliyev:** Hər il biz ənənəvi olaraq, «Ağ şəhər»in təməlqoyma günündə görülmüş işlərlə tanış

oluruq və gələcək il üçün planlar tərtib edirik. 2019-cu ildə görülmüş işlər yüksək səviyyədədir, mən bunu bəyənirəm. 2020-ci ildə də nəzərdə tutulan bütün planlar gərək həyata keçirilsin, o cümlədən yol infrastrukturu. İnvestorlar üçün yeni təkliflər ortaya qoyulmalıdır ki, onlar «Ağ şəhər»in tikintisinin davam etdirilməsinə və tamamlanmasına daha böyük həvəslə vəsait yatırsınlar. Görülmüş işlər münasibətilə sizi təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

*Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısını doğum günü münasibətilə təbrik etdi və görülmüş işləri yüksək qiymətləndirdiyinə görə minnətdarlığını bildirdi.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi, hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoyubdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilibdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı

zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya Dini Liderlərinin II Sammitinə, «Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünə ev sahibliyi etməsi və növbəti 3 ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilibdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda «Nəsimi ili»-nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. «Nəsimi ili» çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi oldu.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilibdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq,

Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2019-cu il*

## İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CORC DİK İLƏ GÖRÜŞ

*25 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də İsrail Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Corc Dikin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Corc Dik Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Corc Dik etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Corc Dik ölkəmizdə səfir təyin olunmasından məmnunluğunu ifadə edərək, Azərbaycanda mövcud olan multikultural və tolerant mühitin onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev dinlərarası dialoqun inkişafı yolunda Azərbaycanın beynəlxalq müstəvidə böyük səylər göstərdiyini və uğurlu addımlar atdığını bildirərək, bunun dünya birliyi tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Dövlət başçısı Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələrinin dinc və mehriban şəraitdə yaşadığını məmnunluqla qeyd etdi.*

*İsrail dövlətinin ölkəmizdə yeni təyin olunmuş səfiri ilə keçirilən görüşdə iqtisadi, ticarət, turizm, humanitar, kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2019-cu İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA İŞTİRAK

*25 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz idmançılar, əziz dostlar!

Biz hər ilin sonunda idman nailiyyətlərinə yekun vururuq, idmançıları, idman mütəxəssislərini, veteranları mükafatlandırırıq. Bu il də istisna deyil. İlin sonunda bir daha görüşürük, gələcək planlar haqqında danışırıq, fikirlərimizi bölüşürük və beləliklə, Azərbaycanda idmanın inkişafı dayanıqlı xarakter alır.

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idmanda uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi

deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verir.

Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin şəkildə artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il oldu. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanıblar, onlardan 271-i qızıl medaldır. Bu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın Dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar. İdman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək istərdim. Çünki bu onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi oldu. Bu, tarixi hadisədir. 16 yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi oldu. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat

məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm. Əfsuslar olsun ki, keçən əsrin 80-ci illərinin sonlarında və 90-cı illərinin əvvəllərində bir çox şahmat məktəblərimizin təyinatı dəyişdirilmiş, o binalar özəlləşdirilmiş, orada ticarət obyektləri açılmışdır. Əlbəttə, bu, ovaxtkı rəhbərlik tərəfindən bizim intellektual potensialımıza vurulmuş böyük zərbə idi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra şahmat məktəblərinin yenidən açılması prosesi başlandı və son illərdə bu proses geniş vüsət alıbdır. Mənim göstərişimlə rayonlarda yaradılmış gözəl şahmat məktəbləri fəaliyyət göstərir və beləliklə, gənc şahmatçılar yetişir.

Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir. Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər. Ona görə gənclər fiziki cəhətdən də güclü olmalıdırlar, onların intellektual potensialı da yüksək səviyyədə olmalıdır. Onlar milli dəyərlərə, vətənə bağlı olmalıdırlar. İdman vətənpərvərlik hisslərini yüksək dərəcədə artırır. Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. İdmanın hər bir ölkənin həyatında çox önəmli rolu vardır. Məhz buna görə son illər ərzində idmana çox böyük diqqət göstərilir. Mən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti

kimi, 1997-ci ildə bu vəzifəyə ilk dəfə seçildikdən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində addımlar atmışam və bu addımlar bu gün özünü göstərir.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl – 2015-ci ildə Bakıda keçirilmiş Avropa oyunlarında Azərbaycan komanda hesabında 2-ci yerə qalxmışdır. İdman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıbdır. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıbdır. Hazırda ancaq bölgələrdə bizim 45 Olimpiya İdman Mərkəzimiz vardır. Bu il bir mərkəz də Beyləqan şəhərində mənim iştirakımla açıldı. İki Olimpiya İdman Mərkəzi açılışa hazırdır – Yardımlı və Tərtər rayonlarında. İki Olimpiya Mərkəzinin tikintisi davam etdirilir – Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində Olimpiya Mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaqdır. Beləliklə, biz, demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək, idmançılar üçün şərait yaratdıq.

Bu həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir dəfə yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır. Bəlkə də siz yaxşı xatırlayırsınız, rayon mərkəzlərində və kəndlərdə yeni xəstəxanaların, tibb ocaqlarının açılışı zamanı mən dəfələrlə eyni məsələyə qayıdıb tövsiyə edirdim ki, hər bir vətəndaş ildə bir dəfə tibbi müayinədən keçsin və bilsin, onun sağlamlığı, səhhəti nə yerdədir. Əgər hər hansı bir xəstəliyin ilkin təzahürləri varsa, dərhal müalicə alsın və sağalsın. Bütün şəhərlərdə, rayonlarda müasir, özü də ən yüksək dünya standartlarına cavab verən tibb mərkəzlərimiz yaradılandan sonra artıq bu prosesə daha çox meyil göstərilir. Ondan sonra biz bunu mütəşəkkil qaydada icra etməyə başladıq. Artıq bir neçə ildir ki, böyük maarifləndirmə və təbliğat işləri apararaq, vətəndaşların pulsuz müayinədən keçmələri üçün imkan yaratdıq. Bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçibdir.

Müayinədən keçən vətəndaşların əgər hər hansı bir xəstəliyi olarsa, dərhal müalicə edilir. Əgər rayon şəraitində buna imkan yoxdursa, Bakıya göndərilir və beləliklə, səhhətlərindəki problem vaxtında həll olunur. Biz buna nail olmuşuq və deyə bilərəm ki, Azərbaycan

bəlkə də dünyada dövlət tərəfindən bütün vətəndaşlara tibbi müayinədən keçmək şəraitinin yaradıldığı nadir ölkələrdən biridir. Əminəm ki, mənim hər bir insanın fiziki imkanlarına uyğun olaraq idmanla məşğul olması barədə tövsiyəm də həyatda öz əksini tapacaqdır. Onda hər bir insan görəcək ki, bunun nə qədər böyük faydası vardır.

Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar da bu maarifləndirmə işlərində fəal iştirak etsinlər. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, idman cəmiyyətləri, klublar idmanın kütləviliyini təmin etsinlər. Bilirsiniz ki, çoxdandır mənim təşəbbüsümlə biz ictimai istirahət zonaları yaradırıq. Artıq parklar, bağlar şəhəri olan Bakı bu baxımdan dünyada qabaqcıl yerlərdədir. Baxın, son vaxtlar Bakı şəhərində nə qədər ictimai istirahət zonaları yaradılıb. Sovet vaxtından qalan bütün ənənəvi parklar ən yüksək səviyyədə yenidən quruldu. Vaxtilə dağılmış, guya fəaliyyət göstərən, əslində ekologiyamıza ziyan vuran sənaye müəssisələrinin yerində bir çox yeni parklar salındı. Sonra mənim göstərişimlə bu ictimai parklarda açıq havada idman qurğuları quraşdırılmağa başlandı. İndi «Abad həyət» proqramı icra edilir. Artıq Bakı şəhərində onlarla həyət abadlaşdırılıb. Orada idman meydançaları, o cümlədən trenajorlar quraşdırılıb. İndi hər bir insanın açıq havada idmanla məşğul olması üçün imkanlar vardır. Uşaqlar, böyüklər orada futbol, başqa oyunlar oynayır, trenajorlarda məşq edirlər. Bu, kütləvi xarakter almalıdır. Yalnız o halda millətimiz sağlam olacaqdır.

Görkəmli idmançılara müraciət edərək, onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətlərini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər vardır. Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilərlər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır, ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik – halbuki bu da vacibdir – ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insan, idmançı bunu öz həyatında görür. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram, onun xeyrini görürəm və hamıya da tövsiyəm budur. Əminəm ki, yaxın gələcəkdə mənim bu tövsiyəm əsasında konkret təkliflər olacaq və idman kütləviliyi ilə bağlı geniş proqram tutulacaqdır.

İndi böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kəndlərdə yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaxın yerləşir və orada yaşayan uşaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilirlər. Ancaq ucqar kəndlərimiz də var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməli, buna diqqət verilməlidir. Ucqar kəndlərdə yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Hər bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, rayon yarışları keçirilməlidir. Nə üçün bizdə rayon yarışları keçirilmir? Hesab edirəm ki, bu, böyük boşluq, böyük qüsurdur.

Rayon idman yarışları keçirilməlidir. Bu həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər. Ona görə idmanla məşğul olan bütün qurumlara mənim tapşırığım bundan ibarətdir.

O ki qaldı gələcək fəaliyyətimizə, Azərbaycanda bundan sonra da beynəlxalq idman yarışları keçiriləcək. Bu baxımdan bu il əlamətdar il olubdur. Bir neçə dünya, Avropa çempionatları keçirilib, gimnastika üzrə, digər idman növləri üzrə. O cümlədən Avropa Gənclər Olimpiya Festivalı keçirilibdir. Bakı şəhərinə Avropanın bütün ölkələrindən yeniyetmələr, gənclər gəlmişdi. Bildirməliyəm ki, bizim gənclərimiz də yaxşı nəticə göstərdilər, komanda hesabında 4-cü yerə layiq görüldülər. Bu il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya stadionunda keçirilibdir.

Mən bunu xüsusilə qeyd etmək istəyirəm ki, bütün təşkilati məsələlər ən yüksək səviyyədə öz həllini tapdı. Çünki minlərlə xarici tamaşaçı, xarici qonaq gəlmişdi. Minlərlə qonağın 1-2 gün ərzində gəlməsi, əlbəttə ki, bizim üçün müəyyən problemlər yarada bilərdi, ictimai nəqliyyatla, təhlükəsizliklə bağlı.

Həmçinin aeroportda təyyarələrin, o cümlədən çarter reyslərin enişi ilə bağlı müəyyən problemlər ola bilərdi. Ancaq bütün müvafiq qurumlar, Təşkilat Komitəsi çox səmərəli işlədi. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı Avroliqa final yarışı nümunə kimi göstərilir. Mən başqa şəhərlərdə buna oxşar yarışların keçirilməsi ilə bağlı bir söz demək istəmirəm, ancaq bizə gələn

məlumata görə, hətta Çempionlar Liqasının final oyunları bəzi şəhərlərdə bu səviyyədə keçirilmir. Bizdə olan nizam-intizam, qayda-qanun, təşkilati məsələlər, könüllülərin fəaliyyəti, bütün aidiyyəti qurumların birgə fəaliyyəti bunu təmin etdi.

Gələn il bizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur, onlardan biri dörddəbir finaldır. Artıq tarixlər də bəllidir, hazırlıq işləri də aparılıb, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaqdır. Əminəm ki, bu yarış da ən yüksək səviyyədə keçiriləcək və Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha göstərəcəkdir.

Ənənəvi olaraq «Formula-1» yarışı keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə «Formula-1» yarışı üst-üstə düşür. Ona görə təşkilati məsələlərlə məşğul olan bütün qurumların üzərinə əlavə məsuliyyət düşür. Gərək bütün bu işləri elə planlaşdıraq ki, iki önəmli tədbir bir-birinə maneçilik törətməsin. Ona görə indidən bütün işlər düzgün qurulmalıdır.

«Formula-1» yarışına gəldikdə deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası vardır. Birincisi, «Formula-1» yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların sırasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, «Formula-1» yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyir ki, bu bizə ziyan vurur, o ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər

bu bizə ziyan vurursa, onda bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. «Formula-1» yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi vardır. Birinci «Formula-1»dən sonra Azərbaycana kütləvi turist axını başlandı. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il artıq 11 ayda 11 faiz artıbdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər edibdir. Mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər. Əlbəttə, biz bunu ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyyatını da – bunun da hesablama metodologiyası var – hər halda bu, milyardlarla manat səviyyəsindədir. Budur turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə.

İş yerlərinin yaradılması, xidmət və nəqliyyat sektorlarının inkişafı – bütün bunlar turizmlə bağlıdır. İndi ən inkişaf etmiş ölkələr, hansıların ki, böyük sənaye, kənd təsərrüfatı potensialı var, onlar da hər turist uğrunda mübarizə aparır. İnkişaf etmiş, xüsusilə mənzərəli yerləri çox olan ölkələrdə turistlərin sayı on milyonlarla ölçülür və onlar bundan böyük fayda görürlər. Bəzi ölkələrin turizm sektoru aparıcı iqtisadi sektordur. Əlbəttə, bizdə

elə deyil. Ancaq bu sektorun inkişafı üçün «Formula-1» yarışının xüsusi əhəmiyyəti vardır.

Yay Olimpiya oyunlarına az vaxt qalıb. Hazırlıq son mərhələdədir. Əminəm ki, Azərbaycan idmançıları Tokio Olimpiya oyunlarında Vətənimizi ləyaqətlə təmsil edəcəklər və bizim bayrağımız qaldırılacaq, himnimiz səsləndiriləcəkdir.

Mən bir daha bütün idmançıları, yüksək nəticələr qazanmış idmançıları nailiyyətləri münasibətilə təbrik edirəm. Azərbaycanın bütün idman ictimaiyyətinə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Sağ olun.

* * *

*Sonra Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanmış idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.*

*Dövlət başçısı İlham Əliyev ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Alaverdi Culfayevə, Yavuz Eminbəyliyə və Ramiz Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədləri təqdim etdi.*

*Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Paşa Əliyev, Tərlan Həsənov, Şahlar Mustafayev, Azər Həsənov, İqdam Ələkbərov, Tofiq Heydərov və Böyükağa Ağayev Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Natiq Əliyevə və Emiliya Hüseynovaya Əməkdar həkim, Rəşad Cavadova isə Əməkdar jurnalist fəxri adlarının vəsiqələri təqdim olundu.*

*Tədbirdə Pərviz Tağıyev, Ramiz Quliyev, Nazim Səmədov, Orxan Qəribov, Yalçın Qaralı, Şahin Mahmudov, Nadir Əzizov və Ramil Əhmədov Milli Olimpiya Komitəsi prezidentinin Fəxri fərmanları ilə təltif edildilər.*

*Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə – Salman Əlizadəyə, Bəhram Mürvətova, Qərib Əliyevə, Rəşad Məmmədova, Ramiz Ramizzadəyə,*

*Bəhruz Salehliyə, Səbinə Məmmədovaya, Elxan Süleymanova, Səid Quliyevə, Əbülfəz Məmmədova, Rəşad Əbdürrəhmanova, Vladislav Qədirova, Anar Allahverdiyevə, Xanım Balacayevaya, Kərim Sərdarova, Emil Həsənova, Kamil Qafarova, Ceyhun Hüseynova, Asiman Qurbanlıya, Cabbar Mustafayevə, Faiq Quliyevə, Şahbandlu Rəcəbzadəyə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim etdi.*

*Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ TİCARƏT NAZİRİ XANIM RUHSAR PEKCAN İLƏ GÖRÜŞ

*26 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev**: Xoş gəlmisiniz!

**Ruhsar Pekcan:** Çox təşəkkür edirik. Çox məmnun olduq. Cənab Prezidentimizin Sizə sevgilərini, salamlarını gətirdik.

**İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Ruhsar Pekcan:** Cənab Prezidentimizin və Sizin uzaqgörənliklə ölkələrimiz arasındakı əməkdaşlığa verdiyiniz önəmə əsaslanaraq, biz nazir Cabbarovla birlikdə iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi istiqamətində, inşallah, gözəl işlər görəcəyik. Bu gün onunla da görüşümüz olacaq. Xatırladım ki, hökumətlərarası birgə Komissiyanın toplantısında 147 maddədən ibarət ortaq fəaliyyət planı hazırlamışıq və birlikdə bu 147 maddədə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsini daim nəzarətdə saxlayacağıq. Azərbaycanın Gömrük Komitəsinin sədri ilə Ankara görüşümüzdə Sadələşdirilmiş Gömrük Dəhlizi ilə bağlı Anlaşma

Memorandumu imzalamışıq. Azərbaycan, Gürcüstan, Türkiyə olaraq, sizlərin də dəstəyi ilə, inşallah, həm ortaq biznes-forum keçirəcəyik, həm də ortaq Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında Anlaşma Memorandumu imzalayaraq, ölkələrimiz arasında ticarətin, gömrük-keçid prosedurlarının asanlaşdırılması ilə bağlı birgə addımlar atacağıq. Həmçinin cənab prezidentlərimizin dəstəyi ilə yaxın zamanlarda bizə güzəştli ticarət müqaviləsi imzalamaq qismət olacaqdır.

Zati-alinizin və cənab Prezidentimizin razılığı ilə bu müqaviləni – 15 maddəlik məhdud bir müqavilədir – genişləndirib sənədə yeni nəsil azad ticarət razılaşmalarını, xidmətləri, sərmayələri də daxil etmək istəyirik. Azərbaycanın, SOCAR-ın Türkiyədəki sərmayələri bizim üçün son dərəcə önəmlidir. Biz də bütün dəstəyimiz, təşviqimizlə SOCAR-ın yanındayıq. İnşallah, yeni sərmayələr də gözləyirik. Azərbaycanın investisiya imkanlarının tanıdılması ilə bağlı sentyabrda təqdimat təşkil etməyi nəzərdə tuturduq. Amma indi həmkarlarımızla müzakirələr aparıb fevral ayında Türkiyədə Azərbaycanın investisiya iqlimi ilə bağlı təqdimat təşkil etməyi planlaşdırırıq.

**İlham Əliyev:** Çox gözəl, çox təşəkkür edirəm. Xahiş edirəm mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız. İki gün bundan öncə biz telefonla danışdıq, bu il ərzində görülmüş işlərə bir daha nəzər saldıq. Doğrudan da 2019-cu il bizim əlaqələrimiz üçün çox uğurlu il olubdur. Bizim çoxsaylı görüşlərimiz, eyni zamanda, nazirlər səviyyəsində keçirilmiş görüşlər, beynəlxalq tədbirlərdə

görüşlərimiz birliyimizi daha da gücləndirdi. Bildiyiniz kimi, bu il Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçirildi. Bu Zirvə görüşü bir daha türkdilli dövlətlər arasında birliyi, həmrəyliyi təsdiq etdi.

Əlbəttə, Türkiyə–Azərbaycan əlaqələri xüsusi önəm daşıyır və bu əlaqələr bu gün ən yüksək zirvədədir. Biz siyasi, iqtisadi, sərmayə qoyuluşu, enerji, nəqliyyat, mədəniyyət sahələrində sıx əməkdaşlıq edirik. Elə bir sahə yoxdur ki, biz uğurla əməkdaşlıq etməyək.

Bu il də çox önəmli hadisələr birgə qeyd olundu. Onlardan biri TANAP-ın Avropa sərhədinə çatdırılması layihəsidir. Biz TANAP-ın Türkiyə bazarına çatdırılmasını keçən il qeyd etmişdik. Bu il noyabrın sonunda isə TANAP artıq Avropa sərhədinə çatdırıldı və bu tarixi hadisəni birlikdə qeyd etdik. Əminəm ki, gələn il «Cənub Qaz Dəhlizi» tam istismara veriləcək və beləliklə, bizim birgə həyata keçirdiyimiz bu nəhəng layihə artıq başa çatacaqdır.

Qarşılıqlı sərmayə qoyuluşu məsələlərində də çox gözəl nəticələr vardır. Azərbaycan bu günə qədər Türkiyəyə 17 milyard dollardan çox, Türkiyə isə Azərbaycana 12 milyard dollardan artıq sərmayə qoyub. Qeyd etdiyiniz kimi, SOCAR-ın yeni planları, yeni sərmayə qoyuluşu layihələri vardır. Onlar da həyata keçdikcə bizim Türkiyəyə yatırdığımız sərmayənin həcmi 20 milyard dollara çatacaqdır. Bu bir daha bizim qardaşlığımızı göstərir. Çünki ancaq bir-birinə sıx bağlı olan ölkələr bir-birinin iqtisadiyyatına bu qədər yatırım qoya bilər.

Biz çox şadıq ki, Azərbaycanda yüzlərlə Türkiyə şirkəti fəaliyyət göstərir. Onlar bizim üçün çox önəmli layihələrdə – xüsusilə texnoloji baxımdan tutumlu, inşaat və sənaye layihələrində iştirak edirlər. Bakıda bir çox müasir binanın inşaatında, dizaynında və memarlığında Türkiyə şirkətlərinin izi vardır. Burada xarici şirkətlər arasında dövlət xətti ilə gerçəkləşən layihələrdə Türkiyə şirkətləri böyük üstünlük təşkil edir.

Bu da təbiidir. Çünki biz hər bir sahədə bir-birimizi dəstəkləyirik, həm siyasi, həm iqtisadi, həm də ticarət sahələrində. Qarşılıqlı ticarət dövriyyəsi də artır. Artıq hazır olan preferensial ticarət anlaşması da imzalandıqdan sonra ticarət dövriyyəsi daha da artacaqdır.

Əminəm ki, sizin Azərbaycana bugünkü səfəriniz çox uğurlu olacaq. Bu bizim ilin sonunda iki ölkə arasındakı əlaqələrə verdiyimiz önəmin gözəl nəticəsi, bir yekunudur. Yekun da çox müsbətdir.

**Ruhsar Pekcan:** İnşallah, cənab Prezident. Azərbaycanın və Türkiyənin beynəlxalq platformalarda hər zaman bir-birinin yanında olması da cənab Prezidentimizin və zati-alinizin sayəsində bizim ayrı bir xüsusiyyətimizdir. Sizin TANAP-la bağlı mərasimdəki çıxışınızı daim xatırlayıram. Bu möhtəşəm, ölkələrimizin əlaqələrini çox yaxşı izah edən çıxış idi.

**İlham Əliyev:** Sağ olun.

## BAKI–QUBA–RUSİYA FEDERASİYASI DÖVLƏT SƏRHƏDİ YENİ AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*26 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Bakı–Quba–Rusiya Federasi-yası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olmuşdur.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülmüş işlər barədə dövlət başçısına məlumat verdi.*

**Saleh Məmmədov:** Möhtərəm cənab Prezident, xoş gəlmisiniz! Bu gün biz 2018-ci ildə təməlini qoyduğunuz 45-ci kilometrdən Rusiya Federasiyasının sərhədinə qədər olan 192 kilometr yolun başlanğıcında dayanmışıq. Biz 192 kilometrlik bu yolu 4 lota bölmüşük. Bu, birinci lotdur, hansı kı, Zeynalabdin Tağıyev qəsəbəsindən Giləzi qəsəbəsinə qədər 30 kilometrlik yoldur. Bu yolun hazırda bir istiqamətdə 90 faizinin asfalt-beton örtüyünü tam yerinə yetirmişik. Yerdə qalan hissələrinin isə tikintisi gedir. Bu hissələrdə yolun tam eni 27,5 metr olacaq. Hərəkətin hər iki istiqamətində iki zolaq olacaq. Yol ödənişli olduğu üçün dayandığımız bu yerdə turniketlər qoyulacaq. Turniketlər hissəsində hər istiqamətdə 5 cərgəli yol olacaq, 4 cərgəsi hərəkət, 1 cərgəsi ehtiyat maşınların saxlanılması üçün. Cənab Prezident, gördüyünüz bina bu yola xidmət üçün tikilir.

Yolun hər iki tərəfi çəpərlənəcək ki, hərəkət hissəsinə kənar heç nə daxil ola bilməsin. Yol ətrafında maşınlara xidmət üçün dayanacaqlar olacaqdır.

**İlham Əliyev:** Neçə dayanacaq nəzərdə tutulub?

**Saleh Məmmədov**: 8-i gediş, 8-i isə qayıdış hissəsində. Cənab Prezident, əsas odur ki, əvvəlki yol Bakıdan Samur sərhəd-keçid məntəqəsinədək 208 kilometr idi, indi isə 16 kilometr qısalıb və 192 kilometr olub. Bu da onunla əlaqədardır ki, yol rayon mərkəzlərindən keçməyəcək, yalnız onlara qovşaqla birləşəcəkdir.

**İlham Əliyev:** Bu yola da birləşmə varmı?

**Saleh Məmmədov:** Bəli, vardır.

**İlham Əliyev:** Birinci birləşmə Giləzidədir?

**Saleh Məmmədov:** Giləzidə olacaq, yolun 30-cu kilometr hissəsində. Bu, ümumi götürəndə 75-ci kilometr adlanır. Amma layihə qiyməti ilə 30-cu kilometrdir. Bu ikinci lotdur, hansı ki, Giləzidən başlanır Şabrana qədər. O da 27 kilometrdir. Üçüncü lot Şabrandan Gəndob qəsəbəsinə qədər olacaq. Gəndob qəsəbəsindən Xaçmazın girişinə qədər, Xaçmazdan sonra Qusar–Yalama–Xudat hissəsinə qədər, oradan da düz sərhəd-keçid məntəqəsinə qədər – 192-ci kilometr.

**İlham Əliyev**: Yeni açılmış körpünün girəcəyinə qədər?

**Saleh Məmmədov:** Bəli, yeni açılmış körpünün girəcəyinə qədər. Avtomobillər Rusiya Federasiyasının ərazisinə 4 cərgə ilə daxil olacaq. Bu ərazilər boş, çöl torpaqlar idi. Sizin göstərişiniz və köməyiniz nəticəsində pay torpaqların təzminatı ödənilərək alınıb, yol çəkilişi üçün dövlət torpağından da ayrılıb. Yəni yol altına düşən

bütün torpaq sahələrinin ödənişi tam həll olunubdur. Bu gün yolun çəkilişi bütün lotlar üzrə davam etdirilir. Artıq 2020-ci ilin may ayının əvvəllərində bu yolun 100 kilometr hissəsinin tam ödənişli şəkildə istismara verilməsi nəzərdə tutulur. Cənab Prezident, bu stenddəki isə Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində yerüstü piyada keçididir, tam hazırdır. Yolun bu hissəsindən həmişə piyadalar keçirdi, sıxlıq yaranırdı. Bu, 130 metrlik dayaqsız yeni yol keçididir.

**İ l h a m Ə l i y e v:** İndi gərək yolboyu bütün texniki parametrlər gözlənilsin, yolları ikiyə ayıran yerlər də müasir səviyyədə olmalıdır. Çünki mən sizə irad tutmuşdum, bəzi yollarda daralma, böyümə var. Onlar yolda təhlükə yarada bilər. Burada ayırıcı bir xətt olmalıdır.

**S a l e h M ə m m ə d o v:** Bəli, cənab Prezident, bir xətt olacaq. Sizin göstərişinizə əsasən, həmin keçidləri müəyyən hissələrdə qoymuşuq. Bu yolda Taxtakörpüdən gələn su kanallarından suvarma torpaqlarına keçidlər vardır. Hamısı böyük keçidlərdir, insanlar və heyvanlar üçün keçidlər də nəzərə alınıbdır. Yolboyu rayon mərkəzlərinə ayrılan keçidlər var, qəsəbələrə getmək və geri dönmək üçün 14 yol qovşağı nəzərdə tutulubdur.

**İ l h a m Ə l i y e v:** Bu istiqamətdə turniket harada quraşdırılacaq?

**S a l e h M ə m m ə d o v**: Biri Giləzidə olacaq, Şabrana dönən yerdə. Ümumiyyətlə, ödəniş məntəqələri ilə birlikdə 7 turniket olacaq. Yolboyu bütün ödəniş məntəqələrinə elektrik kabelləri çəkilibdir.

**İlham Əliyev:** Gördüm, mövcud yolun da təmirini aparırsınız, yeni asfalt vurulubdur.

**Saleh Məmmədov**: Bəli, cənab Prezident, yay aylarında Qubaya qədər tam təmir etmişik. Çalışacağıq ki, o yolun təmirini mərhələli şəkildə yerinə yetirək ki, gələcəkdə insanlar əziyyət çəkməsinlər.

**İlham Əliyev**: Çox yaxşı. Bu yolun tikintisinə böyük ehtiyac vardır. İndi həm Rusiya ilə ticarət dövriyyəmiz artır, həm də Azərbaycan tranzit ölkə kimi, öz imkanlarını ortaya qoyur. İrandan Rusiyaya, Rusiyadan İrana yükdaşımaların həcmi artır. Belə olan halda, əlbəttə ki, bizim yol infrastrukturu artan yükləri daşımaq üçün yeni imkanlara malik olmalıdır. Eyni zamanda, sərnişinlər üçün də çox gözəl imkanlar yaradılacaq. Çox təhlükəsiz yol olacaq və eyni zamanda, şimal rayonlarımızda da bu yoldan istifadə edənlərin sayı artacaqdır. O cümlədən «Şahdağ» Turizm Mərkəzinə, Qubanın mənzərəli yerlərinə getmək üçün həm xarici, həm yerli turistlər, həm də rayon sakinləri bu yoldan istifadə edəcəklər. Eyni zamanda, bu çox mənzərəli yol olacaq, çünki sahilboyu gedəcək. Əminəm ki, gələcəkdə bu zonada turizm imkanı da dəyərləndiriləcək və investisiya qoyuluşu nəzərdə tutulacaq. Yol olan yerdə həyat, inkişaf, ticarət, rahatlıq vardır.

**Zakir Fərəcov** *(Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı):* Cənab Prezident, 500 hektarlıq böyük ərazidir.

**Saleh Məmmədov:** Həm də bu yolun sayəsində Rusiya sərhədindən İrana qədər məsafə 45 kilometr qısalacaqdır.

**İlham Əliyev:** Elədir, həm yanacağa qənaət olunacaq, həm də vaxta. Ona görə bu yolun çox böyük əhəmiyyəti vardır.

**Saleh Məmmədov:** Çox sağ olun ki, Siz buna önəm verirsiniz.

**İlham Əliyev:** Siz də bu yolları keyfiyyətlə çəkirsiniz, bilirəm.

**Saleh Məmmədov:** Bəli, öz yerli şirkətlərimizdir.

**İlham Əliyev:** Bəli, siz Bakı–aeroport yolunu 2008-ci ildə istifadəyə verdiniz, bu günə qədər orada, demək olar ki, heç bir problem yoxdur. Yolu 11 il ərzində belə vəziyyətdə saxlamaq üçün, əlbəttə, böyük təcrübə və keyfiyyət olmalı idi. Bu yolu da eyni keyfiyyətlə çəkməlisiniz. Azərbaycan dövlətinin dəstəyi ilə siz xaricdə layihələr reallaşdırırsınız. Eşitmişəm ki, indi sizin fəaliyyət dairəniz genişlənir, yeni ölkələrə öz təkliflərinizi təqdim edirsiniz. Çox yaxşı, Azərbaycan şirkətləri həm Azərbaycanda, həm də başqa ölkələrdəki layihələrdə iştirak etməlidir. Yol infrastrukturunun səviyyəsinə görə biz dünyada 27-ci yerdəyik, yüksək nəticədir. Həm əhatə dairəsi artır, həm də keyfiyyət. Bu il 1000 kilometrdən çox yol çəkilib. Gələn il də bu templə gedəcəyik.

**Saleh Məmmədov:** Cənab Prezident, bunların hamısı Sizin diqqət və qayğınız sayəsindədir. Biz də çalışırıq ki, Sizin etimadınızı doğruldaq. Görülmüş bütün bu işlərə görə Sizə minnətdarıq.

**İlham Əliyev:** Sağ olun.

* * *

*Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək, əhalinin istifadəsinə verilibdir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq, inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir. Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan bu yolun inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərinin daha da yaxşılaşdırılması ilə yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişindaşımalarda əsas rol oynayacaqdır. Həmçinin yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, ümumilikdə respublikamızın iqtisadi inkişafına töhfə verəcəkdir.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli cənab Prezident!

Almatı şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2019-cu il*

**KUBA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ**

Hörmətli cənab Prezident!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2019-cu il*

## «ŞAHDAĞ» TURİZM MƏRKƏZİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*27 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dekabrın 27-də «Şahdağ» Turizm Mərkəzində görülmüş işlərlə tanış olmuşlar.*

*Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən «Şahdağ» Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır. Son illərdə burada xeyli iş görülübdür.*

*Dövlət başçısı ən hündür nöqtədə tikilmiş «Şahdağ-2351» kafesinin qarşısında yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, burada baxış meydançası yaradılıb, ərazidə ehtiyat helikopter meydançası inşa edilib, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıbdır.*

*Prezident İlham Əliyev yerli və xarici turistlərlə söhbət etdi. Turistlər «Şahdağ» Turizm Mərkəzində yaradılmış şəraitdən razılıqlarını bildirdilər.*

*Qeyd edək ki, «Velkom Şahdağ» ərazisinin giriş hissəsi abadlaşdırılıb, burada yaşıllıq zolağı salınıbdır. «Velkom Şahdağ» turistlərin mərkəzdə qarşılaşacaqları ilk nöqtədir. Bu ərazidə 363 yerlik yeni avtomobil dayanacağı inşa edilib. Qonaqların qarşılanması, məlumatlandırılması və istiqamətləndirilməsi üçün «Velkom Plaza» binası da tikilibdir. Turist avtomobillərinin rahatlığı üçün isə uzunluğu 1 kilometrə yaxın olan yeni alternativ zirvə yolu inşa edilibdir.*

*Baş Nazirin birinci müavini Yaqub Eyyubov və «Şahdağ» Turizm Mərkəzi QSC-nin sədri Rodderix Leffler bildirdilər ki, 2018-ci ilin martından bu ilin dekabrına qədərki dövrü əhatə edən ikinci faza çərçivəsində «Şahdağ» Turizm Kompleksində ümumi uzunluğu 7,9 kilometr olan 7 eniş zolağı inşa edilib. Bu eniş zolaqlarında 81 yeni qaryaratma avadanlıqları quraşdırılıb və qaryaratma üçün lazım olan kommunikasiya xətləri inşa edilibdir. Şahdağ ərazisində quraşdırılmış müasir qaryaratma avadanlıqları ən çox qaryaratma gücünə malikdir. Hazırda kompleksdəki eniş zolaqlarının ümumi uzunluğu 22,8 kilometrə çatır və burada yeni quraşdırılmış kanat yolları 1,4 kilometr uzunluğundadır. 5 saylı kanat yolunun yuxarı operator məntəqəsi dəniz səviyyəsindən 2351 metr hündürlükdə inşa edilib. Bu, 1 saylı kanat yolunun yuxarı stansiyasından 250 metr daha hündürdə yerləşir. 600 metrlik*

*20 saylı kanat yolu «Velkom Şahdağ» ərazisi ilə Zirvə lift bazasını, 5 saylı kanat yolu isə 1 saylı kanat yolunun davamı olaraq, MTG zonasını 5 saylı eniş zolağının başlanğıcı və ya «Şahdağ-2351» kafesi ilə birləşdirir. O da qeyd olundu ki, təbii göl və onun ətrafında tikinti-quraşdırma işləri də tamamlanıb. Ərazinin abadlaşdırılması işləri indi də davam edir və 2020-ci ilin yaz aylarında göl ətrafında yeni park zonası istifadəyə veriləcəkdir.*

*Dövlət başçısına və xanımına məlumat verildi ki, «Şahdağ» Turizm Mərkəzinin «Main Plaza» adlanan ərazisində 2 zalı olan yeni kinoteatr inşa edilib. Zalların biri 36, digəri 72 yerlikdir. Buraya gələn yerli və xarici turistlərin asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında kinoteatr mühüm rol oynayacaq. Kinoteatrın Yeni il bayramında turistlərin istifadəsinə verilməsi planlaşdırılır. Bundan əlavə, 4 xətli boulinq, uşaq boulinqi, bilyard və avtomat oyunlardan ibarət oyun zalı yaradılıb, musiqi otağı inşa edilibdir.*

*«Şahdağ» Turizm Mərkəzində görülmüş işləri yüksək qiymətləndirən dövlət başçısı dedi ki, bura indi dünya səviyyəli xizək kurortudur. Burada həm peşəkarlar, həm də yeni başlayanlar üçün çox rahat enişlər vardır. Gələcəkdə kompleksin genişləndirilməsi ilə bağlı əlavə planlar olacaqdır.*

*Prezident İlham Əliyev «Şahdağ» Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verdi.*

*Dövlət başçısı və xanımı turistlərlə, kompleksin işçiləri ilə xatirə şəkilləri çəkdirdilər.*

*Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan «Şahdağ» Turizm Mərkəzində inşa edilmiş hotellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hotellərdə yaradılmış şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına diqqətin göstəricisidir. Bu çərçivədə «Şahdağ» Turizm Mərkəzində inşa edilmiş hotellərdə təqdim edilən yüksək səviyyəli şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.*

*Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan «Şahdağ» Turizm Kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva dəfələrlə əraziyə gələrək, tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və hotelin açılışında iştirak ediblər.*

# PAYTAXTIN SABUNÇU RAYONUNUN PİRŞAĞI QƏSƏBƏSİNDƏ İNŞA EDİLMİŞ AVTOMOBİL TUNELİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da «Azərbaycan Dəmir Yolları» QSC tərəfindən paytaxtın Sabunçu rayonunun Pirşağı qəsəbəsində inşa edilmiş avtomobil tunelinin açılışında iştirak etmişdir.*

*«Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yol-nəqliyyat infrastrukturunda həyata keçirilmiş genişmiqyaslı işlər bu sahənin müasir səviyyəyə çatmasında böyük rol oynayıbdır.*

*«Azərbaycan Dəmir Yolları» QSC tərəfindən paytaxtın Pirşağı qəsəbəsində avtomobil tunelinin inşası bunu bir daha sübut edir. Bu eyni zamanda, ölkəmizin hər yerində, o cümlədən paytaxtın yol və nəqliyyat sektorunun təkmilləşdirilməsi, yeni yolların salınması, mövcud yol təsərrüfatının ən müasir səviyyədə yenidən qurulması istiqamətində icra olunan vacib layihələrin ardıcıl xarakter aldığını göstərir. Bu layihələrin icrasın-*

*dan paytaxtla yanaşı, Bakıətrafı kənd və qəsəbələrdə yaşayan vətəndaşlar da bəhrələnirlər. Bütün bunlar dövlət başçısının həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığının aydın təzahürüdür.*

*Yeni tunelin inşası qatarların və avtomobillərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi ilə bərabər, tıxacların qarşısının alınması, sürücülərin və sərnişinlərin mənzil başına vaxtında və rahat çatması baxımından da mühüm rola malikdir. Abşeron dairəvi dəmir yolu xətti üzrə dəmir yolunun avtomobil yolu ilə eyni səviyyədə kəsişmələrində hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün ümumilikdə 15 avtomobil tuneli layihələndirilib. Bunlardan 7-si artıq istismara verilib, 7-sində isə tikinti-quraşdırma işləri davam etdirilir.*

*Pirşağı qəsəbəsində yerləşən bu tunel Bakı dairəvi avtomobil yolu ilə Abşeron dairəvi dəmir yolunun 28-ci kilometrliyində kəsişir. Tunelin qapalı hissəsinin uzunluğu 160, eni 31, hündürlüyü 6, ümumi uzunluğu isə 566 metrdir.*

*Dəmir yolu xəttinin avtomobil yolu ilə eyni səviyyədə kəsişmələrində belə tunellərin inşası çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu layihə qatarların sürətli, fasiləsiz və qrafikə uyğun hərəkətinin təmin edilməsində vacib rol oynayır. Bu eyni zamanda, avtomobillərin də hərəkətinin intensivliyini təmin edir.*

*Beləliklə, qatarlarla avtomobillərin hərəkəti bir-birinə mane olmadan təhlükəsiz həyata keçirilir.*

*Sonra dövlət başçısı tunelin rəmzi açılışını bildirən lenti kəsdi.*

# BADAMDAR QƏSƏBƏSİNDƏ «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİDƏN QURULMUŞ «MÜŞFİQ» VƏ «ZABRAT» YARIMSTANSİYALARININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*29 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakının Səbail rayonunun Badamdar qəsəbəsində «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulmuş 220/110/10 kilovoltluq «Müşfiq» və 110/35/10 kilovoltluq «Zabrat» yarımstansiyalarının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Baba Rzayev yarımstansiyalarda görülmüş yenidən qurulma işləri barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, 2018-ci ilin sentyabrından ölkəmizin enerji sistemində islahatların keyfiyyətcə yeni mərhələsinə start verilib, yerli və xarici mütəxəssislərin rəyi nəzərə alınmaqla, 2018–2021-ci illəri əhatə edən mükəmməl Reabilitasiya Proqramı hazırlanaraq, dərhal icrasına başlanılıbdır. Bu proqramın həyata keçirilməsində əsas məqsəd itirilmiş gücləri bərpa etmək, enerji sisteminin etibarlılığı və dayanıqlılığını təmin edib*

*inkişafa nail olmaqla yanaşı, 800 meqavatdan artıq «itirilmiş» gücü bərpa etməkdir. Bu günə qədər 400 meqavat «itirilmiş» güc artıq bərpa olunubdur.*

*Diqqətə çatdırıldı ki, «Azərenerji» ASC 12 elektrik stansiyasında və sistem əhəmiyyətli 20-dək yarımstansiyada tikinti, yenidən qurulma və bərpa işləri həyata keçirir. Ötən ildən başlayaraq, mövcud 87 yarımstansiyadan ikisində yenidən qurulma işləri artıq başa çatdırılıb, 20-dək yarımstansiyada isə bu tədbirlər davam etdirilir. 220/110/10 kilovoltluq «Müşfiq» və 110/35/10 kilovoltluq «Zabrat» yarımstansiyaları da ən müasir standartlar səviyyəsində yenidən qurulub. Silsilə tədbirlər sayəsində «Müşfiq» və «Zabrat» yarımstansiyalarının dayanıqlılığı, etibarlılığı və təhlükəsizliyi təmin olunubdur.*

*Prezident İlham Əliyev «Müşfiq» yarımstansiyasını işə saldı.*

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən genişmiqyaslı islahatlar enerji sektorunu da hərtərəfli əhatə edib. Azərbaycanın elektrik enerjisi təsərrüfatında köklü islahatların növbəti mərhələsi uğurla reallaşdırılır, enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər geniş vüsət alıbdır. Son illərdə çoxsaylı yeni elektrik stansiyaların və yarımstansiyaların açılışı, mövcudlarının bərpası ilə yanaşı, bərpa olunan enerjidən istifadəyə də geniş yer ayrılması istiqamətində çox mühüm layihələr icra olunub. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun*

*maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir. Görülmüş işlərin nəticəsidir ki, hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir. Bu işlər ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsinə xidmət etməklə, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlu nəticələrinin göstəricisi kimi də xarakterizə olunur. Respublikamızın elektroenergetika sistemi ötən müddətdə tanınmaz dərəcədə dəyişib və bütün yenidən qurulma tədbirləri perspektiv də nəzərə alınmaqla, reallaşdırılıbdır. Ardıcıl və məqsədyönlü səylər nəticəsində respublikamızın paytaxtı ilə yanaşı, regionlarında da qısa müddətdə böyük irəliləyişə nail olunub. Həmin tədbirlər elektrik enerjisi ilə təchizatın əsaslı şəkildə yaxşılaşdırılmasına, ən müasir texnologiya və avadanlıqların tətbiqinə, elektrik şəbəkələrində yüklənmələrin azalmasına və texniki itkilərin minimuma endirilməsinə imkan yaradıbdır. Ən ucqar yaşayış məntəqələrini belə, əhatə edən yenidən qurulma tədbirləri çərçivəsində yaradılan müasir energetika qurğuları və yeni güc mərkəzləri həm xarici görünüşünə görə əvvəlkilərdən kəskin fərqlənir, həm də böyük texniki üstünlüklərə malikdir. Ölkəmizin bütün bölgələrində qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, eləcə də sənayeləşmə diqqət mərkəzində olduğundan, energetika kompleksinin zamanın tələblərinə uyğun köklü şəkildə təkmilləşdirilməsi də başlıca prioritetlərdəndir.*

*Dövlət başçısına 110/35/10 kilovoltluq «Zabrat» yarımstansiyasında aparılmış yenidən qurulma tədbirləri barədə də məlumat verildi.*

*Bildirildi ki, bu energetika qurğusunun gücü 160 meqavoltamperə çatdırılıbdır.*

*Prezident İlham Əliyev «Müşfiq» yarımstansiyasından SCADA dispetçer idarəetmə sistemi vasitəsilə «Zabrat» yarımstansiyasını da işə saldı.*

*Sonra dövlət başçısına Azərbaycan elektroenergetika kompleksinin sistem olaraq formalaşmasının 120, paylayıcı elektrik şəbəkəsinin yaradılmasının 90 illiyinə həsr edilmiş «Azərbaycan elektroenergetikası» kitabı təqdim olundu.*

## BİNƏQƏDİ RAYONUNDA SƏTTAR BƏHLULZADƏ KÜÇƏSİ, ATATÜRK VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ YERLƏŞƏN PARKDA APARILMIŞ YENİDƏN QURULMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*30 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakının Binəqədi rayonunda Səttar Bəhlulzadə küçəsi, Atatürk və Ziya Bünyadov prospektlərinin kəsişməsində yerləşən parkda aparılmış yenidən qurulma işləri ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev dövlət başçısına parkda həyata keçirilən yenidən qurulma işləri barədə məlumat verdilər.*

*Bildirildi ki, bu parkın ərazisi 1,1 hektardır. Abadlıq və yenidən qurulma işlərinin yüksək səviyyədə həyata keçirildiyi parkda sakinlərin, o cümlədən uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıbdır.*

*Qeyd edək ki, paytaxt Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş nəcib təşəbbüs Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla və*

*kompleks şəkildə uğurla davam etdirilir. Dövlət başçısı Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi, ətraf mühitin mühafizəsini və eyni zamanda, insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməyi qarşıya məqsəd qoyub. Ölkəmizdə bu istiqamətdə silsilə tədbirlər və genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir.*

*Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığı və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.*

*Parkda görülmüş işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA FEDERASİYASININ «ROSSİYA-24» KANALINA MÜSAHİBƏ

*30 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Rusiya Federasiyasının «Rossiya-24» televiziya kanalına müsahibə vermişdir.*

*Dövlət başçısı müsahibədə Azərbaycan–Rusiya ikitərəfli münasibətləri və digər məsələlərlə bağlı sualları cavablandırdı.*

**S u a l: Cənab Prezident, salam. Çox sağ olun ki, bizi Azərbaycanda yenidən qəbul edirsiniz. Biz 2019-cu ilə birlikdə yekun vura bilərik. Bu il Azərbaycan üçün, Rusiya–Azərbaycan münasibətləri üçün necə olubdur?**

**C a v a b:** Sizi Azərbaycanda yenidən görməyimə çox şadam, xoş gəlmisiniz! Keçənilki görüşümüzü xatırlayıram. İlin sonunda görüşmək yaxşı bir ənənə olub. Əlbəttə, həm azərbaycanlı, həm də rusiyalı tamaşaçılara deməyə sözümüz vardır. Ona görə ki, bu il ikitərəfli münasibətlərin inkişafı baxımından həqiqətən, çox zəngin olubdur.

Biz ilə yekun vururuq. Əminəm ki, bu il bizim münasibətlərimizin tarixinə ölkələrimizin yaxınlaşması baxımından ən fəal və dinamik illərdən biri kimi daxil

olacaqdır. Yüksək səviyyədə əlaqələrimiz çox olub. Mən Rusiya Prezidenti ilə dəfələrlə görüşmüşəm və hər bir görüş çox faydalı, səmərəli və nəticə yönümlü olubdur. Bizim öz komandalarımıza verdiyimiz tapşırıqlar yerinə yetirilib. Biz praktiki olaraq, bütün fəaliyyət sahələrimizi – ticarət, nəqliyyat, energetika, humanitar və turizm sahələrini əhatə edən 5 «Yol Xəritəsi» çərçivəsində proqramı fəal surətdə reallaşdırırıq. Bu ilin sonunda həmin «Yol Xəritələri»nə daha ikisi – innovasiyalar üzrə və gənclər siyasəti üzrə «Yol Xəritələri» əlavə olunub. Bu bizim təşəbbüsümüz idi və Rusiya tərəfindən müsbət qəbul edildi.

Deməliyəm ki, artıq gələn ilin fevral ayında birinci Rusiya–Azərbaycan Gənclər Forumunun keçirilməsini planlaşdırırıq. Biz hesab edirik ki, ikitərəfli nailiyyətlərimizi qoruyub saxlamaq və artırmaq üçün gənc nəsil hökmən ünsiyyətdə olmalı, bir-birini tanımalı, əməkdaşlıq baxımından yetkin həyata hazırlaşmalıdır. Buna görə əminəm ki, Azərbaycan və Rusiya gənclərinin birinci forumu çox faydalı, xoşagələn, maraqlı olacaq və beləliklə, gənc nəslin nümayəndələri artıq bir-birini tanıyacaqdır. Əminəm ki, indiki nəsil kimi, gələcək nəsil də əlaqələrimizi möhkəmlətməyə çalışacaqdır.

Sənaye sahəsində çox iş görülüb. Şadıq ki, bu il Azərbaycanda ən iri sənaye layihələrindən biri həyata keçirilib. «Qazprombank» bu layihənin maliyyələşdirilməsinə təqribən 500 milyon dollar ayırıb. Bu il Azərbaycanda 100 faiz Rusiya investisiyalı əczaçılıq müəssisəsi açılıb. Bu da çox mühüm hadisədir. Ona görə ki, bu gün biz əczaçılıq şirkətlərinin məhsullarının satışı

məsələsində çox cəhətdən idxaldan asılıyıq. Bu il həm də «Vertolyotı Rossii» şirkəti ilə birlikdə helikopterlərin təmiri və onlara xidmət üzrə servis mərkəzinin təməli qoyulub. Deməliyəm ki, bizdə Rusiya istehsalı olan 100-dən çox helikopter var və əlbəttə, onlara servis tələb olunur. Biz hesab edirik ki, bu mərkəz həm də regional xarakterli olacaq və Rusiya hərbi texnikasına malik qonşu ölkələr bizim imkanlarımızdan istifadə edəcəkdir.

Hərbi-texniki əməkdaşlıq baxımından da bu il uğurlu olub. Biz əvvəllər imzalanmış, həcmi milyard dollarlarla ölçülən kontraktların reallaşmasını davam etdirmişik, bu sahədə mövcud dinamikanın qorunub saxlanılması üçün yeni kontraktlar bağlanması imkanlarını müfəssəl müzakirə etmişik. Azərbaycanda istehsal edilən «KamAZ» və «Ural» avtomobillərindən əlavə, QAZ avtomobilləri istehsalı zavodunun da təməli qoyulub. Metro vaqonlarının təchizatı barədə Rusiya şirkəti ilə üçillik kontrakt imzalanıb. Biz metronun vaqon parkını tamamilə yeniləyirik. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonu açılıb. Bu da əlamətdar hadisədir. Pavilyon ilkin görkəmində bərpa edilib. Bu, məşhur beynəlxalq məkanda Azərbaycanın mədəni mərkəzidir.

Dekabrın 24-də Samur çayı üzərində yeni avtomobil körpüsü açılıb. Bu körpü dövlətlərimizi əlaqələndirir. Bu da çox mühüm hadisədir. Ona görə ki, köhnə körpü ötən əsrin 50-ci illərində tikilmişdi və daşınan yüklərin, oradan keçən minik avtomobillərinin həcminə davam gətirmirdi. Buna görə dekabrın 24-də sərhəddə təntənəli şəraitdə istifadəyə verilmiş körpü bizim əməkdaşlığımız,

habelə regional əməkdaşlıq üçün yeni qapı olacaqdır. Şimal–Cənub layihəsinin həyata keçirilməsi nəticəsində yükdaşımaların həcmi keçən il 8 dəfə, bu il isə 60 faiz artıb. Buna görə bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işləri prinsip etibarilə başa çatdırmış Azərbaycan artıq qonşu ölkələr üçün nəqliyyat-logistika imkanlarını təqdim edir. Mən bu siyahını davam etdirə bilərəm.

**S u a l: Layihələr həqiqətən də çoxdur və əsas odur ki, onlar həyata keçirilir, bu tamamilə başqa səviyyədir. Bu, artıq sənaye sahəsində əməkdaşlıq, qarşılıqlı fəaliyyət və yüksək texnologiyalar səviyyəsidir. Yəqin Siz razılaşarsınız ki, onların dinamikası, ümidvaram növbəti ildə də davam edəcək və bu il Rusiya – Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcı olacaq, irəlidə bizim digər layihələrimiz də olacaq, bizi başqa recordlar gözləyir. Bütün bunları bu gün məhdudiyyətləri ilə biznesə mane olan inzibati baryerlərin aşılması şəraitində inkişaf etdirmək zəruridir. Əgər gələn ilə nəzər salsaq, Sizcə növbəti ildə bu məhdudiyyətlərdən hansıları aradan götürülə bilər? Hansı addımları atmaq zəruridir?**

**C a v a b:** Bu məsələlər il ərzində detallı şəkildə müzakirə olunub. Belə ki, sizin söylədikləriniz bizim münasibətlərimizin, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafının ayrılmaz hissəsidir. Ona görə də ölkələrimizin müvafiq strukturlarına artıq bu gün gömrük prosedurlarının sadələşdirilməsi, yüklərin daşınmasına nəzarət üzrə müasir texnologiyaların tətbiqi, sərhədi keçməyin sadələşdirilməsinə dair tapşırıqlar

verilibdir. Həm Azərbaycanda, həm də Rusiyada bu istiqamətdə müasir texnologiyalar tətbiq edilir. Ona görə düşünürəm ki, məhz belə inzibati və bürokratik mane-ələrin aradan qaldırılması əsas istiqamətlərdən biri olacaqdır.

İqtisadi sahədə əməkdaşlığa gəldikdə, əminəm ki, əmtəə dövriyyəsi artacaq. Bu il biz 25 faiz artım müşahidə edirik, ötən il 20 faizə yaxın olub. Bu, iqtisadi-ticari münasibətlərdə ciddi dinamikadan xəbər verir. Çünki artıq mövcud olan yüksək bazanı aşmaq bizim üçün asan deyil. Bunun üçün isə, əlbəttə, biz mənim söylədiyim «Yol Xəritələri»ni uğurla həyata keçirməliyik və nəqliyyat-tarif siyasətinə yanaşmaları əhəmiyyətli dərəcədə unifikasiya etməli, o cümlədən yeni nəqliyyat layihələri üzrə fəaliyyətimizi əlaqələndirməliyik. Bu gün Azərbaycanda Xəzər dənizinin sahili boyunca mövcud yola paralel olaraq, Bakıdan Rusiya sərhədinə qədər yeni avtomobil trası inşa edilir. Avtomobil trasının bu marşrutu məsafəni xeyli azaldacaqdır. Ona görə də Rusiya sərhədinə çatmaq daha tez və rahat olacaqdır.

**S u a l: Mütləq rəqəmlərlə ifadə etsək, qarşılıqlı əmtəə dövriyyəmizin həcmi 3 milyard dollara yaxınlaşır. Dollar demişkən, Rusiya və Azərbaycan dollardan asılılığı azaltmaq üçün tədricən milli valyutalarda hesablaşmalara keçir. Bu gün Azərbaycanın «Mir» ödəmə sisteminə qoşulmasının mümkünlüyü də müzakirə edilir. Bu yaxınlarda Vladimir Putin MDB Sammitində, ümumiyyətlə, ortaq maliyyə bazarı yaradılmasının perspektivləri barədə**

**düşünməyi təklif edib. Belə təşəbbüslərə Sizin münasibətiniz necədir?**

**C a v a b:** Biz bu təşəbbüsləri ciddi surətdə nəzərdən keçiririk. Biz ölkələr arasında ticarətin milli valyutalarla aparılması ilə bağlı məsələləri qonşu ölkələrlə də müzakirə edirik. Bildiyiniz kimi, bu məsələ orada da çox fəal müzakirə olunur və bu istiqamətdə ilk addımlar atılır. Buna görə də düşünürəm ki, ilk növbədə, bizim əmtəə dövriyyəsində milli valyuta ilə satıla biləcək malların nomenklaturu müəyyən edilməli və sonra bu istiqamətdə addımlar atılmalıdır.

«Mir» ödəmə sisteminə qoşulmaq barədə təklifi nisbətən yaxın vaxtlarda almışıq və onu ciddi öyrənirik. Fikrimcə, xüsusən Rusiyadan Azərbaycana turist axınının kəskin artması ilə əlaqədar burada yaxşı perspektivlər vardır. Keçən il Azərbaycana təqribən 900 min rusiyalı gəlib. Bu il isə 11 ay ərzində müvafiq rəqəm yenə 900 mindir. Yəni biz milyona yaxınlaşırıq. Biz turizm sənayesini fəal inkişaf etdirir və turizm hesabına gəlirin uçotunu aparmağa çalışırıq. Əlbəttə, turistlərin ödəmə kartları üzrə nə qədər xərclədiklərini hesablamaq çox asandır. Lakin turistlərin çoxu həm də nağd pul xərcləyir. Bu əsasən keçmiş SSRİ məkanından olan turistlərə aiddir. Buna görə əgər bu sistem Azərbaycanda tətbiq edilsə, bizdə mədaxilin dəqiq uçotu aparılacaq, rusiyalılar üçün isə Azərbaycana gəlmək xeyli rahat və münasib olacaq, bəzən mübadilə məntəqələrində pul dəyişdirilməsi ilə bağlı problemlərlə üzləşməyəcəklər.

**S u a l: Bəs vahid maliyyə bazarı?**

**C a v a b:** Maliyyə bazarı daha mürəkkəb məsələdir. Bu barədə bizə hələlik konkret təkliflər edilməyib, ancaq bəyanatlar eşitmişik. Əlbəttə, bunu ciddi öyrənəcəyik. Təbii ki, bizim yanaşmamız həmişə praqmatizmə, məsələnin praktiki tərəfinə əsaslanır. Əgər bu, sərfəli, maraqlı, rahat olsa, əmtəə dövriyyəsini stimullaşdırsa, biznes strukturlarının fəaliyyətini asanlaşdırsa, əlbəttə, biz bu məsələyə çox ciddi yanaşacağıq.

**S u a l: Əlbəttə, Rusiya və Azərbaycan dedikdə həmişə iri enerji layihələri yada düşür. Biz burada həm də tərəfdaşıq. Bizi rəqiblər də adlandırırlar. Bunun nə dərəcədə əsaslı olduğunu bilmirəm. Biz «Türk axını» layihəsinin inkişafı və «Cənub Qaz Dəhlizi» barədə danışırıqsa, gələn il üçün Sizin planlarınız necədir? Siz Avropaya çatmalısınız...**

**C a v a b:** Elədir. Mən də ilk növbədə, bu məsələyə toxunmaq istərdim. Ona görə ki, bəzən müxtəlif ölkələrin mətbuatında burada hansısa rəqabətin olması barədə eşidirik, belə tezislərlə rastlaşırıq. Bu əsla belə deyil, heç vaxt belə olmayıb və əminəm ki, belə olmayacaq da. Bizim və ya Rusiyanın həyata keçirdiyi enerji layihələri məsələsi heç vaxt hər hansı ciddi diskussiyaların mövzusu olmayıb. Mənim fikrimcə, bizim həyata keçirdiyimiz layihələri həm Rusiyada, həm də Azərbaycanda dəstəkləyirlər.

«Türk axını» layihəsinə gəldikdə, bu layihənin həm Rusiya üçün, həm də Türkiyə üçün nə dərəcədə vacib olduğunu bilirik. Hər iki ölkə bizim yaxın tərəfdaşımızdır. Buna görə də biz bu layihəni lap əvvəldən dəstəkləmişik.

Azərbaycan qazının Avropa bazarına çıxması məsələsinə gəldikdə, «Cənub Qaz Dəhlizi» layihəsi həyata keçiriləndən sonra Avropa bazarına ildə 10 milyard kubmetr qaz göndəriləcəkdir. Rusiyadan göndərilən həcm ilə müqayisədə – dəqiq rəqəm yadımda deyil, lakin ayrı-ayrı illər üzrə təxminən 150–170 milyard kubmetrdir – bu çox kiçik həcmdir. Ona görə də «Cənub Qaz Dəhlizi» layihəsi, əlbəttə, əsla rəqib deyil. Biz də bunu heç vaxt belə hesab etməmişik. Sadəcə, bu layihə Azərbaycana öz qaz ehtiyatlarını beynəlxalq bazarlarda satmaq imkanı verəcək. Bu dəhliz üzrə qazın bir hissəsi artıq Türkiyə bazarına çatdırılır. Bu il noyabrın sonunda TANAP layihəsi – «Cənub Qaz Dəhlizi»nin bir hissəsi olan Trans–Anadolu qaz kəməri artıq Yunanıstan sərhədinə çatdırılıb. Türkiyə–Yunanıstan sərhədindən İtaliyaya qədər qaz kəmərinin tikintisi də 90 faizdən çox tamamlanıb. Beləliklə, biz uzunluğu 3500 kilometr olan bu layihəni gələn il bütünlüklə istifadəyə verməyi nəzərdə tuturuq. Bu həm də bizə hazırda işlənilmə mərhələsində olan yeni qaz yataqlarını istismara verməyə imkan yaradacaq və daha düşünməyəcəyik ki, Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Ona görə ki, biz nəqliyyat və enerji dəhlizləri vasitəsilə artıq çoxdan həm Qara dəniz, həm də Aralıq dənizi bazarına çıxmışıq və indi, əlbəttə, Türkiyənin və Avropanın qaz bazarlarına nisbətən böyük həcmdə çıxırıq.

**M ü x b i r: Tərəfdaşlıq Avropaya göndərilmək üçün Rusiya qazının alınması ilə davam edə bilər.**

**C a v a b:** Bəli, şübhəsiz. Düşünürəm ki, gələcəkdə biz yenə də çoxtərəfli səmərəli əməkdaşlıq çərçivəsində

əvvəllər bəlkə də həyata keçirilməsi mümkünsüz görünən bir çox birgə layihələri reallaşdıra bilərik. Belə əməkdaşlığın örnəyi kimi, mən Azərbaycan və Türkiyənin dəmir yolu xətlərini birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini misal gətirə bilərəm. Bu gün rusiyalı təchizatçılar Rusiyadan yükləri Azərbaycan ərazisi ilə Türkiyə limanlarına, ilk növbədə, Mərsinə çatdırırlar. Daha sonra Avropa ölkələrinə yüklərin limanlarda yükaşırma olmadan dəmir yolu ilə daşınması perspektivi də vardır. Bu gün biz artıq milyonlarla tona çatacaq mümkün həcmlərdən danışırıq. Həm də biz Azərbaycanla Türkiyə arasında dəmir yolu xəttinin tikilməsi təşəbbüsünü irəli sürəndə çoxlarına elə gəlirdi ki, bu, yalnız Çin və Mərkəzi Asiyadan olan yükgöndərənlərə aid ediləcək, lakin bu gün rusiyalı yükgöndərənlər yüklərini artıq bu istiqamət üzrə daşıyırlar. Buna görə də istisna etmirəm ki, Türkiyə ərazisində cəmləşəcək bizim yaratdığımız və artıq Rusiyanın da yaratdığı mövcud qaz nəqli infrastrukturu müəyyən mərhələdə ortaq infrastruktura çevrilə bilər.

**M ü x b i r: Burada yəqin ki, həm də Azərbaycan, Rusiya və İranın enerji sistemlərini xatırlatmaq vacibdir. Burada da əməkdaşlıq üçün böyük imkanlar mövcuddur.**

**C a v a b:** Tamamilə doğrudur. Biz Rusiya ilə paralel rejimdə işləyirik. Bu çox səmərəli rejimdir. Hər rübdə mənə enerji mübadiləsi üzrə məlumatı təqdim edirlər. Ən əsası odur ki, hər hansı qəza zamanı biz həmişə bir-birimizə güvənə bilərik. Ötən ilin yayında Azərbaycanda qəza baş verəndə, demək olar ki, tam «blekaut» vəziyyəti

yarananda Rusiya tərəfi bizə müəyyən strateji obyektləri elektrik enerjisi ilə təmin edə bilmək üçün qəbul edə biləcəyimiz həcmdə zəruri yardım göstərdi.

Dağıstanda qəza baş verəndə isə  biz də eynilə belə hərəkət etdik, dərhal enerji axınını Rusiya bazarına yönəltdik. Bu gün Azərbaycanda 1000 meqavat həcmində elektrik enerjisi artıqlığı vardır. Biz Gürcüstan, Türkiyə və bəzi Avropa ölkələrinə elektrik enerjisi ixrac edirik. Zərurət yarananda Rusiya ilə də satış həyata keçiririk. Biz həmçinin İranla yeni elektrik verilişi xətti inşa etmişik. Beləliklə, artıq 3 ölkə arasında energetika dəhlizi mövcuddur və 3 ölkənin nazirləri mütəmadi görüşərək, bu istiqamətdə gələcək əməkdaşlıq məsələlərini müzakirə edirlər.

**S u a l: Bu, ortaq enerji sisteminə çevrilə bilərmi?**

**C a v a b:** Bəli, bu, artıq praktiki olaraq baş verir. Çünki mənim dediyim kimi, biz Rusiya Federasiyası ilə paralel rejimdə işləyirik. Həmçinin qərb və cənub istiqamətlərində bizim enerji xəttimiz və ixracımız nizamlanıbdır. Ona görə düşünürəm ki, təkcə üçtərəfli Azərbaycan–İran–Rusiya miqyasında deyil, daha böyük həcmdə koordinasiya və çoxtərəfli əməkdaşlıq hamı üçün faydalı olacaqdır.

**S u a l: Yəqin ki, Siz Rusiyanın «Şimal axını-2» layihəsinin necə təzyiqə məruz qaldığını müşahidə edirsiniz. Siz dediyiniz kimi, Azərbaycanın Avropa bazarında ambisiyaları bir qədər azdır, lakin o da belə basqıya məruz qala bilər. Siz bunu hiss edirsinizmi?**

**C a v a b:** Xeyr. Enerji layihələri baxımından hiss etmirik. Üstəlik, avropalı istehlakçılar Azərbaycan

qazının əlçatan olmasında maraqlıdırlar. Dediyim kimi, bu həcm kiçik olsa da, amma hər halda, mövcuddur. Buna görə də energetika ilə bağlı məsələlərdə biz təzyiq hiss etmirik.

**S u a l: Avropalı istehlakçılar «Şimal axını-2» layihəsində maraqlıdırlar, amerikalı istehsalçılar isə o qədər də yox. Bu maraq çox da qarşılıqlı deyil. Bütövlükdə, qarşılıqlı siyasi fəaliyyət, siyasi fon barədə danışmalı olsaq, Rusiyanın qərbli tərəfdaşları ilə münasibətlərinin sizə hər hansı təsirini görürsünüzmü, bu münasibətlər Azərbaycana necə təsir göstərir?**

**C a v a b:** Mən deyərdim ki, əlbəttə, bu təsiri birbaşa görmürük, ona görə ki, bu məsələ, bir növ, bizim fəaliyyət sahəmizə aid deyil. Amma bütövlükdə ölkələr arasında, bizimlə tərəfdaşlıq münasibətləri olan ölkələr arasında əlaqələr gərginləşəndə, bu hamıya mənfi təsir göstərir.

**S u a l: Bəlkə sizi Rusiya ilə dostluq etməkdən çəkindirmək istəyirlər?**

**C a v a b:** Fikrimcə, elə deyil. Artıq hamıya, o cümlədən Avropa məkanında da məlumdur ki, Azərbaycan müstəqil xarici siyasət yürüdür və bunu açıq elan edir. Bizim sözlərimiz heç vaxt əməllərimizə zidd olmur. Avropa ölkələri ilə bizim yaxşı, xoş münasibətlərimiz vardır. Biz Avropa İttifaqının üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq. Bu, Avropa İttifaqı ölkələrinin üçdəbiri deməkdir, lakin Brexitdən sonra üçdəbirdən də çox olacaqdır. Keçən il biz Avropa İttifaqı ilə «Tərəfdaşlıq prioritetləri» sənədini

paraflamışıq. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin, sərhədlərinin toxunulmazlığının dəstəklənməsi ifadə edilibdir.

Hazırda Avropa İttifaqı ilə danışıqlar prosesi gedir. Bütün bunlar başqa ölkələrlə münasibətlərin qurulmasına əsla mane olmur. Avropada da başa düşürlər ki, Azərbaycan qonşularla münasibətlər baxımından tamamilə müstəqil kurs yürüdür. Azərbaycan o ölkədir ki, o, yarana biləcək təsiri və təzyiqi dəf edə bilər və bunu dəfələrlə nümayiş etdiribdir. Səbəb odur ki, biz iqtisadi baxımdan müstəqilik. Biz öz vəsaitimiz hesabına yaşayırıq. Bizim kreditə ehtiyacımız yoxdur. Beynəlxalq İnkişaf Assosiasiyasının hesablamalarına görə, biz donor ölkə olmuşuq. Azərbaycanın xarici dövlət borcu ümumi daxili məhsulun təqribən 17 faizi civarındadır. Bu göstərici üzrə biz dünyada 9-cu yerdəyik. İqtisadi müstəqillik isə bizə siyasət meydanında da öz mövqemizi qorumaq üçün güc verir. Biz də bunu uğurla edirik. Yarana biləcək təzyiq və basqıları dəf etmək üçün bir imkanımız da ondan ibarətdir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, biz haqlı olduğumuza əminik. Beləliklə, əvvəllər Azərbaycanı hansısa məcraya yönəltmək üçün göstərilən bütün cəhdlər puç olubdur.

**S u a l: Siz Avropa İttifaqına daxil olmağa hazırlaşmırsınız?**

**C a v a b:** Tamamilə doğrudur.

**M ü x b i r: Əvvəlcə göstərilib, sonra yığışdırıla bilən belə bir dadlı tikə yoxdur...**

**C a v a b:** Bu yaxınlarda Azərbaycan jurnalistləri ilə görüşümdə mən bu məsələlər barədə ətraflı danışdım,

çünki bəzən bizim mətbuatımızda bununla bağlı reallıqdan uzaq fikirlər səsləndirilir. Mən bu məsələnin üzərində təfsilatı ilə dayanaraq dedim ki, bizi orada heç gözləmirlər də. Biz hətta namizədlərin siyahısına da daxil deyilik. Həm də Azərbaycan «Şərq Tərəfdaşlığı» Proqramında birləşən keçmiş SSRİ ölkələrinin bəzilərindən fərqli olaraq, Assosiasiya Sazişi imzalamayan ölkədir. Mən onu əvvəldən axıradək oxudum və başa düşdüm ki, bu, saziş deyil. Bu təlimatdır. Bu bizim əməl etməyimiz üçün yuxarıdan göndərilən təlimatdır. Mən öz komanda üzvlərimə sual verdim: bu təlimat bizim nəyimizə lazımdır? O bizə nə verəcək? Burada Azərbaycan üçün hər hansı əməli fayda varmı? Mən şəxsən bunu görmədim. Ona görə də biz Avropa Komissiyasına bunun yerinə bizim üçün faydalı olacaq, Azərbaycan vətəndaşlarına bu addımı nədən ötrü atdığımızı izah edə biləcəyim ikitərəfli saziş üzərində işləməyi təklif etdik. Axı biz kiminsə xoşuna gəlmək və ya sadəcə, ondan bizdə də var – demək xətrinə saziş imzalaya bilmərik. Biz belə işləmirik. Bizim əldə edəcəyimiz hər hansı saziş, hər hansı razılaşmanın konkret nəticələri olmalıdır.

Biz bu gün Rusiya–Azərbaycan münasibətlərindən bəhs etdik. Görürsünüz, hər məsələdə konkret nəticə var, bizim razılıq əldə etdiklərimizin və imzaladıqlarımızın hamısı həyata keçirilir. Biz Avropa Komissiyasına da bunu təklif etdik və deməliyəm ki, yeni saziş üzrə danışıqlar bütövlükdə pis getmir. Bəndlərin 90 faizindən çoxu razılaşdırılıb. Lakin razılıq əldə olunmayan bəndlər bizim üçün qətiyyən qəbuledilməzdir. Əgər Avropa

İttifaqının mövqeyində dəyişiklik baş verərsə, onda biz nəticəyə hesablanmış danışıqları davam etdirə bilərik.

**S u a l: Bu il Dağlıq Qarabağda atəşkəs haqqında sazişin, müddətsiz sazişin 25 ili tamam oldu. Elə bu il tərəflər Bakının və İrəvanın qəbul etdiyi proqram üzrə sülhə doğru hərəkətin başlandığını bəyan etdilər və bir neçə maraqlı hadisə baş verdi. O cümlədən, məsələn, Ermənistanda və Azərbaycanda jurnalistlərdən ibarət nümayəndə heyətlərinin mübadiləsi. Siz bu çox mürəkkəb məsələdə daha hansı müsbət cəhətləri qeyd edərdiniz?**

**C a v a b:** Təəssüf ki, daha heç nəyi. Hesab edirəm ki, 2019-cu il münaqişənin nizamlanması üçün itirildi. Bunun günahı isə erməni tərəfinin qeyri-ardıcıl, ziddiyyətli və anlaşılmaz mövqeyidir. Çünki il ərzində biz Ermənistanın ali rəhbərliyinin bir-birinə tamamilə zidd olan bəyanatlarını eşidirdik. Məsələn, onlardan biri Dağlıq Qarabağın «müstəqil dövlət» olması və Azərbaycanın bu «müstəqil dövlət» ilə danışıqlar aparmalı olması barədə bəyanatdır. Bu, danışıqlar prosesinin tamamilə pozulması, mahiyyətcə onun dayandırılması cəhdi idi. Təbii ki, bununla nə biz razılaşa bilərdik, nə də vasitəçi ölkələr – ATƏT-in Minsk qrupunun həmsədrləri. Bildiyimə görə, onlar da Ermənistan rəhbərliyinə xəbərdarlıq ediblər ki, bu populist və zərərli, təhlükəli siyasətdən əl çəksin.

Görünür ki, bu ağlabatan məsləhəti eşidən Ermənistan rəhbərliyi öz mövqeyini dəyişdi, lakin yenə də daha pis istiqamətdə. Ermənistan Baş Nazirinin növbəti bəyanatı ondan ibarət oldu ki, Dağlıq Qarabağ Ermənistandır və

nöqtə. Onda bizdə belə bir sual meydana çıxır: onlar gah deyirlər ki, Dağlıq Qarabağ heç kimin, o cümlədən Ermənistanın da tanımadığı müstəqil dövlətdir, gah da deyirlər ki, Dağlıq Qarabağ Ermənistandır. Bu da yalandır. Beləliklə, onlar özləri Dağlıq Qarabağın nə olduğunu bilmirlər. Əgər onlar Dağlıq Qarabağın nə olduğunu bilmirlərsə, biz bunu onlara izah edə bilərik. Mən bunu oktyabrda «Valday» forumu çərçivəsində sizin kanalınızın birbaşa efirində etdim, dedim ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Erməni tərəfinin tezislərindən fərqli olaraq, bu həqiqətdir, çünki həm tarixi ədalət, həm də beynəlxalq hüquq Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edir. Azərbaycan BMT-yə daxil olanda, o özünün tam ərazi bütövlüyü çərçivəsində üzv olubdur. Əgər biz buraya BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş əraziləri dərhal və qeyd-şərtsiz tərk etməsi haqqında qətnamələrini, digər beynəlxalq təşkilatların qətnamələrini, heç bir ölkənin Dağlıq Qarabağ adlanan ağlasığmaz və qeyri-qanuni qurumu tanımadığını da əlavə etsək, onda görərik ki, münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində olmalıdır. Ermənistan rəhbərliyi bu sadə həqiqəti nə qədər tez başa düşsə, bizim danışıqlar prosesində irəliləmək şansımız yaranar.

**S u a l: Bəli, bu proqram davam etdiriləcək. Siz bu mövqelərə sadiq qalırsınızmı?**

**C a v a b:** Nizamlanma mövqeyi üzrə?

**M ü x b i r: Bəli, sülhə nail olmaq üzrə.**

**C a v a b:** Bəli, sülhə doğru irəliləmək fəal danışıqlar prosesi ilə müşayiət olunmalıdır. Erməni tərəfinin bizim Dağlıq Qarabağla danışıqlar aparmalı olduğumuz barədə bəyanatına baxmayaraq, indi danışıqlar Azərbaycan və Ermənistan arasında aparılır. Mənim Baş Nazir Paşinyanla görüşlərim, o cümlədən ATƏT-in Minsk qrupunun təsbit etdiyinə görə, martda Vyanada keçiriləcək rəsmi görüş erməni tərəfinin onu necə dəyişmək istədiyinə baxmayaraq, bir daha təsdiq etdi ki, danışıqlar prosesi və format dəyişilməyib. Ona görə də sülhə doğru addımlar və danışıqlar trekində real tərəqqi paralel getməlidir.

**S u a l: Növbəti il bizim ortaq tariximiz üçün xüsusi il olacaq. Biz böyük Qələbənin – İkinci dünya müharibəsində Qələbənin 75 illiyini qeyd edəcəyik. Təəssüf ki, biz artıq hər dəfə bu bayramda tarixi yenidən qiymətləndirmək cəhdləri ilə ovqatların təlx edilməsi hallarına alışırıq. İndi tarixi yenidən qiymətləndirmək cəhdlərinə faşizmin qəhrəmanlaşdırılması da əlavə olunub ki, bu, artıq ölkəmizi müdafiə edən və bu Qələbəni bizim üçün qazanan insanlar və onların nəsli üçün yolverilməzdir. Birincisi, siz bu bayramı necə qeyd edəcəksiniz, Azərbaycan xalqı onu necə qeyd edəcək? İkincisi, siz bizim ortaq tariximizdə baş verənləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Siz çox vacib məsələyə toxundunuz. Bu məsələ mütləq bütün ölkələrin gündəliyində olmalıdır və düşünürəm ki, bütün ölkələr və onların rəhbərləri öz mövqelərini açıq şəkildə ifadə etməlidir. Bu məsələ üzrə susmaq siyasəti aparmaq olmaz və necə deyərlər, «həm

sizin, həm də bizim» siyasəti aparılmamalıdır. Hesab edirəm ki, bütövlükdə hər bir məsələ üzrə hər bir ölkənin öz mövqeyi olmalıdır və ilk növbədə, bu məsələyə dair. Çünki biz tarixin yenidən yazılması, faşizmin qəhrəmanlaşdırılması, tarixi həqiqətin təhrif edilməsi üzrə təhlükəli tendensiyaları görürük. Biz buna çox ciddi yanaşmalıyıq. Ona görə də MDB-də əməkdaşlıq çərçivəsində bu məsələ gündəlikdədir və MDB-nin Sankt-Peterburqda keçirilmiş sonuncu qeyri-formal sammitində Vladimir Vladimiroviç Putin tarixi sənədlərə istinadla onlardan ətraflı danışdı. Onların bir çoxunu biz ilk dəfədir eşidirdik, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil aldığım zaman tarixi yaxşı öyrənmişəm, o vaxt həmin sənədlər yox idi, onları bizə tədris etmirdilər və düşünürəm ki, bu bir xəta idi.

**S u a l: Bu xəta idi?**

**C a v a b:** Bu, xəta idi. Amma mənim fikrimcə, bu, siyasi korrektliklə bağlı olub. Ona görə ki, belə sənədlərdə elə incə məqamlara toxunulur ki, sovet tarix elmi həmin məqamları «məxfi» qrifi altında saxlamağı qərara almışdı. Amma Rusiya Prezidentinin ətraflı çıxışında həmin məqamlar hamıya təqdim edildi və mənim fikrimcə, bu çoxları üçün böyük sürpriz oldu. Biz həmin dövrdə əslində nələr baş verdiyini bir daha gördük. Buna görə də istər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması əsla yolverilməzdir.

Azərbaycan İkinci dünya müharibəsində həlak olanların xatirəsinə ehtiramla yanaşır. Hərçənd açıq deməliyəm, təəssüf ki, müstəqilliyin ilk illərində belə

olmayıb. O vaxt özünü Xalq Cəbhəsi adlandıran bir qrup çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etmişdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdı. Praktiki olaraq, indi bəzi ölkələrdə baş verən hadisələr o vaxt bizdə də olurdu. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra tarixi ədalət bərpa edildi.

Veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, 9 May Qələbə Günü ümummilli bayram elan edildi və o vaxtdan – 1994-cü ildən biz bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür. Mən hər il veteranlarla görüşürəm, biz həlak olanların xatirəsini ehtiramla yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Azərbaycanda İkinci dünya müharibəsi veteranları dövlətin çox böyük dəstəyindən istifadə edirlər.

Onu da demək istərdim ki, Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur «Katyuşa» raketləri istehsal edilirdi. Ona görə ki, həmin illərdə Azərbaycan sənayesi inkişaf etmişdi. Həmçinin sovet ordusu üçün neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi, bunlar olmasa idi, müharibədə qalib gəlmək mümkün olmazdı. Biz bilirik ki, Hitler ordusunun çox hücumlarının uğursuz olması yalnız yanacağın vaxtında gətirilməməsinin nəticəsi idi. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa çalışırdı. Yeri gəlmişkən, mən bu barədə oktyabr ayında Aşqabadda keçirilmiş

MDB Sammitində danışmışdım. Məşhur bir kadrda Hitlerə üzərində alman dilində «Xəzər dənizi» sözləri yazılmış tort gətirirlər. Orada Xəzər dənizinin sərhədlərində qara rəngli əridilmiş şokolad tökülüb. Hitler svastikanı götürüb düz Bakı sözü yazılan yerə qoyur. Onun planları belə idi. Bakının tutulması Sovet İttifaqı üçün fəlakət olardı. Ona görə ki, Sovet İttifaqı mühüm bir komponentdən məhrum edilərdi. Bizim vətəndaşlar üçün isə bu ona görə fəlakət olardı ki, bütün neft quyuları minalanmışdı. Əgər faşistlər Bakını tutmağa nail olsaydılar, hər şey havaya uçar, yüz minlərlə insan həlak olardı. Buna görə də İkinci dünya müharibəsi və Vətən uğrunda həlak olanlar haqqında xatirə – Azərbaycandan müharibədə iştirak etmiş 600 mindən çox döyüşçünün 300 mini həlak olub – bizim üçün müqəddəsdir. Biz bunu xatırlayır və ehtiramla yad edirik.

Daha bir məqam. Biz faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi məsələsində hər hansı siyasi korrektlikdən uzaq olmalıyıq. Kimin necə nitqlər söyləməsindən, kimin nə etməsindən asılı olmayaraq, biz hər şeyin öz adını deməliyik. Oktyabrda Aşqabadda mən daha bir məsələ qaldırdım, çünki gündəlikdə ümumi Qələbəmizin 75 illiyinin bayram edilməsinə hazırlıq məsələsi dururdu. Mən dedim ki, MDB məkanında faşistlərin qəhrəmanlaşdırılması, Ermənistanda baş verənlər, İrəvanda faşistlərin əlaltısı Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulması yolverilməzdir. Njde ləqəbi ilə məşhur olan bu adam SMERŞ tərəfindən həbs edilərək, 25 il azadlıqdan

məhrum edilib və Vladimir həbsxanasında ölübdür. Ona bəraət verilməmişdi. İndi belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur, küçələrə, meydanlara onun adı verilir.

Bu Ermənistan rəhbərliyinin də guya faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinin əleyhinə olması barədə bəyanatı ilə bir araya necə sığa bilər? Mən bu barədə açıq danışdım, öz mövqemi bildirdim və bu biabırçı məsələdə əli olmayan Ermənistanın Baş Nazirinə öz mövqeyini bildirmək şansı verdim. Lakin təəssüf ki, onun reaksiyası tamamilə qeyri-adekvat oldu. O cavab verdi ki, Soljenitsın da sovet düşərgələrində olub. Mən yenidən çıxış üçün söz alıb deməyə məcbur oldum ki, Soljenitsın ilə faşist cəlladının eyniləşdirilməsi həyasızlıqdır.

Bir müddət sonra Ermənistanın Baş Naziri rusiyalı jurnalistlərlə görüşdə daha irəli gedərək deyib ki, Molotov da Hitler ilə görüşmüşdü, bunda təəccüblü heç nə yoxdur. Lakin bu tezisi, ümumiyyətlə, şərh etmək çətindir. Ona görə ki, tarixdən elementar biliyi olan hər kəsə məlumdur ki, Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub və müharibənin əvvəlində riskləri mümkün qədər minimuma endirmək onun bir vəzifəsi idi. Çünki Sovet İttifaqı 1939-cu ildə, əslində elə 1941-ci ildə də müharibəyə hazır deyildi, əgər hazır olsaydı, o qədər itki olmazdı. Düşünürəm ki, bütün bu qeyri-adekvat bəyanatlar çox ciddi diqqət tələb edir. Burada siyasi korrektlik və ya hər hansı siyasi maraqlar xatirinə tarixin yenidən yazılması və faşizmin qəhrəmanlaşdırılması cəhdlərinə yol vermək olmaz.

Mən gələn il 9 May – Qələbə Gününü Moskvada keçirməyi planlaşdırıram. Vladimir Vladimiroviç Putindən dəvət almışam. Adətən, həmin günü Bakıda veteranlarla birgə qeyd edirəm. Bu dəfə isə – 5 il bundan əvvəl Qələbəmizin 70 illiyini qeyd edəndə olduğu kimi, Moskvada olacağam.

**M ü x b i r: Bu sözləri Sizdən bu gün eşitməyimiz çox sevindirici və vacibdir. Biz Sizi Moskvada qarşılamağa şad olacağıq. Müsahibə üçün çox sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olubdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilib, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedibdir.

2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşayıbdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, postsovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının tapdalanması geniş vüsət alıbdır. Azərbaycan isə sabitlik və inkişaf məkanıdır. Bu bizim böyük nailiyyətimizdir. Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşayıb, qurub, yaradıbdır.

Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. İl ərzində 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Bizim ikitərəfli əlaqələrimiz yüksək dərəcədə genişlənib, çoxtərəfli formatda uğurla əməkdaşlıq edirik, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilibdir. Onların sırasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşünü qeyd

etməliyəm. Zirvə görüşü nəticəsində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməyə başlayıbdır. «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü Azərbaycanda keçirildi və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan bu böyük təsisata 3 il ərzində sədrlik edəcəkdir. Bu bizə göstərilən böyük etimaddır. Bu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycanı dəstəkləyir və bizə hörmətlə yanaşır.

Bu il Bakıda Dünya Dini Liderlərinin Zirvə görüşü keçirildi, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət verdilər. Azərbaycan multikultural, öz ənənələrinə, milli, dini dəyərlərinə sadiq ölkə kimi, özünü bu Zirvə görüşündə təqdim etdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqemizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqemiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul edib, öz mövqelərini ortaya qoyublar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul ediblər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış

«Tərəfdaşlıq prioritetləri» sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilibdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səsləndirilirdi. Gah deyirdilər ki, qondarma «Dağlıq Qarabağ respublikası» müstəqil dövlətdir və Azərbaycan bu «müstəqil dövlət»lə danışıqlar aparmalıdır. Bu yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılıbdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilibdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etdim ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasətimiz münaqişənin həllinə gətirib çıxaracaqdır. İqtisadi, hərbi, siyasi gücümüz, demoqrafik artım – bütün bu amillər bizim mövqemizi gücləndirir. Əminəm ki, gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılıbdır.

2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları,

iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırıbdır. Bu il iqtisadiyyat artıb, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artıbdır.

Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcəkdir. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artıb və rekord həddə – 50 milyard dollara çatıbdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni bu, ölkəmizin iqtisadi və maliyyə imkanlarının dayanıqlılığını ifadə edir. Sənaye istehsalı artıb, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil edibdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.

Biz Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında donor ölkəyə çevrildik. Biz indi borc alan yox, borc verən ölkəyik. Bütün bunlar düşünülmüş siyasətin təzahürüdür. Bu nailiyyətlər imkan verir ki, sosial sahəyə daha böyük həcmdə vəsait ayıraq və biz bunu edirik. Bu il də bu baxımdan çox yaddaqalan il oldu. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər isə 100 faiz, yəni 2 dəfə artıb. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artıbdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında 1-ci yerdəyik. Sosial siyasətimiz bir daha göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki,

gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcəkdir.

Şəffaflıq baxımından bu il çox uğurlu il olubdur. Vergi və gömrük orqanları xəzinəyə plandan əlavə, 1 milyard manatdan çox vəsait daxil ediblər və əlbəttə, bu, imkan verir ki – əminəm, bu meyil gələn il də müşahidə olunacaq – biz daha geniş miqyasda sosial və infrastruktur layihələri icra edək.

Məcburi köçkünlərin problemləri həll olunur. Bu il 5000-dən çox məcburi köçkün ailəsi, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilibdir. Zəlzələdən əziyyət çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə ev tikilibdir. Bu böyük zəlzələnin fəsadlarının mütləq əksəriyyəti cəmi 10 ay ərzində aradan qaldırıldı. Bu da unikal məsələdir, çünki bu bizim niyyətimizi, gücümüzü göstərir. Azərbaycan dövləti və rəhbərlik bir daha göstərdi ki, hər zaman vətəndaşların yanındadır.

Bu il TANAP layihəsi istismara verildi, bu, tarixi layihədir. TANAP artıq Avropa İttifaqı sərhədinə çatdırıldı. Biz bu tarixi hadisəni bu ilin noyabr ayında böyük təntənə ilə qeyd etdik. TANAP «Cənub Qaz Dəhlizi»nin bir hissəsidir. «Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir və onlardan 3-ü – «Şahdəniz-2», «Cənubi Qafqaz» qaz kəməri və TANAP artıq reallığa çevrildi. Dördüncü layihə – TAP-dır, o da artıq uğurla icra edilir və bu layihənin icra səviyyəsi 90 faizi ötübdür. Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü – həm maliyyə, həm texniki

məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik.

Bu il turizm sahəsində rekord il olubdur. Bizim apardığımız siyasət, ölkəmizin inkişafı, ölkəmizdə hökm sürən təhlükəsizlik, əmin-amanlıq, Azərbaycanda keçirdiyimiz böyük mötəbər tədbirlərin nəticəsində bu il tarixdə ilk dəfə olaraq, ölkəmizə 3 milyondan artıq turist səfər edibdir.

Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi. Bu da böyük tarixi hadisədir. Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artıb. Bu bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməli, yeni iş yerləri yaradılmalıdır. Beləliklə, Azərbaycanın əhalisi artdıqca gücü də artır. Bu il dünyaya gələn gözəl Mehriban balamız bizim hamımızı sevindirdi. Allah onu xoşbəxt eləsin, Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun!

Bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Mən fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara öz səmimi salamlarımı çatdırıram. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb.

Əziz həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə

ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2019-cu il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda əsrlərboyu müxtəlif xalqların və konfessiyaların nümayəndələri mehriban qonşuluq, dostluq və qarşılıqlı etimad şəraitində yaşamışlar. Cəmiyyətdə etnik-mədəni müxtəlifliyin, multikultural ənənələrin və dözümlülük mühitinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir. Sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmləndirilməsinə önəmli töhfələr verən mötəbər tədbirlərin, o cümlədən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Dünya Dini Liderlərinin II Bakı Sammitinin ölkəmizdə keçirilməsi beynəlxalq miqyasda sülhün, əmin-amanlığın və harmoniyanın bərqərar olunması işində Azərbaycanın mühüm rol oynadığını göstərir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristianlar ölkəmizdə gedən böyük quruculuq işlərində və milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, Azərbaycanın tərəqqisi naminə bacarıq və səylərini əsirgəmirlər.

Əziz həmvətənlər!

Mübarək Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 yanvar 2020-ci il*

# «AZƏRİŞIQ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ TƏYİN OLUNMASI İLƏ ƏLAQƏDAR VÜQAR ƏHMƏDOV İLƏ GÖRÜŞ

*7 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar Vüqar Əhmədovu qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizi «Azərişıq» Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəyə məsuliyyətlə yanaşacaqsınız.

Bu çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji gücümüz var ki, bu güc həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edibdir.

Bütün bu işlərin təməlində generasiya gücünün yaradılması dayanır. Biz son 15 il ərzində təqribən 3000

meqavata yaxın yeni generasiya gücü yaratdıq, bir çox elektrik stansiyaları inşa edildi və beləliklə, Azərbaycan bu istiqamətdə dünya miqyasında aparıcı ölkələrdən birinə çevrildi. Eyni zamanda, paylayıcı xətlərin yenidən qurulmasına və çəkilməsinə də böyük diqqət göstərildi. Əlbəttə ki, paylayıcı şəbəkənin müasir standartlara cavab verməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Vaxt var idi ki, ölkəmizin enerji təminatı özəl qurumların əlində idi və bu praktika özünü doğrultmadı. Əksinə, bizim üçün böyük problemlər yaratdı. İndi bəziləri unudub, vaxtilə elektrik enerjisinin qıtlığına görə gecə saatlarında televiziya kanalları söndürülürdü. Bakının enerji təminatı tamamilə bərbad vəziyyətə düşmüşdü. Bakının enerji təminatını inhisara götürmüş «Barmek» şirkəti enerji təsərrüfatını tamamilə sıradan çıxarmışdı. İndi bir çoxları o dövrü unudub. Mən bunu yaxşı xatırlayıram ki, məhz mənim göstərişimlə və sərəncamımla xarici iş adamlarının yarıtmaz fəaliyyəti geniş təhlil edildi. Bakının enerji təminatı yenə dövlətə qaytarıldı və «Azərişıq» yaradıldı. «Azərişıq» Səhmdar Cəmiyyətinin adını da mən vermişəm. O gündən bu günə qədər dövlət bu sahəyə böyük vəsait ayıraraq, ciddi dönüş yarada bilib. Bu gün Azərbaycanda enerji dayanıqlılığı tam təmin edilir.

Ancaq bütün bu müsbət məqamlara baxmayaraq, böyük çatışmazlıqlar, böyük qüsurlar da olubdur. Əgər bunlar olmasaydı, 2018-ci ildə biz o qəza ilə üz-üzə qalmazdıq. Qəzadan sonra aparılmış təhlil işləri göstərdi ki, bu, sırf səhlənkarlıq, məsuliyyətsizlik nəticəsində baş vermişdir. Mənə şəkillərlə, sübutlarla böyük məruzə

edildi, bizim Mingəçevir İstilik Elektrik Stansiyası necə bərbad gündə idi. Adam o şəkillərə baxanda dəhşətə gəlirdi. Bu qədər səhlənkarlıq, bu qədər məsuliyyətsizlik olarmı? Ona görə «Azərenerji»nin rəhbərliyi tamamilə dəyişdirildi.

Mingəçevir İstilik Elektrik Stansiyasının 5 bloku əsaslı təmir edildi, demək olar ki, yenidən quruldu və itirilmiş güclər bərpa olundu. Biz təqribən 400 meqavatlıq itirilmiş gücləri bərpa etdik. Yəni bizim mövcud elektrik stansiyaları məhz məsuliyyətsizlik və qeyri-peşəkar hərəkətlərə görə o gücü itirmişdi. Biz yeni stansiya tikmədən təmir işləri nəticəsində 400 meqavat gücü bərpa etdik. Mingəçevir İstilik Elektrik Stansiyasının qalan 3 blokunda 2020-ci ildə yenidən qurulma işləri aparılacaq və əlavə enerji, generasiya gücü əldə ediləcəkdir.

Bununla paralel olaraq, 2019-cu ildə 400 meqavat gücündə «Şimal-2» Elektrik Stansiyası istifadəyə verilib. Bu da enerji potensialımızı yüksək dərəcədə gücləndirən amildir. Eyni zamanda, biz indi bərpa olunan enerji növlərinin yaradılması ilə ciddi məşğuluq. Artıq 50 meqavatlıq Külək Elektrik Stansiyası fəaliyyət göstərir. Hazırda özəl şirkətlər, xarici şirkətlər bu sahəyə böyük maraq göstərir, yüz milyonlarla dollar səviyyəsində investisiya yatırmaq istəyirlər və biz bunu yüksək qiymətləndiririk.

Beləliklə, növbəti illərdə bizim artan tələbatımızı ödəmək üçün həm yeni stansiyalar qurulmalıdır, həm elektrik enerjisini təmin edən mövcud qurğular təftiş edilməlidir, həm də yeni yarımstansiyalar inşa olunmalı

və təmir edilməlidir. Biz bütün bu işləri görürük və ardıcıl şəkildə görəcəyik. «Azərişıq» da öz işində ən müasir prinsipləri rəhbər tutmalıdır. Bizim bütün enerji təsərrüfatımız yüksək standartlara cavab verməlidir. Generasiyadan başlamış son nöqtəyə – vətəndaşların mənzilinə qədər elektrik enerjisi dayanıqlı şəkildə təmin edilməlidir.

Mən bölgələrə çoxsaylı səfərlərim çərçivəsində bir sıra elektrik stansiyaların, yarımstansiyaların açılışında iştirak etmişəm. Hər zaman maraqlanıram ki, rayonlarda elektrik enerjisi ilə bağlı vəziyyət necədir. Son illər bu sahədə çox böyük dönüş var və bu proses davam etdiriləcək. Hələ ki, təmirə ehtiyacı olan enerji infrastrukturumuz vardır. Biz bu məsələləri ardıcıl şəkildə həll edəcəyik ki, bu sahədə heç bir problem olmasın.

Ölkəmizdə əhalinin və sənaye potensialının artımı diktə edir ki, bu sahə daim diqqət mərkəzində olsun. Odur ki, mən Prezident kimi fəaliyyətə başlayanda infrastruktur layihələri arasında ilk növbədə, məhz bu sahəyə böyük diqqət göstərildi. Mənim göstərişimlə və nəzarətim altında bölgələrdə bir neçə elektrik stansiyası tikildi. Biz «Xaçmaz», «Şahdağ», «Astara», «Şəki», «Bakı» stansiyalarını tikdik ki, hər bir bölgədə güc mövcud olsun və artırılsın. Şirvan şəhərində 800 meqavata yaxın generasiya gücü olan «Cənub» Elektrik Stansiyası tikildi. «Şimal-1», «Şimal-2» elektrik stansiyaları istifadəyə verildi. Bütün bunlar böyük zəhmət, uzaqgörənlik tələb edir. Biz vaxtilə idxaldan asılı idik. İndi isə biz özümüzü elektrik enerjisi ilə təmin edir

və ixrac da edirik. İxrac o təqdirdə edilə bilər ki, daxili tələbat tam ödənilsin. Biz buna nail olmuşuq.

Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu bu sahədə görülmüş işlərə çox yüksək qiymət veribdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Forumu Azərbaycanı MDB məkanında 1-ci yerə layiq görüb, dünya miqyasında isə 2-ci yerdəyik. Biz bu göstəriciyə görə ən inkişaf etmiş ölkələri qabaqlamışıq. Elektrik enerjisinin istehsalının və paylanmasının əsas məqsədi onun müəssisəyə və vətəndaşa çatdırılmasıdır. Əlçatanlıq bu deməkdir. Yəni ki, insanların, müəssisələrin enerjiyə əli çatır və bu əmsala görə biz dünyada 2-ci yerdəyik. Bax, budur bizim gördüyümüz işlərin nəticəsi. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənə bilmərik. Həm «Azərenerji», həm də «Azərişıq» qarşısında çox böyük vəzifələr qoyulub. Əminəm ki, bu vəzifələr ardıcıllıqla icra ediləcək və beləliklə, elektrik enerjisi ilə təminat daim yüksək səviyyədə olacaqdır.

**Vüqar Əhmədov:** Cənab Prezident, mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Çalışacağam bu yüksək etimadı öz işlərimlə doğruldum.

Cənab Prezident, Sizin digər sahələrdə olduğu kimi, elektroenergetika sahəsində gördüyünüz işlər də hər kəsin gözü önündədir. Qeyd etdiyiniz kimi, 4 il bundan əvvəl yaradılmış «Azərişıq» Səhmdar Cəmiyyəti Sizin sayənizdə irimiqyaslı işlər görübdür. Bu gün «Azərişıq» Səhmdar Cəmiyyəti istehlakçıları fasiləsiz elektrik enerjisi ilə 100 faiz təmin edir. Bu günədək 70-dən artıq 110 kilovoltluq və təqribən 300-dən çox 35 kilovoltluq

yarımstansiya tikilib və ya əsaslı təmir edilibdir. İndiyədək 1 milyon 200 mindən çox yeni sayğac quraşdırılıb ki, bu da itkilərin qarşısının alınmasında mühüm rol oynayıb. Şəbəkənin qoyuluş gücü 9000 meqavatamperdən 13 min meqavatamperə çatdırılıb. Baş verən qəzaların aradan qaldırılması üçün məsafədən idarə olunan 4 avtomatik idarəetmə mərkəzi yaradılıb. Yığım 95 faizə çatdırılıb, «Azərenerji»yə ödənişlər 100 faiz təmin edilibdir.

Hazırda 56 rayonun paylayıcı elektrik şəbəkəsi üzrə 13500-dən artıq transformator məntəqəsinin yenisi ilə əvəz olunması işləri davam etdirilir.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu sahədə doğrudan da çox işlər görülüb, o cümlədən vaxtilə böyük problemə çevrilmiş ödəmələr məsələsi. İndi bu problem mövcud deyil. Siz «Azərenerji»yə enerji pulunu 100 faiz ödəyirsiniz və yığım da 95 faizdir, bu da hesab edirəm ki, yaxşı nəticədir.

Əlbəttə ki, gələcəkdə xüsusilə ucqar dağ kəndlərində enerji təsərrüfatına böyük diqqət göstərilməlidir. Çünki biz, demək olar ki, bütün şəhərlərdə artıq yeni yarımstansiyaların, transformatorların quraşdırılması nəticəsində problemi həll etmişik, ancaq bəzi kəndlərdə dirəklər köhnədən qalıbdır. Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır. Onları müasir dirəklərə dəyişdirmək üçün əlavə tədbirlər görülməlidir. Paylayıcı xətlər indi tamamilə yenilənibdir. Ona görə enerji təminatını indiki səviyyədə saxlamaq üçün, əlbəttə, biz daim fəal olmalıyıq və «Azərişıq» daim bu işlərə diqqət yetirməlidir. Çünki bizim tələbatımız

artır. Baxın, 2019-cu ildə qeyri-neft sənayemiz 14 faiz artıbdır. Deməli, əlavə enerji gücü lazımdır. Hesab edirəm ki, şəbəkəyə qoşulma bizdə yüksək səviyyədə təmin olunur. Bəzi ölkələrdə bu, böyük problemə çevrilir və açılan müəssisələr ümumi şəbəkəyə qoşula bilmir. Bizdə isə bu problem yoxdur. Ancaq tələbat artır, əhali artır və artacaqdır. İndi əhali 10 milyona çatıb. İllər keçdikcə bu göstərici 11 milyona, 12 milyona çatacaqdır. Şəbəkəmiz buna hazır olmalıdır. Biz böyük vəsait ayırırıq ki, generasiya güclərini tamamilə təzələyək. Biz indi profisitlə çalışırıq. Gərək generasiya güclərini daim elə vəziyyətdə saxlayaq ki, Azərbaycanda heç vaxt qıtlıq olmasın. Əlbəttə, enerji təsərrüfatını normal vəziyyətdə saxlamaq üçün bütün istismar qaydaları gərək yüksək səviyyədə təmin edilsin. 2018-ci ildə baş vermiş qəza böyük dərs olmalıdır. Bu qəzadan sonra görülmüş tədbirlər öz nəticəsini verməkdədir. Biz yarımstansiyaların dairəvi qaydada birləşdirilməsi nəticəsində özümüzü qəzalardan, qəzaların fəsadlarından qoruyuruq. Qəza hər bir ölkədə baş verə bilər. Ancaq əsas məsələ ondadır ki, bu qəzanın fəsadları qısa müddət ərzində aradan qaldırılsın. Bu dairəvi sistemi biz ona görə yaratmışıq ki, enerji təminatını qısa müddət ərzində təşkil edə bilək. Sizə uğurlar arzulayıram. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

## DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ANAR QULİYEV İLƏ GÖRÜŞ

*8 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar Anar Quliyevi qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən sizi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin edirəm. Siz hazırda sədrin birinci müavini vəzifəsində çalışırsınız. Bu sizə göstərilən böyük etimad və sizin üçün böyük məsuliyyətdir. Çünki mənim tapşırığımla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda bu Komitənin şəhərsalma və memarlıq prinsiplərinin müasir əsaslarla təşkil edilməsində xüsusi rolu və əhəmiyyəti vardır.

Bakı çar Rusiyası və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, sənayenin genişmiqyaslı inkişafı şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsir göstərmişdir. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidən qurulma və abadlıq işlərinə start verildi. Vəzifə isə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna da nail oluruq. Bu gün

həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz ilk növbədə, Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturu yaradılıbdır.

Balaxanı zibilxanası digər tərəfdən, şəhərimizin havasını çirkləndirirdi. Onilliklər ərzində biz bu acı reallıqla üz-üzə qalmışdıq. Orada yandırılan zibilin tüstüsü bütün şəhərimizin səmasını zəhər kimi bürüyürdü. Biz oranı da təmizlədik, müasir Zibilyandırma zavodu, poliqon tikilibdir. Çoxdandır ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi təşkil edilib və artıq bu zona ekoloji təmiz zonaya çevrilibdir. O əraziyə bitişik olan Böyükşor gölünün təmizlənməsi layihəsi də çox böyük əhəmiyyət daşıyır. Ora da vaxtilə ekoloji fəlakət zonası idi. Çünki sovet vaxtında oraya həm kanalizasiya, həm də lay suları axıdılırdı, eyni zamanda, oradan açıq səma altında neft anbarı kimi istifadə olunurdu.

Böyükşor gölünün birinci hissəsinin təmizlənməsi, hesab edirəm ki, şəhər üçün tarixi hadisədir. Hazırda orada 1 kilometr uzunluğunda bulvar salınıb və artıq gölə quşlar da qonurlar. Bu da onu göstərir ki, təmizlik tam təmin edilibdir. Mən digər sahələri də sadalaya bilərəm, onlardan biri də «Qara şəhər»dir. İndi bəzilərinin

yadından çıxır ki, biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz «Qara şəhər»i «Ağ şəhər»ə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. «Qara şəhər»i ləğv edib onun yerində ekoloji təmiz «Ağ şəhər» yaratmaq bizim növbəti tarixi xidmətimizdir.

«Sovetski» adlandırılan ərazidə yaşayış çox ağır idi. Yəni bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı. Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək, oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülmüş işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə, vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir. İndi Bakı bulvarı 15 kilometr uzunluğunda gözəl bir milli parkdır. Vaxtilə uzunluğu cəmi 3 kilometr idi. Orada yerləşən sıradan çıxmış və yarıdağılmış tikililər söküldü, insanlar üçün şərait yaradıldı. Ona görə Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətində ilk növbədə, bu amillər nəzərə alınmalıdır. Vətəndaşların rahatlığı, ekoloji cəhətdən təmiz layihələrin icrası və

şəhərsalma qaydalarına tam riayət edilməsi əsas prinsiplər olmalıdır.

Əfsuslar olsun ki, əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu. Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilirdi. O binalar elə tikilirdi ki, həm ümumi mənzərəyə ziyan vururdu, həm də orada heç bir şəhərsalma əmsalı nəzərdə tutulmurdu. Son vaxtlar mənim göstərişimlə, xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq bu qaydalara riayət edilməyə başlanıldı. Bunu iş adamları da nəzərə almalıdırlar.

Bakı şəhəri bizim tarixi sərvətimizdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Bu qətiyyən olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına, Bakının memarlıq obrazına uyğun şəkildə tikilməlidir. Ona görə bu məsələyə çox böyük diqqət yetirmək lazımdır. Bakı şəhəri bundan sonra ancaq baş plan əsasında inkişaf etməlidir. Baş plana uyğun olmayan heç bir bina Bakıda tikilməməlidir. Komitəyə yeni funksiyalar verilib və Komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları Komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməz. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə

etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq.

Əlbəttə, digər böyük şəhərlərimizdə də buna oxşar proseslər getməlidir, o cümlədən Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan və digər şəhərlərimizin baş planı tərtib edilməlidir. Çünki əhalimiz artır, iqtisadi fəallıq, sənaye artır və artmalıdır. Ona görə növbəti illərdə çox düşünülmüş addımlar atılmalıdır. Biz son illərdə 3200-dən çox məktəb tikmişik. Ancaq hələ də məktəblər var ki, orada uşaqlar 3 növbədə oxuyurlar. Nəyə görə? Çünki əhali artır. Müstəqillik dövründə əhali 3 milyon artıb. İndi bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər. Mən tapşırıq vermişəm və aidiyyəti qurumlar bu işlərlə çox ciddi məşğuldurlar, xüsusilə Abşeron rayonunda – orada böyük problemlər var, 3 növbədə oxuyan uşaqlar var. İndi yeni məktəblər üçün yer axtarırıq və bu da çox ciddi prosesdir.

Yəni artan əhali bütün infrastruktura artan yük deməkdir – həm nəqliyyata, həm sosial infrastruktura, həm də ictimai zonaların fəaliyyətinə. Ona görə siz işləri baş plan əsasında qurarkən mütləq perspektivi də nəzərdə saxlamalısınız, çünki əhalimiz bundan sonra da artacaq.

Artımın da əsas səbəbi iqtisadi inkişafdır. İqtisadi inkişaf olmayan yerlərdə nadir hallarda əhali artır. Amma bizim iqtisadi inkişafımız bundan sonra da dayanıqlı olacaq. Ona görə bütün bu işlər öncədən hesablanmalıdır.

Nəqliyyat infrastrukturuna xüsusi diqqət yetirilməlidir. Son illər ərzində köçürülmələr aparılan bir çox yerlərdə müasir nəqliyyat qovşaqları yaradılır, küçələr genişləndirilir. Yenə də keçmişdə «Sovetski» adlandırılan əraziyə qayıdıram, orada küçələrin eni 2 metrdən çox deyildi. İndi isə geniş xiyabanlar salmışıq, yol hərəkəti nə qədər yüngülləşibdir. Nəqliyyat infrastrukturu təkcə avtomobil yollarından ibarət deyil. İndi bizim şəhərətrafı dəmir yolu nəqliyyatı yeni mərhələyə qədəm qoyur. Bu il artıq dairəvi hərəkət marşrutu da işə düşəcək. Bu da, əlbəttə, avtomobil yollarına düşən yükü azaldacaq. Ona görə şəhərsalma qaydaları, nəqliyyat infrastrukturu, digər kommunikasiyalar, memarlıq prinsipləri, Bakı şəhərinə uyğun memarlıq üslubunun qorunması, ekoloji vəziyyətin yaxşılaşdırılması və digər amillər daim diqqət mərkəzində olmalıdır.

Bir daha demək istəyirəm ki, Bakı şəhəri bizim milli sərvətimizdir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunun iki səbəbi vardır. Birincisi, şəhərin quruluşu, şəhərdə mövcud olan gözəl tarixi memarlıq abidələri, o cümlədən İçərişəhər və şəhərimizin Xəzər dənizi sahilində yerləşməsi. Bu abidələr əsrlərboyu mövcud idi. Ancaq indi bəziləri unudur ki, onların əvvəlki görkəmi necə idi. Qapqara qaralmış, yarıdağılmış, baxımsız, rəngi solmuş binalar və illər boyu o binaların divarlarına hopmuş çöküntülər onların əsl

simasını gizlədirdi. Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən apardıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirdik və tarixi abidələrimizi bərpa etdik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir. Məsələn, Heydər Əliyev Mərkəzi ən mötəbər mətbu orqanların birində dərc edilmiş hesabatda dünyanın ən gözəl 10 binasının sırasında yer alıb. Mənim fikrimcə bu, dünyanın ən gözəl binasıdır. Biz Heydər Əliyev Mərkəzinin timsalında nəinki müasir Bakımızın, bütün Azərbaycanımızın rəmzini görürük. «Alov qüllələri», «Kristal Hol», Xalça Muzeyi, ofis binaları – bütün bunlar Bakının müasir memarlığını təcəssüm etdirir. Əsas vəzifəmiz – mən bu vəzifəni çox ciddi qoymuşdum – ondan ibarət idi ki, biz keçmişlə müasirliyin vəhdətini təşkil etməliyik.

Bəzi tarixi şəhərlərdə müasir binalar o şəhərin simasını korlayır, tarixlə tamamilə uzlaşmır. Amma bizim müasir binalarımız elə gözəl memarlıq üslubunda və elə yerlərdə inşa edilib ki, tarixlə uzlaşır. Məsələn, qədim İçərişəhərdən çıxıb yolu keçərək, müasir bulvara qədəm qoyan hər bir insan sanki keçmişdən bu günə səyahət edir. Yenə də deyirəm, bu, nadir mənzərədir. Şəhər inkişaf etməlidir, böyüməlidir, ancaq çox ciddi şəhərsalma prinsipləri əsasında. Tikintidə mövcud olan əmsallar gözlənilməlidir və bu əmsallar pozulmamalıdır.

Bir müddət bundan öncə ziyalılarla görüşdə Memarlar İttifaqının sədri təklif verdi ki, Bakının mərkəzi rayonu formalaşsın. Mən Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər vermişəm. Sizə də tapşırıram ki, Bakı

Şəhər İcra Hakimiyyəti ilə Memarlar İttifaqı yığışsın və birlikdə təklifləri konkretləşdirsin. Çünki bunun üstündən artıq uzun müddət keçib, ancaq hələ ki, mənə heç bir təklif verilməyib. Mən prinsip etibarilə bu təklifi dəstəkləyirəm. Çünki belə olan halda, mərkəzi rayona uyğun xüsusi mühafizə tədbirləri görülə bilər və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər. O ki qaldı yeni binaların tikintisinə, burada qaydalar daha da sərt olmalıdır.

Bir daha demək istəyirəm ki, Komitənin funksiyaları genişlənir. Mən Komitənin son vaxtlardakı fəaliyyətini yüksək qiymətləndirirəm. Sizin bu vəzifəyə təyin olunmağınızda bu amil əsas rol oynayır. Siz bu məsuliyyəti dərk etməlisiniz. Ölkəmizin hər bir yerində bütün inşaat işləri müasir şəhərsalma qaydalarına uyğun aparılmalıdır.

**A n a r  Q u l i y e v:** Möhtərəm cənab Prezident, ilk növbədə, göstərdiyiniz bu yüksək etimada görə dərin təşəkkürümü bildirirəm. Sizin bu qərarınızı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivinin hər bir üzvünün əməyinə verdiyiniz yüksək qiymət kimi qəbul edirəm. Mənim üçün isə bu, olduqca böyük şərəf və eyni zamanda, daha da böyük məsuliyyətdir.

Sizi əmin edirəm ki, göstərdiyiniz etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Verəcəyiniz göstərişləri yerinə yetirmək üçün Komitənin bütün potensialını səfərbər etməyə çalışacağam.

Cənab Prezident, son müddət ərzində Sizin təşəbbüsünüz və böyük dəstəyinizlə ölkəmizdə şəhərsalma sahəsində ciddi islahatlar həyata keçirilir. Qəbul etdiyiniz

qərarlara, verdiyiniz tapşırıq və göstərişlərə uyğun olaraq, institusional dəyişiklik, quruculuq işləri aparılır. Mütərəqqi beynəlxalq təcrübə öyrənilərək tətbiq edilir, dövlət idarəçiliyinin səmərəliliyi artırılır, yeni şəhərsalma layihələri icra olunur.

Şəhərsalma fəaliyyətinin təşkili Sizin hər zaman xüsusi diqqət mərkəzində saxladığınız məsələlərdən biridir. Şəhərsalma proseslərinin planlı, sistemli, qanunvericiliyin tələblərinə uyğun təşkili Komitə qarşısında qoyduğunuz başlıca vəzifələrdəndir. Həmkarlarımla birgə gündəlik işimizdə bu prinsipləri rəhbər tutmağa çalışırıq.

Mənə göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Öz növbəmdə, rəhbərliyinizlə Azərbaycan Respublikasının şəhərsalma qanunvericiliyinə uyğun olaraq, paytaxt Bakı və digər şəhərlərimizdə rahat, sağlam, təhlükəsiz həyat şəraitinin təmin olunması üçün əlimdən gələni əsirgəməyəcəyimə, Komitənin bu məqsədlə aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlığını davam etdirəcəyinə söz verirəm.

**İlham Əliyev:** Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və dediyim bu prinsiplərə gündəlik işinizdə əməl edəcəksiniz.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehran şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 yanvar 2020-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Prezident!

Tehran şəhəri yaxınlığında Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 yanvar 2020-ci il*

# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI «ACVA POVER» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ MƏHƏMMƏD ABUNAYYAN VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «MASDAR» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU MƏHƏMMƏD JAMEEL ƏL- RAMAHİ İLƏ GÖRÜŞ

*9 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Səudiyyə Ərəbistanı Krallığı «ACWA Power» şirkətinin İdarə Heyətinin sədri Məhəmməd Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkətinin icraçı direktoru Məhəmməd Jameel əl-Ramahini qəbul etmişdir.*

**İlham Əliyev:** Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Sizi enerji sektorunda, xüsusilə bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər olan «ACVA Pover» və «Masdar» ilə bu gün imzalanmış çox mühüm İcra Müqaviləsi münasibətilə təbrik etmək istərdim. Bu müqavilə Azərbaycanda enerji layihələrinin inkişafında yeni səhifə açacaq. Çünki bərpa olunan enerji

bu gün bizim üçün enerji sektorunda əsas prioritetlərdən biridir. Azərbaycan özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və artıq elektrik enerjisini ixrac da edir. Lakin bizim hədəfimiz bərpa olunan enerji sektoruna investorlar cəlb etməkdir və bu İcra Müqaviləsinin əhəmiyyəti ondan ibarətdir ki, külək və Günəş elektrik stansiyaları investorların vəsaiti hesabına tikiləcək. Beləliklə, siz Azərbaycanda işləməyə maraq göstərirsiniz. Biz bunu ölkəmizə, gələcəyimizə olan etimad hesab edirik. Çünki bu çox böyük investisiyadır. Mənə məlumat verildi ki, bu gün İcra Müqaviləsinin imzalanmasından sonra digər müqavilələrin də hazırlanması üçün bir qədər vaxt var və ümidvarıq ki, bu il biz Günəş və külək elektrik stansiyalarının təməlqoyma mərasimində iştirak edəcəyik. Bu bizim üçün çox mühüm layihədir.

Qeyd etdiyim kimi, Azərbaycan elektrik enerjisi sektoruna çoxlu investisiya yatırıb və elektrik xətləri bizi qonşularımızla birləşdirir. Biz elektrik enerjisinin istehsalına çoxlu investisiya yatırmışıq. Bu gün bizim 1000 meqavat əlavə elektrik enerji gücümüz var və biz bunu ixrac edirik, bizim ixrac bazarlarımız vardır. Həmçinin sizə bildirmək istərdim ki, bizim bu sektordakı investisiyalarımız aparıcı beynəlxalq institutlar tərəfindən, xüsusilə Davos Dünya İqtisadi Forumu tərəfindən qeydə alınır. Onlar elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycanı dünyada 2-ci yerə layiq görüblər. Bütün ölkəmiz elektrik xətləri ilə təmin olunub və qeyd etdiyim kimi, bu gün Azərbaycan ixracatçıya çevrilibdir. Həmçinin bu yaxınlarda, bir ay bundan əvvəl

biz tərəfdaşlarımızla birlikdə mühüm qaz kəməri layihəsi olan və artıq Avropa İttifaqının sərhədlərinə çatan TANAP-ı tamamladıq. Biz Günəş və küləkdən nə qədər çox enerji əldə etsək, öz ehtiyaclarımıza və ixrac üçün təbii qaza bir o qədər qənaət edəcəyik. Ona görə də mən bugünkü mərasimə çox böyük əhəmiyyət verirəm. Bu bizim doğru yolda olduğumuzu göstərir. Bu həmçinin onu göstərir ki, Azərbaycan investorlar üçün çox yaxşı şərait yaradıbdır.

Sizin investisiyalarınız yüz milyonlarla dollar məbləğində olacaq. Elektrik enerjisinin ümumi həcmi 440 meqavat olacaq. Bu həqiqətən, Azərbaycanda bərpa olunan enerji baxımından böyük dəyişiklik olacaqdır. Həmçinin şadam ki, bu layihələrdə sizin şirkətləriniz tərəfdaş olaraq seçilibdir. Hesab edirəm ki, bu, gözlənilməz deyil. Çünki mənə məlumat verilib ki, «ACVA Pover»in ümumilikdə 30000 meqavatdan çox elektrik enerjisi var və bərpa olunan enerji sahəsində də 8000 meqavat elektrik enerjisi hasil edir. «Masdar» 4000 meqavat bərpa olunan elektrik enerjisi istehsal edir. Beləliklə, siz bu sahədə çox təcrübəli və aparıcı şirkətlərsiniz. Sizi görməkdən çox məmnunam. Əminəm ki, bizim əməkdaşlığımız uzunmüddətli olacaq, bütün layihələr və texniki məsələlər vaxtında həll ediləcək. Biz bu iki iri layihəni başlayacağıq və bu layihələr Azərbaycana gələcəkdə digər investisiyaları, digər investorları da cəlb etmək imkanı verəcəkdir. Çünki bizim ölkə külək və Günəşlə zəngindir. Bəzən külək hansısa narahatlıq yaradır, lakin eyni zamanda, havanı

təmizləyir. Ancaq indi külək və Günəş bizim enerji istehsalımıza xidmət edəcək və bunun sayəsində daxili istifadə və ixrac üçün çoxlu təbii qaza qənaət olunacaqdır. Bir daha xoş gəlmisiniz və bir daha Azərbaycanda investor olmaq qərarınıza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

**Məhəmməd Abunayyan** *(Səudiyyə Ərəbistanı Krallığı «ACVA Pover» şirkətinin İdarə Heyətinin sədri):* Cənab Prezident, icazə verin, Sizə təşəkkürümü və hökumətimizin, Kralın, vəliəhdin salamlarını çatdırım. Səudiyyə Ərəbistanının hökuməti ilə, bizim rəhbərlərlə artıq qurduğunuz bu möhtəşəm münasibətləri örnək göstərmək olar. Səudiyyə Ərəbistanının şirkətinə göstərdiyiniz etimad sayəsində biz indi Azərbaycanda bərpa olunan enerji ilə bağlı Sizin planlarınızı artıq həyata keçirə biləcəyik. Sərmayələrə, iqtisadi və sosial dəyərlərə gəldikdə, bərpa olunan enerjinin bizim layihələrə cəlb edilməsi nöqteyi-nəzərindən Sizin gözləntilərinizi gerçəkləşdirə biləcəyik. Azərbaycanın resurslarını fərqli enerji generasiyasında istifadə etməyə yönəldəcəyik. Azərbaycan üçün ən yaxşı optimallaşdırılmış iqtisadi həll yoluna nail olmaq üçün yanacaq balansını təkmilləşdirəcəyik. Mən çox şadam və həqiqətən, minnətdaram ki, Siz bizi seçdiniz. Çünki bu, Səudiyyə Ərəbistanı ilə münasibətlərə göstərdiyiniz etimadı əks etdirir. Sizin tətbiq etdiyiniz müfəssəl proqramınız bizə həddən çox müsbət təsir bağışlayıbdır. Prosesdə – texniki, kommersiya, müqavilə proseslərində də ən yaxşı təcrübədən istifadə edilibdir. Bizim digər

ölkələrlə necə işlədiyimizə dair və bərpa olunan enerji proqramlarını necə başlamağımızla bağlı geniş təcrübəmiz vardır. Lakin Azərbaycan nadirliyi ilə seçilir. Çünki siz artıq proqrama başlamısınız. Siz ən yaxşı şirkətləri rəqabət aparmaq üçün çox peşəkar və şəffaf şəkildə cəlb etmisiniz. Siz həmçinin çox nadir rəqabətlilik dəyərləri tətbiq etmisiniz.

Cənab Prezident, bu investisiya bizim yüksək səviyyədə olan siyasi münasibətlərimizə uyğun olacaq. Habelə vəliəhd şahzadəmizin həmişə qeyd etdiyi kimi, siyasi münasibətləri dəstəkləyən güclü iqtisadi əlaqələri də görmək istəyirik. Bu, Səudiyyə Ərəbistanı tərəfindən müxtəlif sahələri əhatə edəcək investisiya qoyuluşunun başlanğıcıdır. Bildiyiniz kimi, bizim münasibətlərimiz yüksək səviyyədədir. Sosial sahəyə gəldikdə, ötən il ərzində Azərbaycanda 100 mindən çox turistimiz olub. Hər il turistlərin sayında 20–30 faiz artım müşahidə olunur. Müsbət məqam ondan ibarətdir ki, bu gün münasibətlərimiz siyasi, sosial sahələrlə yanaşı, həm də iqtisadi sahəni əhatə edir.

Cənab Prezident, biz bu layihələri sizin baxışınızı reallaşdırmaq üçün birlikdə həyata keçiririk. İqtisadi, sosial dəyərlərə gəldikdə isə biz buradakı insanlara təlimlər keçəcəyik, biliklərimizi ötürəcəyik. «ACVA Pover» şirkətində bizim səhmdarlarımız, İdarə Heyətimiz tərəfindən belə qərar qəbul edilib ki, Azərbaycanı region üçün platforma olaraq istifadə edək. Bilirsiniz ki, bu təkcə Azərbaycan üçün deyil.

Bizim ofisimizin aprel ayından burada tam fəaliyyətə başlayacağının səbəbi də budur. Biz insan kapitalının inkişafı üçün təlimlərin keçirilməsi ilə məşğul olacağıq. Çünki Sizin rəhbərliyinizlə bu ölkədə çox böyük insan kapitalı yaranıb və biz bundan beynəlxalq səviyyədə istifadə etməyə çalışacağıq. Bəli, bu bizim Azərbaycanda inkişaf etdirməyə çalışdığımız layihə üçün olacaq. Lakin eyni zamanda, dünya miqyasında rəqabətqabliyyətliliyimizi və potensialımızı artırmaq üçün insan kapitalından istifadə edəcəyik. Biz öhdəliklərimizə sadiqik və mən hökumətimizin salamlarını Sizə çatdırıram. Biz eyni zamanda, bu layihədə sağlamlıq və əməyin təhlükəsizliyi, vaxt, keyfiyyət, etibarlılıq baxımından üzərimizə öhdəlik götürürük.

Bu layihə 200 milyon dollar dəyərindədir. Eyni zamanda, biz burada istər bərpa olunan enerji mənbələri ilə, istərsə də yüksək səmərəliliklə qazın, yanacağın istehsalı ilə bağlı uzunmüddətli əməkdaşlığa sadiqik. Biz burada olmaqdan çox şadıq. Bəli, biz səudiyyəliyik, lakin yerli şirkət kimi fəaliyyət göstəririk və göstərəcəyik. Çünki biz Sizin sistemin, Azərbaycandakı və regiondakı inkişafın bir parçası olmaqdan qürur duyuruq. Sizinlə görüşmək mənim üçün həqiqətən, şərəfdir. Mən çox məmnunam. Sizin iş cədvəlinizin gərgin olduğunu bilirəm. Bu imkanı

bizə yaratdığınız üçün Sizə minnətdaram. Təşəkkür edirəm, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mənim şəxsi salamımı və ən xoş arzularımı əlahəzrət Kral Salmana, vəliəhd şahzadəyə çatdırmağınızı sizdən xahiş edirəm. Qeyd etdiyiniz kimi, Səudiyyə Ərəbistanı və Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və biz çox yaxın dost, tərəfdaş və qardaş ölkələrik. Mən bu əlaqələri qardaşlıq əlaqələri adlandırardım. Biz beynəlxalq institutlarda bir-birimizi dəstəkləyirik.

Biz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan «Qoşulmama Hərəkatı»na sədrliyi qəbul etdi. Biz bu təşkilata 3 il müddətində sədrlik edəcəyik. Sizin və Birləşmiş Ərəb Əmirliklərindən olan dostların dəstəyi ilə bu təşkilatın sədri kimi, çox fəal olmaq, təşkilatın üzvlərini, onların maraqlarını dəstəkləmək və bu qurum daxilində daha güclü vəhdət yaratmaq istəyirik.

Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı əlaqələrə bu gün iqtisadi dəstək lazımdır. Buna görə də biz həmişə iqtisadi əməkdaşlığın siyasi əməkdaşlığın səviyyəsinə çatdırılması barədə danışırıq.

Bu, asan deyil, lakin bu gün biz çox vacib bir addım atdıq. Həqiqətən də bu bir çox digər investorlar üçün yol açır. Onlar «ACVA Pover» və «Masdar»ın burada olduğunu, 100 milyon dollarlıq investisiyalar qoyduğunu, bizim gələcəyimizə etibar etdiyini görəcək və sizin arxanızca gələcəklər. Həmçinin tərəfdaşların seçilməsi prosesində biz artıq bu sahəyə marağın olduğunu gördük. Bu maraqları yaradan bir çox amillər vardır. Birincisi, Azərbaycandakı siyasi sabitlik, proqnozlaşdırma, iqtisadi inkişaf, həmçinin şaxələndirilmiş infrastruktur, ixrac imkanları. Qeyd etdiyim kimi, bu gün biz təkcə neft və qazı deyil, həm də elektrik enerjisini ixrac edirik. Böyük potensial var, xüsusilə bərpa olunan enerji sektorunda.

Beləliklə, bu layihə bizim üçün çox vacibdir. Sizə bu qərarı verdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm. Belə qərarlar hökumətin dəstəyi ilə verilir. Bilirik ki, Səudiyyə Ərəbistanı Hökuməti bu qərarı dəstəkləyir və buna görə çox minnətdarıq. Bu bizim aramızdakı yaxın dostluq əlaqələrimizin daha bir əlamətidir.

**Məhəmməd Jameel əl-Ramahi** *(Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkətinin icraçı direktoru):* Cənab Prezident, icazə verin, hökumətim, Birləşmiş Ərəb Əmirlikləri və «Masdar» şirkətinin səhmdarları adından bizə bu imkanı yaratdığınız üçün Sizə təşəkkür edim. Karbonsuzlaşdırma dövrü

istiqamətində planlarınızda iştirak etmək, onları dəstəkləmək öhdəliyini üzərimizə götürmüşük. Dünyanın gələcəyi karbonsuzlaşdırma istiqamətində ənənəvi enerji istehsalı üsullarından asılılığı azaldaraq, daha təmiz gələcəyə doğru gedir. «Masdar» şirkəti olaraq, biz diqqətimizi dayanıqlı şəhər icmalarına, bərpa olunan enerji və gələcək texnologiyalara yönəldirik.

Cənab Prezident, bu prosesdə iştirak etmək və Sizin tərəfinizdən seçilmək böyük şərəfdir. Bilirik ki, Sizin dəstəyiniz, aydın təlimatınız olmasaydı, biz burada önünüzdə əyləşməyəcəkdik.

Bir daha çox sağ olun, cənab Prezident. Ölkənin və dünyanın qürur duyacağı bir nəticəyə nail olmaq məsələsində bizə etibar edə bilərsiniz, inşallah.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bu gün Azərbaycandakı enerji layihələrinin inkişafında yeni bir mərhələyə şahidlik edirik. Bu ili – 2020-ci ili belə bir mühüm hadisə ilə başlamaqdan çox məmnunam. Bunun yaxşı gələcəyi olacaq, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır. Səudiyyə Ərəbistanından olan turist qonaqları qeyd etdiniz. Zənnimcə, Birləşmiş Ərəb Əmirliklərindən olan turistlərin sayı da buna bərabərdir. Bu sadəcə, turistlərə təklif etdiklərimizlə bağlı deyil. Bunun səbəbi insanların

burada özünü rahat hiss etməsidir. Sizin ölkənizə səyahət edən azərbaycanlıların da sayı artır. Azərbaycanlılar sizin ölkənizə, sizin vətəndaşlarınız da Azərbaycana səyahət edərkən özlərini evlərindəki kimi hiss edirlər. Bu İcra Müqaviləsinin imzalanması mərasimi də ölkələrimiz arasındakı əlaqələri gücləndirəcəkdir.

**OMAN SULTANI ƏLAHƏZRƏT HEYTƏM BİN TARİQ ƏL-SƏİDƏ**

Əlahəzrət!

Görkəmli dövlət xadimi, Oman Sultanı əlahəzrət Qabus bin Səidin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə, dost Oman xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 yanvar 2020-ci il*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB SEBASTİAN KURTSA**

Hörmətli cənab Federal Kansler!

Avstriya Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstriya arasındakı dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2020-ci il*

**XORVATİYA RESPUBLİKASININ**
**YENİ SEÇİLMİŞ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZORAN MİLANOVİÇƏ**

Hörmətli cənab Milanoviç!

Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Xorvatiya arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Xorvatiya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *13 yanvar 2020-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA 2019-cu İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

*13 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirmişdir.*

*Dövlət başçısı müşavirədə giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Bu gün biz ötən ilin yekunları haqqında danışacağıq, görüləcək işlər barədə fikir mübadiləsi aparılacaqdır.

Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olubdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilibdir. Azərbaycan sabitlik şəraitində yaşayır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir.

Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını görürdük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması –

bunların hamısı dünyanın, demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, bütünlükdə dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görür. Biz bunu keçən əsrin 90-cı illərinin əvvəllərində öz tariximizdə görmüşük. Azərbaycanda sabitlik pozulmuşdu, ölkə böhran içində idi, böyük itkilərimiz var idi. Amma artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz çox böyük inkişaf yolu keçibdir. Deyə bilərəm ki, ölkəmiz əsrə bərabər inkişaf yolu keçib və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır.

Keçən il bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirildi. Bu tədbirlər ölkəmizin dünyadakı mövqeyini həm əks etdirir, həm də möhkəmləndirir. Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. İl ərzində ölkəmizə həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak etmək üçün 40-dan çox dövlət və hökumət başçısı səfər edib. Eyni zamanda, bizim qonşu dövlətlərin dövlət və hökumət başçıları ilə

çoxsaylı görüşlərim olub və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması, hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi. Eyni zamanda, keçən il Azərbaycana Avropa İttifaqı Şurası Prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri əks etdirir. Səfər bu əlaqələrə böyük töhfə verdi. Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində işləyirik və ümid edirəm ki, bu işlər nəticə verəcəkdir.

Ölkəmizdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçirildi və Azərbaycan bu təşkilata sədrliyi öz üzərinə götürdü. Eyni zamanda, ölkəmizdə «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü keçirildi. Bu Zirvə görüşü çərçivəsində 120 üzv ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata sədrliyi öz üzərinə götürdü. Bu faktı xüsusilə qeyd etmək istəyirəm. Çünki «Qoşulmama Hərəkatı»nda birləşən bəzi ölkələr, belə demək mümkündürsə, bir-biri ilə yola getmir, ölkələr arasında münaqişələr, ixtilaflar vardır. Buna baxmayaraq, bütün ölkələr Azərbaycanın namizədliyini dəstəklədi. Bu bir daha göstərir ki, beynəlxalq arenada bizə olan hörmət və etimad yüksək səviyyədədir.

Dünya Dini Liderlərinin II Zirvə görüşü ölkəmizdə keçirildi. Azərbaycana 70 ölkənin dini liderləri gəldi, bizim reallıqlarımızla tanış oldu və ölkəmizdə dinlərarası,

mədəniyyətlərarası istiqamətdə görülmüş işlərə yüksək qiymət verdilər.

Azərbaycanda UNESKO-nun Dünya İrs Komitəsinin sessiyası keçirildi. Bu da dünya miqyasında çox mötəbər tədbirdir. Bu sessiya çərçivəsində Şəki Xan sarayı, Şəkinin mərkəzi hissəsi UNESKO-nun Dünya irs siyahisina daxil edildi. Hesab edirəm ki, bu çox böyük hadisədir. Çünki bu günə qədər Qobustan, İçərişəhər və Şirvanşahlar sarayı bu mötəbər siyahıya daxil edilmişdi. Hesab edirəm ki, Şəki Xan sarayının bu siyahıda olması həm ədalətlidir, həm də bizim növbəti böyük uğurumuzdur.

Mən bir beynəlxalq tədbirə də diqqət yetirmək istərdim. Bu da keçən il Vaşinqtonda keçirilmiş Dünya Astronavtika Konqresidir. Bu, astronavtika sahəsində ən mötəbər tədbirdir. Bu konqres çərçivəsində Dünya Astronavtika Konqresinin 2022-ci ildə Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edildi. Bu da çox önəmli hadisədir – həm konqresin keçirilməsi böyük hadisədir, eyni zamanda, Bakı ilə bərabər, daha 3 böyük şəhər bu yarışda iştirak edirdi – Rio-de-Janeyro, Sinqapur və Dehli şəhərləri. Bu çətin yarışda Azərbaycan qalib gəldi. Yəni bu bizim gördüyümüz işlərə böyük diqqət və bütövlükdə Azərbaycana göstərilən növbəti etimaddır. Onu da bildirməliyəm ki, təxminən 50 il bundan əvvəl – 1973-cü ildə Sovet İttifaqında cəmi bir dəfə Dünya Astronavtika Konqresi keçirilmişdir. O vaxt Heydər Əliyevin səyləri nəticəsində sovet məkanında bu konqresin keçirilməsi üçün məhz Bakı seçilmişdir.

Təxminən 50 ildən sonra növbəti dəfə bu konqres Bakıda – artıq müstəqil Azərbaycanın paytaxtında keçiriləcəkdir.

Beynəlxalq müstəvidə bir çox önəmli hadisələr baş verib. Sadəcə olaraq, mən əsas məsələlərə diqqət yetirirəm. Artıq dediyim faktlar əyani şəkildə göstərir ki, beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir və keçən il bu mövqelər daha da möhkəmlənibdir.

Bizim hərbi potensialımız da möhkəmlənib. Keçən il bir çox silah, sursat və hərbi texnika alınıb və Azərbaycanda istehsal olunubdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırıbdır.

Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilibdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir. Hesab edirəm ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra edibdir. 2019-cu il iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olubdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salıb, bu, böyük nailiyyətdir. Bu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə 2019-cu il dərin islahatlar ili olub – həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra

daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir.

Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Beləliklə, ümumi daxili məhsul 2,2 faiz artıb, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artıbdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artıbdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır.

Kənd təsərrüfatı təxminən 7 faiz artıbdır. Xüsusilə bitkiçilikdə bu artım daha böyük olub – 10 faizdən çox. Bu da görülmüş işlərin nəticəsidir. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olubdur. Yəni bu onu göstərir ki, əhalinin pul gəlirləri inflyasiyanı üstələyib. Beləliklə, əhalinin real gəlirləri artıbdır. Hesab edirəm ki, bu hər bir ölkə üçün əsas məsələlərdən biridir. Bizim qeyri-neft ixracımız 14 faiz artıb. Bu da çox yaxşı nəticədir. Son illərdə özəl sektorun fəaliyyətinə göstərilən diqqət, güzəştli kreditlərin verilməsi, subsidiyalarla bağlı aparılan islahatlar və digər tədbirlər bu artımı şərtləndiribdir.

Valyuta ehtiyatlarımız isə 6,4 milyard dollar artaraq, rekord həddə – 51 milyard dollara çatıbdır. Bildirməliyəm ki, adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında 1-ci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar

təşkil edir və bu çox gözəl göstəricidir. Deyə bilərəm ki, dünya ölkələrinin mütləq əksəriyyətində xarici ticarət dövriyyəsində mənfi saldo müşahidə olunur, bizdə isə müsbət saldodur. Bu, sözsüz, həm manatın məzənnəsinin sabit vəziyyətdə saxlanılmasına, həm də bütövlükdə makroiqtisadi vəziyyətin sabit olmasına xidmət göstərəcəkdir. Beləliklə, iqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsait daxil edilibdir. Bu öz növbəsində, imkan verdi ki, biz çox geniş sosial paketi əhaliyə təqdim edək və bunu etdik. Hesab edirəm ki, həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Bu bizim bu sahədə birinci təşəbbüsümüz deyil. Yaxşı xatırlayırıq ki, sovet vaxtından qalmış və bir növ dondurulmuş əmanətlərin qaytarılmasında da biz bu əmanətləri vətəndaşlar üçün ən məqbul prinsip əsasında, ən məqbul əmsalla qaytardıq və bu sahədə də MDB məkanında birinci olduq. Ötən il həyata keçirilmiş sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəziləri  2 dəfə artırıldı. Bir sözlə, keçən il aparılmış

islahatlar nəticəsində biz əldə edilmiş əlavə gəlirləri ilk növbədə, məhz sosial sahəyə yönəltdik. Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi, sözümüzün üstündə dururuq. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır.

Əlbəttə, uğurlu iqtisadi siyasət nəticəsində sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilibdir. Məktəblərdən 50-si modul tiplidir. Bu məktəblər kiçik və ucqar kəndlərdə inşa edilib. Bu onu göstərir ki, ölkəmizin hər bir yerində gedən proseslər ümumi inkişafımızın potensialından bəhrələnir.

İnfrastruktur layihələri icra edildi, elektrik enerjisi sahəsində «Şimal-2» Elektrik Stansiyası istismara verildi. Bu stansiyanın istehsal gücü 400 meqavatdır. Bununla paralel olaraq, Mingəçevir İstilik Elektrik Stansiyasında və digər mövcud stansiyalarda aparılmış təmir-bərpa işləri nəticəsində biz təxminən 400 meqavat itirilmiş generasiya gücünü bərpa etdik. Beləliklə, keçən il 800 meqavat əlavə generasiya gücü əldə etdik. Əlbəttə ki, bu həm bizim tələbatımızı tam ödəyir, həm də böyük ixrac imkanımız yaranır. Hazırda bizim tələbatımızdan artıq 1000 meqavat generasiya gücümüz vardır. Elektrik

təsərrüfatının yenilənməsi istiqamətində görülmüş tədbirləri nəzərə alsaq, demək kifayətdir ki, bu istiqamətdə çox ciddi iş aparılıbdır.

Ölkəmizdə qazlaşdırılma 96 faizə çatıb. Qazılmış 345 subartezian quyusu yüzlərlə kəndin su ilə təminatını yaxşılaşdıracaq. Onu da bildirməliyəm ki, bu il 400-dən çox subartezian quyusu qazılacaq. Artıq bütün rayon kəndlərinin adları siyahıda var və biz il ərzində investisiya proqramı çərçivəsində bunu edəcəyik.

Yol tikintisinə gəldikdə, bu il həm magistral, həm də şəhərlərarası, kəndlərarası və qəsəbədaxili yollarla bağlı böyük layihələr icra ediləcək. Bakı–Sumqayıt–Rusiya sərhədi yeni yolun, Gəncə–Gürcüstan sərhədi yolunun, Astara–İran sərhədi yolunun tikintisi nəzərdə tutulubdur. Keçən il 1300  kilometr yol çəkilib. Biz təqribən 1000 kilometr planlaşdırırdıq, ancaq il ərzində Prezidentin ehtiyat fondundan və dövlət büdcəsindən yaranmış əlavə gəlirlər hesabına 1300 kilometr uzunluğunda yol çəkdik.

İnfrastruktur layihələri keçən ilin əvvəlində qəbul edilmiş dördüncü regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Bu, beşillik proqramdır. Bundan əvvəlki üç proqram müvəffəqiyyətlə icra edilib. Əminəm ki, dördüncü proqramın icrasında da heç bir problem olmayacaq. Beləliklə, hesab edirəm ki, proqram başa çatanda artıq bizim bütün infrastruktur layihələrimiz, o cümlədən

sosial infrastrukturla bağlı layihələr öz həllini tapacaqdır.

Keçən ilin əvvəlində Şamaxı, Ağsu, İsmayıllı rayonlarında böyük zəlzələ baş vermişdi. Xoşbəxtlikdən heç bir insan itkisi olmamışdır. Ancaq minlərlə ev dağılmışdı. Zəlzələdən dərhal sonra bölgədə olarkən vətəndaşlara söz verdim ki, qış gələnə qədər bütün evlər yenidən tikiləcək, təmir olunacaq, bərpa ediləcəkdir. Həmişə olduğu kimi, yenə də sözümüzün üstündə durduq və artıq zəlzələnin bütün əsas fəsadları aradan qaldırılıb, minlərlə yeni ev tikilib, təmir olunub, bərpa edilibdir. Bu bir daha göstərir ki, vətəndaşların problemlərinin həlli diqqət mərkəzindədir.

Mən bunu əvvəllər də demişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda mülkiyyətin sığortalanması prosesi ilə bağlı çox böyük maarifləndirmə işləri aparılmalıdır. Vətəndaşlar bilməlidirlər ki, evlər, əmlak sığortalanmalıdır. Nəzərə alsaq ki, Azərbaycanda bu sahədə böyük boşluqlar var, dövlət bütün maliyyə yükünü öz üzərinə götürübdür. Əlbəttə, bu, böyük vəsait tələb edir, ancaq yenə də deyirəm, vətəndaşların rahatlığı, onların rifahı, normal yaşayışı bizim üçün əsas məsələdir. Ancaq hesab edirəm ki, bu il və bundan sonrakı illərdə əmlakın sığortalanması, o cümlədən maarifləndirmə ilə bağlı çox ciddi addımlar atılmalıdır. Bu məsələ ilə bağlı müxtəlif tədbirlər keçirilməli, atılacaq addımlar

haqqında vətəndaşlara ətraflı məlumat verilməlidir. Hökumətə tapşırıram ki, bu məsələyə diqqət yetirsin. Eyni zamanda, bu, ölkəmizin sığorta sektorunun inkişafına da müsbət təsir göstərəcəkdir.

Keçən il TANAP qaz kəməri istismara verildi. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Çünki TANAP «Cənub Qaz Dəhlizi»nin əsas hissəsidir. Məhz 2012-ci ildə TANAP üzrə imzalanmış sazişdən sonra «Şahdəniz-2» qaz-kondensat yatağının işlənilməsi üçün sanksiya verilmişdir. Əgər TANAP imzalanmasaydı, «Şahdəniz-2»nin işlənilməsi başlamayacaqdı və bu gün biz bu əlavə qaz həcmini əldə edə bilməyəcəkdik. Bu, böyük problemlər yarada bilərdi. Ona görə həm TANAP üzrə sazişin imzalanması, həm də bu qaz kəmərinin vaxtından əvvəl istismara verilməsi və nəzərdə tutulmuş vəsaitə çox böyük qənaət edilməsi doğrudan da böyük tarixi nailiyyətimizdir. «Cənub Qaz Dəhlizi»nin qalan dördüncü layihəsi də uğurla icra edilir. TAP layihəsinin icra səviyyəsi 90 faizi keçibdir. Əminəm ki, biz bu il TAP-ın istismara verilməsini də nəzərdə tutulmuş vaxtda qeyd edəcəyik.

Bir məsələni də diqqətə çatdırmaq istəyirəm – görülmüş bütün işlər, o cümlədən beynəlxalq arenadakı mövqelərimiz, bir çox ölkələrlə dostluq münasibətlərimizin qurulması, ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq – bütün bunlar turizmin inkişafına böyük təkan veribdir. Çünki mən dəfələrlə demişəm

ki, turizmin inkişafı yalnız tarixi abidələrlə, yaxud da hansısa diqqəti, marağı cəlb edən məsələlərlə məhdudlaşmır. Bugünkü dünyada elə bir bölgə yoxdur ki, orada problem olmasın, özü də çox ciddi problem. Qeyd etdiyim kimi, müharibələr, qarşıdurmalar, çevrilişlər, kütləvi etirazlar, polis zorakılığı, insan haqlarının tapdalanması – əlbəttə, o ölkələrdə ki, dediyim bütün bu mənzərə mövcuddur, orada turist axını da tənəzzülə uğrayır.

Azərbaycanda mövcud olan sabitlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər turizmin inkişafına xidmət göstərir. Ötən il turist səfərləri rekord həddə çatıb – 3 milyon 170 min xarici qonaq ölkəmizə gəlibdir. Mənə verilən məlumata görə, təkcə bank kartları ilə xarici turistlər Azərbaycanda 1 milyard 260 milyon manat pul xərcləyiblər. Ancaq bütövlükdə nəzərə almalıyıq ki, gələn turistlər əsasən qonşu ölkələrdəndir və bizdə olduğu kimi, orada da hələ ki, nağd hesablaşmalar üstünlük təşkil edir. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda bütövlükdə 4,3 milyard manat pul xərcləyiblər. Mən bunu manatla deyirəm, amma əslində bu valyutadır. Bu valyuta eyni zamanda, bir növ ixrac növüdür. Bizim makroiqtisadi vəziyyətimizin sabit olmasında da bunun çox böyük rolu vardır. Əlbəttə, biz əsas valyutanı neft-qaz satışından qazanırıq. Halbuki qeyri-neft sektorunda ixracın 14 faiz artması indi

bu sektordan da valyuta axınını təmin edir. Turizmin inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır.

Beləliklə, 2019-cu ildə əldə edilmiş uğurlar haqqında saatlarla danışmaq olar. Mən sadəcə olaraq, Azərbaycan vətəndaşlarına əsas hesab etdiyim məsələləri çatdırdım. Bir daha demək istəyirəm ki, biz 2020-ci ildə bu uğurlar yolu ilə gedəcəyik. Əminəm ki, 2020-ci il də ölkəmiz üçün uğurlu olacaqdır.

İndi isə keçək müzakirələrə. Biz keçən il Azərbaycan tarixində həcm baxımından ən böyük dövlət büdcəsini qəbul etmişik. İcmal büdcə 30 milyard manata yaxındır, təqribən 17,6 milyard dollardır. Büdcə xərclərinə nəzarət daha güclü olmalıdır.

* * *

**S a m i r  Ş ə r i f o v** *(Maliyyə naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Respublikasının 2019-cu ildə inamlı inkişafı, ümumi daxili məhsulun artması öz növbəsində, dövlət büdcəsi icrasının göstəricilərində də özünü büruzə verib. Belə ki, 2019-cu ilin dövlət büdcəsinin mədaxil proqnozu 23 milyard 168 milyon manata qarşı 24 milyard 200 milyon manat məbləğində icra olunubdur. Bu isə o deməkdir ki, 1 milyard 32 milyon manat və ya 4,5 faiz artıq mədaxil təmin edilibdir.

Qeyd etməliyəm ki, bu məlumatlar operativ xarakter daşısa da, ümumi meyilləri göstərir. Dövlət büdcə xərclərinin icrası 25 milyard 190 milyon manat proqnoza qarşı 24 milyard 405 milyon manat məbləğində və yaxud 97 faiz səviyyəsində icra edilibdir. Beləliklə, dövlət büdcəsinin 2019-cu ildə kəsiri cəmi 205 milyon manat təşkil edibdir. Bu isə o deməkdir ki, 2018-ci ildə təsdiq olunmuş 2 milyard 22 milyon manat büdcə kəsiri proqnozu 2019-cu il üçün büdcə qəbul edildikdə təxminən 10 faiz az olubdur.

Dövlət büdcə kəsirinin əhəmiyyətli dərəcədə azalması ilk növbədə onunla bağlıdır ki, fiskal orqanları – həm vergi, həm də gömrük orqanları tərəfindən büdcə daxilolmaları üzrə proqnozlar artıqlaması ilə icra edilibdir. Digər tərəfdən isə dövlət büdcə xərclərinin bəzi maddələri üzrə qənaətlər əldə edilibdir. Burada ilk növbədə, Sosial Müdafiə Fondu üzrə transferti qeyd

etmək istərdim. Belə ki, 2019-cu ildə biz dövlət büdcəsinə dürüstləşmə apararkən Dövlət Sosial Müdafiə Fonduna transferti 150 milyon manat azaltmışdıq. İlin nəticələrinə görə isə faktiki olaraq, əlavə transfertə ehtiyac olmadığına görə təxminən 180 milyon manata qədər qənaət əmələ gəlmişdir. Bu da onun hesabına baş vermişdir ki, sosial sığorta haqlarının yığılmasında böyük dönüş yaradılmışdır.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, icmal büdcənin gəlirləri də faktiki olaraq nəzərdə tutulduğundan xeyli çox daxil olub, ümumi daxilolmalarımız daha çox olubdur. İcmal büdcənin gəlirləri 29 milyard 235 milyon manat məbləğində proqnozlaşdırılsa da, faktiki icra 33 milyard 818 milyon manat və yaxud 15,7 faiz artıq, yəni 4 milyard 583 milyon manat çox təşkil edibdir. İcmal büdcənin xərcləri isə 27 milyard 371 milyon manata qarşı 26 milyard 476 milyon manat məbləğində və yaxud 97 faizə yaxın icra edilibdir. Nəticədə icmal büdcədə də profisit yaranıbdır. Profisit 7 milyard 343 milyon manat məbləğində olubdur. Bu da proqnozlaşdırılan kəsirlə müqayisədə təxminən 4 dəfə çoxdur. Yəni nəzərdə tutulmuş profisit 1,8 milyard manat məbləğində proqnozlaşdırılırdı, amma bundan təxminən 4 dəfə çox oldu. Bu da nəticə etibarilə ilk növbədə, Dövlət Neft Fondunun gəlirlərinin artımı hesabına baş veribdir. Bu artım da əsasən, iki istiqamətə bölünə bilər. İlk növbədə, neftin büdcədə nəzərdə tutulmuş qiymətinin faktiki qiymətlə müqayisədə az olması, yəni büdcədə 60 dollarlıq qiymət nəzərdə tutulmuşdusa, Neft Fondunun mədaxil üçün orta illik qiymət təqribən 64–65 dollar

arasında göstərilir. Amma ötən il əhəmiyyətli dərəcədə artım daha çox Neft Fondunun vəsaitlərinin idarə edilməsindən əldə olunmuş gəlirlərində baş vermişdir. Nəzərdə tutulan 1,4 milyard manat mədaxilə qarşı 3,5 milyard manatdan yuxarı mədaxil, yəni 2 milyard manat artıq vəsait toplanıb. Eyni zamanda, icmal büdcə profisitinin digər səbəbi də dövlət büdcəsində kəsirin olmaması ilə əlaqədardır.

Bu amillər Azərbaycanın maliyyə mövqeyinin daha da möhkəmlənməsi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizin maliyyə mövqeyinin möhkəmləndirilməsi istiqamətində aparılan ardıcıl siyasətin nəticəsinin müsbət göstəriciləridir.

Qeyd etmək istərdim ki, 2019-cu ildə dövlət büdcəsinin xərclərində də əhəmiyyətli dəyişikliklər baş veribdir. İlk növbədə, ona görə ki, xərclərin strukturunda müəyyən dəyişikliklər olubdur. Bu da onunla bağlıdır ki, möhtərəm cənab Prezident, Sizin sosial sahədə apardığınız siyasətin nəticəsi olaraq, il ərzində minimum əməkhaqqı 2 dəfə artırılaraq, onun maliyyə təminatı təşkil edilibdir. Pensiyanın minimum məbləği də artırılıbdır. Həmçinin sosial müavinətlərin də əhəmiyyətli artımı baş veribdir. Bu tədbirlər 2019-cu ilin dövlət büdcəsi çərçivəsində hər hansı bir dürüstləşmə aparılmadan tam təmin edilib. Bu da dövlətin bu sahədə olan siyasətini və prioritetlərini açıq şəkildə büruzə verir.

Hesab edirəm ki, 2019-cu ilin büdcəsində vacib elementlərdən biri də, cənab Prezident, Sizin humanist fərmanınızla bağlı idi. Bu isə fiziki şəxslərin problemli kreditlərinin həll edilməsi məsələsidir. Bu məsələ ilə

əlaqədar 2019-cu ilin dövlət büdcəsində əhəmiyyətli tədbirlər həyata keçirildi və 640 milyon manat məbləğində vəsait dövlət büdcəsindən Mərkəzi Banka müvafiq bankların hesablarına köçürülməsi üçün təmin edildi. Bunun hesabına 593 min fiziki şəxs əziyyət çəkdiyi kreditlərlə əlaqədar dövlətdən faktiki olaraq, böyük bir yardım aldı. Bununla yanaşı, Sizin fərmanınızla nəzərdə tutulmuş fiziki şəxslərin problemli kreditlərinin həlli istiqamətində vacib addım manat ifadəsi ilə verilmiş kreditlərin ödəmə müddətinin 5 ilədək uzadılması və eyni zamanda, faiz dərəcəsinin 1 faiz səviyyəsində müəyyən edilməsi idi. Bununla bağlı 214,5 milyon manat məbləğində verilmiş kreditlər Mərkəzi Bank tərəfindən Maliyyə Nazirliyinin dövlət zəmanəti ilə təmin edildi. Beləliklə, bu da dövlətin həyata keçirdiyi sosial siyasətin digər bir vacib elementidir.

Möhtərəm cənab Prezident, onu da qeyd etmək istərdim ki, dövlət büdcəsi qarşısında duran bütün vəzifə və funksiyalar – həm müdafiə, həm milli təhlükəsizlik, həm də sosial, mədəniyyət, idman sahələrində bütün beynəlxalq tədbirlərin tam ahəngdar maliyyələşdirilməsi həyata keçirilib. Xəzinədarlıq orqanları tərəfindən ilk növbədə, sosial ödənişlərin vaxtında icrası tam təmin olunubdur. 2020-ci ilin dövlət büdcəsinin hazırlanması ilə əlaqədar da müvafiq tədbirlər görülübdür. Artıq bu, büdcə tərəfinizdən imzalanıb və bu da Azərbaycan tarixində xərc baxımından ən böyük büdcədir. Bu büdcənin icrası üçün lazımi səviyyədə tədbirlər həyata keçiriləcəkdir.

**İlham Əliyev:** Xarici borcun azaldılması üçün nə qədər vəsait nəzərdə tutulub?

**Samir Şərifov:** Dövlət borcunun uzunmüddətli idarə edilməsi ilə bağlı Sizin müəyyənləşdirdiyiniz strategiyaya uyğun olaraq, müvafiq tədbirlər həyata keçirilməkdədir. Hazırda bizim birbaşa götürdüyümüz xarici dövlət borcumuz 17,2 faiz təşkil edir.

**İlham Əliyev**: Yəni bu il nə qədər vəsait nəzərdə tutulub?

**Samir Şərifov:** Bu il 1,7 milyard manat məbləğində.

**İlham Əliyev:** Onda hansı səviyyəyə düşəcək?

**Samir Şərifov:** Cənab Prezident, biz bu il bəzi tədbirlər görməyi nəzərdə tuturuq. Sizə məruzə olunduğu kimi, bəzi daha bahalı borcları daha ucuz borclarla əvəz etmək istəyirik. Bununla əlaqədar bəzi tədbirlər 2019-cu ildə görülüb, 2020-ci ildə də görüləcəkdir. Biz çalışacağıq ki, xarici dövlət borcumuz təxminən 1 faiz azalsın.

**İlham Əliyev:** Çalışın ki, daha da ensin.

**Samir Şərifov:** Şübhəsiz ki, ümumi daxili məhsuldan da daxil olacaq. Burada bir məsələ də var, cənab Prezident, sırf texniki məsələ də olsa, ümumi daxili

məhsulumuzun manatla ifadəsində praktiki olaraq, inflyasiyanın səviyyəsi deflyator rolunu oynayır. Ona görə biz onu dollara keçirəndə müəyyən təsirlər olur. Odur ki, nisbət baxımından burada çox böyük əhəmiyyətli azalma olmayacaq.

**İlham Əliyev:** İndi bizim xarici dövlət borcumuz onsuz da çox aşağı səviyyədədir, 17 faiz ətrafında və bu il bu göstərici daha da düşəcək. Ancaq bizim maliyyə imkanımız var ki, tez bir zamanda xarici borcumuzu daha da endirək. Çünki qeyd etdiyim kimi, təkcə keçən il 6,4 milyard dollar əlavə vəsait qazanmışıq. Bu il də neftin qiyməti təqribən 65 dollar səviyyəsindədir. Bizim büdcəmizdə isə neftin qiyməti 55 dollar götürülübdür. Biz neftin qiymətini çox konservativ, yəni aşağı səviyyədə nəzərdə tutduq. Buna baxmayaraq, büdcəmiz rekord həddə çatıb. Əminəm ki, bu il bizə böyük əlavə xarici valyuta axını olacaqdır. Ona görə nisbətən yüksək faizlə götürülmüş borcları həm aşağı faizlə götürüləcək borclarla əvəzləmək olar, eyni zamanda, kreditorlarla danışıqlar aparıla bilər ki, biz bu borcları vaxtından əvvəl qaytaraq. Hesab edirəm ki, xarici dövlət borcu nə qədər aşağı olsa, bir o qədər yaxşıdır. Bir də ki, biz indi xarici kreditləri çox böyük ehtiyatla alırıq. Yalnız texnoloji layihələrin həyata keçirilməsi üçün kreditlər alına bilər. Yoxsa əvvəlki illərdə yol tikintisinə və bəzi tikintilərə kreditlər götürülürdü. Bunun heç bir əsası yoxdur. Çünki görülən bu işlər dollar tutumlu işlər deyil. Ona görə hökumətə kreditlərlə bağlı bir daha tapşırıq verirəm ki, çox ehtiyatla davransınlar. Bizim əslində xarici kreditlərə

ehtiyacımız yoxdur. Biz indi özümüz kreditoruq. Beynəlxalq İnkişaf Agentliyinin hesabatında da Azərbaycan donor ölkə kimi tanınır. O ki qaldı Dövlət Neft Fondunun əlavə vəsait qazanmasına, əlbəttə, bu çox müsbət haldır. İdarəetmədən daha çox pul qazanılıb. Ancaq yenə də Dövlət Neft Fondunun strategiyası ondan ibarət olmalıdır ki, biz pulumuzu az riskli instrumentlərə yatıraq. Çünki bizim əsas məqsədimiz bu vəsaiti qorumaqdır. Əlbəttə ki, məbləğ artdıqca, qazanc da artacaq. Əminəm ki, Neft Fondunun idarəetmədən əldə olunacaq gəlirləri ildən-ilə artacaq. Biz valyuta ehtiyatlarımızı bundan sonra da artıracağıq. Hətta ən çətin illərdə – 2015-ci, 2016-cı, 2017-ci illərdə belə, biz valyuta ehtiyatlarımızı qoruya və artıra bilmişik.

Bizim xarici ticarət əlaqələrimiz artır. Ticarət dövriyyəsində qeyri-neft ixracının 14 faiz artması bilavasitə bu fəaliyyətlə bağlıdır. Bir çox ölkələrdə bizim ikitərəfli hökumətlərarası birgə komissiyalarımız fəaliyyət göstərir. Biz bir neçə ölkədə Azərbaycan Ticarət evlərini yaratmışıq. Baş Nazirin müavini Şahin Mustafayev bir çox ikitərəfli komissiyalara rəhbərlik edir, o cümlədən qonşu ölkələrlə – Rusiya ilə, İranla, həmçinin bizim əsas ticarət tərəfdaşımız Çin ilə. Bu il bu istiqamətdə hansı işlər görülməlidir? Bu barədə məlumat verin. Mən hökumətə tapşırıq vermişdim – hökumətlərarası birgə komissiyaların bizim üçün əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan məhsullarını o ölkələrə ixrac etmək məqsədilə yerli şirkətlərin xarici ölkələrdə fəaliyyəti, tenderlərdə iştirakı üçün yeni imkanlar araşdırsın, eyni zamanda, bir çox ölkələrdə biz bu istiqamətdə

kontraktları da icra edə biləк. Keçən illə bağlı qısa məlumat verin.

**Şahin Mustafayev** *(Baş Nazirin müavini):* Möhtərəm cənab Prezident, qeyd etdiyiniz kimi, əsas ticarət tərəfdaşlarımızla aparılan işlər nəticəsində keçən il uğurlu göstəricilər əldə edilibdir. İlk növbədə, bu iş yaxın qonşu ölkələrlə çox sıx əlaqədə həyata keçirilib, qeyri-neft ixracında 14 faizlik artım məhz bu işlərin nəticəsində əldə olunubdur. İlk növbədə, Rusiya Federasiyası bizim qeyri-neft ixracı üzrə əsas ticarət tərəfdaşımızdır. Sizin göstərişiniz əsasında Rusiya Federasiyasında Azərbaycanın ilk ticarət nümayəndəliyi yaradılıb və artıq 2 ildən çoxdur fəaliyyət göstərir. Rusiya Federasiyasında Ticarət və Şərab evlərinin açılması baş tutubdur. Eyni zamanda, Sizin tərəfinizdən hökumətlərarası birgə Komissiya çərçivəsində ölkələr arasında əlaqələrin inkişafını əks etdirən «Yol Xəritəsi» təsdiq olunubdur. «Yol Xəritəsi»ndə də, «Yol Xəritəsi»nin əlavəsi olan tədbirlər planında da ölkələr arasında əsasən ticarət dövriyyəsinin artırılması istiqamətində atılan addımlar bir-bir qeyd olunubdur. Rusiya Federasiyası ilə ticarət dövriyyəsi keçən ilin 11 ayının nəticələrinə görə 20 faizə qədər idi, əminəm ki, illik nəticələr elan olunanda təxminən o səviyyədə də qalacaqdır. Qeyd etdiyim «Yol Xəritəsi»ndə bu ölkə ilə ticarət dövriyyəsinin yüksəldilməsi istiqamətində, həmçinin ölkələrarası, strukturlararası elektron mübadilə, aparılan prosedurların sadələşdirilməsi, infrastruktur təminatının yaxşılaşdırılması kimi tədbirlər nəzərdə tutulmuşdur.

Sizin tapşırığınız əsasında Rusiya Federasiyası ilə yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində keçən il önəmli illərdən biri oldu. Keçən ilin sonunda çoxdan gözlənilən Samur çayı üzərində yeni körpünün inşası başa çatdırıldı, açılışı baş tutdu. Hesab edirəm ki, bu infrastruktur layihəsinin icra olunması iki ölkə arasında ticarət mübadiləsinə çox ciddi müsbət təsir göstərəcəkdir. Eyni zamanda, hökumətlərarası birgə Komissiya çərçivəsində yeni infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində işlər aparılır. Rusiya Federasiyası ilə bizim 3 sərhəd-keçid məntəqəmiz vardır. Biz bu il və gələn illərdə o yeni sərhəd-keçid məntəqələrində də infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində işlər aparacağıq. Həmçinin Siz qeyd etdiyiniz kimi, turizmin inkişafı baxımından Rusiya Federasiyasından gələn turistlərin sayı önəmli dərəcədə artıbdır. Sizin tapşırığınızla məhz nağdsız əməliyyatların həyata keçirilməsinin artırılması baxımından Rusiya Federasiyasının «Mir» sisteminin Azərbaycanda tətbiqi məsələsi öyrənilir və yaxın gələcəkdə bizim iqtisadiyyata və ölkəmizin maraqlarına uyğun gələrsə, bu sistemin də tətbiqi baş tutacaqdır. Bunun nəticəsində turizm imkanlarının, eyni zamanda, Azərbaycana valyuta daxilolmalarının artımı da gözlənilir.

Çinlə əlaqələr baxımından keçən il uğurlu il olubdur. Siz Çində «Bir kəmər – bir yol» Beynəlxalq konfransında iştirak etmisiniz. Siz bu konfrans çərçivəsində Çinin lideri ilə görüş keçirmisiniz. Bu görüşdə 10-a yaxın sənəd imzalanıbdır. Elə görüş çərçivəsində 800 milyon dollar həcmində kontraktlar imzalanıbdır. O

kontraktların icrasına başlanılıbdır. Azərbaycanın Çinə ixracında artıq əvvəlki illərə nisbətən artımın müsbət dinamikası müşahidə olunur. Çində bir neçə Ticarət və Şərab Evi açılıbdır. Biz düşünürük ki, Çin bazarı Azərbaycanın emal olunmuş kənd təsərrüfatı məhsulları üçün müsbət rol oynaya bilər. Çinlə ticarət əlaqələrinin inkişafı baxımından bu işlərin davam etdirilməsi zəruri hesab olunur və tərəfinizdən lazımi göstərişlər verilibdir. Eyni zamanda, qeyd etməliyəm ki, Çində Sizin tapşırığınızla ikinci ticarət nümayəndəliyi fəaliyyət göstərir. Ticarət nümayəndəliyinin fəaliyyəti nəticəsində qeyri-neft ixracı və ticarət dövriyyəsinin artımında önəmli nəticələr əldə olunubdur. Çinlə əməkdaşlığa gəldikdə isə, bir sıra istiqamətlərdə də əlaqələr inkişaf edir, o cümlədən nəqliyyat, logistika sektorunda uğurlar əldə olunub. Artıq Çindən konteyner qatarların Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən Türkiyə ərazisinə keçidi təmin olunur. Əminəm ki, bu istiqamətdə görülən işlər gələcəkdə böyük uğurlara gətirib çıxaracaqdır.

Qonşu İranla da ticarət dövriyyəmizdə və ümumiyyətlə, digər sahələrdə önəmli nəticələr əldə olunubdur. İranla ticarət dövriyyəsində 30 faizdən yuxarı artım vardır. Ümumilikdə Siz çıxışınızın əvvəlində qeyd etdiyiniz kimi, dünyada gedən proseslər, bölgədə olan mürəkkəb vəziyyət və digər problemlər fonunda bu nəticələrin əldə olunması, doğrudan da Azərbaycan üçün böyük nailiyyətdir və apardığınız siyasətin bariz göstəricisidir. Eyni zamanda, Azərbaycan Rusiya və İran vasitəsilə Şimal–Cənub nəqliyyat dəhlizinin inkişaf

etdirilməsi istiqamətində önəmli işlər həyata keçirir. Siz qeyd etdiyiniz kimi, artıq avtomagistral yollar inşa olunur, dəmir yolu təmir olunur. Azərbaycan öz ərazisində işlərin böyük hissəsini artıq başa çatdırıb. Bu il Azərbaycan–İran sərhədində yeni avtomobil körpüsünün inşasına başlamaq planlaşdırılıb. Düşünürəm ki, gələn il o körpünün də tikintisi başa çatacaqdır. Bakıdan Rusiya Federasiyası sərhədinə qədər olan magistral yolun tikintisi gələn il başa çatdıqda, bu, Azərbaycan ərazisindən yük avtomobillərinin keçidi baxımından təxminən 2 dəfəyədək vaxt itkisinin azalmasına gətirib çıxaracaqdır. Beləliklə, Azərbaycan bölgədə şimal–cənub, şimal–qərb, cənub–qərb istiqamətində yük avtomobillərinin hərəkəti üçün ən əlverişli şərait yaratmış olacaqdır.

Cənab Prezident, qeyd etdiyiniz kimi, qonşu ölkələrlə aparılan ciddi və önəmli siyasət sayəsində həm ticarət dövriyyəsinin, həm qarşılıqlı investisiya layihələrinin nəticələri onu göstərir ki, bu siyasət müsbətdir, düzgündür və öz bəhrələrini verməkdədir. Keçən il olduğu kimi, bu il də biz əlavə nəticələr gözləyirik.

**İlham Əliyev**: Bizim qonşu ölkələrlə ticarət dövriyyəsinin artırılması çox müsbət haldır. Bütün qonşu ölkələrlə ticarət dövriyyəsi artıb. Türkiyə ilə bizim ticarət dövriyyəmiz keçən il 4 milyard dollara çatıbdır. Bu, böyük artımdır. Ticarət dövriyyəmiz Rusiya ilə 20–25 faiz, İranla 30 faiz artıbdır. Gürcüstanla da ticarət dövriyyəsi artıb. Həm ikitərəfli formatda, həm çoxtərəfli formatda biz uğurla fəaliyyət göstəririk. O cümlədən energetika və nəqliyyat sahələrində. Mən dəfələrlə demişəm ki, heç bir ölkə qonşularla əməkdaşlıq olmadan

tranzit ölkəyə çevrilə bilməz. Biz açıq dənizə çıxışı olmayan ölkə kimi, bu gün beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Nəyə görə? Düşünülmüş siyasətə, qonşularla yaxın münasibətlərimizə görə. Ona görə qonşularla həm ikitərəfli, həm üçtərəfli formatda bu il də aparılacaq əməkdaşlıq diqqət mərkəzində olmalıdır, bütün infrastruktur layihələri icra edilməlidir.

Rusiya sərhədinə gedən yolun böyük hissəsi bu il tamamlanmalıdır. Astara şəhərindən İran sərhədinə qədər yeni avtomagistral yolun tikintisi əminəm ki, tam başa çatacaqdır. Gəncə–Gürcüstan sərhədi avtomobil yolunun 4 zolağa genişləndirilməsi layihəsi də həmçinin. Bu layihənin böyük hissəsi bu il başa çatmalıdır. Eyni zamanda, onu da bildirmək istəyirəm ki, keçən ilin sonunda Rusiya–Azərbaycan sərhədində açılmış yeni körpü təkcə Rusiya–Azərbaycan ticarət əlaqələrini möhkəmləndirməyəcək, eyni zamanda, bu, Şimal–Cənub nəqliyyat dəhlizinin bir parçasıdır. Astara–Rəşt dəmir yolunun tikintisinə Azərbaycan öz marağını bildirib, müvafiq sənədlər də imzalanıbdır. Əminəm ki, bu istiqamətdə bizim fəaliyyətimiz bu il təsirli olacaqdır. Bütövlükdə, deyə bilərəm ki, beynəlxalq ticarət əlaqələri bizim üçün çox önəmlidir, həm əməkdaşlıq, eyni zamanda, ticarət dövriyyəsinin artırılması və investisiya qoyuluşu baxımından. Biz qonşu dövlətlərdən həm investisiya alırıq, həm də investisiya qoyuruq. Qoyulan investisiyalar da nəticə etibarilə bizə böyük gəlir gətirir.

Qeyd etdiyim kimi, keçən il makroiqtisadi vəziyyət sabit olub, inflyasiya cəmi 2,6 faiz təşkil edibdir. Baxmayaraq ki, çox böyük sosial paket icra edilib. Bu barədə

mən dedim. Eyni zamanda, problemli kreditlərin qaytarılması üçün böyük vəsait təmin edilib. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədə qalıb. Makroiqtisadi vəziyyətin sabit qalması üçün bu il də əlavə tədbirlər görüləcək. Mərkəzi Bank 2019-cu il ərzində öz valyuta ehtiyatlarını artırıbdır. Mənə verilən məlumata görə, 630 milyon dollar səviyyəsində vəsait daxil edilib. Bütövlükdə, Mərkəzi Bankın 6,2 milyard dollar səviyyəsində valyuta ehtiyatı vardır. Keçən il Mərkəzi Bankın funksiyaları genişləndirildi. Ümumiyyətlə, bu il inflyasiya hansı səviyyədə proqnozlaşdırılır, əlavə funksiyaların icrası nəticəsində bank sektorunda hansı dəyişikliklər nəzərdə tutulur? Bu barədə qısa məlumat verin.

**Elman Rüstəmov** *(Mərkəzi Bankın sədri):* Möhtərəm cənab Prezident, Siz çıxışınızda qeyd etdiniz ki, ötən il bütövlükdə Azərbaycan xalqı üçün dövlət quruculuğu tariximizdə sabitlik, inkişaf, iqtisadi islahatlar və sosial rifahın artırılması ili kimi qalacaqdır. Təbii ki, makroiqtisadi sabitlik bu işlərdə olduqca fundamental rol oynayır. Mərkəzi Bankın mandatına görə, onun başlıca funksiyası iqtisadiyyatda qiymət sabitliyinin təmin olunmasıdır. Artıq Siz inflyasiya göstəricisini qeyd etdiniz, 2,6 faiz səviyyəsindədir. Bu, bütövlükdə MDB məkanında ən aşağı inflyasiya səviyyələrindən biridir və 2018-ci ildəki aşağı inflyasiya səviyyəsini də nəzərə alsaq, son 2 ildə Azərbaycanda cəmi 2,1 faiz inflyasiya səviyyəsi qeyd olunubdur. Bu, olduqca mürəkkəb bir şəraitdə əldə edilib – ötən il olduqca böyük həcmli sosial

paket, kreditlərin restrukturizasiyası, o cümlədən mən xüsusi qeyd etmək istərdim, dünyada ərzağın qiymətinin 12 faiz bahalaşması fonunda. Bizim iqtisadiyyatımız çox əlaqəli bir iqtisadiyyatdır və belə bir fonda, pul kütləsi həcminin təxminən 24 faiz qalxdığı bir şəraitdə aşağı inflyasiyaya nail olunubdur. Aparılmış sorğular göstərir ki, əhalinin inflyasiya gözləntiləri, yəni makroiqtisadi sabitlik, manatın məzənnəsinin sabitliyi fonunda olduqca stabildir və əhalinin aşağı inflyasiya gözləntiləri vardır. Bu da gələcəkdə inflyasiyanın idarə olunması üçün çox mühüm amillərdən biridir.

Siz artıq tədiyə balansının başlıca göstəricilərini qeyd etdiniz. Cənab Prezident, valyuta ehtiyatlarımız bütövlükdə ümumi daxili məhsulun səviyyəsini ötüb keçibdir. Siz Yeni il təbrikinizdə qeyd etdiyiniz kimi, valyuta ehtiyatlarımız xarici borcu 5 dəfədən çox üstələyir. Keçən il Mərkəzi Bank, Dövlət Neft Fondu və Maliyyə Nazirliyi öz ehtiyatlarını artırıb və gəlirlilik əhəmiyyətli olubdur. Təxminən toplam olaraq, hər iki qurum birlikdə ehtiyatların idarə olunmasından 700 milyon dollardan yuxarı gəlir əldə edibdir. Belə bir şəraitdə, yəni neftin qiymətinin keçən il həm «Azəri layt», həm «Brend» üzrə bir qədər aşağı düşməsinə baxmayaraq, 6 milyardlıq xarici ticarət profisiti və bütövlükdə xarici valyuta mənbələrinin bazara şaxələnməsi şəraitində, həm turizmdən, həm qeyri-neft sektorundan və digər sahələrdən təklifin olduğu bir şəraitdə manatın məzənnəsi sabit qalıbdır. Bütövlükdə isə Maliyyə Nazirliyi, xəzinədarlıq və Mərkəzi Bank təxminən 700 milyon dollardan yuxarı vəsaiti sterilizasiya etmək məc-

buriyyətində qaldı ki, manatın möhkəmləndirilməsinə təsir göstərməsin.

Keçən il pul siyasətinin yumşaldılması ilə də xarakterizə olub. Bu hər iki istiqamətdə baş verib. 2018-ci və 2019-cu illərdə, yəni biz o yüksək inflyasiya illərində faiz dərəcəsini 15 faizə qaldırmışdıq, təxminən 2 dəfə aşağı salınıb və bu gün uçot dərəcəsi 7,5 faizdir. Ötən il biz 8 dəfə uçot dərəcəsini müzakirə etmişik, onun 7-sində faiz dərəcələrini aşağı salmışıq. Bütövlükdə biz bu siyasətin ümumi faizlərə də təsirini görürük. Son 2 ildə xüsusi olaraq biznes kreditləri üzrə faiz dərəcəsinin 5 faiz aşağı düşdüyünü görürük. Təxminən 16 faizdən 11 faizə düşüb. Digər istiqamətlərdə də faiz dərəcələrinin tədricən aşağı düşdüyünü görürük. Təbii ki, bunun səviyyəsi bizi hələ qane etmir və bu istiqamətdə işlər davam etdiriləcəkdir.

Mən artıq qeyd etdim, dövriyyədə olan pul kütləsinin həcmi 24 faizdən çox artıb, bu da pul siyasətini yumşaltma deməkdir. Bütövlükdə banklara 2 milyard manatdan çox vəsait verilibdir. Təbii ki, onlar da o vəsaitlərdən kreditlərin verilməsi üçün istifadə edə bilərlər. Cənab Prezident, bütövlükdə Azərbaycanda son 3 ildə aşağı inflyasiya, möhkəm və sabit məzənnə, çox aşağı və konservativ azalan xarici borc, möhkəm xarici mövqelərimiz ölkəmiz üçün əlverişli şərait yaradır. Mən qeyd etmək istəyirəm ki, bayaq Siz dediniz, Azərbaycanın xarici kreditor mövqeyi iki dəfədən yuxarıdır, yəni bizim xaricdə yerləşdirdiyimiz vəsaitlərin həcmi 100 milyard dollardan yuxarı olmaqla, öhdəliklərimizdən iki dəfə çoxdur. Bu onu göstərir ki,

Azərbaycanda möhkəm makroiqtisadi sabitlik və dayanıqlılığın əsasları yaradılıb və tədricən bu dayanıqlılıq və makroiqtisadi sabitlik iqtisadi artımda və iqtisadi inkişafda mühüm rol oynamağa başlayır. Bu, iqtisadi inkişafa transformasiya olunur.

Siz artıq qeyd etdiyiniz kimi, ötən il Mərkəzi Bankın mandatı bir qədər genişləndirildi. Bütövlükdə maliyyə sektorunda müsbət meyillər var, baxmayaraq ki, bir sıra həssaslıqlar qalıbdır. Biz kreditləşmənin artdığını görürük, ötən il kreditlər 16 faiz artıb, o cümlədən bütövlükdə biznes kreditləri. Yəni təsərrüfat subyektlərinə verilən kreditlər 11 faiz artıbdır. İstehlak kreditləri, əhaliyə verilən kreditlər isə təxminən 20 faizdən bir qədər çox artıb və bütövlükdə bizim təbii ki, cari ildə görəcəyimiz əsas işlərdən biri iqtisadiyyatın, xüsusilə də kiçik müəssisələrin mikrokreditləşmə vasitəsilə aşağı, uzunmüddətli kreditlərə əlçatanlığının artırılmasıdır. Cari il yanvar ayının 10-da Mərkəzi Bank, Banklar Assosiasiyası və bütövlükdə biznes ictimaiyyəti ilə geniş görüş keçirildi. Bütövlükdə maliyyə sektoru ilə iş adamları arasında biznes sahəsində əlaqələrin formaları, burada olan mövcud problemlər müzakirə olundu, iş adamları bir sıra mühüm məsələlər qaldırdılar. Bu məsələlər sistemləşdirilir, Mərkəzi Bankın səlahiyyətində olan məsələlər tərəfimizdən həll olunacaqdır. Digər məsələlər isə müvafiq qurumların, o cümlədən Nazirlər Kabinetinin müzakirəsinə təqdim ediləcəkdir.

Bütövlükdə əmanətlər də artıb. Manatla müddətli əmanətlər 27 faiz artıbdır. Bu onu göstərir ki, sosial sahədə atdığınız addımlar nəinki əhalinin yüksək istehlak

səviyyəsini təmin edir, həm də əhalinin yığımları təmin olunur. Ödəniş sistemində başlıca məqsədimiz təbii ki, qeyri-nağd ödənişlərin səviyyəsinin artırılması, nağd ödənişlərin isə məhdudlaşdırılmasıdır. Keçən il milli ödəniş sistemi vasitəsilə ödənişlərin həcmi 10 faiz, sayı isə 41 faiz artıbdır. O cümlədən ödəniş kartlarının sayı 13 faiz və kart ödənişlərinin sayı 29 faiz, kartlar vasitəsilə qeyri-nağd ödənişlərin həcmi 57 faiz, elektron bank xidmətləri, elektron ticarət üzrə ödənişlər isə 93 faiz yüksəlibdir. Burada da müsbət dinamika özünü göstərir. Bu, bir tərəfdən, ötən il bu sahədə aparılan islahatların, bütövlükdə təbii ki, şəffaflaşdırmanın nəticələridir. Digər tərəfdən isə ödəniş sisteminin modernləşdirilməsi istiqamətində – Sizin imzaladığınız nağd ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı reallaşdırılır – tədbirlər öz nəticəsini verir. Amma burada görəcəyimiz işlər olduqca çoxdur. Hesab edirəm ki, cari ildə bu istiqamətdə həm Mərkəzi Bankın, həm də Azərbaycan hökumətinin qarşısında olduqca mühüm vəzifələr durur.

Cari ilin əsas vəzifəsi, cənab Prezident, başlıca olaraq təbii ki, yenə də inflyasiyadır. Siz bu məsələnin əhəmiyyətini qeyd etdiniz. Bu həm əhalinin gəlirlərinin formalaşmasında, həm manatın alıcılıq qabiliyyətinin qorunmasında, həm də əhalinin aktivlərinin, yığımlarının dəyərsizləşməsinin qarşısının alınmasında olduqca prinsipialdır. Cari ildə də hökumətin rəsmi baza proqnozu məlumdur. Düşünürük ki, Mərkəzi Bankın proqnozu dəyişmir, inflyasiyanın 4 faiz ətrafında sabitləşdirilməsi planlaşdırılır. Bu istiqamətdə hökumətlə birlikdə sıx koordinasiyada bütün işləri görəcəyik ki, bu

inflyasiya səviyyəsinə nail olaq. Təbii ki, burada bir sıra amillər də vardır. Bu amillərdən ən başlıcası manatın sabitliyidir. Düşünürük ki, hökumətin rəsmi baza proqnozunda 55 dollarda belə tədiyə balansımız bu il də müsbət olacaq və valyuta ehtiyatlarını yığmağa imkan verəcəkdir. Ancaq ümid edirik ki, bütövlükdə neftin faktiki qiymətinin daha da yüksək olması və valyuta vəsaitlərinin, valyuta gəlirlərinin şaxələnməsi istiqamətində görülən tədbirlər imkan verəcək ki, daha tarazlı valyuta bazarına malik olaq. Düşünürük ki, bu il də manatın məzənnəsinin sabitliyi qorunacaqdır.

Cənab Prezident, Siz sığorta haqqında danışdınız, bu, olduqca mühümdür. Mərkəzi Bankın indiki mandatında da sığorta işinə nəzarət mühüm yer tutur. Burada xüsusilə əmlakın sığortalanması məsələsi önəmli rol oynayır. Siz çox düzgün prioritetlər müəyyənləşdirdiniz – maarifləndirmə, marketinq, əhali ilə iş. Hesab edirəm ki, hökumətlə birlikdə həm də yerli icra hakimiyyəti orqanları da bu işə fəal qoşulmalıdırlar. Çünki rayon yerlərində, kənd yerlərində hadisələr baş verir. Fikrimcə, biz bu işi çox ciddi təşkil etməliyik. Bütövlükdə burada görülməli işlər həddindən artıq çoxdur.

Kapital bazarlarının inkişafı olduqca xüsusi, böyük bir məsələdir. Azərbaycanda kapital bazarları inkişaf etməyib. Biz indi araşdırma aparırıq, görürük ki, birjada, listinqdə olan kampaniyaların çoxlarının heç bir əməliyyatları yoxdur. Biz İqtisadiyyat Nazirliyi, hökumətlə birlikdə baxmalıyıq ki, hansı çempionları yarada bilərik, hansı müəssisələrimiz hazırdır ki, bu gün öz

səhmləri, qiymətli kağızları ilə Azərbaycanın qiymətli kağızlar bazarına çıxsın və buradan vəsaitləri cəlb etsin.

Ödəniş sistemi haqqında artıq dedim, çox mühüm prioritetlərimiz var, çalışacağıq ki, bütövlükdə 2020-ci il bu istiqamətdə dönüş illərindən biri olsun.

**İlham Əliyev:** Dollarlaşma ilə bağlı vəziyyət necədir? Çünki bir neçə il bundan əvvəl haradasa dollarda qoyulan əmanətlərin həcmi 80 faizi ötürdü. İndi vəziyyət necədir?

**Elman Rüstəmov:** Cənab Prezident, dollarlaşma azalmaqda davam edir, bu daha çox əmanətlərdə hiss olunur. Bilirsiniz ki, əmanətlərdə faiz dərəcələri daha yüksəkdir. Biz görürük ki, kreditlərdə təxminən 3 faizə qədər, əmanətlərdə daha çox, 6 faizə qədər dollarlaşma səviyyəsi aşağı düşübdür.

**İlham Əliyev:** Faiz nisbəti nə qədərdir?

**Elman Rüstəmov:** Kreditlərin dollarlaşması 38 faizdən 35 faizə düşüb, fiziki şəxslərin əmanətlərində isə 62 faizdən 54 faizə enib. Təxminən 12 faizə qədər düşübdür.

**İlham Əliyev:** Uçot dərəcəsi də 2 dəfə aşağı düşüb.

**Elman Rüstəmov:** Son 2 ildə.

**İlham Əliyev:** Bəli, bu il də yəqin ki, bu meyil davam etdiriləcək.

**Elman Rüstəmov**: Təbii ki, cənab Prezident, inflyasiya səviyyəsindən, inflyasiya proqnozunun yerinə yetirilməsindən asılı olaraq, yumşaltma prosesi davam etdirilə bilər.

**İlham Əliyev:** Bu da iqtisadiyyatın sağlamlaşdırılması deməkdir. Yəni əsas indikatorlardan biridir.

**Elman Rüstəmov:** İqtisadiyyatın sağlamlaşdırılmasını, kreditlərin ucuzlaşmasını özündə əks etdirəcək.

**İlham Əliyev:** Siz deyirsiniz ki, banklara 2 milyard manat resurs verilib və yenə də kreditləşmədə istehlak kreditləri üstünlük təşkil edir. Bu da çox təhlükəli tendensiya ola bilər. Ona görə biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Biznes kreditlərin verilməsində baxın, hansı mexanizm olmalıdır ki, həm banklar bunda maraqlı olsun, həm də ki, Mərkəzi Bank buna nəzarət etsin. Yoxsa biz bunu başlı-başına buraxa bilmərik. Əlbəttə, bəzi banklar üçün istehlak kreditləri daha asan, daha əlverişlidir. Ancaq ölkə iqtisadiyyatı üçün biznes kreditləri üstünlük təşkil edir. Ona görə İqtisadiyyat Nazirliyi ilə birlikdə bu məsələləri müzakirə edin. İndi İqtisadiyyat Nazirliyinin, Sahibkarlara Kömək Fondunun xətti ilə təqribən 170 milyon manat güzəştli kreditlər nəzərdə tutulur. Uçot dərəcəsi düşdükdə artıq özəl banklar tərəfindən verilən kreditlərin də faiz dərəcəsi güzəştli kreditlərin səviyyəsinə yaxınlaşacaqdır. Burada uzlaşma olmalıdır. Bank sektoru

böyük bir alətdir, yəni iqtisadiyyatın real sektoruna dəstək verməlidir. Bank sektorundan heç bir sürpriz olmamalıdır. Bu il onların fəaliyyətinə, kreditlərin verilməsinə çox güclü nəzarət olmalıdır. O cümlədən şübhəli kreditlərin verilməsi ilə bağlı mexanizm olmalıdır ki, biz artıq hadisə baş verəndən sonra yox, bəri başdan bunun qarşısını ala bilək. Bank sektorunun məsuliyyəti də artıb, çünki biz bütün əmanətlərin sığortalanmasını davam etdirmişik. Bu da dünya miqyasında nadir hadisələrdən biridir. Biz bunu bir neçə il bundan əvvəl ona görə etdik ki, etimadı artıraq. Hazırda bank sektoruna etimad hesab edirəm ki, yüksək səviyyədədir. Manatın məzənnəsi 3 ildən çoxdur ki, sabitdir, iqtisadiyyat möhkəmlənir, tədiyə balansının saldosu 6 milyard dollardır. Yəni heç bir təhlükə yoxdur. Ona görə əmanətlərin dövlət tərəfindən tam sığortalanması çox böyük addımdır və bu, bank sektorunun məsuliyyətini artırır. Nəzarət elə olmalıdır ki, sürpriz olmasın və Mərkəzi Banka verilmiş yeni səlahiyyətlər hesab edirəm ki, bu məsələnin həllinə köməklik göstərə bilər.

**Elman Rüstəmov**: Bunları edəcəyik, cənab Prezident.

**İlham Əliyev:** Sosial sahədə aparılmış işlər haqqında mən artıq giriş sözümdə məlumat verdim, bu il hansı işlər gözlənilir. Biz keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim etdik və bu il bu rəqəm daha da artacaq. DOST Mərkəzi fəaliyyətə başlayıb. Artıq 2 mərkəz yaradılıbdır. Bu barədə məlumat

verin. Ünvanlı sosial yardımla bağlı işlər nə yerdədir, mən keçən il sizə göstəriş vermişdim ki, bu vəsaiti, yardımı alan ailələrin sayı artırılsın və meyarlara da yenidən baxılsın. Çünki bəzi hallarda çox sərt meyarlar qoyulubdur. Bu, ədalətli olmalıdır. Əlbəttə, son vaxtlar sosial sahədə böyük islahatlar aparılır, o cümlədən ünvanlı yardımın verilməsində. Əvvəlki illərdə ehtiyacı olmayanlar hansısa təmənna qarşılığında bunu alırdılar, indi isə vəziyyət sağlamlaşır, elektron xidmətlər göstərilir, amma eyni zamanda, insan amili də çox önəmlidir. Bu il ünvanlı sosial yardımın verilməsi və özünüməşğulluq proqramı ilə bağlı məlumat verin. Bu imkandan daha çox ailə faydalanır. Ancaq dünya praktikası var, siz də bu barədə məlumat vermişdiniz. Dünya praktikasında verilən vəsait nəticəsində təqribən 50 faiz uğurlu layihələr baş tutur. Biz də elə etməliyik ki, Azərbaycanda bu uğurlu layihələrin sayı və faizi daha da artsın. Dünya Bankı mənim təklifimlə bu proqrama qoşulubdur. Bu il Dünya Bankının bu sahədə fəaliyyəti nədən ibarət olacaqdır? Bu barədə məlumat verin.

**S a h i l B a b a y e v** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident, Siz artıq çıxışınızda bildirdiniz, Sizin təşəbbüsünüzlə, imzaladığınız fərman və sərəncamlarla 2019-cu ildə sosial sahədə çox dərin islahatlar həyata keçirilib və əhalinin 42 faizinin gündəlik gəlirlərinin, onların rifahının artırılması istiqamətində çox əhəmiyyətli tədbirlər görülübdür. Bu islahatların ən böyük qolu, əlbəttə ki, əmək münasibətləri idi. Bununla bağlı atılmış addımlar nəticəsində 1 milyon

350 min insanın əməkhaqqı ciddi şəkildə artdı. Qeyd etdiyiniz kimi, minimum əməkhaqqının 2 dəfə artması dövlət sektorunda çalışan, müxtəlif kateqoriyada işləyən insanların əmək haqlarının ciddi şəkildə, 20 faizlə 100 faiz arası artırılması və Azərbaycanın minimum əməkhaqqına görə MDB məkanında alıcılıq qabiliyyəti üzrə 2-ci yerə çıxması, eləcə də digər inzibati tədbirlər nəticəsində ölkədə 2019-cu il ərzində əmək müqavilələrinin sayı 153 min artdı. Təqdirəlayiqdir ki, bunun 99 mini, yəni böyük hissəsi məhz özəl sektorun, 54 mini isə dövlət sektorunun payına düşür. Əməkhaqqı Fondu 42,3 faiz artdı, bu da çox böyük rəqəmdir, cəmi 1 il ərzində əldə olunan nəticədir. Əməkhaqqının sosial ədalətli bölgüsünün göstəricisi olan median əməkhaqqı isə cəmi bir ildə 52 faiz artdı, bu da sosial ədalətin geniş şəkildə tətbiqindən irəli gələn islahatların məhz aztəminatlı kəsimə yönəlməsini göstərən bir göstəricidir. Digər tərəfdən, pensiya sahəsində aparılan islahatlar nəticəsində minimum pensiyanın artımı bizi MDB məkanında alıcılıq qabiliyyəti üzrə 1-ci yerə çıxarmaqla yanaşı, xüsusi şərtlərlə pensiya təyinatı olan hərbçilərimizi əhatə edən böyük bir kontingentdə 30 faizlik artım oldu. Bu islahatların nəticəsində 2019-cu ildə ölkədə orta pensiya 15 faiz, yaşa görə pensiya 15 faiz, ən həssas kateqoriya olan əlilliyə görə pensiya isə 22 faiz artdı.

Pensiya təyinatının avtomatlaşdırılması nəticəsində 2019-cu ildə pensiya təyinatı alan insanların 80 faizi, təqribən 15 min şəxs üçün məhz proaktiv elektron qaydada – hər hansı bir ünvana getmədən pensiya tə-

yinatı aparıldı. Sosial müavinətlər və təqaüdlərlə bağlı islahatlara gəldikdə, burada çox böyük bir proqram tətbiq etdiniz və 1,3 milyon insanı əhatə edən geniş paket icra olundu. Bu paketin böyük bir hissəsi məhz əlilliyi olan şəxslərə aid idi. Bu sahədə də Sizin tapşırıqlarınıza müvafiq olaraq, elektronlaşma tədbirləri görüldü və artıq 2019-cu ilin sonuna 19 növ sosial müavinət və təqaüd elektron qaydada proaktiv şəkildə vətəndaşın hər hansı bir müraciəti olmadan təyin edilməyə başlandı. Ötən il artıq 20 min təyinat bu şəkildə edilibdir. Bu avtomatlaşma tədbirləri son nəticədə 2020-ci ildə 200 min pensiya, müavinət və təqaüd təyinatının elektron qaydada proaktiv şəkildə aparılmasına imkan verəcək ki, əlbəttə, bu da vətəndaşlarımıza xidmət baxımından çox önəmli bir göstərici olacaqdır.

Ümumilikdə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri proqnozdan 5,4 faiz artıq icra olunaraq, 150 milyon əlavə gəlir əldə edilibdir. Elektronlaşma nəticəsində əsassız pensiya və əlillik təyinatları ləğv edildi və xərclər proqnozdan 180 milyon manat aşağı oldu. Bunların nəticəsində 2 dəfə olmaqla, ilin ortasında 150 milyon, ilin sonunda isə 170 milyon manat, cəmi 320 milyon manat vəsait dövlət büdcəsinə geri qaytarıldı. Dövlət öhdəliklərinin ödənilməsi üçün nəzərdə tutulmuş vəsait məbləği bu qədər azaldıldı və Dövlət Sosial Müdafiə Fondunda builki islahatların icrasına yönəldilməsi üçün əlavə olaraq 190 milyon manat ehtiyat yaradıldı.

Digər tərəfdən, Birinci vitse-prezidentimizin təşəbbüsü olan və Sizin müvafiq sərəncamınızla yaradılmış DOST Agentliyi fəaliyyətə başladı və ötən il çox uğurlu

bir il oldu. Sizin iştirakınızla mayın 9-da birinci DOST Mərkəzi, dekabrın 24-də ikinci DOST Mərkəzi istifadəyə verildi. Cəmi 8 ay ərzində birinci DOST Mərkəzində 63 min vətəndaşımız qəbul edilib, ümumilikdə vətəndaşlarımızın məmnunluq səviyyəsi 95,2 faizə bərabərdir. DOST mərkəzlərində konsepsiyaya uyğun olaraq, könüllülük proqramları geniş vüsət alıb. Orada həm «Gənc DOST» könüllü proqramı, həm də ahıl şəxslər üçün «Gümüşü DOST» və «Virtual DOST» proqramları icraya verilib. Cəmi 6 ay ərzində 6900 könüllü bu proqramlara müraciət edib. Onlardan 250 nəfər bizim mərkəzlərimizdə fəaliyyətə başlayıb. Sizin digər təşəbbüsünüzlə başlayan daha bir geniş proqram haqqı ödənilən ictimai işlər proqramıdır. Bununla bağlı ötən il DOST iş mərkəzləri tərəfindən 38 min iş yeri yaradılıb. Burada 45 mindən artıq vətəndaşımızın müvəqqəti məşğulluğu təmin edilib. Dövlət müəssisələri tərəfindən 28 min iş yeri yaradılıb. Bu proqramların icrası nəticəsində çox böyük bir kəsim, yəni faktiki olaraq, 64 min insanın il ərzində məşğulluğu təmin edilibdir. Sizin tapşırıqlarınıza uyğun olaraq, bu proqramın da cari ildə davam etdirilməsi planlaşdırılır.

Özünüməşğulluq proqramı Sizin tapşırığınıza uyğun olaraq, daha da genişləndirildi. 2019-cu ildə 10354 vətəndaşımız bu proqrama cəlb edilib. Onlar müvafiq təlimləri başa vuraraq, öz biznes planlarını uğurla müdafiə etdilər və artıq 8500 nəfəri öz aktivlərini alıb. Aktivlərin paylanma prosesi davam edir və ayın sonuna qədər qalanları da aktivlərlə tam şəkildə təmin olunacaqlar. BMT İnkişaf Proqramının, eyni zamanda,

Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin bu proqrama qoşulması, əlavə 500 nəfərin aktivlərlə təmin olunması proseduru məhz bu iki layihə çərçivəsində icra olunur. Bu proqramın da genişləndirilməsinə, Dünya Bankı ilə danışıqların yekunlaşdırılmasına dair Sizin tapşırıqlarınız olubdur. Biz artıq Dünya Bankı ilə ilkin müzakirəni yekunlaşdırmışıq. Kredit sazişi üzrə danışıqlar yanvar ayının 18-nə təyin olunub. Bu danışıqlar yekunlaşdıqdan, Dünya Bankının proseduruna uyğun onun Şurasında təsdiq olunduqdan sonra iyun ayına qədər müqavilənin imzalanmasını gözləyirik. Lakin həm Maliyyə Nazirliyi, eyni zamanda, Dünya Bankı ilə müzakirələr nəticəsində belə qərara gəlindi ki, müqavilə imzalanana qədər də retroaktiv maliyyələşmə prinsipi əsasında hazırlıq işlərini artıq fevral ayından başlayaraq, icra edəcəyik.

2019-cu ildə ünvanlı sosial yardım proqramı çox geniş şəkildə, 70 faizə qədər artırıldı, ümumilikdə 296 min üzvü olan 72 min ailəni əhatə etdi, ailələrə ödənişin məbləği də artaraq, 209 manata bərabər oldu. Bu proqramın genişləndirilməsinə dair Sizin tapşırıqlarınız olubdur. 2020-ci ildə bu proqram da genişləndiriləcək. Bir çox meyarlar yüngülləşdirildi. Bunun üzərində işlər mütəmadi olaraq davam etdiriləcək və Azərbaycanda ünvanlı sosial yardım proqramının şəffaf, təkmil həyata keçirilməsi üzrə Sizin tapşırıqlarınız tam icra olunacaqdır.

Sosial təminat sahəsində, cənab Prezident, Sizin ən önəmli təşəbbüslərinizdən biri şəhid ailələrinə 11 min manatlıq birdəfəlik ödənişin verilməsi idi. Bu proqram 98

faiz icra olundu. 12 min şəhidimizin 18 min vərəsəsinə bu vəsait tam şəkildə ödənildi. Yəni hazırda 300 nəfərə yaxın şəhidimizin vərəsələri tərəfindən sadəcə, müraciət olunmayıb. Müraciət edən hər bir şəxs vəsaiti əldə edib. Mənzil təminatı proqramı çox genişləndirilib. 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə 628, 2019-cu ildə isə 934 mənzil təqdim edilibdir. Bu da əlamətdar hadisə idi, dekabrın 24-də Siz öz ad gününüzdə böyük bir binanın açılışını etdiniz və 96 mənzil Nizami rayonunda şəhid və müharibə əlillərinə təqdim olundu. Eyni zamanda, əlilliyi olan şəxslərə avtomobil təminatı proqramı davam etdi və onlara 600 avtomobil təqdim edildi ki, bu da önəmli istiqamətlərdən biri idi.

Sosial infrastruktur baxımından Sizin tapşırıqlarınızın icrası olaraq, Naftalan, Yevlax, Mərdəkan Reabilitasiya mərkəzləri tam fəaliyyətə başlayıb, Protez-Ortopedik Mərkəzin istehsalat sexi istifadəyə verilibdir. Gəncədə pensiyaçılar üçün sosial xidmət müəssisəsi və Peşə Hazırlığı Mərkəzi istifadəyə verilib. Sosial infrastruktura geniş maliyyə təminatı yaradılıb. Ötən ildən davam edən işlərin icrası olaraq, bu il də 10 Reabilitasiya Mərkəzi və sosial xidmət müəssisəsinin istifadəyə verilməsi planlaşdırılır.

Görülmüş bu işlərə beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət verilib. Xüsusi olaraq vurğulamaq istərdim ki, Sizin tapşırığınızla biz Beynəlxalq Sosial Təminat Agentliyi ilə müzakirələr apardıq və may ayında Azərbaycanda Avropa Sosial Forumu keçirildi. Forumda Avropa İttifaqının bütün sosial təminat və pensiya fondlarının rəhbərləri iştirak edirdi. Bu forum

çərçivəsində Azərbaycanın həyata keçirdiyi 4 layihə Avropa üçün ən yaxşı təcrübə mükafatlarını əldə etdi. Bunlar özünüməşğulluq layihəsi, ünvanlı sosial yardım layihəsi, əlillik proqramı və qeyri-formal məşğulluqla mübarizə proqramımızdır.

**İlham Əliyev:** Bu, qeyri-formal məşğulluqla bağlı mübarizə nəticəsində baş verdi. Yəni əmək müqavilələri sadəcə olaraq, rəsmiləşdirildi. Bu, birinci onu göstərir ki, biz düzgün yoldayıq və aparılan siyasət nəticə verir, amma eyni zamanda, hələ ki, «kölgə iqtisadiyyatı»nda minlərlə, on minlərlə insan işləyir. Ona görə «kölgə iqtisadiyyatı»ndan çıxmaqla bağlı bütün qurumlar fəal işləməli və burada çox ciddi koordinasiya aparılmalıdır. Mən Nazirlər Kabinetinə tapşırıq verirəm ki, bu məsələ ilə bağlı ayrıca müşavirə keçirsin və aidiyyəti qurumlar öz təkliflərini versinlər. Qurumlar arasında da çox ciddi koordinasiya işləri aparılmalıdır. 153 min əmək müqaviləsinin rəsmiləşdirilməsi çox böyük hadisədir. Əlbəttə ki, həm şəffaflığa xidmət göstərir, həm də pensiya təminatı üçün bunun çox böyük əhəmiyyəti vardır.

İctimai ödənişli iş yerləri ilə bağlı təşəbbüs mənim tərəfimdən o vaxt irəli sürüldü ki, dövlət investisiya xərcləri kəskin şəkildə aşağı düşdü. Bunu da biz məcburiyyət qarşısında etdik. Çünki neftin qiyməti 4 dəfə aşağı düşmüşdü, gəlirlərimiz azalmışdı və büdcəmiz ixtisar edilmişdi, o cümlədən investisiya proqramı da böyük dərəcədə ixtisara uğramışdı. İşsizliyin qabağını almaq üçün mənim təşəbbüsümlə on minlərlə ödənişli

ictimai iş yeri yaradılmalı idi. Ancaq əfsuslar olsun ki, biz bu proqramın icrasında çox böyük pozuntulara rast gəldik. Xüsusilə yerli icra orqanları tərəfindən vicdansızcasına bu vəsaitin talanması və ödəniş kartlarının yığılması, onlardan pulun çəkilməsi, bu işlərlə qohumlarının təmin edilməsi, əlbəttə ki, dözülməz faktdır. Bu pozuntulara yol verən şəxslər cəzalandırılıb və bu işlər davam etdiriləcəkdir. Bu hər kəsə dərs olmalıdır. Eyni zamanda, elə bir mexanizm işlənilməlidir ki, bu pozuntulara, ümumiyyətlə, imkan olmasın. Ona görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verildi ki, onlar bu işin koordinasiyasını öz üzərinə götürsün və ödənişli ictimai işlərə cəlb olunan vətəndaşlar məhz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən rəsmiləşdirilsin. Hal-hazırda 38 min belə işlə təmin olunan şəxs vardır. Bu il nə qədər nəzərdə tutulur və bunun nəzarət mexanizmi necədir?

**S a h i l B a b a y e v:** Cənab Prezident, Sizin tapşırığınıza uyğun olaraq, biz ötən ilin ortalarından etibarən monitorinqlərə başladıq və monitorinqlər çərçivəsində təqribən 3000 şəxs işdən kənarlaşdırıldı, yeni şəxslər cəlb edildi. Ardınca ikinci bir təşəbbüs olaraq, Sizə ictimai açıqlığın təmin edilməsini məruzə etdik və Sizin razılığınızla müvafiq portal yaratdıq. İctimai işlərə cəlb edilmiş bütün şəxslər hər rayon üzrə ictimaiyyətə tam şəkildə açıqlanır. İşə götürülmüş bütün şəxslərə dair məlumatlar onlayn portalda yerləşdirilir. Bu da ictimai açıqlığı xeyli təmin edir. Ümumilikdə qeyd edim ki, 38 min iş yerinə 2019-cu ildə 47 min şəxs götürülüb. Yəni

bu o deməkdir ki, il ərzində də ciddi təmizlənmə olub, əlavə 9000 nəfərlik təmizlənmə olub. Bütün icra hakimiyyəti orqanları ilə ciddi müzakirələr aparmışıq və cari ilin yanvar ayından etibarən bütün siyahıların yenilənməsi və onların təqdim edilməsini istəmişik. Çünki bəzi hallarda obyektiv səbəblər də meydana çıxır. İnsanlar müəyyən qədər işlədikdən sonra bəzi ictimai işlərdə işləmək istəmirlər. İşə gəlməyənlər, məhdud gələnlər və ya yeni iş yeri tapanlar da olur. Ümumilikdə bu sahədəki neqativlərin hər biri araşdırılır və haqqında müvafiq tədbir görülməsi üçün həm hüquq-mühafizə orqanlarına, həm də aidiyyəti orqanlara təqdimatlar verilir. Xüsusi olaraq vurğulayım ki, onlayn portalda bütün siyahıların açıqlanmasından sonra bu istiqamətdə xeyli irəliləyişlərimiz vardır.

**İ l h a m  Ə l i y e v:** Özünüməşğulluq proqramı ilə bağlı bizim təşəbbüsümüzlə Dünya Bankı da bu proqrama dəvət olundu. Burada əsas məqsəd, təbii ki, Dünya Bankının vəsaitindən istifadə etmək deyil. Halbuki bu da önəmlidir. Əsas məsələ onların təcrübəsindən yararlanmaqdır. Çünki Dünya Bankı bir çox ölkələrdə oxşar proqramları icra edib və onların bu sahədə böyük təcrübəsi vardır. Ona görə imzalanacaq sazişə də böyük əhəmiyyət veririk. Əminəm ki, saziş imzalanandan sonra Dünya Bankı ilə bu istiqamət üzrə bizim yeni əməkdaşlıq çərçivələrimiz də müəyyən ediləcəkdir.

Ünvanlı sosial yardımla bağlı 70 faiz artım çox ciddi artımdır və artıq siz qeyd etdiniz ki, 72 min ailə əhatə olunub və burada da, əlbəttə ki, əsas məsələ ədalətdir.

Məhz o ailələr ki, doğrudan da ehtiyac içindədir, o ailələr ki, onların maddi vəziyyəti ağırdır, onlar bu yardımdan istifadə etməlidir.

Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox evlər tikilməlidir. Bu məsələ ilə bağlı mən sizə göstəriş vermişəm. Əgər keçən il 934 mənzil verilmişdisə, bu il hesab edirəm ki, 1500 mənzil verilməlidir. Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi bu məsələ ilə bağlı müvafiq göstərişlər versinlər. Beləliklə, əgər biz buna nail olsaq – əminəm ki, buna nail olacağıq – onda növbədə cəmi 2000 ailə qalacaq. Onları da biz yaxın illərdə evlərlə təmin edəcəyik.

Bizim indi iqtisadi göstəricilərimiz, hesab edirəm ki, müsbətdir, xüsusilə qeyri-neft sənaye istehsalı qeyd etdiyim kimi, 14 faiz artıbdır. Kənd təsərrüfatı təxminən 7 faiz artıbdır. İndi İqtisadiyyat naziri məlumat versin ki, bu ilin iqtisadi inkişafla bağlı hansı proqnozları vardır. İnvestisiya proqramı keçən ay təsdiqləndi və vaxt itirmədən icra edilməlidir. Bizim qeyri-neft ixracımız 14 faiz artıb. Bu, böyük artımdır. Ancaq qeyri-neft ixracının artımını müəyyən dərəcədə əngəlləyən obyektiv səbəblər vardır. Onlardan birincisi əhalinin artımıdır. Yəni biz daha çox daxildə istehlak edirik. İkinci amil turistlərin sayının artmasıdır. Yəni əgər 5 il bundan əvvəl 2 milyondan az adam gəlirdisə, indi 3 milyondan çox adam gəlir. Əlbəttə ki, daxili istehlak və daxili tələbat artır. Ona görə qeyri-neft ixracının uzunmüddətli strategiyası işlənməlidir və bu strategiya həm mövcud olan bazarlarla bağlı olmalıdır, həm də perspektiv bazarlara çıxışla bağlı işlər aparılmalıdır. Ümumiyyətlə, biz bilirik ki, hər il

əhali ən azı 100 min nəfər artır. Bunu biz uzunmüddətli proqnoz kimi götürərək, daxili tələbatın həcmini də müəyyən etməliyik. Çünki biz əgər istehsalı, qeyri-neft istehsalını artırmasaq, gələcəkdə bizim qeyri-neft ixracımız daha da aşağı düşəcək, nəinki artacaq. Ona görə də burada emal sənayesinin stimullaşdırılması məsələləri gündəlikdədir. İqtisadiyyat Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi ilə sıx əlaqədə olmalıdır. Çünki bizim əsas qeyri-neft ixracımız kənd təsərrüfatı mallarıdır. Bu barədə məlumat verin. Dövlət İnvestisiya Proqramı artıq təsdiqləndi və bunun əsas məqsədi iqtisadi artımı təmin etməkdir. Eyni zamanda, dövlət hazırda əsas investor kimi fəaliyyət göstərir. Ancaq biz istəyirik ki, qeyri-neft sahəsində əsas investor özəl sektor olsun.

Kiçik və orta biznesin inkişafı – bu da prioritet məsələdir. Biz yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun əsas hissəsini kiçik və orta sahibkarlıq təmin edir. Azərbaycanda biz bu istiqamətdə birinci addımları atırıq və burada kiçik və orta biznesə dəstək yüksək səviyyədə olmalıdır. Məlumat verin bu məsələlər barədə.

**Mikayıl Cabbarov** *(İqtisadiyyat naziri):* Möhtərəm cənab Prezident, neft bumu dövründə milli iqtisadiyyatın sıçrayışı təqibedici artım nümayiş etdirərək, Sizin rəhbərliyinizlə ölkəmizin ortagəlirli dövlətlər sırasına daxil olmasına imkan vermişdir. Bu gün postneft mərhələsində Sizin qarşımızda qoyduğunuz əsas strateji vəzifə ortamüddətli dövrdə iqtisadi artımın dünya üzrə orta iqtisadi artımdan geri qalmamasını təmin etmək,

uzunmüddətli dövrdə isə iqtisadi artım templərinin dünya üzrə artımın üstələnməsinə nail olmaqdır.

Bu nöqteyi-nəzərdən Siz artıq qeyd etdiniz, 2019-cu ildə əldə edilmiş nəticələr və 2020-ci il üçün olan iqtisadi inkişaf proqnozları bizim üçün zəruri zəmin yaradır. Sizin xüsusi toxunduğunuz sərmayələrin – həm dövlət sərmayələrinin, həm də özəl sərmayələrin cəlb edilməsini biz başlıca amil kimi görürük. Çünki dünyanın iqtisadi tarixi və Azərbaycanın yaxın keçmişdəki təcrübəsi göstərir ki, iqtisadi artımın sürəti və dayanıqlılığı məhz investisiyalarla bağlıdır. 2019-cu ildə bizim əsas kapitala investisiyaların ümumi daxildəki payı 23,2 faiz təşkil edib. Bizim hədəfimiz, heç olmasa, 25 faizə çatmaq və ondan daha yuxarı səviyyədə qalmaqdır. Bu prizmadan baxsaq, özəl sərmayələrin cəlb edilməsi üçün zəruri olan şərtlərin və şəraitlərin ölkə iqtisadiyyatı daxilində yaradılmasıdır. Bizim əsas vəzifəmiz dövlət investisiyalarının iqtisadi səmərəliliyinin artırılması, eyni zamanda, Sizin tapşırıqlarınıza uyğun olaraq, dövlət investisiyalarının resipiyentləri qarşısında səmərəlilik tələblərinin sərtləşdirilməsi və bu investisiyaların prioritet sektorların inkişafı ilə sıx uzlaşdırılmasıdır.

Tapşırığınıza uyğun olaraq, bu sahədə əldə edilmiş nailiyyətlərə əsaslanaraq, xüsusilə kənd təsərrüfatında xam məhsulun mövcudluğunu və səviyyəsini nəzərə alaraq, biz 2020-ci ildə və növbəti illərdə Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlarla birgə əlavə zəncir dəyərinin təmin edilməsini, yəni emal sənayesinin dəstəklənməsini, o cümlədən Sahibkarlığa Kömək Milli Fondunun bank sektoru və assosiasiyalarla birlikdə

çalışaraq, qarşımızda prioritet vəzifə kimi görürük. Bu eyni zamanda, bizim qeyri-neft ixracımızın coğrafiyasının, həmçinin nomenklaturasının genişləndirilməsinə və daha dayanıqlı olmasına imkanlar yaradacaqdır.

Verdiyiniz suala gəldikdə, ilkin təhlillər onu göstərir ki, emal sənayesinin və ümumilikdə sərmayələrin cəlb edilməsinin yeni bazarları barədə danışarkən Azərbaycanda yaradılmış siyasi makroiqtisadi sabitlikdən yararlanaraq, həm əhalisi, həm də turist axını artan ölkə bazarımıza, həmçinin də digər bazarlara çıxış imkanları yaratmalıyıq. Bu, istər xarici, istərsə də yerli özəl sərmayəçilər üçün böyük əhəmiyyət kəsb edir. Sizin icazənizlə, biz gələcəkdə həmin yeni bazarlara uyğun olan ticarət sazişləri – istər sərbəst ticarət sazişləri, istərsə də xüsusi rejimli ticarət sazişləri ilə bağlı təklifləri hazırlayırıq.

Qeyri-neft iqtisadiyyatının, qeyri-neft ixracının, o cümlədən iqtisadi artımın sürətləndirilməsinə dair göstərişlərinizə əsasən, kənd təsərrüfatı, aqroklaster, neft-kimya sənayesi və bu sahəyə qoyulmuş irihəcmli sərmayələr, eləcə də əldə olunmuş uğurlu nəticələr ətrafında böyük, kiçik və orta biznes klasterinin yaradılması nəzərdən keçirilir.

İnanırıq ki, xidmət turizmi, əyləncə industriyası, nəqliyyat və ticarət logistikası və digər bu kimi klasterlər istiqamətində araşdırmalar həyata keçiriləcək. Bu, ixracın həm əmtəə tərkibinin, həm də coğrafiyasının şaxələnməsinə geniş imkanlar açır.

Möhtərəm cənab Prezident, həmçinin onu da qeyd etmək istəyirəm ki, sahibkarlığın kompetensiyalarının

gücləndirilməsi, o cümlədən xarici bazarlarda rəqabə-tədavamlı məhsuldar fəaliyyət göstərməsi üçün zəruri addımlar da planlaşdırırıq. Çünki təcrübə onu göstərir ki, bir çox hallarda keyfiyyətli mal və məhsula malik olduğumuz halda da xarici bazarlara çıxışda bəzən özəl sektorda bilik, bacarıq çatışmır və dövlət tərəfindən bununla bağlı zəruri dəstək mexanizmləri hazırlanıb təklif olunacaqdır.

Sizin xüsusi tapşırığınız kiçik və orta sahibkarlığın inkişafı ilə bağlıdır. Bunun yolunu biz qeyd etdiyimiz klasterlərin və dövlət mexanizmlərinin istifadə edilməsi ilə məhz kiçik və orta sahibkarlığın, xüsusi olaraq qadın və gənclər sahibkarlığının dəstəklənməsi alətlərində görürük. Həmçinin dövlətin Azərbaycanda böyük iqtisadiyyatda rolunu nəzərə alaraq, dövlət satın-almalarında fəal iştirakın təşviq olunması, bunun üçün satınalmanın şəffaflığının daha da artırılmasını qarşımızda əsas məqsəd və vəzifə kimi görürük.

2020-ci ilin Dövlət İnvestisiya Proqramı Sizin tərəfinizdən təsdiq olunub. Orada bizim əsas çağırışımız ondan ibarətdir ki, mövcud və başlanılmış layihələrin həcmi ilə əlimizdə olan resursların həcmini düzgün dəyərləndirərək, növbəti illər üçün dövlət sərmayələrinin səmərəliliyini artıraq. Amma yenə də başlıca vəzifə kimi nəzərə alsaq, müasir dünya daha müasir məhsulları ortaya çıxarmağı tələb edir. Bu da öz növbəsində, texnologiyalar tələb edir. Bu məsələlərin həllini xarici və yerli investorların, özəl investorların, bu texnologiyaya sahib olan investorların ölkəmizə cəlb edilməsində və

dövlətin orada daha çox dəstəkləyici rolunun təmin edilməsində görürük.

**İ l h a m  Ə l i y e v:** Dövlət İnvestisiya Proqramı ilə bağlı burada bir neçə məqsəd dayanır. İlk növbədə, başlanmış layihələr başa çatmalıdır. Çünki əvvəlki illərdə bir çox yarımçıq layihələr də qalırdı. Yarımçıq layihələr icra olunmadan biz yeni layihələrə başlayırdıq və beləliklə, gücümüz də səpələnirdi, maliyyə resurslarımız da imkan vermirdi ki, layihələri lazım olan həcmdə icra edək. Ona görə ilk növbədə, başlanmış layihələr başa çatmalıdır. İnfrastruktur layihələrinə gəldikdə, demək olar ki, əsas infrastruktur layihələri Azərbaycanda icra edilib. Düzdür, növbəti illərdə bu layihələrin icrasına ehtiyac vardır. Çünki bir daha qeyd etmək istəyirəm, əhalinin artımı bunu diktə edir. O ölkələrdəki əhali artmır, orada yeni infrastruktur layihələrinə də ehtiyac qalmır. Amma bizdə əhali artır, ona görə yeni məktəblər, uşaq bağçaları, xəstəxanalar, yol infrastrukturu, kommunikasiyalar – bütün bunlar daim diqqət tələb edir və bu, birinci vəzifədir. İkinci vəzifə ondan ibarətdir ki, investisiya proqramımız infrastruktur layihələrinin icrası ilə paralel olaraq, iqtisadiyyatın real sektoruna dəstək verməlidir. O cümlədən bu infrastruktur layihələrinin real sektora olan təsiri də bir növ təhlil edilməli və mənə məlumat təqdim edilməlidir. Misal üçün, yeni infrastruktur tutaq ki, bu və ya digər rayonda iqtisadiyyatın real sektoruna nə dərəcədə müsbət təsir göstərmişdir.

Dövlət İnvestisiya Proqramının digər xüsusiyyəti isə ondan ibarətdir ki, bu, iş yerləri yaradan və mövcud olan

iş yerlərini saxlayan bir prosesdir. Keçən il ölkəmizdə 98 min yeni iş yeri yaradılıb. Bu, böyük bir rəqəmdir. Ancaq yenə də deyirəm, əhali 100 min artıb və hər il 100 min nəfər artacaqdır. Əhali nə qədər çox artsa, növbəti illərdə illik artım da çoxalacaqdır. Biz indi bunu əhalisi sürətlə artan ölkələrin timsalında da görürük. Bu, böyük problemlər gətirir. Artan əhali böyük üstünlükdür, təbiidir və eyni zamanda, bizim iqtisadi siyasətimizin və ölkədə mövcud olan sabitliyin təzahürüdür. Ancaq eyni zamanda, bu özlüyündə böyük problemlər də ehtiva edir. Hazırda çox sürətlə artan ölkələrin problemləri təhlil edilməlidir. Bu, təkcə İqtisadiyyat Nazirliyinin işi deyil. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək resursları ilə bağlı, Kənd Təsərrüfatı Nazirliyi, digər aidiyyəti qurumlar, hesab edirəm ki, Nazirlər Kabineti bu məsələ ilə bağlı ciddi təhlil aparmalıdır və biz proqnozu bilməliyik. Resurslarımızı dəqiq müəyyən etməliyik. Bizim mövcud ərazimiz, əkin sahələrimiz, təbii resurslarımız bəllidir. Onların gələcəkdə dəyişməsi mümkün deyil. Ona görə bütün bunlar hesablanmalıdır ki, 20 ildən sonra, 30 ildən sonra hansı vəziyyətlə üzləşəcəyik.

Yenə də deyirəm, hazırda əhalisi sürətlə artan ölkələrin təcrübəsi dəqiq təhlil edilməlidir. Beynəlxalq maliyyə qurumları ilə birlikdə biz uzunmüddətli strategiyanı işləməliyik. Mən yenə də deyirəm, indi bizim vəsaitə ehtiyacımız yoxdur. Amma biz beynəlxalq maliyyə qurumları ilə ona görə sıx əməkdaşlıq edirik ki, onlarda böyük təcrübə vardır. Onlar dünyanın bütün yerlərində fəaliyyət göstərirlər. Bu problem təkcə bizim

problemimiz deyil. Düzdür, bu gün bu problem mövcud deyil. Əhali artmalıdır. Amma bir gün bu, problemə çevriləcək. Ona görə bizim iqtisadi artımımız artan əhaliyə uyğun olmalıdır.

İqtisadiyyatın real sektorunun inkişafında kənd təsərrüfatının xüsusi rolu vardır. Artıq mən burada qeyd etdim ki, növbəti dövrdə kənd təsərrüfatı emalına biz böyük diqqət göstərməliyik. Çünki bizim kənd təsərrüfatı istehsalımız artır. Bizim ənənəvi sahələrimiz inkişaf edir və bərpa olunur, yeni kənd təsərrüfatı sahələri fəaliyyətə başlayır. Burada kənd təsərrüfatının birbaşa sənaye ilə uzlaşması vardır. Misal üçün, keçən il meyvə-tərəvəz istehsalı xeyli artıbdır. Bizim kifayət qədər emal müəssisələrimiz olmalıdır. Onlar hazırda kifayət qədər deyil. O emal müəssisələri imkan vermir ki, biz öz meyvə-tərəvəzimizi daha böyük həcmdə emal edək və hazır məhsul kimi ixrac edək. Ona görə şirələr, kompotlar, konservlər, qurudulmuş meyvə – bütün bu sahələr gərək çox ciddi dəstək alsın, həm dövlət tərəfindən, həm də özəl sektor bu işlərə qoşulmalıdır. Özəl sektor onsuz da bu işləri görür, yəni öz vəsaiti hesabına bu işləri görməlidir.

Bizdə keçən il üzüm istehsalı kəskin artıb. Bunun da başlıca səbəbi bu sahəyə dövlət dəstəyinin olmasıdır. 25 faiz artıb və 190 min tondan çox üzüm yığılıbdır. Son illər ərzində bu, ən böyük rəqəmdir. Bunun şərabçılığa böyük təsiri olacaq və biz bunu görürük. Şərabçılıq da ixrac yönümlü məhsuldur. Yəni bazar olmadan biz şərabı sata bilməyəcəyik. Ona görə biz bəzi dost ölkələrlə bu istiqamətdə işlər aparmışıq. Bəzi ölkələrdə idxal

kvotaları var və biz bu kvotaları əldə etmişik. Bu gün Azərbaycan şərabı bir çox ölkələrdə satılır və bunun həcmi artmalıdır. Mən hesab edirəm ki, şərabçılıq üçün bazarlarla bağlı problem olmayacaq. Çünki ənənəvi bazarlar var və yeni, məsələn, Çin kimi böyük bazar var. Azərbaycan şərabları artıq ora da ixrac edilir.

Tütün istehsalı bizdə son illər ərzində artıbdır – dövlət dəstəyi hesabına qurutma kameraları, subsidiyalar, digər tədbirlər görülübdür. Keçən il Azərbaycanda böyük Siqaret fabriki açıldı. Yəni biz daxili tələbatı yerli istehsal hesabına təmin etməliyik, mövcud olan Siqaret fabriki yenidən qurulub. Bu da paradoksdur. Biz tütün istehsal edən ölkəyik, ancaq siqareti idxal edirik, o ölkələrdən ki, orada tütün bitmir. Onlar tütünü bizdən alır, emal edir, siqaret buraxır, bizə satır. Ona görə buna son qoyulmalıdır. Bu məsələ də diqqət mərkəzindədir.

Baramaçılıq bizdə, demək olar ki, tamamilə itirilmişdi, 2015-ci ildə cəmi 200 kiloqram barama yığılmışdı. Ancaq keçən il bu göstərici 630 ton oldu. «Şəki İpək» fəaliyyət göstərməyə başladı, orada yüzlərlə insan işləyir. İpəkçiliklə bağlı düşünülmüş konsepsiya olmalıdır. Pambıq istehsalı da keçən il rekord həddə çatıbdır – 294 min ton. Məhsuldarlıq 29,4 sentner, yəni 30 sentnerə yaxındır. Sovet dövründə cəmi 2, ya 3 il ərzində bu dərəcədə məhsuldarlıq olmuşdu. Bu da emal sənayesini dəstəkləyən sahədir. Artıq İplik fabrikləri var, ancaq İplik fabrikləri məhsulun cəmi 50 faizini emal edir.

Biz İplik fabriklərindən o tərəfə getmirik. Amma parça istehsal olunmalıdır – hazır məhsul. Bu məsələlərlə bağlı elektron kənd təsərrüfatı proqramı artıq nazirlik

tərəfindən icra edilir. Bu məsələ və subsidiyalarla bağlı məlumat verin.

**İ n a m  K ə r i m o v** (*Kənd Təsərrüfatı naziri):* Möhtərəm cənab Prezident, 2019-cu il Sizin tərəfinizdən aqrar sahədə həyata keçirilən islahatlar və görülmüş tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının əsaslı artımı ilə səciyyələnir. İslahatlarla bağlı, ilk növbədə, lizinq fəaliyyəti ilə bağlı həyata keçirilmiş islahat nəticəsində bazarda artıq azad və rəqabətli şərait formalaşıbdır. Belə ki, texnika və damazlıq heyvanlara tətbiq edilən güzəştlər bütün özəl şirkətlərə tətbiq edilir. Ötən il fermerlərə satılmış 4117 texnikanın təxminən 3000-i özəl şirkətlər tərəfindən fermerlərimizə satılıbdır. O cümlədən tapşırığınıza uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini fermerlərə yaxınlıq prinsipi əsasında qurub və bütün rayonlarda Dövlət Aqrar İnkişaf mərkəzləri artıq formalaşdırılıbdır. Bu mərkəzlərdə fermerlərimizə «bir pəncərə» prinsipinə uyğun 60-a yaxın xidmət göstərilir.

Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması tərəfinizdən tamamilə yeni qaydalar əsasında təsdiqlənibdir. Yeni subsidiya qaydalarının məqsədi bu sahədə ixrac potensialımızı möhkəmləndirmək və kənd təsərrüfatında məşğulluğu daha da artırmaqdır. Yeni subsidiyalar alternativsiz olaraq, elektron kənd təsərrüfatı sistemi üzərindən veriləcək və bu günə kimi elektron kənd təsərrüfatı sistemində 449 min fermer qeydiyyatdan keçibdir. Fermerlərimiz payızlıq bəyanlarını ediblər və hazırda gübrə, pestisid, toxum təchizatçıları qeydiyyatdan

keçməkdədir, o cümlədən heyvandarlıq sahəsində subsidiyanın verilməsi üçün heyvanların qeydiyyatı, eləcə də baytar həkimlərin və süni mayalanma ekspertlərinin qeydiyyatı həyata keçirilməkdədir. 2020-ci ildə Sizin tapşırığınıza əsasən elektron kənd təsərrüfatının tam tətbiqi başa çatdırılacaqdır.

Digər vacib tədbirlərdən biri kimi, Sizin tərəfinizdən «Aqrar sığorta haqqında» Qanun təsdiqlənib və Aqrar Sığorta Fondu artıq formalaşdırılıbdır. Bu il əsas hədəflərdən biri kənd təsərrüfatı sahəsində aqrar sığortanın tətbiqidir. Bunun üçün də ən vacib vasitələrdən biri olaraq, fermerlərimiz arasında geniş maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, qarşımıza qoyduğunuz vacib vəzifələrdən biri kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılmasıdır. Belə ki, diqqət yetirsək, bu il əkin balansının əsas hissəsini təşkil edən taxılçılıqda 3 milyon 538 min ton məhsul istehsal olunubdur ki, bu da ötən ilə nisbətən 6,9 faiz çoxdur. Buğdanın məhsuldarlığı təxminən 32,4 sentner təşkil edibdir, artım ötən ilə nisbətən təqribən 2 sentner çoxdur və yaxud 7,6 faizdir. Pambıqçılıqda ümumi məhsulun artımı 26,4 faiz olub, məhsuldarlıq isə 67,6 faiz artıbdır. Həmçinin günəbaxan istehsalı 43,3 faiz, kartof istehsalı 11,7 faiz, tərəvəz 12,17 faiz, bostan məhsulları 11,4 faiz və meyvə-tərəvəz istehsalı 8,8 faiz artıbdır. Sizin də qeyd etdiyiniz kimi, əsas artım sahələrindən biri üzümçülükdür. Heyvandarlıqla bağlı artıma gəlincə, ət diri çəkidə 3 faiz, süd 2,4 faiz, yumurta istehsalı 9 faiz, yun istehsalı 1,6 faiz, barama istehsalı isə 25,3 faiz artıbdır. Qarşımızda

qoyduğunuz əsas vəzifələrdən biri bu il bu sahədə mövcud resurslarımızdan istifadə etməklə, məhsuldarlığın daha da artırılması, mütərəqqi texnikanın və metodların tətbiq edilməsidir.

Möhtərəm cənab Prezident, 2020-ci ildə qarşımızda duran əsas vəzifələr fermerlərimizin toxum, gübrə və texnikaya əlçatanlığını daha da asanlaşdırmaq, bu sahədə müvafiq tədbirlər görmək, həmçinin aqrar sığortanın tətbiqi ilə bağlı müəyyən təşkilati tədbirləri icra etməkdir. Fermerlərimizin bu gün ən çox üzləşdikləri məsələlərdən biri də onların kiçikhəcmli kreditlərə çıxışını daha da asanlaşdırmaqdır. Bununla yanaşı, bu il Kənd Təsərrüfatı Nazirliyinin digər qurumlarla birgə çalışacağı əsas sahələr intensiv heyvandarlığın inkişafı, o cümlədən tütünçülüyün və pambıqçılığın məhsuldarlığının daha da artırılması və bizim əsas ixrac məhsullarımızı təşkil edən və gələcəkdə emal sənayesi ilə sıx bağlı olan meyvəçiliyin və tərəvəzçiliyin inkişafıdır. Burada intensiv meyvə bağlarının geniş yayılması əsas prioritet istiqamətlərimizdən biri olacaqdır. Qeyd etmək istəyirəm ki, subsidiya sahəsində həyata keçirilmiş tədbirlər gübrə bazarında da liberallaşma ilə nəticələnəcək və fermerlərimizin gübrəyə çıxışı daha da asanlaşacaqdır.

Aqrar sahədə, xüsusilə də mütərəqqi metodların, innovasiyaların tətbiqi sahəsində fermerlərimizin maarifləndirilməsi vacib istiqamətlərdən biridir. Ona görə də bu sahə fəaliyyətimizin əsas istiqamətlərini təşkil edəcəkdir. Sizin vurğuladığınız elektron kənd təsərrüfatının tətbiqi 2020-ci ilin sonuna qədər tam for-

malaşacaq. Bütün sahələrin elektron kənd təsərrüfatı vasitəsilə tənzimlənməsi nəzərdə tutulubdur.

Aqrar emal sənayesinin inkişafı ilə bağlı Sizin tapşırığınıza əsasən, hazırda İqtisadiyyat Nazirliyi ilə birgə iş aparılır və tezliklə təkliflər paketi Sizin diqqətinizə təqdim olunacaqdır.

**İ l h a m Ə l i y e v**: Keçən il, qeyd etdiyim kimi, vergi və gömrük orqanları plandan əlavə 1 milyard manat vəsait əldə ediblər. Bu çox gözəl göstəricidir. İndi Dövlət Gömrük Komitəsinin sədri görülmüş işlər barədə məlumat versin. Bu il hansı işlər nəzərdə tutulur?

**Səfər Mehdiyev** *(Dövlət Gömrük Komitəsinin sədri):* Möhtərəm cənab Prezident, məruzə etmək istərdim ki, 2019-cu il Komitə üzrə makrogöstəricilər baxımından uğurlu il olubdur. Belə ki, 2018-ci ilin ilkin proqnoz göstəriciləri ilə müqayisədə 2019-cu ildə gömrük ödənişlərindən faktiki olaraq 1 ëmilyard 970 milyon əlavə vəsait toplanaraq, dövlət büdcəsinə köçürülübdür. Cənab Prezident, Sizin bütün sahələrdə apardığınız uğurlu islahatların nəticəsi olaraq, gömrük sistemində də son 2 ildə aparılmış islahatlar sayəsində əvvəlki illərlə müqayisədə keçən il 1 milyard, bu il 2 milyarda yaxın vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin edilibdir. Bu da 2 dəfədən çoxdur.

2019-cu ilin büdcə proqnozu 3 milyard 702 milyon manat nəzərdə tutulmuşdu. Büdcənin icrası isə 4 milyard 408 milyon manat təşkil etmiş, dövlət büdcəsinə 706,6 milyon manat əlavə vəsait köçürülmüş və icraya 119,1

faiz əməl olunmuşdur. 2019-cu il ərzində vergitutma bazası əvvəlki illərlə müqayisədə eyni səviyyədə qalmışdır. Belə ki, idxal mallarına 50 faiz həcmində vergi imtiyazı verilib, ümumiyyətlə, güzəştlər tətbiq olunur. Azərbaycan Respublikasına idxal olunan mallara tətbiq edilən gömrük rüsumları üzrə azadolma həcmi 65 faiz, idxal olunan mallara tətbiq edilən əlavə dəyər vergisinin azadolma həcmi isə 35 faiz təşkil edibdir. Ümumilikdə bu kontekstdə gördüyümüz işlər nəticəsində «kölgə iqtisadiyyatı» ilə bağlı mübarizə və risklərin idarə edilməsi mərkəzi tərəfindən məlumatların əvvəlcədən sistemə ötürülməsi ilə şəffaflıq təmin olunub, xüsusilə də digər ixracatçı ölkələrdən məlumatların sistemə daxil olması ilə sahibkarların qiymət azaltma tendensiyası 2019-cu ildə azalıbdır. Bu sahədə aparılan ciddi nəzarət funksiyalarına baxmayaraq, yenə də 900 milyon dollara yaxın malın dəyərini aşağı salmağa cəhdlər edilmiş, bunun qarşısı alınmış və 300 milyondan artıq əlavə vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin edilmişdir.

Cənab Prezident, ticarətçilərin, xarici ticarət iştirakçılarının ən böyük uğurlarından biri də 2019-cu ildə «Yaşıl dəhliz»in tətbiqi ilə bağlı verdiyiniz fərmandır. Bu fərmanın icrasına fevralın 1-dən başlanılıb. 530-a yaxın xarici iqtisadi fəaliyyət iştirakçısına həm idxalda, həm ixracda bu status tanınıb və qısa müddətdə illik 8 milyard dollara yaxın ticarət dövriyyəsi həyata keçirilibdir. Bu layihə özlüyündə dünyada ilk olmaqla yanaşı, ən modern layihələrdən biri kimi qəbul olunur. Eyni zamanda, iki istiqamətdə sahibkarlar bundan məmnunluğunu bildirir. Birinci istiqamət sahibkarların on milyonlarla əlavə

vəsaitin gəlir olaraq kassalarında qalmasına yönəlibdir. Bu layihənin tətbiqi ilə sahibkarlar logistika və anbar xərclərindən azad olunur. Eyni zamanda, ikinci məsələ şəffaflığın tam təmin olunmasıdır. Qanuni ticarətlə məşğul olan sahibkarlar gömrük orqanlarına gəlmədən və heç bir gömrük məmuru ilə təmasa girmədən bütün əməliyyatlarını elektron şəkildə idarə edir və rəsmiləşdirməni başa çatdırırlar.

Cənab Prezident, elektron xidmətlərlə bağlı qeyd etmək istəyirəm ki, sahibkarlarımıza 4 milyondan artıq elektron xidmət göstərilib, bunun sayına və həcminə görə Komitənin xidmətləri ilk yerlərdə dayanır. Ümumiyyətlə, qaçaqmalçılıqla mübarizə sahəsində aparılan işlər 2019-cu ildə də böyük nəticələrin əldə edilməsinə səbəb olubdur. Qaçaqmalçılıqla bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə genişləndirilib və 13443 hüquqpozma faktı aşkar edilibdir. Onlardan 866-sı cinayət xarakterli faktlar olubdur ki, bunun da əksəriyyətini narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olanlar təşkil edir. Tərəfimizdən 2 tondan çox narkotik vasitə aşkarlanaraq, dövriyyədən çıxarılıbdır. 2019-cu ildə qaçaqmalçılıq yolu ilə gətirilərkən tutulan malların ümumi dəyəri 300 milyon dollardan artıq olubdur.

Cənab Prezident, Sizin yol infrastrukturu ilə bağlı tapşırıqlarınıza uyğun olaraq, yollarımızın yenidən tamamilə qurulması tranzit potensialımızın artmasını labüd edib və bu tendensiya ilə artıq son 2 ildə tranzit potensialımız əvvəlki illərlə müqayisədə 2 dəfədən çox artıbdır. Sərhəd keçid məntəqələrində sıxlığın aradan

qaldırılması məqsədilə Sizin müvafiq tapşırıqlarınıza uyğun olaraq, məntəqələr yeni avadanlıqlarla təchiz edilib. Həm tırların, həm də minik avtomobillərinin rahat keçidini təmin etmək məqsədilə yeni rentgen qurğuları quraşdırılır və bu işlər cari ildə də davam etdiriləcəkdir.

Eyni zamanda, məlumat üçün bildirmək istəyirəm ki, 2018-ci illə müqayisədə 2019-cu ildə 2 milyon daha çox vətəndaş giriş və çıxış həyata keçiribdir. Bunun, Siz qeyd etdiyiniz kimi, 3 milyon 170 minini xarici turistlər təşkil edib. Qalanları isə mütəmadi olaraq xarici ölkələrə gedib-gələn Azərbaycan vətəndaşlarıdır. Bu axının qarşılanması, onlara xüsusi xidmət göstərilməsi, həm insanların, həm də yüngül nəqliyyat vasitələrinin yoxlanılması üçün rentgen qurğuları alınıb. Sərhəddə sıxlığın aradan qaldırılması ilə bağlı artıq biz hökumətdə də müzakirələr aparmışıq. Sizin tapşırıqlarınıza uyğun olaraq, gələcəkdə həm ixracı və idxalı, həm də tranzit potensialımızı qarşılamaq məqsədilə istər qərb, istərsə də şimal istiqamətində yeni keçid məntəqələrinin tikilməsi işinə başlanılıb və bu işlər cari ildə də davam etdiriləcəkdir.

**İlham Əliyev:** Əminəm ki, bu il də gömrük sahəsində aparılan islahatlar davam etdiriləcək və bu bizə imkan verəcək ki, biz yenə də plandan əlavə vəsait toplayaq və büdcəmizə daxil edək. Gömrük keçid məntəqələri ilə bağlı verdiyim tapşırıqlar icra edilir. Çalışın ki, bizim bütün keçidlərimiz ən yüksək səviyyədə təmir edilsin. Çünki biz vaxtilə bütün keçid məntəqələrini yenidən qurmuşduq, amma artıq 10 ildən çox

vaxt keçib. Orada yeni avadanlıqların quraşdırılması, vətəndaşlar, maşınlar üçün daha rahat keçidin təmin edilməsi məsələlərinə də mütləq baxmaq lazımdır. Sərhəd Xidməti ilə birlikdə bu sahədə də maarifləndirmə işləri aparılmalıdır, həm vətəndaşlar, həm də sizin işçiləriniz arasında. Çünki hələ də bəzi hallarda şikayətlər daxil olur. Bəzi vətəndaşlar – həm yerli, həm xarici vətəndaşlar şikayət edirlər ki, kobudluq, hörmətsizlik göstərilir. Bu hallara yol vermək olmaz. Hər bir gömrük keçid məntəqəsi, hər bir hava limanı ölkəmizin giriş qapısıdır və hər gələn qonaq ilkin təəssüratı oradan əldə edir. Azərbaycan vətəndaşları da çox rahat keçməlidirlər, xarici qonaqlar da. Bizim sərhədlərimiz cinayətkarlar üçün, qaçaqmalçılar üçün bağlı olmalı, dostlarımız üçün açıq olmalıdır. Bu tarazlığı təmin etmək üçün daha da fəal işləmək lazımdır.

# QEYDLƏR

**1. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 5–6, 46.

**2. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 5,6.

**3. Tanzila Narbayeva** (d.1956) – Özbəkistanın dövlət və ictimai xadimi. 2016–2019-cu illərdə Baş Nazirin müavini olmuş, 2019-cu ildən isə Özbəkistan Ali Məclisi Senatının ilk qadın Sədridir. – 5–6.

**4. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu

bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq  edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına  yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur.

Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 82, 83, 88, 158, 159, 215, 218, 226.

**5. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 7–8, 100, 116, 122, 189, 190, 203–206,288.

**6. Mustafa Şəntop** (d.1968) – Türkiyə siyasətçisi. Hüquq elmləri doktoru. 2012–2015-ci illərdə AK Partiyasının sədr müavini, 2018–2019-cu illərdə TBMM-in spikeri olmuşdur. 2019-cu ildən isə TBMM-nin Sədridir. – 7–8.

7. **TANAP** – Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard m$^3$

qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə – Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir.

17 mart 2015-ci ildə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə Trans–Anadolu qaz boru kəmərinin təməlqoyma mərasimi Qarsda keçirilmişdir. – 7, 116, 117, 118, 205, 231, 232, 276, 277.

**8. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilmiş növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində isə yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 7, 116, 150, 204.

**9. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 9–10, 213.

**10. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın birinci Prezidenti – elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 9, 10.

**11. Nurlan Niqmatılin** (d.1962) – Qazaxıstanın dövlət və siyasi xadimi. Siyasi elmlər doktoru. 2016-cı ildən Qazaxıstanın Parlament Məclisinin Sədridir. – 9–10.

**12. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013– 2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 9, 213.

**13. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd,

1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu

rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 10, 14, 15, 16, 40, 45, 163, 171, 270.

**14. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan

KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 3–4.

**15. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 29, 254.

**16. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 29, 121, 122, 191.

**17. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – siyasətçi və hüquqşünas. 2002–2004-cü illərdə Azərbaycan Respublikası Prezidenti Administasiyasında məsləhətçi, 2004–2012-ci illərdə isə baş məsləhətçi vəzifələrində çalışmışdır.

2005–2012-ci illərdə Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın kabiti və Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunda Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuşdur.

2012–2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 33–40, 318–321.

**18.** «**Aqrolizinq**» – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. «Aqrolizinq» ASC-nin yaranma zamanı qarşısına qoyduğu əsas məqsədlər ölkədə kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılması, fermerlərə güzəştli şərtlərlə belə texnika və avadanlıqların verilməsidir. Sonradan Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə şirkətin funksiyaları daha da genişləndirilibdir. Təşki-

latın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 34.

**19. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 35.

**20. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 36 49, 287, 288.

**21. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva

şəhəridir. – 80–87, 122, 126, 141–143, 182–203, 207, 286, 287.

**22. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 80, 81, 82, 85–86, 142, 187, 198, 202.

**23. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin

sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 80–87, 105, 106, 107, 187, 198, 200, 231, 301.

**24. Vaqif Məmişov,** V a q i f İ m a m q u l u o ğ l u (d.1962) – «Konrad» şirkətlər qrupunun prezidenti, Rusiyanın Şimal-Qərb Federal dairəsi üzrə Ümumrusiya Azərbaycanlıları Konqresinin vitse-prezidenti, Sankt–Peterburqda Azərbaycan Milli Mədəni Muxtariyyətinin sədridir. Dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 16 mart 2006-cı il tarixli Sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 82–84.

**25. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiyası Federal

Şurasının, 2013-cü ildən isə MDB Parlamentlərarası Assambleya Şurasının Sədridir. – 82.

**26. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 86, 152, 197, 199.

**27. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 88, 158, 215.

**28. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi, eyni zamanda, dövlətlərarası iqtisadi və siyasi təşkilat. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Res-

publikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir.

Avropa İttifaqının əsas fəaliyyət prinsipləri Avropa İttifaqı institutu ilə milli dövlətlər arasında dəqiq səlahiyyət bölgüsü; milli və ümumi maraqlar arasında balans yaradan dövlətlərarası qurumların mövcudluğu; inteqrasiya proseslərinin ölkələrin ictimaiyyəti tərəfindən dəstəklənməsi kimi müddəalara əsaslanır. – 92, 93, 97, 99, 100, 101, 102, 193, 229, 231, 306.

**29**. **Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş Naziri, 2014–2019-cu illərdə Avropa İttifaqı Şurasının Prezidenti olmuşdur. – 92.

**30. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri ol-

masına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 92, 102, 103, 104, 151–157, 165, 195, 196, 228, 229.

**31. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. Bu layihə çərçivəsində hasil ediləcək təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə, İtaliyaya qədər boru kəmərləri vasitəsilə çatdırılacaqdır. – 96, 118, 188, 189, 205, 231, 232, 276.

**32. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti sərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihəsi. – 96, 97, 194.

**33. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur. 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında

F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 17 fakültəsi, 121 kafedrası, 37 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi vardır. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 65 ixtisas, magistr pilləsində 43 ixtisas və 210 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 98, 102

**34. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mə-

nafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 99, 106, 196.

**35.** «**Breksit**» **–** Böyük Britaniyanın Avropa İttifaqından çıxma prosesi. Avropa İttifaqından ayrılmaq hüququ Avropa İttifaqı Anlaşmasının 50-ci maddəsi ilə bütün üzv ölkələrə aiddir.

Bu məsələ ilə bağlı iki dəfə referendum keçirilmişdir. İkinci referendum 2016-cı ildə keçirildi və seçicilərin 52 faizi prosesi dəstəklədi. – 99.

**36. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional

demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 106, 228.

**37. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 106, 196, 228.

**38. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı

Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 106, 126, 228.

**39. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 106, 228.

**40. Aleksandr Soljenitsın** (1918–2008) – rus yazıçısı, dramaturq, filosof, şair, tarixçi, ictimai və siyasi xadim. Ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. «İlk çəmbər», «Rusiya gecələri», «QULAQ arxipelaqı», «Avqust 1914», «Məhkumlar», «Mart 1917» kimi əsərlərin müəllifidir. – 108.

**41. Molotov – Ribbentrop Paktı** (*Almaniya və SSRİ arasında hücumetməmə müqaviləsi)* – Müqavilə 1939-cu ildə Almaniyanın Xarici İşlər naziri Yoahim fon Ribbentrop və SSRİ-nin Xarici İşlər naziri Vyaçeslav Molotov tərəfindən imzalanmışdı. – 108.

**42. Adolf Hitler** (1889–1945) – Nasional-sosialist Partiyasının rəhbəri, alman-faşist dövlətinin başçısı. Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə özünə qəsd etmişdir. «Nürnberq» prosesində hərbi cani elan edilmişdir. – 108, 200.

**43. Vyaçeslav Molotov** (1890–1986) – SSRİ-nin siyasi və dövlət xadimi. 1930–1941-ci illərdə SSRİ Xalq Komissarları Sovetinin Sədri, 1939–1949,1953–1956-cı illərdə Xarici İşlər komissarı (naziri) olmuşdur. – 108, 202.

**44.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmışdır. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi

və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 116, 231.

**45.** «**Abşeron**» – Xəzər dənizinin Azərbaycan sektorunda zəngin qaz kondensat yatağı. Yataq «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşir. – 117.

**46.** «**Azəri–Çıraq–Günəşli**» **–** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir.

«Azəri–Çıraq–Günəşli»də hasilata 1997-ci ilin noyabr ayında başlanılmışdır. «Azəri–Çıraq–Günəşli» yatağında indiyədək 86 quyu qazılıbdır. – 117.

**47. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u **–** İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla,

Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 119.

**48. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir.

Dəmir yolu xətti Azərbaycanın paytaxtı Bakı şəhərindən Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərinə, ordan da Türkiyənin Qars şəhərinə qədər uzanır. Layihənin əsas məqsədi Türkiyə və Azərbaycanı dəmir yolu vasitəsilə birləşdirməkdir. – 119, 120, 190, 288.

**49. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 122.

**50. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 122.

**51. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsində yerləşir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 126.

**52. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxıdır. – 126.

**53. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 126.

**54. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında, iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə par-

tiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 138.

**55. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət 2 palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 140.

**56. Simonetta Sommaruqa** (d.1960) – İsveçrə siyasətçisi. 2020-ci il yanvarın 1-dən İsveçrə Konfederasiyasının Prezidentidir. – 140.

**57. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin baş mütəxəssisi vəzifəsində çalışıb. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin müdiri olmuş, Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini,

30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 144, 151, 300–306.

**58. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-in 4-cü enerji blokunda qəza baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radioaktiv çirklənməyə məruz qaldı. Hadisə nəticəsində AES-in 30 km-lik radiusda yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edilmişdir. – 152.

**59. İsrail,** İ s r a i l D ö v l ə t i – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 167–168.

**60. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 190, 191, 253.

**61. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 194, 195.

**62. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azər-

baycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 196, 197.

**63. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomat, tədqiqatçı, jurnalist, siyasi və ictimai xadimlər hazırlayır. – 198.

**64. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 200.

**65. Ruhsar Pekcan** (d.1958) – Türkiyə siyasətçisi, mühəndis-elektrik. 2018-ci ildən Türkiyə Cümhuriyyətinin Ticarət naziridir. – 182.

**66. Mikayıl Cabbarov,** M i k a y ı l Ç i n g i z o ğ l u (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2009–2013-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu idarəsinin rəisi, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 2019-cu il oktyabrın 23-dən İqtisadiyyat naziridir. – 203, 311–314.

**67. SOCAR,** A z ə r b a y c a n R e s p u b l i k a- s ı D ö v l ə t N e f t Ş i r k ə t i (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur.

1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 204, 205.

**68. Kuba,** Kuba Respublikası – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Ali orqanı birpalatalı Milli Assambleyadır. Dövlət başçısı Prezident, hökumət başçısı isə Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 214.

**69. Migel Diaz-Kanel Bermudes** (d.1960) – Kubanın dövlət və siyasi xadimi. 2019-cu il oktyabrın 10-dan Kuba Respublikasının Prezidentidir. – 214.

**70. Yaqub Eyyubov,** Yaqub Abdulla oğlu (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş Nazirin müavini, 2003-cü ildən Azərbaycan

Respublikası Baş Nazirinin birinci müavinidir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 216.

**71. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005–2019-cu illərdə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 219.

**72. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhər Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 225.

**73. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian dini bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış Günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişlər. 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 235.

**74. Azərbaycan Milli Xalça Muzeyi** – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 249.

**75. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid

alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 249.

**76. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 253.

**77. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 254.

**78. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbis-tanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 255–263.

**79. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki,

Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 255–263.

**80. «ACVA Pover» və «Masdar»** – enerji sektorunda, xüsusi ilə bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər. Bu şirkətlər Azərbaycanda külək və Günəş elektrik stansiyalarını inşa edəcəklər . – 255–263.

**81. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı Sultandır. Paytaxtı Məskət şəhəridir. – 264.

**82. Qabus bin Səid** (1940–2020) – Omanın görkəmli dövlət xadimi. 1970–2020-ci ilə qədər Omanın Sultanı olmuşdur. – 264.

**83. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 265.

**84. Sebastian Kurts** (d.1986) – Avstriyanın siyasi və dövlət xadimi. 2013–2017-ci illərdə Avstriyanın Xarici İşlər naziri, 2017–2019-cu il mayın 27-

dək və 2020-nin yanvarından Avstriyanın Federal Kansleridir. – 265.

**85. Xorvatiya,** X o r v a t i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 266.

**86. Zoran Milanoviç** (d.1966) – Xorvatiya siyasətçisi. 2011–2016-cı illərdə Xorvatiya Respublikasının Baş Naziri, 2019-cu ildən isə Prezidentidir. – 266.

**87. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir.

UNESKO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək etməkdir. UNESKO-nun fəa-

liyyətinin əsas istiqamətlərindən biri də tarixi mədəniyyət abidələrinin mühafizə edilməsidir.

Azərbaycan muğamının da bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada UNESKO-nun Dünya İrs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 270.

**88. Şəki Xan sarayı**– XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər «nəbati» ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. – 270.

**89. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-ində Mezolit, 4-ündə Neolit, 7-ində Tunc, 1-ində Antik və 5-ində orta əsrlər dövründə yaşayış olduğunu gös-

tərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 270.

**90. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 270.

**91. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır

və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 271, 300, 304, 308.

**92. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 279–283.

**93. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 280, 292.

**94. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr

2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 286–291.

**95. Mərkəzi Bank,** M i l l i  B a n k (AMB) – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 291–300.

**96. Elman Rüstəmov,** E l m a n  S i r a c  o ğ l u (d.1952) – iqtisadçı, iqtisad elmləri doktoru. 1995-ci ildən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 291–300.

**97. Səfər Mehdiyev,** S ə f ə r  M ə m m ə d  o ğ l u (d.1973) – Gömrük xidməti general-leytenantı. 2004–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, 2006-cı ildən isə Azərbaycan Respublikası Dövlət Gömrük

Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır. 2018-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədridir. – 322–325.

## Şəxsi adlar göstəricisi


**Allahverdiyev Elxan** – 225
**Abunayyan Məhəmməd** – 255–263
**Babayev Sahil** – 144, 151, 300–306
**Biqotskaya İnna** – 80
**Cabbarov Mikayıl** – 203, 311–314
**Cavadov Rəşad** – 180
**Culfayev Alaverdi** – 180
**Dik Corc** – 167–168
**Eminbəyli Yavuz** – 180
**Eyyubov Yaqub** – 216
**Əhmədov Vüqar** – 236–242
**Əhmədzadə Əhməd** – 50–56
**Əl-Ramahi Məhəmməd** – 255–263
**Əl-Səid bin Tariq** – 264
**Əliyev Heydər** – 10, 14, 15, 16, 40, 45, 163, 171, 270
**Əliyev Paşa** – 180
**Əliyeva Leyla** – 88, 158, 215
**Əliyeva Mehriban** – 5, 82, 83, 88, 158, 159, 215, 218, 226
**Ərdoğan Bilal** – 150

**Ərdoğan Rəcəb Tayyib** – 7, 116, 150, 204
**Əzizov Eldar** – 255
**Fərəcov Zakir** – 214
**Fransisk** *(Roma Papası)* – 126
**Hacıyev Ramiz** – 180
**Həsənov Emil** – 181
**Həsənov Rövşən** – 45–50
**Həsənov Tərlan** – 180
**Hətəmov Sevindik** – 57
**Hitler Adolf** – 108, 200
**İsayev Vidadi** – 63–68
**İsmayılov Nazim** – 70–72
**Kərimov İnam** – 33–40, 318–321
**Kirill** *(Moskva və bütün Rusiyanın patriarxı)* – 126
**Kurts Sebastian** – 265
**Qabus bin Səid** – 264
**Qriqoryev Yevgeni** – 80
**Quliyev Faiq** – 181
**Qurbanlı Asiman** – 181
**Quliyev Anar** – 243–252
**Qurbanov Cavid** – 219
**Matviyenko Valentina** – 82
**Mehdiyev Səfər** – 322–325
**Məhərrəmov İlham** – 155
**Məmişov Vaqif** – 82–84

**Milanoviç Zoran** – 266
**Məmmədov Mənsur** – 25
**Məmmədov Müstəqim** – 40–44
**Məmmədov Saleh** – 207–212
**Məmmədov Sahil** – 156
**Məmmədova Səbinə** – 180
**Mirziyoyev Şavkat** – 5,6
**Molotov Vyaçeslav** – 108, 202
**Mövludova Dilarə** – 156
**Mustafayev Şahin** – 286–291
**Narbayeva Tanzila** – 5–6
**Nazarbayev Nursultan** – 9, 10
**Nəbizadə Kamran** – 57–62
**Nəsimi İmadəddin** – 165
**Niqmatulin Nurlan** – 9–10
**Oreşkin Maksim** – 141–143
**Pekcan Ruhsar** – 182
**Putin Vladimir** – 80, 81, 82, 85–86, 142, 187, 198, 202
**Ruhani Həsən** – 253
**Rüstəmov Elman** – 291–300
**Rzayev Baba** – 221
**Sadıxov Ruslan** – 162
**Salahova Zərifə** – 181
**Soljenitsın Aleksandr** – 108
**Sommaruqa Simonetta** – 140

**Şəntop Mustafa** – 7–8
**Şərifov Samir** – 279–283
**Tokayev Kasım-Jomart** – 9
**Tusk Donald** – 92
**Zelenski Vladimir** – 254

## Coğrafi adlar göstəricisi

**«Ağ şəhər»** – 158–162
**Ağcabədi** – 24, 47
**Ağdam** – 35
**Ağsu** – 25, 32, 273
**Almaniya** – 200
**Almatı** – 213
**Amerika Birləşmiş Ştatları** – 19, 46, 95
**Aralıq dənizi** – 189
**Armavir** – 109
**Asiya** – 32, 227
**Astara** – 53
**Aşqabad** – 106, 109
**Avropa** – 32, 100, 227
**Avstriya** – 265
**Avstraliya** – 49
**Badamdar** – 221–224
**Beyləqan** – 24, 47
**Bərdə** – 24, 47, 63–68
**Biləsuvar** – 53
**Birləşmiş Ərəb Əmirlikləri** – 255–263
**Binəqədi** – 225–226

**Braziliya** – 49
**Brüssel** – 92
**Cəlilabad** – 53
**Cənubi Qafqaz** – 83, 105
**Çernobıl** – 152
**Çin** – 36, 49, 287, 288
**Dağlıq Qarabağ** – 92, 102, 103, 104, 151–157, 165, 195, 196, 228, 229
**Dehli** – 270
**Əfqanıstan** – 122
**Gəncə** – 247, 305
**Gəndov** – 208
**Giləzi** – 207, 208
**Gürcüstan** – 29, 121, 122, 191
**Hacıqabul** – 25
**Hindistan** – 46
**Xaçmaz** – 208
**Xəzər dənizi** – 186, 200
**Xorvatiya** – 266
**Xudat** – 208
**İmişli** – 47
**İran** – 190, 191, 253
**İrəvan** – 195
**İsmayıllı** – 32, 275
**İsrail** – 49, 167–168

**İsveçrə** – 140
**Kuba** – 214
**Qax** – 28
**Qara dəniz** – 120, 189
**Qazaxıstan** – 9–10, 213
**Quba** – 207
**Latın Amerikası** – 32, 227
**Leninqrad** *(RF-də vilayət)* – 80
**Ləmbəran** – 49
**Meksika** – 49
**Mərdəkan** – 305
**Mərkəzi Asiya** – 190
**Mərsin** – 190
**Mingəçevir** – 27, 247
**Moldova** – 29
**Moskva** – 16
**Neftçala** – 24
**Novorossiysk** – 120
**Oman** – 264
**Özbəkistan** – 5–6, 46
**Pirşağı** – 219–220
**Rio-de-Janeyro** – 270
**Rusiya** – 80–87, 122, 126, 141–143, 182–203, 207, 286, 287
**Saatlı** – 24, 70–72

**Sabirabad** – 24
**Sabunçu** – 219–220
**Salyan** – 24
**Sankt-Peterburq** – 80–87, 198
**Səudiyyə Ərəbistanı** – 255–263
**Sinqapur** – 270
**Sumqayıt** – 247
**Şabran** – 208
**Şamaxı** – 32, 275
**Şəki** – 270
**Şirvan** – 247
**Tehran** – 253
**Tərtər** – 24, 40–44
**Türkiyə** – 7–8, 100, 116, 122, 189, 190, 203–206, 288
**Türkmənistan** – 122
**Ucar** – 20, 25
**Ukrayna** – 29, 254
**Vaşinqton** – 270
**Vatikan** – 126
**Yaxın Şərq** – 32
**Yevlax** – 305
**Yunanıstan** – 116, 190

# MÜNDƏRİCAT

ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ TANZİLA NARBAYEVA İLƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il ..................................................................5*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MUSTAFA ŞƏNTOPUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2019-cu il ..................................................................7*

QAZAXISTAN RESPUBLİKASI PARLAMENT MƏCLİSİNİN SƏDRİ NURLAN NİQMATULİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2019-cu il ..................................................................9*

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNƏ

*19 dekabr 2019-cu il.................................................................11*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA PAMBIQÇILIQ MÖVSÜMÜNÜN YEKUNLARI VƏ 2020-ci İLDƏ GÖRÜLƏCƏK TƏDBİRLƏRLƏ BAĞLI MÜŞAVİRƏ

*19 dekabr 2019-cu il.................................................................13*

YEKUN NİTQİ

*19 dekabr 2019-cu il................................................................76*

RUSİYA FEDERASİYASINA SƏFƏR

*20 dekabr 2019-cu il................................................................80*

SANKT-PETERBURQDA FƏALİYYƏT
GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARIMIZIN
RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*20 dekabr 2019-cu il ...............................................................81*

MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ
GÖRÜŞÜNDƏ İŞTİRAK

*20 dekabr 2019-cu il ...............................................................85*

BƏLƏDİYYƏ SEÇKİLƏRİNDƏ İŞTİRAK

*23 dekabr 2019-cu il ...............................................................88*

İLİN YEKUNLARI İLƏ BAĞLI JURNALİSTLƏRƏ
MÜSAHİBƏ

*23 dekabr 2019-cu il ...............................................................89*

İSVEÇRƏ KONFEDERASİYASININ YENİ
SEÇİLMİŞ PREZİDENTİ XANIM SİMONETTA
SOMMARUQAYA

*24 dekabr 2019-cu il..............................................................140*

RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ, RUSİYA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 dekabr 2019-cu il...............................................................141*

BAKININ XƏZƏR RAYONUNDA YERLƏŞƏN 2 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2019-cu il...............................................................144*

DÜNYA ETNOİDMAN KONFEDERASİYASININ SƏDRİ BİLAL ƏRDOĞAN İLƏ GÖRÜŞ

*24 dekabr 2019-cu il...............................................................150*

BAKININ NİZAMİ RAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN İNŞA OLUNMUŞ YAŞAYIŞ BİNASINDA MƏNZİLLƏRİN VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ, ONLARA BƏRABƏR TUTULAN ŞƏXSLƏRƏ AVTOMOBİLLƏRİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*24 dekabr 2019-cu il...............................................................151*

BAKI «AĞ ŞƏHƏR»DƏ MƏRKƏZİ BULVAR KÜÇƏSİNİN AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2019-cu il...............................................................158*

DÜNYA AZƏRBAYCANLILARINA

*25 dekabr 2019-cu il*...............................................................*163*

İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏ
YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ
VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CORC DİK
İLƏ GÖRÜŞ

*25 dekabr 2019-cu il*...............................................................*167*

MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ
2019-cu İLİN YEKUNLARINA HƏSR ULUNMUŞ
İCLASDA İŞTİRAK

*25 dekabr 2019-cu il* ..............................................................*169*

TÜRKİYƏ RESPUBLİKASININ TİCARƏT NAZİRİ
XANIM RUHSAR PEKCAN İLƏ GÖRÜŞ

*26 dekabr 2019-cu il* ..............................................................*182*

BAKI–QUBA–RUSİYA FEDERASİYASI DÖVLƏT
SƏRHƏDİ YENİ AVTOMOBİL YOLUNUN
TİKİNTİSİ İLƏ TANIŞLIQ

*26 dekabr 2019-cu il* ..............................................................*186*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB KASIM-JOMART TOKAYEVƏ

*27 dekabr 2019-cu il*...............................................................*192*

KUBA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL
BERMUDESƏ

*27 dekabr 2019-cu il...............................................................193*

«ŞAHDAĞ» TURİZM MƏRKƏZİNDƏ
GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*27 dekabr 2019-cu il...............................................................194*

PAYTAXTIN SABUNÇU RAYONUNUN PİRŞAĞI
QƏSƏBƏSİNDƏ İNŞA EDİLMİŞ AVTOMOBİL
TUNELİNİN AÇILIŞI
MƏRASİMİ

*29 dekabr 2019-cu il ..............................................................198*

BADAMDAR QƏSƏBƏSİNDƏ «AZƏRENERJİ»
AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİDƏN
QURULMUŞ «MÜŞFİQ» VƏ «ZABRAT»
YARIMSTANSİYALARININ İSTİFADƏYƏ
VERİLMƏSİ MƏRASİMİ

*29 dekabr 2019-cu il ..............................................................200*

BİNƏQƏDİ RAYONUNDA SƏTTAR
BƏHLULZADƏ KÜÇƏSİ, ATATÜRK
VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN
KƏSİŞMƏSİNDƏ YERLƏŞƏN PARKDA
APARILAN YENİDƏN QURULMA İŞLƏRİ
İLƏ TANIŞLIQ

*30 dekabr 2019-cu il ..............................................................204*

RUSİYA FEDERASİYASININ «ROSSİYA-24» KANALINA MÜSAHİBƏ

*30 dekabr 2019cu il ..........................................................................206*

DÜNYA AZƏRBAYCANLILARININ HƏM-RƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2019-cu il ..........................................................................227*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*4 yanvar 2020-ci il ..........................................................................234*

«AZƏRİŞIQ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ TƏYİN OLUNMASI İLƏ ƏLAQƏDAR VÜQAR ƏHMƏDOV İLƏ GÖRÜŞ

*7 yanvar 2020-ci il ..........................................................................236*

DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ANAR QULİYEV İLƏ GÖRÜŞ

*8 yanvar 2020-ci il ..........................................................................243*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*8 yanvar 2020-ci il ..........................................................................253*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR ZELENSKİYƏ

*8 yanvar 2020-ci il ..........................................................................254*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI «ACVA POVER» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ MƏHƏMMƏD ABUNAYYAN VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «MASDAR» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU MƏHƏMMƏD JAMEEL ƏL- RAMAHİ İLƏ GÖRÜŞ

*9 yanvar 2020-ci il ..........................................................................255*

OMAN SULTANI ƏLAHƏZRƏT HEYTƏM BİN TARİQ ƏL-SƏİDƏ

*11 yanvar 2020-ci il ........................................................................264*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB SEBASTİAN KURTSA

*13 yanvar 2020-ci il ........................................................................265*

XORVATİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZORAN MİLANOVİÇƏ

*13 yanvar 2020-ci il ........................................................................266*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA 2019-cu İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

*13 yanvar 2020-ci il ........................................................................267*

QEYDLƏR ........................................................................................ *327*

*Şəxsi adlar göstəricisi* ............................................................................ *370*

*Coğrafi adlar göstəricisi* ......................................................................... *374*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,0. Uçot nəşr vərəqi 24,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.